

# QARABAĞ

REAL TARİX · FAKTLAR · SƏNƏDLƏR

REAL HISTORY · FACTS · DOCUMENTS

# GARABAGH

**Azərbaycan xalqının**
**ümummilli lideri**
**HEYDƏR ƏLİYEVİN**
**əziz xatirəsinə**

**In dear memory of the national leader of Azerbaijani people**
**HEYDAR ALIYEV**

*Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu Elmi Şurasının qərarına əsasən nəşr olunmuşdur*

*Published by the decision of the Academic Council of the Institute of History of the Azerbaijan National Academy of Sciences*

«TƏHSİL» NƏŞRİYYATI

YAQUB MAHMUDOV, KƏRİM ŞÜKÜROV

# QARABAĞ

## *Real tarix, faktlar, sənədlər*

***Bu kitab 2005-ci ildə Moskvada keçirilmiş MDB dövlətləri "Kitab Sənəti" II Beynəlxalq Müsabiqəsinin qalibi olmuşdur.***

«TƏHSİL» NƏŞRİYYATI
BAKI – 2005

YAGUB MAHMUDOV, KARIM SHUKUROV

# GARABAGH

## *Real history, facts, documents*

***This book is the winner of the II CIS "Art of the book" International competition held in Moscow in 2005.***

«TAHSIL» PUBLISHING HOUSE
BAKU – 2005



84.2 Az
Q 21

Baş məsləhətçi: *Eldar Əhməd oğlu Mahmudov*

Məsləhətçilər: *Ataxan Əvəz oğlu Paşayev*
*Fərhad Hüseyn oğlu Vahabov*

Naşir: *Bəhruz Həsən oğlu Axundov*

İngilis dilinə tərcümə edən: *Baylər İslamxan oğlu Hacıyev*

Q 21 **Yaqub Mikayıl oğlu Mahmudov, Kərim Kərəm oğlu Şükürov**
**Qarabağ: Real tarix, faktlar, sənədlər.** Bakı, «Təhsil», 2005. 380 səhifə.

Kitabda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixi yığcam şəkildə şərh olunur. Müəlliflər ilk mənbələrə əsaslanaraq əsərdə ən qədim zamanlardan yaşadığımız günlərədək Qarabağın tarixini bütöv halda əks etdirmişlər. Həmin mövzu ilə bağlı tarixi həqiqətləri bilmək istəyənlər üçün dəyərli mənbə olan bu kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**Müəllif hüquqları qorunur. Nəşriyyatın və müəlliflərin icazəsi olmadan bu kitabı və ya onun hər hansı bir hissəsini çap etdirmək, surətini çıxarmaq və yaymaq qadağandır!**

Senior Advisor: *Eldar Ahmad oghlu Mahmudov*

Advisors: *Atakhan Avaz oghlu Pashayev*
*Farhad Hussein oghlu Vahabov*

Publisher: *Bahruz Hasan oghlu Akhundov*

Translated into English by: *Baylar Islamkhan oghlu Hajiyev*

G 21 **Yagub Mikayil oghlu Mahmudov, Karim Karam oghlu Shukurov**
**Garabagh: Real history, facts, documents.** Baku, «Tahsil», 2005. 380 page.

This book briefly describes the history of Garabagh – an integral part of Azerbaijan. It is based on the original sources and is intended for the general public. The book reflects the entire history of Garabagh from ancient times to present and can be a research directory for those who want to become acquainted with this issue based on historical truths, established facts and documents.

**All rights reserved. No part of this book may be reproduced in any form or photocopied without permission of the authors and the publisher.**

Q $\frac{4702060204}{053}$ 2005

84.2 Az

ISBN 9952-423-00-4

© «TƏHSİL», 2005



## ÖN SÖZ

Yaşadığımız dövrdə insanlıq ənənəvi problemlərlə yanaşı, yeni – daha ağır bəla ilə üz-üzə qalmışdır. Bu bəlanın adı terrorizmdir. Terrorizm bu gün dünyanı narahat edən ən ağır problemə çevrilmişdir. Son illərin dəhşətli terror aktları göstərdi ki, bu bəla bütün ölkələr və xalqlar üçün, hətta ən böyük dövlətlərdən ötrü də eyni dərəcədə təhlükəlidir. Azərbaycanın bu bəlaya münasibəti birmənalı və qətidir: biz hər cür zorakılıq aktının – terrorun, soyqırımlarının, separatçı ekstremizmin, etnik toqquşmaların, haqsız qan tökülməsinin əleyhinəyik. Azərbaycan antiterror alyansına ilk qoşulan ölkələrdən biridir.

Terrorun, soyqırımlarının, separatçı ekstremizmin doğurduğu dəhşətli faciələr bizim xalqımıza yaxşı tanışdır. Azərbaycan xalqı terrora, soyqırımlarına, zorakı deportasiyalara ən çox məruz qalmış xalqlardan biridir. Artıq 200 ildir ki, xalqımız faciələrlə dolu bir tarix yaşayır. Bu qanlı tarix 19-cu əsrin əvvəllərində çar Rusiyasının erməniləri kütləvi surətdə İran və Türkiyədən bizim torpaqlarımıza köçürdüyü vaxtdan başlanmışdır.

Əsrlər boyunca Şimalla Cənubun, Şərqlə Qərbin qovuşuğunda müxtəlif sivilizasiyaların, etnosların, dillərin, dinlərin qarşılıqlı təsiri nəticəsində qədim və zəngin mədəniyyət yaratmış xalqımız özünəməxsus tolerantlıq, başqa xalqlara, mədəniyyətlərə dözümlülük, humanizm, mərhəmət ənənələrinə sadiq qalaraq gəlmə ermənilərə də öz torpaqlarında yer verdi. Ölkəmizdə ermənilərin sosial-iqtisadi və mədəni tərəqqisi üçün hər cür şərait yaradıldı.

Lakin çox keçmədən, «Böyük Ermənistan» xülyası ilə zəhərlənmiş erməni millətçi-terrorçu dairələri xarici havadarlarına arxalanaraq köçüb yaşadıqları Azərbaycan torpaqlarında özlərinə dövlət yaratmaq niyyətinə düşdülər. Köçürülüb gətirilmiş ermənilər üçün Azərbaycan torpaqlarında əvvəlcə «Erməni vilayəti» yaradıldı. Bunun ardınca xaricdən hər cür dəstək alan silahlı erməni terrorçu-quldur dəstələri Qərbi Azərbaycan torpaqlarını onun yerli sakinləri olan azərbaycanlılardan «təmizləməyə» başladılar. 1905-ci ildə Azərbaycan xalqına qarşı dəhşətli soyqırımı həyata keçirildi. Birinci Dünya müharibəsi illərində (1914–1918) böyük dövlətlərdən yardım alan erməni-daşnak silahlı dəstələri, qabaqcadan hazırlanmış plana uyğun olaraq, bütün Azərbaycan torpaqlarında yerli türk-müsəlman əhaliyə qarşı yenidən dəhşətli soyqırımları həyata keçirdilər. Yüz minlərlə azərbaycanlı, o cümlədən uşaqlar, qadınlar, qocalar məhv edildi. Saysız-hesabsız yaşayış məntəqələrimiz, tarixi abidələrimiz yerlə-yeksan olundu. Soyqırımlarından canını salamat qurtarmış soydaşlarımız bütün dünyaya səpələndilər.

Bütün bunlara baxmayaraq, mərhəmətli xalqımız yenə güzəştə getdi. Azərbaycan Xalq Cümhuriyyəti Cənubi Qafqazda əmin-amanlığa nail olmaq, erməni-daşnak terror dəstələrinin törətdikləri qanlı qırğınlara son qoymaq məqsədi ilə, 1918-ci il mayın 29-da keçmiş Azərbaycan dövlətinin – İrəvan xanlığının

## PREFACE

In the current period, humanity has faced a new, more painful evil along with the traditional problems. This evil is named terrorism. Today, terrorism has become the most difficult problem facing the entire world. The appalling acts of terror of recent years showed that this disaster is of the same degree of dangerousness for all the countries and peoples, even for the major powers. Azerbaijan has a straightforward and resolute attitude towards this evil: we are against any kind of violent acts – terror, genocide, separatist extremism, ethnic conflicts and unfair bloodshed. The Azerbaijan Republic is one of the first countries to join the anti-terrorist alliance.

Our people are well aware of the heart-breaking tragedies caused by terror, genocide and separatist extremism. The Azerbaijani people are one of the peoples having most suffered terror, genocide and forced deportations. Our people have been living a history full of tragedies for 200 years. This bloody history began at the beginning of the XIX century with the massive replacement by tsarist Russia of Armenians from Iran and Turkey to our lands.

Our people, who created an ancient and rich culture for centuries due to mutual impact of different civilizations, nations, languages and religions at the juncture of North and South, East and West, adhered to the traditions of its specific tolerance, forbearance, humanism and mercy in regard other peoples and cultures, and provided a place for the immigrant Armenians also. Every condition was created for the socioeconomic and cultural progress of the Armenians in our country.

However, soon the Armenian chauvinist-terrorist circles poisoned with the illusion of "Great Armenia" wanted to create their own state in the Azerbaijan lands, where they had moved and lived, relying on their foreign supporters. Firstly, the "Armenian district" was created for the removed Armenians in Azerbaijan territories. This was followed by "clearance" of the West Azerbaijan lands from the local residents of these lands, Azerbaijanis, by the armed Armenian terrorist-bandit groups provided with all kinds of support from abroad. In 1905, a horrible genocide was committed against Azerbaijani people. During the First World War (1914–1918), the Armenian–Dashnak armed groups receiving assistance from bigger states again implemented terrible genocide against the local Turkish–Moslem population throughout Azerbaijan in accordance with a plan prepared in advance. Hundreds of thousands of Azerbaijanis, including the children, women and the old were killed. Our numerous settlements and historical monuments were razed to the ground. Our compatriots having survived the genocides scattered about the entire world.

Despite of all these, our merciful people made a new compromise. In order to achieve peace in the Southern Caucasus and put an end to the bloody massacres committed by the Armenian–Dashnak terrorist groups, the Azerbaijan Peoples Republic in 29 May 1918 conceded the city of Iravan, which

paytaxtı olmuş İrəvan şəhərini ermənilərə güzəştə getdi. Beləliklə, 1918-ci ildə Azərbaycan torpaqlarında – keçmiş İrəvan xanlığının ərazisində Ermənistan Respublikası yaradıldı. Bununla, faktiki olaraq, Azərbaycan torpaqlarında İrəvan şəhərini və onun ətraflarını əhatə edən erməni dövləti yaradılmış oldu.

Lakin erməni millətçi-ekstremist dairələri bununla da kifayətlənmədilər. Onlar sovet-bolşevik rejiminin havadarlığından istifadə edərək, Qərbi Azərbaycanın azərbaycanlı əhalisinə qarşı yenidən və dəfələrlə dəhşətli soyqırımları, deportasiyalar həyata keçirdilər. 1988-ci ildə Qərbi Azərbaycanda etnik təmizləmə başa çatdırıldı. Bu gün, bir zamanlar əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar olan və tarixən azərbaycanlılara məxsus olan Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikasında) artıq azərbaycanlılar yaşamır.

Dünyamızın qloballaşma və inteqrasiya şəraitində qarşılıqlı anlaşmaya, dostluğa, qlobal sabitliyə və əmin-amanlığa doğru irəlilədiyi müasir şəraitdə Ermənistan və onun müdafiə etdiyi erməni separatçı-terrorçu dairələri Cənubi Qafqazda yeni gərginlik ocağı yaratdılar. Sovet İttifaqının dağıldığı dövrdə yaranmış şəraitdən istifadə edən Ermənistan Azərbaycana qarşı elan olunmamış müharibəyə başladı. Erməni silahlı qüvvələri ölkəmizin içərilərinə soxularaq, Dağlıq Qarabağ və onun ətrafındakı rayonlar daxil olmaqla, Azərbaycan ərazisinin 20 faizindən çoxunu işğal etdilər. Bir milyondan çox azərbaycanlı öz vətənində doğma yurd-yuvalarından didərgin düşdü və məcburi qaçqına, köçkünə çevrildi. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarında «Dağlıq Qarabağ respublikası» adlanan tanınmamış separatçı-terrorçu rejim yaratdı. Azərbaycanın nəzarətindən kənarda qalmış bu terrorçu rejimin ərazisi hazırda narkotik bitkilərin becərildiyi, narkotik maddələrin Avropaya ötürüldüyü, çirkli pulların yuyulduğu və digər qeyri-leqal əməliyyatların həyata keçirildiyi beynəlxalq cinayət yuvasına çevrilmişdir.

Dünya birliyinə daxil olan ölkələrin ərazi bütövlüyünün toxunulmazlığı haqqında beynəlxalq qanunlara, Birləşmiş Millətlər Təşkilatının bu münaqişə barədə müvafiq qətnamələrinə, Avropa Şurası Parlament Assambleyasının, habelə digər beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, Ermənistan öz hərbi qüvvələrini işğal etdiyi Azərbaycan torpaqlarından çıxarmır. Əksinə, işğal etdiyi torpaqların guya tarixən onun özünə məxsus olması barədə saxta informasiyalar yayır. Hətta Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürməkdən də çəkinmir.

Düşünürəm ki, oxuculara təqdim olunan bu kitab Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə tanış olmaq istəyən hər kəsdə həm bu problemin tarixi kökləri, həm də Qarabağın əsl tarixi barədə real təsəvvür yaradacaqdır. Ən qədim zamanlardan yaşadığımız günlərədək Qarabağın yığcam tarixini əhatə edən «Qarabağ» kitabı təkzibolunmaz arxiv sənədlərinə və digər ilk mənbələrə əsaslanan real tarixdir. Bu tarix uydurmaların deyil, həqiqətin tarixidir. Kitaba əlavə olunan arxiv sənədləri, xəritələr, fotomateriallar əsərin dəyərini daha da artırır. «Qarabağ» kitabı yaşadığımız dünyada terrorun insanlıq üçün nə qədər böyük fəlakət olduğuna diqqəti cəlb edir və bütün insanları bu ümumi bəlaya qarşı birləşməyə, fəal mübarizə aparmağa çağırır. İnanıram ki, xoş məramla yazılan bu əsər onu oxuyanlarda terrora, soyqırımlarına, separatçı ekstremizmə, ümumiyyətlə, hər cür zorakılığa, vəhşilik aktlarına və onu törədənlərə nifrəti daha da artıracaq, humanizm, mərhəmət və dostluq ideallarının şər üzərində qələbə ümidini gücləndirəcəkdir.

**Xanım Mehriban ƏLİYEVA,**

*YUNESKO-nun xoşməramlı səfiri*

had been the capital of a former Azerbaijan state – the Iravan khanate. Thus, in 1918, the Republic of Armenia was created in Azerbaijan lands – in the territory of the former Iravan khanate. This meant actually the creation of an Armenian state in the Azerbaijan lands, which contained the territory of Iravan city and its suburbs.

Yet, the Armenian chauvinist-extremist circles were not satisfied with this either. They made use of their supporters in the Soviet–Bolshevik regime and realized over again terrible genocide and deportations against the entire Azerbaijani population of the West Azerbaijan. In 1988, the ethnic clearance in West Azerbaijan was completed. Today, Azerbaijanis do *not live in the West Azerbaijan (presently, the Republic of* Armenia) that was once populated mostly by Azerbaijanis and belonged to Azerbaijanis historically.

In the modern circumstances, when our world moves toward mutual understanding, friendship, global stability and tranquility in relation to globalization and integration, Armenia and the Armenian separatist-terrorist circles supported by it have created a new center of tension in the South Caucasus. Armenia made use of the circumstances that emerged in the period when the Soviet Union collapsed and began an undeclared war against Azerbaijan. Armenian armed forces attacking our lands occupied more than 20 percent of the Azerbaijan territory, including Daghlig Garabagh and the adjacent regions. Over one million Azerbaijanis became displaced from their own places in their own motherland thus becoming internally displaced persons and refugees. Armenia created a separatist-terrorist regime in the occupied Azerbaijan lands named as "Daghlig Garabagh Republic", which is not recognized in the world. The territory of this uncontrolled terrorist regime has presently turned into an international den of criminality, where narcotics are cultivated and transited to Europe, money laundering and other illicit operations are realized.

Notwithstanding the international law on inviolability of *territorial integrity of the world community countries*, the relevant United Nations Organization's resolutions concerning this conflict, European Council Parliamentary Assembly's, as well as other international organizations' resolutions, Armenia does not withdraw its military forces from the occupied Azerbaijan territories. On the contrary, it spreads false information about the occupied territories saying ostensibly they are its historical lands. It does not even refrain from putting new territorial claims against Azerbaijan.

I think that this book introduced to the readers will create a real picture about both the historical roots of this problem and the real history of Garabagh in everybody who wants to become acquainted with the Armenia–Azerbaijan, Daghlig Garabagh conflict. The book, titled "Garabagh", which covers the brief history of Garabagh from ancient times up to the present, is a real history based on irrefutable archive documents and other original sources. This history is not the history of inventions, but of the truth. The archive documents, maps and photo-materials added to the book increase the book's value even more. Based on real facts, the book "Garabagh" draws attention to how big a tragedy terror is for humanity in the current world and calls all the people to unite and fight actively against this common evil. I believe that this book is written with good intentions and will increase the readers' hate to terror, genocide, separatist extremism, in general, acts of all kinds of violence and savagery, as well as to those who commit these evils. This book will strengthen in people the hope of victory of humanism, charity and friendship ideals over evil.

**Mrs. Mehriban ALIYEVA,**

*UNESCO Goodwill Ambassador*










## 1. QARABAĞ: ETİMOLOGİYASI, ƏRAZİSİ VƏ SƏRHƏDLƏRİ

Qarabağ Azərbaycanın ən qədim tarixi vilayətlərindən biridir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın adı Azərbaycan dilindəki «qara» və «bağ» sözlərindən əmələ gəlmişdir. «Qara» və «bağ» sözlərinin birləşməsi Azərbaycan xalqının özü qədər qədim tarixə malikdir. Dünyanın hər yerində bu sözlərin birləşməsinin Azərbaycanın konkret ərazisinə aid edilməsi də danılmaz həqiqətdir. Azərbaycan xalqının öz doğma torpağının bir parçasına verdiyi «Qarabağ» adı ilk mənbələrdə hələ 1300 il bundan əvvəl (VII əsrdə!) işlənmişdir.[1] Qarabağ əvvəllər bir tarixi-coğrafi anlayış kimi konkret məkanı bildirmiş, sonra isə Azərbaycanın geniş coğrafi ərazisinə aid edilmişdir. Yeri gəlmişkən, bu hal Azərbaycan üçün xarakterikdir: **Naxçıvan** şəhəri–**Naxçıvan bölgəsi**, **Şəki** şəhəri–**Şəki bölgəsi**, **Gəncə** şəhəri–**Gəncə bölgəsi**, **Lənkəran** şəhəri–**Lənkəran bölgəsi** və i.a.[2]

«Qarabağ»ın Azərbaycanın konkret bir vilayətinin, bir bölgəsinin adı kimi formalaşması tarixi onun etimologiyasının daha elmi şəkildə izahına imkan verir. Çünki Azərbaycan dilində (həmçinin başqa türk dillərində) **«qara»**nın rəngdən başqa **«sıx»**, **«qalın»**, **«böyük»**, **«tünd»** və başqa mənaları da vardır.[3] Bu baxımdan, **«Qarabağ»** termini **«qara bağ»**, yəni **«böyük bağ»**, **«sıx bağ»**, **«qalın bağ»**, **«səfalı bağ»** və s. mənası kəsb edir.[4] Beləliklə, **Qarabağın** özü kimi **«Qarabağ»** sözü də Azərbaycan xalqına məxsusdur.

Qarabağdan bəhs edərkən qarşıya əvvəl belə bir sual çıxır: Qarabağ haradır, Azərbaycanın hansı ərazilərini əhatə edir? Bu sualın cavabı bu gün daha aktualdır və erməni separatçıları tərəfindən törədilmiş «Dağlıq Qarabağ problemi»nin dərk edilməsi üçün mühüm əhəmiyyətə malikdir. Qoyulmuş suala cavab üçün ilk mənbəyə müraciət edək. Vaxtı ilə bu ərazini əhatə edən Azərbaycan dövlətinin – Qarabağ xanlığının vəziri olmuş ***Mirzə Camal Cavanşir**** özünün «Qarabağ tarixi» (1847) əsərində bu məsələdən bəhs edərkən yazırdı: «***Qədim tarix kitablarının yazdığına görə*** (kursiv bizimdir–*Y.M.,K.Ş.*) Qarabağ vilayətinin sərhədləri belədir: ***cənub tərəfdən*** Xudafərin körpüsündən Sınıq körpüyə qədər–Araz çayıdır. İndi (Sınıq körpü) Qazax, Şəmşəddil və Dəmirçi–Həsənli camaatı arasındadır və Rusiya dövləti məmurları onu rus istilahı ilə Krasnı most, yəni Qızıl körpü adlandırırlar. ***Şərq tərəfdən*** Kür çayıdır ki, Cavad kəndində Araz

* *Mirzə Camal Cavanşir (1775–1853) – əslən Qarabağdan olan məşhur* Azərbaycan tarixçisi, «Qarabağnamə» müəlliflərindən biri

## 1. GARABAGH: ETYMOLOGY, TERRITORY AND FRONTIERS

Garabagh is one of the ancient historic provinces of Azerbaijan. Being an integral part of Azerbaijan, the name Garabagh is derived from the combination of two words in the Azerbaijani language, "qara" (big) and "bağ" (garden). The combination of words "big" and "garden" has the deepest historical background as it goes with the Azerbaijani people itself. It is incontestable that such a combination of words is linked to the description of the country of Azerbaijan in every corner of the world. Having named "Garabagh" as a part of its native lands by the Azerbaijani people, this name has been used as a historical and geographical term beginning with initial sources 1300 years ago (from the VII century!)[1]. Previously Garabagh denominated a specific place, subsequently it encompassed a vast geographical territory in Azerbaijan. This case is specific to Azerbaijan: city of **Nakhchivan – region of Nakhchivan,** city of **Shaki – region of Shaki,** city of **Ganja – region of Ganja,** city of **Lankaran – region of Lankaran** etc.[2]

The historical formation of the word "Garabagh" as the name of a specific Azerbaijani province or region enables us to substantiate scientifically its etymology. There is a reason for such a deduction because the word "qara" (black) in the Azerbaijani language (as in other Turkic languages also) means not only a color, but also has other meanings such as **"dense"**, **"thick"**, **"big"**, **"dark"** etc.[3] In this regard, the name of **"Garabagh"** enjoys the following meanings: **"black garden"** i.e. **"big garden"**, **"dense garden"**, **"giant garden"** or **"scenic garden"** etc.[4] So, the word "Garabagh" belongs to the Azerbaijani people as it goes with **Garabagh** itself.

As we are trying to describe Garabagh, such a question arises from the above: where is Garabagh located and which Azerbaijani territories does it cover? An answer to this question is very topical for the time being and has a central importance to understanding "the Daghlig Garabagh* problem". First, we have to address the very first sources in order to get an answer. While describing this issue in his "History of Garabagh" (1847), ***Mirza Jamal Javanshir*****, vezir of the Garabagh khanate – a part of the Azerbaijani State, has written the following: ***"As it is written in the ancient historical books,*** (It is italicized by us – *Y.M., K.Sh.*) the frontiers of the Garabagh province are as follows: ***the southern frontier*** begins from Khudafarin bridge and goes till the Synyg bridge – the Araz (Araxes) River. Currently, (the Synyg Bridge) is located between the districts of Gazakh, Shamshaddil and Damirchi-Hassanly, and the officials of the Russian State call it in Russian the Krasny Most which means Red Bridge. ***The eastern frontier*** lies across the Kur River and merges with the Araz (Araxes) River near Javad village and then falls to

* Daghlig Garabagh is an Azerbaijani word. In the international mass media it is used as: Nagorno-Karabakh. The word Nagorno in Russian means mountainous. Further we will use the term Daghlig Garabagh
** Mirza Jamal Javanshir (1775–1853) – famous Azerbaijani historian. One of the authors of "the Garabaghnamer"









Azərbaycanın dünya əhəmiyyətli tarixi abidəsi olan Azıx mağara-düşərgəsindən (paleolit dövrü) tapılan Azıxantropun (Azıx adamı) çənə sümüyü və əmək alətləri. Azıx mağarası hazırda ermənilər tərəfindən işğal edilmiş Füzuli rayonu ərazisindədir.

The jaw bone of Azykhanthropus (Azykh man), as well as the labour instruments found in the historical monument of world importance, the Azykh cave-camp (Palaeolithic period) of Azerbaijan. It is presently in the territory of the Fizuli region in Azerbaijan occupied by Armenians.



çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. ***Şimal tərəfdən*** Qarabağın Yelizavetpolla sərhədi Kür çayına qədər–Goran çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatır. ***Qərb tərəfdən*** Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır».[5]

Rusiya işğalı və müstəmləkəçiliyinin ilk dövründə Qarabağın ərazisi və sərhədlərinin belə dəqiq təsvir edilməsi onunla izah olunur ki, 1) bu faktı bilavasitə Qarabağın idarəsilə məşğul olan dövlət adamı yazır, başqa sözlə, həmin fakt rəsmi sənədlərə əsaslanan rəsmi sözdür, Rusiyanın xidmətində olan dövlət adamının rəsmi sözüdür; 2) digər tərəfdən, bu fakt yalnız reallığa, təcrübəyə əsaslanmaqla qalmayıb, ilk mənbələrlə də sübut olunur. Mirzə Camalın mövqeyinin doğruluğunu göstərmək üçün ***qədim tarix kitablarına istinad etməsi*** təsadüfi deyil. Göründüyü kimi, siyasi-coğrafi məkan olaraq, tarixdə həmişə **«Dağlıq Qarabağ»** deyil, bütöv halda, yəni Qarabağın bütün ərazisini – dağlarını, düzənlərini əhatə edən ümumi bir **«Qarabağ»** anlayışı olmuşdur. Başqa sözlə, «Dağlıq Qarabağ» anlayışı çox sonraların «məhsuludur», separatçılıq niyyəti ilə Qarabağın bir hissəsinə verilmiş addır. Adicə məntiq də bunu sübut edir: **əgər Dağlıq Qarabağ varsa, deməli, düzən və ya aran Qarabağ da var!** Reallıq da belədir: bu gün Azərbaycanda həm **Dağlıq Qarabağ** var, həm də **Aran Qarabağ** (yəni **düzən Qarabağ**)! Özü də həm **düzən (aran)**, həm də **dağlıq** Qarabağ həmişə, bütün tarixi dövrlərdə bir xalqın – Azərbaycan xalqının vətəni olmuşdur, dilində **«qara»** və **«bağ»** sözləri olan xalqın! Azərbaycan xalqının yüzlərlə ən qədim, ən nadir folklor nümunələri, musiqi inciləri məhz Qarabağda yaranmışdır, Qarabağla bağlıdır.

## 2. QARABAĞ ƏN QƏDİM ZAMANLARDAN XANLIQLAR DÖVRÜNƏDƏK

### 2.1. Ərəb xilafətinədək

Qarabağ təkcə Azərbaycanın deyil, ümumiyyətlə, dünyanın da ən qədim tarixə malik olan diyarlarındandır. Bu ərazidəki Azıx mağarasında ən qədim insanların yaşayış məskəni aşkar edilmişdir. Bu yaşayış məskəni Azərbaycanın, o cümlədən Qarabağın, Aralıq dənizi hövzəsi və Şərqi Afrika ilə birlikdə insanlığın ilk vətənlərindən biri olduğunu sübut edir. Azıx mağarasının tədqiqatçısı, Azərbaycan alimi M.Hüseynov yazırdı: «Azıxda öyrənilmiş çay daşı alətləri mədəniyyətləri, Şərqi Afrikanın Olduvay mədəniyyəti* kompleksi ilə yaxınlıq təşkil edir. Eyni zamanda, alətlərin

* Olduvay (Oldoway) – Şimali Tanzaniyada dərə. Arxeoloqlar buradan 2 mln. il yaşı olan qədim insan qalığı tapmışlar.

the Caspian Sea. ***On the northern frontier,*** the boundary of Garabagh with Yelizavetpol (Ganja) is defined by the Goran River as it crosses with the Kur River and then, the Kur River bypasses many places and joins the Araz (Araxes) River. ***The western frontier*** is formed by the high Garabagh Mountains called Kushbak, Salvarty and Arikly."[5]

This was written during the first days after the Russian occupation and colonization, and such an exact description of the Garabagh territory and frontiers can be explained by the following reasons: 1) on the one hand, this fact is written by a statesman who was dealing directly with the governance of Garabagh; in other words, this fact is an official description based upon official documents; those are the words told by a statesman serving the interests of Russia; 2) on the other hand, this fact is not only based upon the reality and experience, but proved by the original sources. It is not by accident that Mirza Jamal ***refers to the ancient historical books*** in order to prove his just vision of the issue. As it is seen, there was in history the whole notion of the name **"Garabagh"**, rather than **"Daghlig (Mountainous) Garabagh"**, the geographical entity of all times covering the entire territory of Garabagh – its mountains and plains. In other words, the notion of "Daghlig Garabagh" is a kind of "byproduct" and a name applied to one part of Garabagh in accordance with separatist dreams. Simple logic proves it: **if there is Daghlig (mountainous) Garabagh, so it derives to say that there is also the plain Garabagh!** The incontestable reality is: today there is **Daghlig (mountainous) Garabagh** and also **Aran (plain) Garabagh** in Azerbaijan! Either **plain** Garabagh, or **mountainous** Garabagh, were in historical times the motherland and cradle of the Azerbaijani people, which definitely called this region **"qara" (big)** and **"bagh" (garden)!** Hundreds of ancient and the most extraordinary folkloric arts and pearls of music of the Azerbaijani people were especially created in Garabagh, they are linked to Garabagh.

## 2. GARABAGH FROM THE ANCIENT TIMES TO THE KHANATES PERIOD

### 2.1. Up to the Arabian caliphate

Garabagh is not only a region of Azerbaijan, it is one of the regions of the world that has an ancient history. The ancient settlements of homo sapiens were revealed in the cave of Azykh, which is also located in these territories. This settlement of human beings proves that Garabagh is one of the cradles of civilization that emerged in the region from the Mediterranean basin and Eastern Africa. The Azerbaijani scientist M.Huseynov, who studied the Azykh cave, has written: "The stony implements studied in the Azykh cave and the cultural creations show its proximity with the cultural complex Oldoway* in Eastern Africa. At

* Oldoway – Canyon in Nothern Tanzania. The archaeologists found here the remains of two million year old human being.



Xocalı-Gədəbəy mədəniyyəti abidələri. Son tunc - ilk dəmir dövrü (e.ə. XIII - VII əsrlər).





Khojaly-Gadabay cultural monuments. The Last Bronze - Early Iron Ages (XIII-VII c. BC).

hazırlanmasında fərqli cəhətlər də vardır ki, bu da, Azıxın alt təbəqələrindən aşkar olunmuş əmək alətlərini *Quruçay mədəniyyəti* (kursiv bizimdir – *Y.M., K.Ş.*) adlandırmaq imkanı vermişdir... ***Quruçay mədəniyyətinin yaşı isə 1 milyon 200 min ildən də qədimlərə aid edilə bilər».***[6]

1968-ci ildə Azıx mağarasının **aşöl*** təbəqəsindən **Azıx adamı** – ***azıxantrop*** adlandırılan insanın çənə sümüyü tapılmışdır. Azıx adamının 350–400 min il əvvəl yaşadığı güman olunur. Qarabağda **Mustye**** **mədəniyyəti** daha çox Tağlar mağarası ilə təmsil olunmuşdur.[7] Qarabağın arxeoloji cəhətdən öyrənilməsinin davam etdirilməsi burada daş dövrünün **mezolit** və **eneolit** dövrlərinin də geniş inkişaf etmiş olduğunu müəyyənləşdirə bilər. **Eneolit** (e.ə.VI–IV minilliklər), **tunc** və **ilk dəmir** dövrlərində (e.ə. IV minilliyin sonu – I minilliyin əvvəli) Qarabağın həyatında böyük dəyişikliklər baş vermişdi.[8] Son tunc və ilk dəmir dövrü (e.ə. XIII–VII əsrlər) **Xocalı-Gədəbəy mədəniyyəti** adı almışdır. Bu dövrə aid Xocalı qəbiristanlığı arxeoloji abidəsindən üstündə Aşşur (Assuriya)*** hökmdarı Adadnirariyə aid mixi yazı olan **əqiq muncuq** tapılmışdır. Bu və digər tapıntılar bölgənin Yaxın Şərqlə iqtisadi və mədəni əlaqələrini təsdiq edir.[9]

Təsərrüfat və mədəni həyatın inkişafı ilə yanaşı, etno-siyasi proseslər də davam edir. Azərbaycanın cənubunda qüdrətli **Manna dövləti** (e.ə. IX–VI əsrlər) meydana gəlir. Manna Assuriya və Urartu**** ilə mübarizədə müstəqilliyini qorumağa nail olur. Şimali Azərbaycan torpaqları, o cümlədən Qarabağ ərazisi Urartunun işğallarından kanarda qalır. ***Bu dövrdə, ümumiyyətlə, Cənubi Qafqazda (Zaqafqaziyada) erməni etnosu yox idi.*** Çox sanballı tədqiqatçılar, kollektiv monoqrafiyanın müəllifləri Zaqafqaziyanın siyasi tarixindən bəhs edərkən vahid fikir söyləyirlər: **Urartunun əsas ərazisi SSRİ-nin sərhədlərindən kanarda yerləşirdi.** ***Qədim dövrdə və orta əsrlərdə ermənilərin kompakt yaşadığı ərazi də indiki Ermənistan SSR-in hüdudlarından uzaqda idi.***[10] Urartu dövlətinin varlığına son qoyan **Midiya dövləti** (e.ə. 672–550) zamanı vəziyyət dəyişdi. Midiya cənub-şərqi Zaqafqaziyanı özünə tabe etdi. Bu vəziyyət **Əhəmənilər dövründə** də (e.ə. 550–330) davam etmişdi.

the same time, there are different methods in manufacturing these labor implements. This fact enables us to name those implements as the cultural samples of ***the Guruchay culture*** extracted from the inner layers of the Azykh cave (It is italicized by us – *Y.M., K.Sh.*) ... ***And the age of the Guruchay culture can be very ancient, even dating back to one million two hundred thousand years".***[6]

The jaw-bone of a man named **"the human being of Azykh** – ***Azykhanthropus"*** was discovered in the **Ashol*** layer of the Azykh cave in 1968. The Azykh man is believed to have lived 350,000–400,000 years ago. **The Moustier Culture**** is represented mainly by the Taghlar cave.[7] The archaeological studies carried out in Garabagh can determine an ample development which had taken place in **the** Mesolithe and Eneolithe stages of the Stone Age. Wide scale changes had taken place in Garabagh during **the eneolithe** (VI–IV millenniums B.C.), **bronze** and **early iron** stages (end of IV millennium – beginning of I millennium).[8] The **Khojaly-Gadabay culture** was well developed in the late bronze and early iron ages (XIII–VII centuries B.C.). **The agate bead** of this epoch with the cuneiform engraving linked to Adadnirarius, ruler of Ashshur (Assyria)***, was discovered at the archaeological monument located in a graveyard near Khojaly. Such discoveries of artifacts prove the existence of economic and cultural links of this region with the Near East.[9]

Parallel to the economic and social life and development, the ethnic and political processes were also under way. The powerful **State of Manna** (IX–VI centuries B.C.) had emerged in the South of Azerbaijan. The State of Manna had succeeded in maintaining its independence in its wars with Assyria and Urartu****. The land of Northern Azerbaijan, including the territory of Garabagh itself, did not fall under the control of Urartu. ***In this historical period of time, the ethnos known as Armenians did not exist in the South Caucasus (Transcaucasia) at all.*** Very renowned researchers, authors of joint monographic writings, are of the same opinion while describing the political history of Transcaucasia: the main part of the State of Urartu **was located out of the Soviet frontiers.** ***During the Antiquity and the Medieval Age, the areas of dense population of Armenians were located far away from the modern Armenia SSR borders.***[10] The situation changed with the emergence of the State of Midiya (672–550 B.C.), which ended the existence of the State of Urartu. Midiya had conquered southern-

*Fransada Amyen şəhərinin kənarı (Saint-Acheul). Avropa və Asiyada ilk paleolit dövrü abidəsi
** Fransada mağara adı (Le Moustier). Orta paleolit dövrü abidəsi
***Aşşur (Assuriya) Şimali Mesopotamiyada qədim dövlət. E.ə. VIII əsrin ikinci – VII əsrin birinci yarısında qüdrətli vaxtına çatmışdı. E.ə. 605-ci ildə Midiya və Babil tərəfindən varlığına son qoyulmuşdur. I Adadnirari e.ə. 1307–1275-ci illərdə hökmranlıq etmişdir.
****E.ə. IX–VI əsrlərdə mövcud olmuş qədim dövlət. E.ə. VI əsrdə midiyalılar onun varlığına son qoydular.

* Suburbs of Amyen city in France (Saint-Acheul). The first Paleolithis stage in Europe and Asia
** The name of the cave in France (Le Moustier). Middle Paleolithic stage
*** Assyria was an ancient state in Northern Mesopotamia. The second half on VIII, the first half on VII centuries B.C. became very powerful state. In 605 B.C. Midiya and Babil routed it. Adadnirarius I reigned in 1307–1275 years B.C.
**** The ancient state exsisted in IX-VI centuries B.C.Midiya conquered it in VI century B.C.






**Azərbaycan Albaniya dövlətində zərb olunan pullar (b.e.ə. III - b.e. I əsrləri):**

1,4,5,6 - Tetradrahmalar, gümüş; 2 - Drahmalar (ilkin zərb), gümüş; 3 - Drahma (son zərb), gümüş; 7 - Aureus, qızıl.

**Coins minted in the Albanian state of Azerbaijan (III-I c. BC):**

1,4,5,6 - Tetradrachmas, silver; 2 - Drachmas (first mint), silver; 3 - Drachma (last mint), silver; 7 - Aureus, gold.

**Makedoniyalı İsgəndər** (e.ə.336–323) Əhəməni dövlətini dağıtdıqdan sonra Azərbaycanın şimalında siyasi proseslər yeni mərhələyə qədəm qoydu. Bunun nəticəsi idi ki, Makedoniyalı İsgəndərin qısa müddətli hakimiyyətindən sonra, onun ölümü ilə imperiyası parçalandıqda Azərbaycanın cənubunda **Atropatena**, şimalında isə **Albaniya dövlətləri** yarandı. (***Son dövrlərdə Azərbaycan tarixçiləri Atropatenaşünaslıq və Albanşünaslığı yeni elmi əsərlərlə zənginləşdirmiş, uzun zaman erməni müəllifləri tərəfindən qəsdən saxtalaşdırılmış olan bu dövrün elmi əsaslarla araşdırılmasına böyük töhfələr vermişlər. Onları burada xüsusi olaraq sadalamağa ehtiyac görmədik*** – *Y.M., K.Ş.*). E.ə. IV əsrdə və sonralar Atropatena Azərbaycanın şimalında da ərazilərə malik idi və bu zaman Qarabağ ərazisinə daxil olan torpaqların bir hissəsi həmin Azərbaycan dövlətinə tabe idi (***Xəritə 1***). Atropatena ilə eyni zamanda yaranmış Albaniya dövləti təxminən e.ə. IV– e. VIII əsrlərində mövcud olaraq, 1200 ilə yaxın dövr ərzində Azərbaycan tarixində böyük rol oynadı. Albaniya sərhədlərini genişləndirərək bütün Qarabağ ərazisini əhatə etdi və bu dövlət Qarabağı öz tərkibində qoruyub saxlamaq üçün misilsiz mübarizə apardı və bəzi istisnalarla buna nail ola bildi. F.Məmmədovanın Albaniya dövlətinin, o cümlədən onun tərkib hissəsi olan əyalətlərin (Sakasena, Otena – Uti, Orxistena – Arsax*, Araksena və s.) ərazisi və sərhədlərini tarixi dinamikada əks etdirdiyi **6 xəritəsi** də bu fikri təkzibolunmaz surətdə təsdiq edir (Həmin xəritələrdən biri burada verilir – ***Xəritə 2***).

Qarabağ Azərbaycan Albaniya dövlətinə məxsus olduğu kimi, burada yaşayan etnoslar – uti, sovdey, qarqar və başqaları da alban tayfaları idilər.

**Ermənilərin ilk dəfə Cənubi Qafqazda (Zaqafqaziyada) peyda olmaları təxminən e.ə. II əsrdən** sonralara təsadüf edir. Onların regiona daxil olması ilə yerli dövlətlərə və xalqlara qarşı təcavüzkar fəaliyyətləri də başlanır. Bu dövrdə ermənilər Kiçik Asiyanın şərqindəki erməni çarlığını qondarma «Böyük Ermənistan» adlandırır və köçüb məskən saldıqları bütün əraziləri erməni torpaqları elan etməyə cəhd edirlər. Roma imperiyasının e.ə. 66-cı ildə II Tiqranı darmadağın etməsi ilə uydurma «Böyük Ermənistan» əfsanəsi puça çıxır, onlar Romanın vassalına çevrilir. Bu vəziyyət IV əsrədək davam edir. Belə olduğu halda

eastern territory of Transcaucasia. This rule had persisted during the **period of the Achemenides** (550–330 B.C.)

After **Alexander the Great** (336–323 B.C.) had conquered the State of the Achemenides, the political processes in the Northern Azerbaijan had entered into a new phase. As a result of these processes and after the short rule of Alexander the Great and his death, his Empire collapsed into many parts. Subsequently, the State of **Atropatena** and the State of Albania were respectively formed in the South and North of Azerbaijan. (***Recently, historians of Azerbaijan have given a great tribute to the studies of this period by their own scientific research works which were ostensibly falsified by the Armenian authors. The scientists of Azerbaijan have enriched the studies on Atropatena and the State of the Albania by their new research works. We do not judge it necessary to name all their works in this book*** – *Y.M., K.Sh.*). From the IV century B.C. and after, the State of Atropatena had the lands in the North of Azerbaijan too and in this period of time, a part of the territories of Garabagh was subordinated to the State of Azerbaijan. (***Map 1***). Having emerged parallel to the State of Atropatena, the State of Albania, which existed approximately from the IV century B.C. – till the VIII century AD played a great role in the history of Azerbaijan during this 1200 year period. Albania has enlarged its borders which covered the whole territory of Garabagh, and this State tried hard to preserve Garabagh within its own borders and succeeded in doing so, except in some cases. **Six maps** of F.Mamedova concerning the State of Albania, including its integral part as Garabagh, the territory of the historical provinces (Sakasena, Otena – Uti, Orkhistena – Arsakh*, Araxena etc.) and the historical dynamics of its borders are incontestably testifying to this idea. (One of those maps is given here – ***Map 2***).

Garabagh belonged to the Azerbaijan State of Albania : the ethnos that had lived in this area – uti, sovday, gargar and others were Alban tribes.

**The first arrival of Armenians to the region of the South Caucasus (Transcaucasia) refers to circa after II millennium B.C.** As they entered this region, their aggressive activities were initiated against the regional states and peoples. In this epoch the Armenians named the tiny Armenian Kingdom located at the eastern part of Small Asia "the Great Armenia" and attempted to call all lands that were settled by Armenian nomads as purely Armenian territories. As the Roman Empire had routed Tigran the Second in

* Arsax, həmçinin Albaniya dövrünə aid digər toponimlər (Sakasena, Sakan, Saki // Şəki və s.) qədim türk tayfalarından biri olan saklarla bağlıdır. Arsax, Arsak, Ərsak **«ər»** («igid», «kişi») və **«sak»** sözlərindən əmələ gəlməklə, qədim türk dillərində «ər sak» – «igid sak» və ya «sak igidi», «kişi sak» və ya «sak kişisi» mənasındadır. Bu barədə bax, həmçinin **Seyidov M.Ə.** – Qarabağ–Arsaq – Apцar toponiminin etimologiyası haqqında qeydlər // Azərbaycan filologiyası məsələləri. Bakı, 1983, s. 150; **Cəfərov C.** – Arsaq sözünün etimologiyası // Qarabağ dünən, bu gün və sabah. Bakı, 2002, s. 41

*Arsakh, as other toponyms (Sakasena, Sakan, Saki//Shaki etc.) belonging to Albanian period are closely connected with one of the ancient Turkic tribes: saks. Arsakh, Arsak are derived from the combination of two words, "ar" and "sak"which in old Turkic languages meant: "brave", "man", "a brave sak", or "sak man of courage" or "a sak man". See also Seyidov M.A. Notes on the etymology of the toponymy: Garabagh–Arsag–Artsag// The problems of Azerbaijani philology. Baku 1983, p.150; Jafarov J. The etymology of the word: Arsag.//Garabagh yesterday, today and tomorrow. Baku, 2002, p. 41





1



2



3



5



4

1,2,3,4 - Qarabağın ən qədim şəhərlərindən biri, "Arranın anası" adlandırılan Bərdə şəhərinə dair arxeoloji materiallar; 5 - Qarabağın məşhur orta əsr şəhəri Beyləqanın görünüşü (rəsm).

1,2,3,4 - Archeological materials in one of the most ancient cities of Garabagh, the city of Barda called "The mother of Arran"; 5 - View of Beylagan, a famous Middle Ages city of Garabagh (picture).

ermənilərin Albaniyanın tarixi torpaqlarını Ermənistanın tərkib hissəsi kimi qələmə verməsi heç bir elmi-tarixi əsasa malik deyil. Halbuki ermənilərdən fərqli olaraq Azərbaycan–Albaniya dövləti müstəqil siyasət yeritməkdə davam edirdi və Qarabağın tarixi vilayətləri onun tərkibinə daxil idi. Tədqiqatçının yazdığına görə, «mənbələrin tədqiqi və I–IV əsrlərdəki gerçəkliklərin öyrənilməsi bizi əmin edir ki, Albaniyanın cənub sərhədi Araz çayı boyunca keçmişdir».[11]

Qarabağın Azərbaycana məxsus olduğunu və burada ən qədim zamanlardan başlayaraq müxtəlif türk etnoslarının yaşadığını Azərbaycan və ümumtürk şifahi xalq ədəbiyyatının möhtəşəm abidəsi olan «Kitabi-Dədə Qorqud» dastanları da sübut edir. Dədə Qorqud dastanları VI–VII əsrlərdə Qarabağ da daxil olmaqla bütün Azərbaycan torpaqlarında, o cümlədən Göyçə gölü hövzəsində yayılmışdır. Bu qiymətli xalq-qəhrəmanlıq eposunun təsdiq etdiyi kimi, bəzi oğuz qəhrəmanları hətta Məhəmməd Peyğəmbərin (s.) hüzuruna gedərək onun özü ilə də görüşmüşdülər. **Ağqoyunlu hökmdarı Uzun Həsənin (1453–1478) göstərişi ilə yazılmış məşhur Oğuznamədə (Əbu Bəkr Tehraninin 1470-ci ildə yazdığı «Kitabi-Diyarbəkriyyə»sində) Göyçə dənizi yaylaqlarının və Qarabağın qədim oğuz türklərinə məxsus olduğu, oğuz türklərinin soykökündə duran Oğuz Xaqanın Göyçə dənizi ətrafında dəfn olunduğu, Bayandur Xaqanın isə Qarabağda, Göyçə dənizi yaylaqlarında yaşadığı və orada da dəfn olunduğu göstərilir.**[12]

### 2.2. Qarabağ Ərəb xilafəti dövründə. Arsaxda qriqorianlaşdırma və erməniləşdirməyə dair

**Qarabağın tarixində əsas dəyişikliklər Ərəb xilafətinin işğalları və bunun nəticəsində Albaniya dövlətinin aradan qaldırılması ilə baş verir.** Ərəb işğallarınadək Qarabağın tarixi əhalisi etnik baxımdan eyni kökdən, yəni Azərbaycan–Albaniya kökündən olduğu halda, bu dövrdə Ərəb xilafətinin Azərbaycanla bağlı yeritdiyi faciəli siyasət nəticəsində vilayətin dağlıq hissəsində ermənilərin dini üstünlüyünün təmin edilməsi, zaman keçdikcə etnik sahədə də özünü göstərdi: Albaniyanın tarixi Arsax bölgəsi əhalisinin əvvəlcə qriqorianlaşdırılmasına, bunun ardınca da erməniləşdirilməsinə başlandı. ***Azərbaycanın bu bölgəsində qriqorianlaşdırma və erməniləşdirmə proseslərinin səbəbləri, gedişi və erməni–xilafət əməkdaşlığının mahiyyəti və b. problemlər, onun tarixi ədəbiyyatda necə əks olunması məsələləri akad. Z.Bünyadov****

*Ziya Bünyadov (1923–1997) – şərqşünas, Azərbaycan MEA-nın akademiki

66 B.C., this legend of "the Great Armenia" became fully concocted because they became as the vassals of Rome. This order lasted till the IV century A.D.. Armenians claim that the historical lands of the State of Albania are an integral part of Armenia. This has neither scientific nor historical grounds. In contradistinction to this the Azerbaijan–Albanian State had continued to have an independent policy, and the historical provinces of Garabagh were a part of that State. Researcher has written: "The study of sources and the realities of I–IV centuries ensure us to say that the Southern frontier of the State of Albania lay alongside the Araz (Araxes) River".[11]

The inclusion of Garabagh to Azerbaijan and the existence of various Turkic ethnos in this territory from very ancient times are also proved by the legendary epic of Azerbaijan and all Turkic peoples "Kitabi-Dada Gorgud", being an oral folkloric monument of literature. The epic of Dada Gorgud was widely disseminated during the VI–VII centuries in Garabagh, as well as in all Azerbaijan territories, including the lake of Goycha. As confirmed in this valuable heroic saga, some Oghuz heroes, have visited and met even with the prophet Mohammad himself. **The famous Oghuznamer ("Kitabi-Diyarbekriyyer" written by Abu Bakr Tehrani in 1470) written by the order of Uzun Hassan (1453–1478), ruler of the Aghgoyunlu state mentions that summer pastures at the Goycha Sea and Garabagh belonged to the ancient Oghuz turks and Oghuz Khagan, the founder of Oghuz Turks, was buried near the Goycha Sea. Bayandur Khagan lived in Garabagh and had summer houses on the Goycha Sea and was buried there, too.**[12]

### 2.2. Garabagh during the Arabian caliphate. On Grigorianization and Armenianization in Arsakh

**The main changes in the history of Garabagh start with the invasions by the Arabian caliphate and in the result of this occupation the collapse of the State of Albania.** Until the Arabian occupation, the territory of Garabagh was of one ethnic origin, that is the Azerbaijan–Alban origin. However, the tragic policy administered in Azerbaijan by the Arabian caliphate at that time, which led to the provision of religious dominance of Armenians in the mountainous part of the region, gradually showed up as well in the ethnic field: the process of Grigorianization, and later Armenianization of the population of Arsakh – the historical region of the State of Albania started. ***The academician Ziya Bunyadov* has investigated particularly the reasons and the course of the process of Grigorianization and Armenianization of this region of Azerbaijan, the essence***

* Ziya Bunyadov (1923-1997) – Orientalist, academician of the Azerbaijan National Academy of Sciences




1


2

1 - Dünya əhəmiyyətli Azərbaycan Alban Gəncəsər monastırı. 1238-ci il. Ermənilər tərəfindən işğal olunmuş Kəlbəcər rayonunun Vəngli kəndindədir; 2 - Dünya əhəmiyyətli Azərbaycan Alban Xudavəng monastırı. XIII-XVII əsrlər. Kəlbəcər rayonunda, Tərtər çayının sahilindədir.

1 - The world-famous Azerbaijan Albanian Ganjasar Monastery. 1238. Located in the Vangli village of the Kalbajar region occupied by Armenians; 2 - The world-famous Azerbaijan Albanian Khudavang Monastery. XIII-XVII centuries. Located on the bank of the Tartar river, Kalbajar region.

*tərəfindən xüsusi olaraq tədqiq edilmişdir.*[13] Təbiidir ki, qriqorianlaşdırmaya nisbətən ermənilaşdirmə uzun proses olmalı idi və həqiqətən də, bu belə oldu. Ona görə də Z.Bünyadov akad. ***S.T.Yeremyanın**** *«VII əsrdən (qəti olaraq VIII əsrin əvvəllərindən) Alban kilsəsinə erməni kilsəsinin bir hissəsi kimi baxılırdı» və bu zaman Arran vilayətindən Sünik, Arsax, Uti və başqalarının ermənilaşdirilməsini iddia edən* fikrinə etiraz edərək yazır: **«İki müxtəlif anlayış olan erməniləşdirmə və qriqorianlaşdırma anlayışlarının qarışdırılması diqqəti cəlb edir. Bu yerdə erməni kilsəsinin köməyi ilə Arran əhalisinin yalnız qriqorianlaşdırılmasından danışıla bilər. S.T.Yeremyanın bu barədəki nöqteyi-nəzəri o qədər də doğru deyildir, çünki Arran vilayətində Sünik vilayəti və Arsaxın xeyli hissəsi XII əsrin əvvəllərinə yaxın erməniləşdirilmişdir».**[14]

Bu fikir (həm də akad. S.T.Yeremyanın gəldiyi nəticə!) bir daha təsdiq edir ki, **Qarabağın bu hissəsində yaşayan əhali əvvəldən erməni olmamış, əksinə, yerli Azərbaycan–alban tayfaları olmuşlar və sonradan erməniləşdirilmişlər, daha doğrusu, əvvəlcə qriqorianlaşdırılmış, sonra isə erməniləşdirilmişlər.**

Populyasiyanın etnogenezi və onun qarşılıqlı əlaqəsi haqqında informasiya verən və müasir elmi nailiyyətlərə əsaslanan odontoloji tədqiqatlar da bunu sübut edir.[15] Heç də təsadüfi deyil ki, Ərəb xilafəti parçalandıqdan sonra Albaniyanın həmin ərazisində Sünik və Arsax-Xaçın knyazlıqları yarandı. «XII əsrin sonlarına yaxın Sünik padşahlığı dağıldı, buradakı hakim sülalə 1166-cı ildən knyaz Qriqorun və Smbatın ölümü ilə kəsilmiş oldu. XII əsrin sonu–XIII əsrin əvvəllərində Arsax ərazisində təşəkkül tapan Xaçın knyazlığı ***İ.A.Orbelinin**** sözləri ilə desək **«qədim Albaniyanın bir hissəsi»** idi»[16]. Beləliklə, tamamilə təbiidir ki, Ərəb xilafəti dağılarkən onun ərazisində dirçələn yerli dövlətlər içərisində heç bir erməni dövləti olmamışdır. Bu da, Azərbaycandan və Gürcüstandan fərqli olaraq, Cənubi Qafqazda ermənilərin, ümumiyyətlə, dövlətçilik tarixinə malik olmadıqlarını sübut edir.

Bu proseslərin baş verdiyi IX–XIII əsrin əvvəlləri, xüsusilə Sacilər–Atabəylər–Şirvanşahlar dövrü bütün Cənubi Qafqazda Azərbaycanın qüdrətinin daha da artdığı bir dövr idi. Sacilər və Atabəylər faktik olaraq Azərbaycanın tarixi torpaqlarını siyasi cəhətdən birləşdirmişdilər.[17] Keçmiş Albaniya ərazisində yaranmış Xaçın knyazlığı Mehranilər nəslinə*** mənsub olan ***Həsən Cəlalın*** dövründə (1215–1261) yüksək inkişaf

*of the Armenian-Caliphate cooperation and other issues, as well as their reflection in the historical literature.*[13] Certainly, the process of Armenianization was to take more time than that of Grigorianization and in fact it did. Therefore, Z.Bunyadov protests against the following words of the academician ***S.T.Yeremyan**** – **"The Alban church was considered as a part of the Armenian church since the VII century (resolutely since the beginning of the VIII century) and at that time the districts of Sunik, Arsakh, Uti and others in the Arran region were Armenianized"** – and writes: **"It is noteworthy that two different notions – Armenianization and Grigorianization are mixed. Here one can speak only about Grigorianization of the Arran population through the help of the Armenian Church. S.T.Yeremyan's point of view regarding this is not right. Since the districts of Sunik and most of Arsakh in the Arran region were Armenianized only in the early XII century".**[14]

This idea (as well as S.T.Yeremyan's conclusion!) confirms once again that **the people living in this part of Garabagh were not originally Armenians; on the contrary, they were local Azerbaijan–Alban tribes which were later Armenianized, or rather first Grigorianized and then Armenianized.**

Odontologic research, which provides information about the ethnogeny of the population, as well as its mutual relationships, and based on modern scientific achievements also proves this.[15] Not accidentally, following the destruction of the Arabian caliphate, the principalities of Sunik and Arsakh–Khachin were established in part of Albania. "In the late XII century, the principality of Sunik fell and its reigning dynasty ended with the death of prince Grigor and Smbat in 1166. The Khachin principality created in the territory of Arsakh in the late XII, early XIII centuries was **"a part of ancient Albania"**,[16] citing ***I.A.Orbeli****. Thus, not accidentally there was not a single Armenian state among the surviving local states in the territory of the Arabian caliphate, when the latter collapsed. This proves that unlike Azerbaijan and Georgia, Armenians do not have a history of statehood in the Southern Caucasus at all.

This period of time, i.e. **IX – the beginning of XIII** centuries, particularly the period of the reign of Sajis-Atabays-Shirvanshahs was a time when Azerbaijan was becoming very mighty in the Southern Caucasus. The states of Sajis and Atabays actually united the historical lands of Azerbaijan politically.[17] The Khachin principality created in the territory of former Albania reached its highest rate of progress during the reign of Hasan Jalal (1215–1261), who belonged to the Mehrani*** dynasty.

*S.T.Yeremyan (1908) – tarixçi, Ermənistan EA-nın akademiki
**İ.A.Orbeli (1887–1961) – şərqşünas, SSRİ EA-nın akademiki, Ermənistan EA-nın akademiki və onun ilk prezidenti, Ermitajın direktoru olmuşdur.
***Azərbaycan Albaniya dövlətində hökmdar sülaləsi (510–705-ci illər)

* Suren Tigranovich Yeremyan (1908) – Historian, academician of the Armenian AS
** Iosif Abgafovich Orbeli (1887–1961) – Orientalist, academician of the USSR AS, academician and the first president of the Armenian AS, once director of the Hermitage.
*** Ruler dynasty in Azerbaijan Albania (510–705)



mərhələsinə çatmışdı. Təsadüfi deyil ki, dövrün narrativ və epiqrafik abidələrində o, **«Xaçın ölkələri knyazı»**, **«Xaçın və Arsax ölkələrinin əzəmətli knyazı»** titulları ilə yanaşı, **«Albaniya hökmdarı»** titulu ilə də anılır. Başqa sözlə, Həsən Cəlalın bütün titulları Azərbaycan – Albaniya tarixinə məxsusdur. Onun zamanında Alban memarlığının ən mühüm incilərindən biri olan ***Gəncəsər monastırı*** tikildi[18].

### 2.3. Qarabağ Azərbaycan siyasi həyatının mərkəzlərindən biri kimi
### *(XIII–XVIII əsrin 40-cı illəri)*

Monqolların birinci yürüşü zamanı (1220–1222) zəifləmiş Atabəylər dövlətinə son qoyan ***Xarəzmşah Cəlaləddinin*** Azərbaycanda hökmranlığı zamanı (1225–1231) Qarabağ da onun hakimiyyəti altında idi.

Monqolların ikinci yürüşü və Azərbaycanın işğalının başa çatması ilə (1231–1239) Qarabağ digər Azərbaycan torpaqları kimi ***Ali monqol xaqanlığının*** (1239–1256), sonra isə ***Hülakülər (Elxanilər) dövlətinin*** (1256–1357) tərkibində idi. Qarabağın bu dövr tarixi haqqında məlumat nisbətən daha əhatəlidir və daha yaxşı öyrənilmişdir[19]. Həmin dövrdə **«Qara»** və **«bağ»** söz birləşməsi – **«Qarabağ»**, artıq, konkret coğrafi əraziyə şamil edilir. ***V.Piriyev*** yazır: **«Arran Qarabağı»** adı ilk dəfə ***Rəşid əd-Dinin**** «Came ət-təvarix» əsərində 1284-cü il hadisələrinin şərhi ilə əlaqədar xatırlanır». Bu dövrdə Qarabağ Arranın daxilində dağlıq və dağətəyi torpaqları birləşdirən vahid ərazidən ibarət idi.[20] XIII–XIV əsrlərdə Qarabağ Hülakülər dövlətinin siyasi tarixində mühüm rol oynayır. V.Piriyev qeyd edir ki, «Monqol hökmdarlarının daima Qarabağda qışlamaları bir sıra dövlət səviyyəli hadisələrin burada baş verməsinə səbəb olmuşdur. Təkcə onu göstərmək kifayətdir ki, monqol hökmdarlarından ikisi (Qazan xan** və Arpa xan***) səltənət taxtına Qarabağda çıxmış, ikisi isə (Arqun xan**** və Əbu Səid*****) Qarabağda vəfat etmişdir».[21] XIII–XIV əsrlərdə də Qarabağ Azərbaycan torpağı idi və onun əhalisi də azərbaycanlılardan ibarət idi (*Xəritə 3*).

XV əsrdə Qarabağ Azərbaycan ***Qaraqoyunlu*** (1410–1467) və ***Ağqoyunlu*** (1468–1501) dövlətlərinin tərkibində idi. Lakin Qaraqoyunlular dövründə Qarabağın sonrakı tarixində özünü göstərəcək bir hadisə baş verdi. XV əsrdə keçmiş alban hakimi Həsən Cəlalın nəsli (Cəlalilər) Qaraqoyunlu Cahan şahdan

Not accidentally the narrative and epigraphic monuments of the time mention the title **"the ruler of Albania"** side by side with the titles **"the duke (prince) of Khachin countries"**, **"the majestic duke (prince) of the Khachin and Arsakh countries"**, etc. In other words, all the titles of Hasan Jalal belong to the Azerbaijan-Alban history. One of the most important examples of Alban architecture, the Ganjasar monastery, was built during his period of reign[18].

### 2.3. Garabagh as one of the centers of political life in Azerbaijan
### *(13th -40's of 18th century)*

After putting an end to the Atabays state that was weakened due to the first attack of Mongolians (1220–1222), ***Kharazmshah Jalaladdin*** reigned in Azerbaijan (1225–1231), that included Garabagh.

Garabagh, as well as other Azerbaijan territories, fell under the dominion of the ***Supreme Mongolian Khanate*** (1239–1256), and further the ***Hulakus (Elkhanis) State*** (1256–1357) after the second attack of Mongolians, which completed the occupation of Azerbaijan (1231–1239). There is much broader information and a better investigation about the history of Garabagh during this period.[19] In that period the word-combination **"gara"** and **"bagh"** – **Garabagh** – was already used to describe a specific geographic territory. ***V.Piriyev*** writes: "The name ***Arran Garabagh*** was first mentioned in relation with an explanation of the events of 1284 AD in the book "Jameh at-tavarikh" by ***Rashidaddin"****. At that time, Garabagh was a single territory within Arran and consisted of mountainous, as well as foothill territories.[20] Garabagh plays an important role in the political history of the Hulakus state in the XIII–XIV centuries. V.Piriyev remarks, "The fact that the Mongolian rulers constantly spent the winter in Garabagh led to several governmental events which took place here. From this point of view, it is worth noting that two Mongolian rulers (Gazan khan** and Arpa khan***) came to the throne in Garabagh and another two rulers (Argun khan**** and Abu Said*****) died in Garabagh".[21] In the XIII–XIV centuries also, Garabagh was a territory of Azerbaijan with a population consisting of Azerbaijanis ***(Map 3)***.

In the XV century, Garabagh was a part of the Azerbaijan ***Garagoyunlu*** (1410–1467) and ***Aghgoyunlu*** (1468–1501) states. However, during the reign of the Garagoyunlu dynasty, an event happened that would be remarkable in the further history of Garabagh. In the XV century,

* Fəzlullah Rəşid əd-Din (1247–1318) – məşhur tarixçi, 1298–1317-ci illərdə Hülakülər dövlətinin vəziri olmuşdur.
** Qazan xan (1295–1304)
***Arpa xan (1335–1336)
****Arqun xan (1284–1291)
***** Əbu Səid (1316–1335)

* Fazlullah Rashidaddin (1247–1318) – famous historian, vizier of the Hulakus state in 1298–1317
** Gazan khan (1295–1304)
*** Arpa khan (1335–1336)
****Argun khan (1284–1291)
***** Abu Said (1316–1335)

«**məlik**»* titulu aldı. Sonralar Cəlalilər nəslinin mülkü beş alban feodal knyazlıqları – məlikliklərinə (**Gülüstan, Ceraberd, Xaçın, Vərəndə, Dizaq**) parçalandı...[22]

***Azərbaycan Səfəvi dövlətinin*** yaranması ilə (1501) bütün Azərbaycan torpaqlarının mərkəzləşdirilməsinə başlandı. XVI əsrin ortalarında Azərbaycan torpaqlarının vahid dövlət halında mərkəzləşdirilməsi başa çatdı. Bununla, Azərbaycan Səfəvi dövləti regionun Osmanlı imperiyasından sonra ikinci ən qüdrətli dövlətinə çevrildi. Belə olduğu halda o dövrdə ermənilərin hər hansı etnik-siyasi üstünlüyü mümkün olan məsələ deyildi. Əksinə, həmin dövrdə Azərbaycanın etnik və siyasi sərhədləri daha aydın şəkil alır. Səfəvilər Azərbaycanda 4 bəylərbəyilik yaradır ki, onlardan biri də **Qarabağ** və ya **Gəncə** bəylərbəyiliyi idi. Osmanlıların bu torpaqlarda tərtib etdikləri icmal və müfəssəl dəftərlər** həmin bəylərbəyiliyin inzibati-ərazi bölgüsü haqqında aydın təsəvvür yaradır. 1593-cü il məlumatına görə, Gəncə–Qarabağ əyaləti 7 sancaq, 36 nahiyəyə bölünürdü.[23] Burada qeydə alınan 1,3 mindən çox toponimik vahidlərin hamısı, demək olar ki, azərbaycanlılara məxsus idi.[24] Bunlardan heç biri ermənilərə məxsus olmamışdır.

Səfəvi dövlətinin zəifləməsindən sonra Azərbaycan torpaqları İran, Rusiya və Osmanlı dövlətləri arasında müharibələr meydanına çevrildi.

Bu dövrdə Gəncə–Qarabağ torpaqları əvvəlcə Osmanlı imperiyası tərkibində olmuşdur (***Xəritə 4***). Həmin dövrdə tərtib olunan Osmanlı dəftərləri də azərbaycanlıların bölgənin əsas əhalisi olduğunu sübut edir. Hesablamalara görə, 1727-ci ildə Gəncə–Qarabağ əyalətinin əhalisi 122 min nəfər idi. Onun 80,3 min nəfərini (66%) Azərbaycan türkləri, 37,8 min nəfərini (31%) qriqorianlaşmış albanlar, 3,7 min nəfərini (3,1%) kürdlər təşkil etmişdir.[25] Bəhs olunan dövrdə Rusiyanın fəal köməklik göstərdiyi qriqorianlaşmış albanlar siyasi cəhətdən fəallaşır [26] ***(Sənəd 1)***. Digər tərəfdən, sonuncu Səfəvi hökmdarı III Abbası yıxaraq hakimiyyətə gələn ***Nadir şah Əfşar*** (1736–1747) onu qanuni hökmdar kimi tanımaqdan imtina edən Gəncə–Qarabağ bəylərbəyiliyinin türk-müsəlman əhalisinə qarşı ağır cəza tədbirləri həyata keçirdi ki, bu amil də Qarabağın alban məliklərinin mövqeyini gücləndirdi və onların separatizminə təkan verdi. Nadirin ölümü ilə onun dövləti parçalandı, Azərbaycanda yerli dövlətlər – xanlıqlar yarandı. Başqa sözlə, Azərbaycan, xanlıqların timsalında özünün dövlət müstəqilliyini növbəti dəfə bərpa etdi. Keçmiş Gəncə–Qarabağ

* «Məlik» – Azərbaycan dilində mülk sahibi
** Osmanlı dövlətində gəlir mənbələrini müəyyən etmək, vergiləri toplamaq üçün müfəssəl və dəqiq tərtib olunan qeydiyyat dəftəri

the ruler of the Garagoyunlu state, Jahan shah, provided the generation of the former Alban ruler, Hasan Jalal (Jalalis), with the title of **malik***. Later on, Jalalis were divided into five Alban principalities-malikliks (**Gulustan, Jaraberd, Khachin, Varander and Dizag**)...[22]

The creation of the ***Azerbaijan Safavi State*** (1501) was the basis of the centralization process of all Azerbaijan territories. In the mid 16[th] century, the centralization of Azerbaijan lands as a unified state was completed. Thus, the Azerbaijan Safavi state became a mighty state of the region, second only to the Ottoman Empire. In such a case, it was impossible for Armenians to have any ethnic-political advantages at that time. On the contrary, in that period the ethnic and political borders of Azerbaijan became clearer. Safavis established 4 baylarbayliks in Azerbaijan, one of which was the **Garabagh** or **Ganja** Baylarbaylik. Detailed notebooks** written by ottomans in these territories create a clear idea of the administrative-territorial division of that baylarbaylik. In accordance with information from 1593, the Ganja-Garabagh province consisted of 7 sanjags and 36 nahiyyas.[23] 1.3 thousand place-names in these territories registered in the detailed notebooks nearly all of them belonged to Azerbaijanis.[24] None of them ever belonged to Armenians.

Following the weakening of the Safavi state (1736), the territories of Azerbaijan became a field of wars between Iran, Russia and the Ottoman states.

In that period, the lands of Ganja–Garabagh were within the Ottoman Empire ***(Map 4)***. The Ottoman notebooks compiled at that time prove as well that Azerbaijanis were the main population of the region. In compliance with calculations, in 1727, the Ganja-Garabagh population totaled 122,000 people. Eighty thousand three hundred of them (66%) were Azerbaijani turks, thirty seven thousand eight hundred (31%) were – Grigoryanized Albans, three thousand seven hundred (3.1%) were – Kurds.[25] In this period, grigorianized Albans, assisted by Russia, became more active politically[26] ***(Document 1)***. On the other hand, ***Nadir shah Afshar*** (1736–1747), who overthrew the last Safavi ruler Abbas the Third, and came to power, took heavy measures of punishment against the Turkic-Moslem population of the Ganja-Garabagh baylarbaylik, which refused to recognize him as a legitimate ruler. This factor strengthened the position of the Alban maliks of Garabagh and stimulated their separatism. After Nadir's death, his state fell into parts and local states-khanates were created in Azerbaijan. In other words, Azerbaijan restored its independence once again in the form of its khanates. Two separate khanates, **Ganja** and

* Malik– in Azerbaijani it means owner of estate
** The registration notebook in Ottoman Empire where the income and taxes are recorded




1


3


4


2


5

1. Qarabağ xanlığının banisi Pənah xan.
2. Pənah xanın qəbir daşı.
*Qarabağ xanlığının dövlətçilik rəmzlərindən:*
3. Gümüş pul;
4. Pənah xana məxsus neştər;
5. Şuşa qalasının gümüş açarları.

1. The founder of Garabagh khanate Panah khan.
2. Panah khan's tombstone.
*State symbols of Garabagh khanate:*
3. Silver coin.
4. Panah Khan's scalper.
5. Silver keys of Shusha fortress.

əyalətinin ərazisində iki Azərbaycan xanlığı – **Gəncə** və **Qarabağ xanlıqları** yarandı. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları başlıca olaraq Qarabağ xanlığı ilə bağlı olduğundan onun üzərində ayrıca dayanaq.[27]

## 3. QARABAĞ XANLIĞI

### 3.1. Qarabağda Azərbaycan dövlətçilik ənənəsinin bərpası

Nadir şah Əfşar imperiyasının süqutundan sonra müstəqillik qazanmış Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığının banisi Azərbaycanın görkəmli dövlət xadimlərindən biri olan ***Pənahəli bəy Cavanşir*** idi. ***O, Qarabağın Sarıcalı kəndində anadan olmuşdur.*** Qarabağ xanlığının vəziri olmuş tarixçi ***Mirzə Camal*** yazır: «Mərhum Nadir şah Qarabağ, Gəncə, Tiflis və Şirvan vilayətlərini aldıqdan sonra, ellər və kəndlər arasında görüb tanıdığı hər bir şücaətli və işgüzar adamı yanına çağırıb, öz yaxın qulluqçuları sırasına alar və onu məvacib, ehtiram və mənsəb sahibi edərdi. O cümlədən ellər arasında Pənahəli bəy Sarıcalı Cavanşir adı ilə şöhrət tapmış, hər işdə fərqlənmiş, ad çıxarmış, müharibə və davada tay-tuşuna üstün gələn və xüsusilə mərhum Nadir Rum əhli qoşunları ilə etdiyi müharibələrdə (XVIII yüzilin 30-cu illərində Osmanlı imperiyasına qarşı müharibələr nəzərdə tutulur – *Y.M., K.Ş.*) şücaət göstərmiş Pənah xanı da öz yanına apardı». Lakin Muğan qurultayından* sonra Nadir onun hakimiyyətini qəbul etmək istəməyən qarabağlılara divan tutmağa, bu diyarın türk-müsəlman əhalisini Əfqanıstan və Xorasana sürgün etməyə başlamışdı. Bu tədbirə etiraz etdiyinə görə Pənahəli bəyin qardaşı Fəzləli xan edam olunmuşdu. Bunu görən Pənahəli bəy şah Xorasanda olduğu zaman, fürsət tapıb bir neçə qohumu və yaxın adamı ilə 1737–1738-ci illərdə Qarabağ vilayətinə qaçdı. Şah onun qaçmasından xəbər tutan kimi onu yolda ələ keçirmək üçün ardınca çaparlar göndərdi. Lakin onu [tutmaq] mümkün olmadı. Nadir Azərbaycan sərdarına, Gəncə, Tiflis və Şirvan hakimlərinə qəti fərmanlar göndərdi ki, Pənah xanı harda tapsalar, tutub şahın hüzuruna gətirsinlər. Şahın əmri ilə Pənah xanın ailəsini və qohum-qardaşını çox incidib cərimə etdilərsə də fayda vermədi.[28]

Beləliklə, hələ Nadirin sağlığında Pənahəli bəy ona tabe olmaqdan boyun qaçırıb vətəni olan Qarabağı müstəqil surətdə idarə etməyə cəhd göstərmişdi. Nəticədə Nadir şahın ölümündən sonra Qarabağ torpaqlarında müstəqil Azərbaycan dövləti – Qarabağ xanlığı yarandı (***Xəritə 5***).

*Muğan qurultayı 1736-cı ilin martında olmuşdu. Burada Nadir hakimiyyətini qanuniləşdirmək üçün «şah seçkisi» keçirmişdi.

**Garabagh**, were established in the territory of the former Ganja–Garabagh district. Let us look individually at the Garabagh khanate, for the territorial claims of Armenians against Azerbaijan are linked mainly with it.[27]

## 3. GARABAGH KHANATE

### 3.1. Restoration of the Azerbaijan statehood tradition in Garabagh

The founder of the Garabagh khanate, one of the newly-independent Azerbaijan states following the downfall of Nadir shah Afshar's empire, was ***Panahali bay Javanshir***, one of the distinguished statesmen of Azerbaijan. **He was born in the village of Sarijali, Garabagh.** Vizier of the Garabagh khanate and historian ***Mirza Jamal*** writes: "After gaining rule over Garabagh, Ganja, Tiflis and Shirvan districts, the deceased Nadir shah would call all the brave and laborious people he had met and knew in the districts and villages, employ them to high positions and provide them with salary, respect and career. Among them was Panah khan, who was known as Panahali bay Sarijali Javanshir, who was distinguished in every field, for bravery in wars and fights, particularly in the wars of the deceased Nadir with the troops of Rome (means the wars against the Ottoman Empire in 1730's – *Y.M., K.Sh.*)". However, after the Mughan congress*, Nadir began to punish sternly the people of Garabagh who did not want to accept his power and to exile the Turkish-Moslem population of this district to Afghanistan and Khorasan. Panahali bay's brother, Fazlali khan was executed for rejecting this measure. Seeing this, Panahali bay made use of the fact that the Shah was in Khorasan, and he ran to the Garabagh district with several of his relatives and kindred in 1737—1738. When the shah received the news about his escape, he sent heralds to catch him on the way. However, they failed. Nadir sent resolute decrees to the viceroy of Azerbaijan, rulers of Ganja, Tiflis and Shirvan demanding to catch and bring to him Panah khan wherever they might find him. Panah khan's family and other relatives were punished and given a fine by the shah's order, but it was in vain.[28]

Thus, even when Nadir was alive, Panahali bay refused to obey him and tried to rule his native land Garabagh independently. Consequently, following Nadir shah's death, an independent Azerbaijan state – Garabagh khanate, was created in the lands of Garabagh ***(Map 5)***.

* Mughan congress took place in March, 1736. Here Nadir conducted "shah elections" in order to legalize his power.



Qarabağ xanlığı müstəqil dövlət elan edildikdən sonra başlıca vəzifə onun möhkəmlənməsinə nail olmaq idi. Pənah xanın bu sahədə ilk tədbirlərindən biri Qarabağın Nadir şah tərəfindən sürgün olunmuş türk-müsəlman əhalisini geri – doğma torpağa qaytarmaq oldu. Köçkünlərin geri qaytarılması və dədə-baba torpaqlarında yerləşdirilməsi Qarabağ xanlığını gücləndirdi. Sürgündən ilk qayıdanlar içərisində Qarabağın gələcək xanı, 15 yaşlı İbrahimxəlil də var idi.

Qarabağ xanlığı yarandığı zaman burada Təbriz, Ərdəbil, Gəncə, Şamaxı, Bakı, Naxçıvan, Şəki, Dərbənd kimi şəhərlər yox idi. Halbuki belə siyasi-iqtisadi mərkəzlərin olması xanlıqların gələcək inkişafı üçün çox mühüm idi. Yeni müdafiə qurğuları və şəhərlərin salınması Pənah xanın hərbi-siyasi işlərlə yanaşı, dəyərli quruculuq uğuru sayılmalıdır.

Bu sahədə ilk addımlardan biri 1748-ci ildə qədim Azərbaycan – türk tayfası olan **bayatların** adı ilə bağlı **Bayat** qalasının tikilməsi oldu. «Xan bütün ailəsini, qohumlarının və el böyüklərinin əhli-əyalını oraya topladı. Ətrafda olan camaat, hətta Pənah xanın tərəqqisini, onun rəftar və məhəbbətini eşidən Təbriz və Ərdəbil vilayətlərinin bir çox əhalisi və sənətkarları belə öz ailələrilə birlikdə gəlib Bayat qalasında yerləşdilər».[29]

Pənah xanın müstəqil dövlət quruculuğu sahəsindəki fəaliyyəti onun rəsmən tanınması ilə nəticələndi. Mirzə Camal yazır: «Müsəlman tarixi ilə 1161, xristian tarixi ilə 1745-ci ildə (1748-ci il olmalıdır–*Y.M., K.Ş.*) Adil şahın (Pənah xana) **«xan»** adı verilməsi və Qarabağ hakimi vəzifəsinə təyin edilməsi haqqında imzaladığı fərman qiymətli xələt, qızıl yəhərli at və qaş-daşla bəzənmiş qılıncla birlikdə Sərdar Əmir Aslanın yaxın adamı vasitəsilə, o zaman yaşadıqları Bayat qalasına gəlib çatdı».[30]

Adil şahın fərmanı, əslində gecikmiş bir sənəd idi. Həqiqi «hakimlik» şah fərmanından əvvəl, *ondan asılı olmadan qazanılmışdı.*[31]

Pənah xanın «Qarabağ hakimi» kimi tanınmasında Şəki xanlığının Qarabağ üzərinə uğursuz yürüşü mühüm rol oynadı. Şəki xanı Hacı Çələbi özünün 1748-ci ildəki uğursuz Bayat yürüşündən sonra bildirmişdi: «Pənah xan bu vaxtacan sikkəsiz gümüş idi. Biz gəldik ona sikkə vurduq və qayıtdıq» (və ya «Pənahəli özünü xan elan etmişdi, mən isə öz məğlubiyyətimlə onun xanlığını təsdiq etdim»). Hacı Çələbi xanın xalq içərisində zərbi-məsələ çevrilmiş bu sözləri, əslində, Adil şahın fərmanından daha artıq gücə malik idi. ***Əhməd bəy Cavanşir**** yazır: «...Bu qalibiyyətdən

* Əhməd bəy Cavanşir (1828–1903) – əslən Qarabağdan olan Azərbaycan tarixçisi, «Qarabağnamə» müəlliflərindən biri

Now, after the Garabagh khanate was announced as an independent state, the main task was to achieve its strengthening. *One of the first steps taken by Panah* khan in this field was to bring back the Turkish-Moslem population of Garabagh, whom Nadir had exiled. The return of the internally displaced persons and their settlement in their native lands strengthened the Garabagh khanate. The future khan of Garabagh, 15-year old Ibrahimkhalil, was also among those coming back first.

When the Garabagh khanate was created, the cities of Tabriz, Ardabil, Ganja, Shamakhi, Baku, Nakhchivan, Shaki and Darband were not yet established here, whereas the presence of such socioeconomic centers was of great importance for the further development of the khanates. New defensive installations, as well as the building of new cities, should be regarded as valuable military-political and construction achievements of Panah khan.

One of the first steps taken in this direction was the building of the **Bayat** castle in 1748, the name of which was linked with an ancient Azerbaijan–Turkish tribe – Bayats. "Khan gathered his entire family, relatives and all the family-members of the region's elders. The people living nearby, even many men and artisans of Tabriz and Ardabil districts hearing about Panah khan's progress, his behavior and love, moved here with their families and settled in the Bayat castle".[29]

Panah khan's activity in the field of independent state building resulted in the state's official recognition. Mirza Jamal writes: "In the Moslem year of 1161, Christian year of 1745 (1748 in fact – *Y.M., K.Sh.*), the decree signed by Adil shah on providing Panah **khan** with the title of khan and his appointment to the position of the ruler of Garabagh, as well as precious gifts, a horse with golden saddle and a sword adorned with jewelry reached the Bayat castle, where they were living at that time, through a close relative of the Vicegerent Amir Aslan".[30]

Adil shah's decree was in fact a tardy document. The true "power" had been gained before the shah's decree and was regardless of him.[31]

The unsuccessful attack of the Shaki khanate on Garabagh played an important role in Panah khan's recognition as the "Ruler of Garabagh". The khan of Shaki, Haji Chalabi stated after his unsuccessful Bayat incursion in 1748: "So far Panah khan was a silver without coin, we came, minted this coin with his name and came back" (in other words, "Panahali khan had declared himself khan, and I confirmed his position with my defeat"). These words of Haji Chalabi khan, which became a saying among people, had in fact a much stronger effect than Adil shah's decree. ***Ahmad bay Javanshir**** writes:

* Ahmad bay Javanshir (1828–1903) – historian, one of the authors of "Garabaghname"

(Bayat döyüşündən – *Y.M., K.Ş.*) sonra Pənah xanın igidliyi haqqında dillərə düşən dastan o zaman Qarabağda yaşayan bütün müsəlman tayfalarını müharibəsiz olaraq onun təbəəliyinə tabe etdirdi».[32]

Bayat döyüşü, eyni zamanda, bu qalanın gələcək tarixi sınaqlara dözə bilməyəcəyini də üzə çıxardı. Ona görə də yeni qala salınması tələb olunurdu. ***Mirzə Adıgözəl bəy**** yazırdı: «Pənah xan **Şahbulağı** adı ilə məşhur olan Tərnəkütdə bir qala bina etdi. Daş və əhəngdən məscidlər, evlər, çarsu (meydan, bazar meydanı – *Y.M., K.Ş.*) və hamamlar tikdirdi. Bu işləri 1165-ci ildə (1751-ci il – *Y.M., K.Ş.*) bitirərək oranı özünə məskən etdi».[33]

### 3.2. Kürəkçay müqaviləsi

Pənah xan gücləndikcə pərakəndəlik tərəfdarı olan feodalların – məliklərin pozuculuq fəaliyyətləri də artırdı. Bunun qarşısının alınması hərbi-siyasi baxımdan zəruri idi. Belə olmasa, xanlığın ərazi-inzibati bütövlüyü itirilə bilərdi. Bu tarixi həqiqəti ilk mənbələr də təsdiq edir.

***Mir Mehdi Xəzani**** çox haqlı olaraq yazırdı: «Bu Qarabağda ki, beş mahal bundan əqdəm Xəmsə mahalı işlaq olurmuş və şimdi hər birisi bir qeyri-isim ilə adlanırlar...».[34] Mirzə Adıgözəl bəy Qarabağdakı feodal mülkləri – *məliklikləri* haqqında yazırdı: «Bu mahalların biri **Dizaqdır**. Məlikləri Məlik Yeqan adlanır. O Loridən*** qaçıb gəlmiş, Nadir şahın səltənəti dövründə və onun əmrilə məliklik taxtında oturub hörmət qazanmışdır.

İkincisi – **Vərəndədir**. Məlikləri Məlik Şahnəzərlilər olmuşdur. Onlar daha qədim bir nəslə mənsub və daha çox etibar sahibidirlər. Əsilləri də Göyçə**** əsilzadələrindəndir. Sonra oradan qaçaraq gəlib Qarabağda Vərəndə mahalının məliklik camından sərxoş olmuşlar.

Üçüncü – **Xaçındır**. Məlikləri Həsən Cəlalyan övladıdır. (Onlar) riyasət gəlininə gözəllik verib (hökmran olmuşlar). Bu ailə məliklik mənsəbindən məhrum olduqdan sonra, bu mahalın müstəqil bir məliki olmamışdır. Axırda, mərhum Pənah xan Cavanşirin dövlət günəşi və şövkət bayrağı riyasət üfüqündən baş vurub,

"...After this victory (Bayat fight – *Y.M., K.Sh.*), the legend about the bravery of Panah khan, which became wide-spread everywhere, subjected all the Moslem tribes living in Garabagh at that time to him without wars".[32]

At the same time, the Bayat fight exposed that this castle was not going to stand future historical tests. Therefore, a new castle had to be built. ***Mirza Adigirzal bay**** writes: "Panah khan built a castle in Tarnakut, which was known as **Shahbulag**. He ordered to build mosques, houses, charsu (square, bazaar square – *Y.M., K.Sh.*) and bathhouses with stone and lime. He finished all of these in 1165 (1751 – *Y.M., K.Sh.*) and made that place his abode".[33]

### 3.2. Kurakchay treaty

As Panah khan strengthened, the destructive activity of feudals-maliks, who supported a scattered type of state increased also. Preventing this became a vital job from the military-political point of view. Otherwise, the territorial-administrative unity of khanate could be lost. Original sources confirm as well this historical truth.

***Mir Mehdi Khazani**** was very correct in writing: "The five mahals (regions) in Garabagh were together called the Region of Khamsa before, but now they all have different names..."[34] Mirza Adigirzal bay wrote about the feudal malikliks: "One of these mahals is **Dizag**. Their malik is Malik Yegan. He ran away from Lori***, sat on the throne of malik during the reign of Nadir shah at his order and gained respect.

The second mahal is **Varander**. Their maliks were maliks of the Shahnazarly dynasty. They belong to a more ancient generation and enjoy greater trust. The noblemen of Goycha**** were their ancestors. Later they escaped from Goycha, came to Garabagh and became drunk with power after drinking the bowl of the position of malik in Varander mahal.

The third mahal is **Khachin**. Their malik is Hasan Jalalyan's son. (They) made the bride of power beautiful and (became rulers). After this family was deprived of the rank of malik, this mahal had no independent malik. Finally, the deceased Panah khan Javanshir's "Sun of statehood" and "flag of majesty" raised on the horizon of

* Mirzə Adıgözəl bəy (1780–1848) – tarixçi. Qarabağ xanının divanında, sonra rus ordusunda xidmət etmişdir. «Qarabağnamə» müəlliflərindən biri

** Mir Mehdi Xəzani (1819–1894) – tarixçi. «Qarabağnamə» müəlliflərindən biri

*** Lori (Loru) – Azərbaycanın yaşayış məskənlərindən biri. XIV əsrdə dağıdılmışdır. Taşır da adlandırılır. 1921-ci ildə rəsmən Ermənistan SSR-ə qatılmışdır.

**** Göyçə – Qərbi Azərbaycanda yer adı. İlk dəfə V əsr hadisələri ilə əlaqədar xatırlanan Göyçə gölünün adından götürüldüyü bildirilir. Şah İsmayılın 1510-cu ilə aid fərmanında Göyçə mahalından bəhs edilir. İrəvan xanlığı yarandıqda onun mahallarından biri olmuşdur. Rusiya işğalından sonra İrəvan quberniyasının Yeni Bayazid qəzasına daxil edilmişdi. Sovet hakimiyyəti illərində tarixi Azərbaycan torpaqlarında yaradılmış Ermənistan SSR-ə verilmişdir. Ermənilər 1930-cu ildə Azərbaycan sözü olan «Göyçə» adını dəyişdirib, «Sevan» adlandırmışlar.

* Mirza Adigirzal bay (1780–1848) – historian. He served first in the law-court of the khan of Garabagh, then in the Russian army. One of the authors of "Garabaghname"

** Mir Mehdi Khazani (1819–1894) historian. One of the authors of "Garabaghnamer"

*** Lori – one of the settlements in Azerbaijan. Destroyed in the XIV century. Called also Tashir. It was officially annexed to the Armenian SSR in 1921

**** Goycha – name of a place in Western Azerbaijan, believed to take its name from that of Goycha lake mentioned firstly in relation with events of the V century. Shah Ismayil's decree in 1510 mentions the Goycha mahal. *It was one of the mahals of the Iravan khanate,* when the latter was created. After the Russian invasion, it became a part of the Yeni Bayazid area. During the Soviet period it was given to Armenia which has been formed as a state in the historical Azerbaijani lands. In 1930, the name of Azerbaijani word "Goycha" was changed into "Sevan" by Armenians



Qarabağ vilayətinin bütün sahəsini cəlal və dəbdəbə ilə işıqlandırdı. Bu zaman xınzırıstanlı (indiki adı – Xındırıstan – *Y.M., K.Ş.*) Məlik Mirzə xan... bu əbədi dövlət məmurlarının əmri ilə məliklik sikkəsini... adına kəsdirdi. Ondan sonra da oğlu Allahverdi və nəvəsi Məlik Qəhrəman... məliklik bayrağını göylərə qaldırdılar.

Dördüncü – **Çiləbörd mahalıdır**. Məlikləri Məlik Allahquludur. Əsilləri Mağavizdən* gəlmədir. Bunlar gəlib Çiləbörddə məlik olmuş, Tərtər çayının ortasında vaqe, ən möhkəm bir məmləkətdə yerləşmişlər. Çox çətin bir yolu olan Çermux qalasını (Çiləbördün müxtəsər adıdır – *Y.M., K.Ş.*) özlərinə məskən, sığnaq və mənzil etmişlər. Çiləbördə müstəqil olaraq yiyələnmiş və böyük bir şöhrət qazanmışlar... Nadir şah... ona sultanlıq rütbəsi və xələti verdi...

Beşinci – **Talış mahalıdır**. Məlikləri Məlik Usubdur. Əsilləri Şirvandan gəlmədir. Bir müddət Talış kəndində sakin olmuşlar. Onlardan bir çoxu dəfələrlə məliklik etmişdi. Sonralar məlik Usub Gülüstan qalasını zəbt edib orada sakin olmuşdur»[35] **(Cədvəl 3.1.)**.

***Cədvəl 3.1***

**Qarabağ məliklikləri**

| Məlikliyin adı | Qarabağa gəlmələri | |
|---|---|---|
| | *Nə vaxt* | *Haradan* |
| Vərəndə | 1603 | Göyçə mahalından |
| Çiləbörd | 1637 | Zəngəzurdan (Sünikdən) |
| Xaçın | XVIII əsrdə yaranmışdır | Yerli |
| Dizaq | XVIII əsrin əvvəlləri | Lori vilayətindən |
| Gülüstan (Talış) | XVIII əsrin əvvəlləri | Şirvandan (Qəbələ sultanlığının Nic kəndindən) |

Beləliklə, Xaçın istisna olmaqla, Qarabağdakı digər məliklər və onların mənsub olduqları nəsillər əslən Qarabağdan deyildilər və bu diyara başqa yerlərdən gəlmə idilər. Özü də erməni deyil, keçmiş alban nəsillərinin nümayəndələri idilər. Buna görə də erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddialarına «haqq» qazandırmaq üçün həmin məliklərə «erməni dövlətçi-

power and lighted all parts of the Garabagh district with splendor and luxury. At the order of officials of this eternal state Malik Mirza khan from Khinziristan (modern name – Khindiristan – *Y.M., K.Sh.*)... minted the coin of the rank of malik with his name. Further, his son Allahverdi and grandson Malik Gahraman... raised the flag of maliklik to the skies.

The fourth mahal is **Chilerbird**. Their malik is Malik Allahgulu. They are originally from Maghaviz*. They came and became maliks in Chilerbird and settled in a really strong country in the middle of the Tartar River. They made the Chermukh castle (short name of Chilerbird – *Y.M., K.Sh.*), which had very difficult roads their abode, shelter and habitation. They appropriated Chilerbird independently and gained great fame...Nadir shah...gave him the rank and robe of sultan...

The fifth mahal is **Talish**. Their malik is Malik Usub. They sprang up from Shirvan. For some time they lived in the village of Talish. Many of them became maliks more than once. Further, Malik Usub occupied the Gulustan castle and settled there"[35] **(Table 3.1)**.

***Table 3.1***

**Garabagh malikliks**

| Name of the maliklik | Immigration to Garabagh | |
|---|---|---|
| | *When* | *From where* |
| Varander | 1603 | Goycha mahal |
| Chilerbird | 1637 | Zangazur (Sunik) |
| Khachin | Created in the XVIII century | Local |
| Dizag | Early XVIII century | Lori district |
| Gulustan (Talish) | Early XVIII century | Shirvan (Nij village, Gabala sultanate) |

Thus, except for Khachin, other malikliks and the generations they belonged to were not originally from Garabagh and had come to this land from other places. They were not Armenians, but representatives of the former Alban generations. Therefore, the fact that Armenian nationalists in order to justify the territorial claims against Azerbaijan consider those malikliks as a

* Mağaviz, Maqovuz – XVII əsrdə Maku nahiyəsindən gələnlər tərəfindən İrəvan əyalətində salınmış yaşayış məskəni. «Maku»ya «Uz» tayfa adının əlavə edilməsi ilə yaranmışdır. Çar Rusiyası dövründə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasına daxil idi. Sovet dövründə Ermənistan SSR-in Qafan rayonunun tərkibində olmuşdu. Ermənilər bu tarixi adı da dəyişdirmişlər. Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 1949-cu il 29 iyun tarixli fərmanı ilə adı dəyişdirilərək, «Kaxnut» adlandırılmışdır.

* Maghaviz, Magovuz – settlement built by the people coming from the "Maku" district of Iravan province in the XVII century. Its name was created by adding the name of the "Uz" tribe to the word "Maku". During the power of czarist Russia, it was a part of the Zangazur uezd, Yelizavetpol (Ganja) gubernia. During the Soviet power, it was within the Gafan region of Armenian SSR. Armenians have also changed this historical name. Its name was changed into "Kakhnout" by the decree of the Armenian SSR Supreme Soviet Presidium in June 29, 1949

liyinin» davamı kimi baxmaları kökündən yanlışdır, daha doğrusu, elmi saxtakarlıqdır. Digər tərəfdən, gəlmə məliklər Qarabağda mahal başçılığını ələ keçirdikdən sonra kiçicik də olsa, heç bir dövlət birləşməsi yarada bilməmişdilər. Onlar bir-birindən təcrid olunmuş, çox zaman isə bir-birilə çəkişən mahal başçıları səviyyəsindən yuxarı qalxa bilməmişdilər. Bundan başqa, yuxarıdakı cədvəldən göründüyü kimi, Xaçın istisna edilməklə XVII yüzildən əvvəlki dövrdə onların Qarabağda kökü yoxdur. «Məliklər Qarabağda feodal dağınıqlığının güclənməsini istəyən qüvvələri təmsil edirdilər».[36] Məliklərin separatçı-mərkəzdənqaçma fəaliyyəti xanlıqda və bütün ölkədə gedən mərkəzləşdirmə işinə mane olurdu. Onların yadelli qüvvələrin Qarabağa hücumunun həyata keçirilməsində iştirak etmələri Qarabağ xanlığının müstəqilliyinə ağır zərbə vururdu. Buna görə də məlikliklərin separatçılıq meyillərini aradan qaldırmaq üçün görülən tədbirlər etnik konflikt olmayıb, Qarabağ xanlığının müstəqilliyinə qarşı yönəlmiş qəsdlər əleyhinə mübarizə idi.

Xəmsə məliklərindən Pənah xanın hakimiyyətini birinci olaraq tanıyan Məlik Şahnəzər oldu. Bu, İbrahimxəlil ağanın Məlik Şahnəzərin qızı Hürzatla evlənməsi ilə nizama salındı.

Xaçın məliyi Ulubab Ballıqayada məğlub edildikdən sonra Pənah xanın hakimiyyətini tanıdı. Dizaq, Çiləbörd, Talış məliklərinin düşmənçilik siyasəti isə bir neçə il sürdü. **Əhməd bəy Cavanşir** yazır: «Qonşu vilayətlərdən toplanmış xəzinə pullarını saxlayan Tuğ və ya Dizaq məliyi Yeqan öz oğulları və qohumları ilə birlikdə kəskin müqavimət göstərdikdən sonra onların bir hissəsi qırılmış, **bir hissəsi isə islam dinini qəbul etmişdi**... Çiləbörd məliyi Allahqulu sultan əvvəlcə onun təbəəliyini qəbul etmiş, lakin sonralar xəyanətdə ittiham edilərək Pənah xanın əmri ilə öldürülmüşdü. Onun qardaşı Məlik Hətəm Talışın beşinci məliyi Məlik Usubla ittifaq bağlayıb uzun müddət öz obalarını Pənah xan dəstələrinin hücumlarından müdafiə etmiş, lakin Mardakerd kəndində məğlub olduqdan sonra Tərtər çayının yuxarılarında yerləşən alınmaz Cermux qalasına çəkilmişdi. Bir ilə qədər qalada qaldıqdan sonra, nəhayət, öz ailəsi ilə birlikdə qürbət ellərdə nicat axtarmalı olmuşdu. Lakin onlar bununla öz siyasi fəaliyyətlərini bitirmədilər. Belə ki, sonralar onların həm özləri və həm də övladları (birincinin oğlu Məlik Məcnun) daim Qarabağa hücumlar edirdilər...».[37] Pənah xanın məlikləri tabe etmək yolunda qazandığı uğurları onun oğlu İbrahim xan davam etdirdi.

Qarabağ məliklərindən dizaqlı Yesay, çiləbördlü Məcnun və gülüstanlı Bəyləryan İbrahim xana tabe olmaqdan imtina etdilər. Vərəndəli Məlik Şahnəzər və xaçınlı Mirzə xan isə İbrahim xanın hakimiyyətini qəbul edərək onun yaratdığı vətənsevər qüvvələr birliyinə qoşuldular.

continuance of the "Armenian statehood" is radically wrong, or rather scientific falsification. On the other hand, the immigrant maliks failed to create even a small state union after gaining power over the mahals in Garabagh. They could not rise above the level of the heads of mahals, who lived in an isolated condition and often fought against each other. There is no root of theirs in Garabagh in the period before the XVII century. "Maliks represented the forces which wanted strengthening of the feudal disorderliness in Garabagh".[36] The separatist-centrifugal activity of maliks hindered the centralization work going on in the khanate and the entire country. Their participation in the alien forces' attacks on Garabagh struck a hard blow to the independence of the Garabagh khanate. Therefore, the measures taken in order to eliminate the separatist trends of malikliks were not ethnic conflict, but a fight against the attempts upon the independence of the Garabagh khanate.

The first among the Khamsa maliks to recognize the independence of Panah khan's power was Malik Shahnazar. This was achieved through marriage diplomacy. In other words Ibrahimkhalil khan married Malik Shahnazar's daughter Hurzat.

The malik of Khachin Ulubab recognized Panah khan's power after he was defeated in Balligaya. Nevertheless, the hostile policy of Dizag, Chilerbird and Talish maliks went on for several years. **Ahmad bay Javanshir** writes: "After the fierce resistance of the malik of Tugh or Dizag, Malik Yegan, together with his sons and relatives, who kept the money of treasure, gathered from neighboring provinces, where some of them were killed, **and some adopted Islam...** Malik of Chilerbird, Allahgulu Sultan first accepted his power, but later he was killed on Panah khan's order after being accused of treason. His brother, Malik Hatam went into alliance with the fifth malik of Talish, Malik Usub and defended their settlements from attacks by Panah khan's forces for a long time, but retreated to the impregnable Jermukh castle after being defeated in the Mardakerd village. After staying in the castle for about a year, he had to look for a shelter in foreign countries. However, his *political activity did not end with this. That is, later on,* both he and his sons (son of the first – Malik Majnun) were constantly attacking Garabagh...".[37] *The achievements of Panah khan in subordinating the maliks, was* continued by his son Ibrahim khan.

The Maliks of Garabagh, Yesay from Dizag, Majnun from Chilerbird and Baylaryan from Gulustan refused to subordinate themselves to Ibrahim khan. However, Malik Shahnazar from Varander and Mirza khan from Khachin accepted his power and joined the patriotic alliance of forces he had created.

The allies encircled the Tugh castle in 1781. Malik Yesay surrendered and Malik Bahtam came to power



Müttəfiqlər 1781-ci ildə Tuğ qalasını mühasirəyə aldılar. Məlik Yesay təslim oldu, burada hakimiyyət Məlik Bahtama keçdi. Lakin tezliklə o da dönük çıxdı.

İbrahim xanla separatçı məliklər arasındakı mübarizəyə 1783-cü ildən Rusiya dövləti də qarışmağa başladı. Cənubi Qafqazı işğal etməyə çalışan Rusiya burada – Azərbaycan ərazisində həmin məliklərin köməyi ilə «xristian dövləti», daha doğrusu, özünə dayaq yaratmağa çalışırdı. Bu zaman İbrahim xan özünün yüksək diplomatik bacarığı sayəsində düşmənçilik edən məlikləri Şuşaya toplaya bildi. ***Sənədlər əsasında*** (kursiv bizimdir–*Y.M., K.Ş.*) onların Qarabağ xanlığına xəyanət etdiyini sübuta yetirərək onları həbsə aldırdı.

Məlik Məcnun və Abov Şuşa həbsxanasına salındı, Məlik Bahtam isə günahlarına görə Ərdəbil xanına verildi. Məliklərin müttəfiqi Gəncəsər monastırının katolikosu İohannes qardaşı ilə birlikdə tutulub cəzalandırıldı.

Lakin Şuşa həbsxanasındakı məliklər qaça bildilər. Onlar Tiflisə gələrək burada Qarabağ xanlığına qarşı hazırlanmış qəsdi gürcü çarı ***II İrakli*** (1744–1798) və rus polkovniki **Burnaşovun** köməyi ilə yerinə yetirməyə girişdilər. Qarabağ xanlığına qarşı «xaç yürüşü»-nə başlayan düşmənlər Gəncəyə yaxınlaşdılar. Lakin 1787–1791-ci illər Rusiya–Türkiyə müharibəsinin başlanması nəticəsində bu «xaç yürüşü» baş tutmadı. İbrahim xan müstəqil Qarabağ xanlığının bütövlüyünü qoruyub saxlaya bildi.

1795-ci ilin yayında İranda hakimiyyəti ələ alan ***Ağa Məhəmməd Qacar*** (1742–1797) Qarabağ xanlığına hücum etdi. Şuşanın 33 günlük mühasirəsi uğursuz oldu. Şuşadan sonra o, Tiflis üzərinə yeridi. **V. Zubovun** komandanlıq etdiyi rus qoşunlarının hücumu ilə[38] Ağa Məhəmməd Qacar geri çəkildi. Rus çariçası ***II Yekaterinanın*** (1764–1796) ölümü ilə V.Zubov da Azərbaycandan geri çağırıldı. 1797-ci ildə Ağa Məhəmməd Qacar yenidən Qarabağa hücum etdi, Şuşanı tutdu, lakin burada öldürüldü.

XVIII yüzilin sonları – XIX yüzilin başlanğıcında Rusiyanın Cənubi Qafqazda, o cümlədən Azərbaycanda işğalçılıq fəaliyyəti gücləndi, 1801-ci ildə Gürcüstan imperiyaya birləşdirildi, Azərbaycanın Car-Balakən camaatlığı (1803) və Gəncə xanlığı (1804) işğal olundu.

İbrahim xan belə bir vəziyyətdə Rusiya qoşunlarının komandanı **P.D.Sisianovla** (1802–1806) Kürəkçayda müqavilə bağladı[39]. Kürəkçay müqaviləsinə ***(Sənəd 2)*** əsasən, Qarabağ xanlığı məhz müsəlman – Azərbaycan torpağı kimi Rusiyaya ilhaq olundu. Tarixi reallığı əks etdirən Kürəkçay müqaviləsi, eyni zamanda, Qarabağın, o cümlədən bu diyarın dağlıq hissəsinin Azərbaycan xalqına məxsus olduğunu sübut edən ən mötəbər sənəddir.

here. However, soon he also appeared to be treacherous.

From 1783 Russia began to intervene as well in the struggle between separatist maliks and Ibrahim khan. Intending to occupy the South Caucasus, Russia tried to create a "Christian state" in the Azerbaijan territory, or rather its supporter here with the help of those maliks. Ibrahim khan managed to gather the hostile maliks in Shusha with the help of his high diplomatic skill. **Based on documents**, he proved that (Italicized by us – *Y.M., K.Sh.*) they betrayed the Garabagh khanate and arrested them.

Malik Majnun and Abov were put into the Shusha jail; Malik Bahtam was given to the khan of Ardabil for his faults. The ally of the maliks, Catholicos of Ganjasar Monastery Johannes and his brother were arrested and put in jail as well.

However, the maliks managed to escape from the Shusha jail. They came to Tiflis and began to prepare the coup-d'etat against the Garabagh khanate with the help of the Georgian tzar ***Irakli the Second*** (1744–1798) and the Russian colonel **Burnashov**. The enemies, beginning a "crusade" against the Garabagh khanate, approached Ganja. However, this "crusade" failed due to the start of the Russian–Turkish war in 1787–1791. Ibrahim khan managed to preserve the integrity of the independent Garabagh khanate.

***Agha Mahammad Gajar*** (1742–1797), who came to power in Iran in the summer of 1795, attacked Garabagh. The 33-day siege of Shusha was unsuccessful. After Shusha, he attacked Tiflis. Agha Mahammad Gajar had to retreat after the attack of Russian troops commanded by **V.Zubov**.[38] When the Russian tzarina ***Catherine the Second*** (1764–1796) died, V.Zubov was called back from Azerbaijan. In 1797, Agha Mahammad Gajar attacked Garabagh once again and captured Shusha, but then he was killed there.

In late 18th and early 19th centuries, the invasive activity of Russia in South Caucasus, including Azerbaijan increased. In 1801, Georgia was annexed to the Russian Empire. The Jar-Balakan area (1803) and Ganja khanate (1804) of Azerbaijan were occupied.

Under such circumstances, Ibrahim khan concluded an agreement with the commander of Russian troops **P.D.Sisianov** in Kurakchay.[39] Pursuant to the Kurakchay treaty ***(Document 2)***, the Garabagh khanate was annexed to Russia specially as a Moslem-Azerbaijan territory. The Kurakchay treaty, which reflects a historical reality, is at the same time a reliable document proving that Garabagh, as well as its mountainous part, belongs to the Azerbaijani people.

## 4. QARABAĞ RUSİYA İMPERİYASI TƏRKİBİNDƏ

### 4.1. Çarizmin Qarabağda idarəçilik rejimi. Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi

1805-ci il Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı faktiki olaraq Rusiyaya ilhaq edildi ***(Xəritə 6)***. Xan hakimiyyətinin hələ 17 il də saxlanması müəyyən strateji məqsəd daşıyırdı. 1806-cı ildə İbrahim xanın qətli Rusiyanın heç bir hüquqa məhəl qoymadığını nümayiş etdirirdi.[40] Belə bir şəraitdə İbrahim xanın xanlığa keçən oğlu ***Mehdiqulu xanın*** hakimiyyəti (1806–1822) möhkəm deyildi. Çar hökuməti işğal rejimini gücləndirir, xanlığın ərazisində möhkəmlənmək məqsədi ilə yerli müsəlman hakim təbəqənin iqtisadi mövqelərini zəiflətməyə, əksinə, özünə arxa sandığı qriqorianlaşmış və erməniləşmiş albanları üstün mövqeyə çıxarmağa çalışırdı. Xanlıq ləğv edildikdən sonra Şimali Azərbaycanın digər yerlərində olduğu kimi, burada da komendant idarə üsulu yaradılmış, o, **Hərbi-müsəlman dairəsinin*** (mərkəz Şuşa) tərkibinə daxil edilmişdi (***Xəritə*** *7*). Bu dövrdə Rusiya qoşunlarının işğalçılıq əməliyyatlarında iştirak edən və əslən erməni olan general-leytenant ***V.Q.Mədətov*** (1782–1829) Qarabağda sözün əsl mənasında erməni– Rusiya müstəmləkə rejimi yaratmışdı. Çar hökuməti 1830-cu il üsyanlarının** təsiri nəticəsində Cənubi Qafqazda 1840-cı il 10 aprel inzibati-hərbi islahatı keçirdi. Bu islahata görə Qarabağ əyaləti Şuşa qəzasına çevrilmiş və Kaspi vilayətinə (mərkəz Şamaxı) tabe edilmişdi (***Xəritə 8***). ***Bununla da Qarabağ anlayışı siyasi mənasını itirmiş oldu və yalnız coğrafi anlayış kimi qaldı.***

1846-cı il inzibati-ərazi bölgüsü zamanı Şuşa qəzası yeni yaradılmış Şamaxı quberniyasına (1859-cu ildən Bakı) tabe edildi (***Xəritə 9***). 1867-ci ildə Yelizavetpol quberniyası yaradıldıqda Şuşa qəzası onun tərkibinə verilir və ərazisi bölünərək burada daha üç qəza – Zəngəzur, Cavanşir və Cəbrayıl qəzaları da təşkil olunur (***Xəritə 10***). Bununla, Şuşa qəzası da vahid inzibati-siyasi idarəsini itirir. Belə bir inzibati-ərazi bölgüsü xüsusi məqsədlə həyata keçirilmişdi. Bu islahatlar ermənilərin idarə sistemində daha geniş təmsil edilməsinə hərtərəfli imkanlar açdı.[41]

Çarizm Şimali Azərbaycan torpaqlarını işğal etdikcə, bu torpaqlarda möhkəmlənmək üçün həm də əhalinin erməniləşdirilməsi siyasətini də həyata keçirirdi. 1828-ci il Türkmənçay müqaviləsindən (***Sənəd 3***) sonra bu hal daha müntəzəm və məqsədyönlü xarakter alır. Ermənilərin İrandan Şimali Azərbaycana köçürülməsi həmin müqavilənin **XV maddəsi** ilə təsdiq olunurdu. Həmin maddəyə görə şah öhdəsinə götürürdü ki, o, ölkədə yaşayan **məmur və sakinlərə bu gündən başlayaraq, öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan daşınan əmlakını aparmaq və satmaq üçün bir il vaxt verir. Daşınmaz əmlaka gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir.**[42] Bu maddə Türkmənçay müqaviləsinə xüsusi məqsədlə, yəni ermənilərin İrandan kütləvi surətdə Şimali Azərbaycana, o cümlədən Qarabağa köçürülməsini təmin etmək üçün daxil edilmişdi. Ermənilərin köçürülməsinin «hüquqi-siyasi» təminatı ilə birgə təşkilati tədbirləri də həyata keçirilmişdi (köçürmə komitəsi yaradılmışdı və i.a.).

1829-cu il Ədirnə müqaviləsi ilə Osmanlı imperiyasından da ermənilərin yenicə işğal olunmuş Şimali Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilməyə başlayır.[43] Ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri Qarabağ ərazisi idi (***Sənəd 4***).

## 4. GARABAGH UNDER THE RUSSIAN EMPIRE

### 4.1. The czarist regime in Garabagh. Massive resettlement of Armenians to Garabagh

By the Kurakchay treaty of 1805 the Garabagh khanate in fact was annexed to Russia ***(Map 6)***. Keeping the Khan Dominion another 17 years conveyed a strategic purpose. *Ibrahim khan's execution in 1806 demonstrated Russia's rejection of every law.*[40] Under this condition of dominion of Mehdigulu khan (1806–1822), the son of Ibrahim khan was not stable. Under this condition the czar strengthened the occupying regime and in order to firmly establish the khanate territory tried to weaken the economic condition of the ruling Moslem strata, and vice versa to raise Grigorianized and Armenianized Albans whom he considered supportive to his superior position. After the abolition of the khanate, curfew administrative rule (as in the other territories of North Azerbaijan) was established here as well and it included the Military-Moslem district* (Center Shusha) ***(Map 7)***. At that time lieutenant-general V.G.Madatov (1782–1829), who had taken part in annexation operations of the Russian army and who was Armenian by origin, established an Armenian-Russian annexation regime *in the true sense of the word*. As a result of the influence of the 1830 uprisings**, the czar carried out administrative- military reform on April 10, 1840. In accordance with this reform the Garabagh region had been changed to the Shusha uezd and put under the Caspian province's supervision (Center Shamakhi) ***(Map 8)***. **With that the Garabagh notion had lost its political meaning and stayed only as a geographical notion.**

During the administrative territorial division of 1846, the Shusha uezd had been put under the newly established Shamakhi province's (since 1859 Baku) supervision ***(Map 9)***. In 1867 when the Yelizavetpol gubernia had been established, the Shusha uezd was put under it's supervision. The territory of Shusha uezd was divided and three additional uezds: Zangazur, Javanshir and Jabrail were created here ***(Map 10)***. By that the Shusha uezd also lost its administrative-political ruling. Such administrative territorial division had been carried out for that specific purpose. These reforms gave a wide-*spread opportunity to Armenians to be represented in the ruling system.*[41]

Czarism occupying North Azerbaijan territories at the same time carried out the Armenianization policy of the territories. Since the Turkmanchay treaty of 1828 **(Document 3)** this event had become more regular and purposeful. The resettlement of the Armenians from Iran to North Azerbaijan was confirmed by the **XV article** of this treaty. Due to this article **the shah gives officials and inhabitants a year to move from Iran province to Russia with their families freely from that day, to carry possessions and sell immovable property without fixing customs and tax prices to their properties and goods for sale without laying obstacles of governmental and local authorities. As far as the immovable property concerned 5 year period is determined for its selling or for decision to be taken on it.**[42]

This article has been purposefully included in the Turkmanchay treaty ensuring that Armenians could massively and freely move from Iran to North Azerbaijan including Garabagh. "Legal-political" guarantee and organizational measures have been taken related to the resettlement of Armenians.

By the Adirna treaty of 1829, resettlement of Armenians from the Ottoman Empire to the recently occupied North Azerbaijan territories began to be carried out[43]. One of the principal directions in the resettlement of Armenians was Garabagh lands ***(Document 4)***.

* Yeni yaradılan dairənin də məhz «**Hərbi-müsəlman dairəsi**» adlandırılması Qarabağın Azərbaycan xalqına məxsus olduğunu sübut edən daha bir təkzibolunmaz faktdır.

** Türkmənçay müqaviləsindən (1828) sonra çar hökuməti Şimali Azərbaycanda dözülməz hərbi-müstəmləkə rejimi qurmuşdu. Ona görə də 1830-cu ildə Car-Balakəndə, 1831-ci ildə Lənkəranda, 1837-ci ildə Qubada, 1838-ci ildə Şəkidə müstəmləkəçilərə qarşı xalq üsyanları baş vermişdi.

* A new district which has been named "Military–Moslem district" once again confirms that Garabagh belongs to Azerbaijani people.

** After Turkmanchay treaty (1828) the czarist Russia an unbearable military-colonial regime established in Azerbaijan. That's why the anticolonial uprising took place in 1830 in Jar–Balakan, in 1831 in Lankaran, in 1837 in Guba, in 1838 in Shaki.



*«Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır.»*

**A.S.Qriboyedov**

*Rusiya imperatoruna məktubundan*

*«Your majesty, do not allow Armenians to settle in the central lands of Russia by any means. They are such a race, which having lived there for several decades, would start declaring all over the world, that these places were their primordial lands.»*

**A.S.Qriboyedov**

*Abstract from the letter to Russian emperor*

Qarabağ xanlığının ləğv edilməsi zamanı onun əhalisinin etnik tərkibi Qafqazdakı rus qoşunlarının baş komandanı **A.P.Yermolovun** (1816–1827) göstərişi ilə tərtib olunan[44] «Təsvir»də əksini tapmışdır. Hələ bu sənədin tərtibinə qədər (1805–1822) Qarabağda aparılmış erməniləşdirmə siyasətinə baxmayaraq, statistikanı (1593-cü ildən başlayaraq) müqayisə etsək görərik ki, burada əhalinin əksəriyyətini yenə də azərbaycanlılar təşkil edirdi. «Təsvir»ə görə, Qarabağ əyalətində olan **20.095** ailədən **15.729**-u azərbaycanlı (1.111-i şəhərdə, 14.618-i kənddə), – **4366**-sı erməni, o cümlədən alban

During the abolition of the Garabagh khanate the ethnic composition of its population was reflected in a "Description" which was compiled by instruction of the commander-in-chief of the Russian army in Caucasus **A.P.Yermolov** (1816–1827).[44] If we compare statistics (since 1593) we can see that despite the Armenianization policy carried out in Garabagh the Azerbaijanis formed a majority of the population again. According to the "Description" from **20,095** families in Garabagh province **15,729** were Azerbaijanis (1.111 in the city, 14.618 in the village), – **4366** were Armenians (421 in the city, 3.945 in

idi (421-i şəhərdə, 3.945-i kənddə).[45] Yeri gəlmişkən, bu ermənilərin böyük əksəriyyəti qriqorianlaşdırılmış və erməniləşdirilmiş keçmiş albanlar idilər. Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi nəticəsində burada yeni erməni kəndləri (Marağalı, Canyataq və s.) meydana gəlməyə başlamışdı.[46] (Ermənilər sonralar köçürülmə «şərəfinə» Qarabağda abidələr ucaltmış, lakin XX yüzilliyin 80-ci illərində Azərbaycana qarşı ərazi iddiaları qaldırdıqları zaman onları saxtalaşdırmışlar. – *Y.M., K.Ş.*) **Rəsmi məlumatlara əsasən, 1828–1830-cu *illər* arasında, yəni *cəmi 2 il ərzində, Şimali* Azərbaycana, o cümlədən Qarabağa İrandan 40 min, Osmanlı imperiyasından 90 min erməni köçürüldü.[47] Qeyri-rəsmi erməni köçkünləri ılə birlikdə onların sayı 200 mini ötmüşdü.** Köçürülmədən sonra Qarabağın etnik tərkibində ermənilərin sayı artmağa başladı.

### 4.2. Dağlıq Qarabağın Azərbaycan-alban əhalisinin qriqorianlaşdırılması və erməniləşdirilməsinin başa çatması

Dağlıq Qarabağın alban əhalisinin qriqorianlaşdırılması və erməniləşdirilməsi, yuxarıda qeyd olunduğu *kimi, uzunsürən bir tarixi proses olmuşdur:*

1. Qarabağın aborigen (yerli) əhalisi digər Şimali Azərbaycan torpaqlarının (Albaniyanın) əhalisi kimi alban tayfaları olmuşlar;

2. IV əsrin əvvəllərində Albaniyanın bəzi yerlərində, o cümlədən burada da xristianlıq yayılmışdı;

3. Ərəb xilafətinin Şimali Azərbaycanı işğalı və hökmranlığı dövründə – VII–IX əsrlərdə ölkədə İslam dini yayılmış, lakin Qarabağın dağlıq hissəsində yaşayan albanlar xristianlıqda qalmışlar;

4. Cənubi Qafqaza miqrasiya edən erməni-qriqorian missionerləri Ərəb xilafətinin işğalları nəticəsində yaranmış əlverişli şəraitdən istifadə edərək Qarabağın dağlıq hissəsinin xristian-alban əhalisini qriqorianlaşdırmağa, *bunun ardınca da erməniləşdirməyə* başladılar. Qriqorianlaşdırmaya nisbətən erməniləşdirmə daha uzun sürən tarixi proses oldu;

5. Qarabağın dağlıq hissəsinin xristian əhalisi rus çarı I Pyotra məktubunda da özlərini alban adlandırmışdılar. Bu sübut edir ki, onlar hələ XVIII əsrin əvvəllərində də özlərini erməni hesab etmirdilər.

Lakin XVIII əsrin əvvəllərindən Qarabağın alban-qriqorian əhalisinin erməniləşdirilməsi prosesində əsaslı dönüş baş verdi.

Rusiyanın regiona müdaxiləsi ermənilərin digər ölkələrdən Cənubi Qafqaza, o cümlədən Azərbaycana köçürülüb gətirilməsi burada erməni amilinin gücləndirilməsinə kömək etdi. Bu siyasət Qarabağın dağlıq hissəsinin qriqorianlaşdırılmış albanlarının tarixi tale-

the village)[45]. It should be noted that a majority of these Armenians were Grigorianized and Armenianized former Albans. As a result of mass resettlement of Armenians to Garabagh there appeared new Armenian villages (Maraghaly, Janyatag, etc.).[46] (Some time later Armenians erected monuments in Garabagh "in honour" of their resettlement, but in 80s of XX century during territorial claims they falsified them. – ***Y.M., K.Sh.)*** **During only two (1828–30) years 40000 Armenians from Iran, 90000 Armenians from the Ottoman Empire were resettled *to North Azerbaijan as well as in Garabagh.*[47] Official information put their number at over 200000 together with unofficial Armenian immigrants.** After resettlement the Armenians' number in the ethnic composition of Garabagh started growing.

### 4.2. Completion of Grigorianization and Armenianization of Azerbaijan-Alban population of Garabagh

As was mentiond above the grigorianization and armenianization of Alban population of Daghlig Garabagh *was a long process:*

1. The aborigines of Garabagh as the population of other North Azerbaijan lands (Albania) have been Alban tribes;

2. At the beginning of the 4th century in some places of Albania, including here, Christianity was spread;

3. During the Arabian caliphate's occupation and rule in VII–IX centuries the Islamic religion was spread in the country, but Albans living in the mountainous part of Garabagh remained Christians;

4. Armenian–Grigorian missionaries immigrated to the South Caucasus and used favarable conditions established as a result of the Arabian caliphate's occupation and began to *grigorianize and then armenianize* Christian–Alban population of the mountainous part of Garabagh. The historical process of armenianization lasted longer than grigorianization;

5. The Christian population in the mountainous part of Garabagh called themselves Albans in the letter to Peter the first. This proves that, they didn't yet consider themselves Armenians at the beginning of XVIII century.

From the beginning of XVIII century during the armenianization process of Albans a fundamental change took place.

Intervention by Russia in the region, resettlement of Armenians from other countries to South Caucasus, including Azerbaijan strengthened here the Armenian factor. This policy was the turning point in the history of grigorianized Albans living in the mountainous part of





1



2



3

1. Ermənilərin İrandan Şimali Azərbaycan torpaqlarına (Naxçıvan, İrəvan, Qarabağ) köçürülməsi (Rus rəssamı V.Maşkovun çəkdiyi şəkil). *1828-ci il.*
2. Ermənilərin İrandan Şimali Azərbaycana köçürülmələrinin 150 illiyi münasibəti ilə qoyduqları abidə. Ağdərə (Mardakert), 1978-ci il.
3. Həmin abidənin ermənilərin köçürülməsi tarixini göstərən ("150 il") hissəsinin separatçılar tərəfindən söküldükdən sonrakı görünüşü. Ağdərə (Mardakert),1988-ci il.

1. Replacement of Armenians from Iran to the North Azerbaijan territories (Nakhchivan, Iravan, Garabagh) (picture by the Russian painter V.Mashkov). 1828.
2. The monument laid by Armenians on the occasion of the 150th anniversary of their replacement from Iran to North Azerbaijan. Aghdere (Mardakert), 1978.
3. View of that monument after the part of it showing the date of replacement ("150 years") was pulled down by the *Armenian separatists.* Aghdere (Mardakert), 1988.

yində dönüş yaratdı. Onların ermənilәşdirilməsi prosesi son mərhələyə qədəm qoydu.

Rus–İran müharibələri (1804–1813, 1826–1828) və Rus–Türk müharibələri (1806–1812, 1828–1829) dövründə, xüsusilə 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrindən sonra İran və Osmanlı dövlətlərindən Şimali Azərbaycanın digər bölgələri ilə yanaşı, Qarabağa ermənilərin kütləvi surətdə köçürülməsi qriqorianlaşdırılmış yerli alban əhalisinin ermənilәşdirilməsini başa çatdırdı. 1836-cı ildə Alban katolikosluğu ləğv edildi.* Yalnız bundan sonra Qarabağın dağlıq hissəsinin alban əhalisi ilə bağlı «erməni» sözünü işlətmək olar, özü də şərti olaraq!

Bütün bunlara baxmayaraq, Dağlıq Qarabağ erməniləri tarix boyu ümumi erməni əhalisi içərisində alban kökü ilə bağlı spesifik xüsusiyyətlərini saxlamışlar.

### 4.3. Ermənilərin Azərbaycanda, o cümlədən Qarabağda azərbaycanlılara qarşı soyqırımlarına başlaması

XIX yüzilin 30-cu illərindən sonra da ermənilərin kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa köçürülməsi davam etdirilirdi. Rus qafqazşünası **N.Şavrov** məhz buna görə yazırdı *(1911)* ki, **Zaqafqaziyadakı 1,3 mln. ermənінin 1 mln.-dan çoxu gəlmədir.**[48] Bütün bunlara baxmayaraq, 1916-cı ildən Qarabağda (xanlıq sərhədləri daxilində) əhalinin yenə də təxminən 51 %-i azərbaycanlı, 46%-i isə erməni (yerli alban mənşəli ermənilərlə birlikdə – *Y.M., K.Ş.*) idi.[49] Köçürülüb gətirilən

> *«Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər ermənінin 1 milyonu yerli deyildir. Və onlar vilayətə bizim tərəfimizdən köçürülüb.»*
>
> **N.N.Şavrov**
>
> *«Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. С.Петербург. 1911, с. 64*

ermənilərin Qarabağın dağlıq hissəsində – onlarla eyni dindən olan yerli əhalinin (qriqorianlaşmış və ermənilәşmiş albanların) yaşadığı ərazidə məskunlaşdırılması daha geniş hal almışdı. Bu, gəlmə ermənilərin kompakt surətdə bir yerdə yaşamasını təmin etmək məqsədi ilə edilirdi və strateji niyyət güdürdü.

* Alban kilsəsi və Qriqorian kilsəsi haqqında əlavə məlumat üçün bax: s. 111 (159-160-cı qeydlər).

Garabagh. Their armenianization process entered the last stage.

During the Russia–Turkey wars (1804–1813, 1826–1828) and Russian–Iran wars (1806–1812, 1828–1829), *especially after 1828 Turkmanchay and 1829 Adirna* treaties massive resettlement of Armenians from Iran and Ottomon States to other regions of Azerbaijan including Garabagh ended the armenianization process of the grigorianized aborigines – Albans. In 1836 Alban catholicism was annulled.* Only after this it is possible to use the word "armenian" in connection with the Alban population, and it can be used tentatively!

Despite all this, Daghlig Garabagh Armenians compared to other Armenians have always historically kept their specific features connected with their Alban roots.

### 4.3. Beginning of Armenian genoside against Azerbaijanis in Azerbaijan including Garabagh

After the 1830's the Armenians' mass resettlement to North Azerbaijan lands, as well as to Garabagh continued. Russian scholar in Caucasian Studies **N.Shavrov** wrote that (1911) **more than 1 million Armenians out of 1,3 mln. in Caucasus were immigrants.**[48] Despite this since 1916, 51% of the population again was Azerbaijani and 46% was Armenian (together with local Alban origin Armenians – *Y.M., K.Sh.*) in Garabagh (within the khanate borders).[49] Settlement of Armenians in the mountainous part of Garabagh

> *«1 million out of 1.3 million Armenians, living in Transcaucasia, are immigrants. We have moved them to this area.»*
>
> **N.N.Shavrov**
>
> *"New threat to Russian business in Transcaucasia: forthcoming sale of Mugan to foreigners". St. Petersburg. 1911, page 64*

near the aborigines (grigorianized and armenianized Albans) who practiced the same religion became widespread. This was done in order to provide compact living of immigrant Armenians and carried a strategic aim.

The strengthening of the administrative-management system of Armenians, and the mechanical increasing of

* For additional information about Alban and Grigorian churches see page 111 (159-160 notes).





Gövhər ağa məscidi. 1883-1884-cü illər. Memar Kərbəlayi Səfixan Qarabaği (1817-1910). Şuşa şəhəri.

Girvhar Agha Mosque. 1883-1884. Architect Karbalayi Safikhan Garabaghi (1817-1910). Shusha city.


1


2


3


4


5


6


7


8


9


10


11


12

**Qarabağın görkəmli şair, yazıçı və ədəbiyyatşünaslarından:**
1.Molla Pənah Vaqif (1717-1797); 2. Xurşidbanu Natəvan (1832-1897); 3. Mir Möhsün Nəvvab (1833-1918); 4. Qasım bəy Zakir (1784-1857); 5.Əbdürrəhim bəy Haqverdiyev (1870-1933); 6. Firidun bəy Köçərli (1863-1920); 7. Həmidə xanım Cavanşir (1873-1955); 8. Nəcəf bəy Vəzirov (1854-1926); 9. Yusif Vəzir Çəmənzəminli (1887-1943).
10. Süleyman Rəhimov (1900-1983); 11. Əli Vəliyev (1901-1983); 12. İlyas Əfəndiyev (1914-1996).

**Distinguished poets, writers and literary critics from Garabagh:**
1. Mullah Panah Vagif (1717-1797); 2. Khurshudbanu Natavan (1832-1897); 3. Mir Mirhsun Navvub (1833-1918); 4. Gassim bay Zakir (1784-1857); 5. Abdurrahim bay Hagverdiyev (1870-1933); 6. Firidun bay Kocharli (1863-1920); 7. Hamida khanum Javanshir (1873-1955); 8. Najaf bay Vazirov (1854-1926); 9. Yusif Vazir Chamanzaminli (1887-1943); 10. Suleyman Rahimov (1900-1983); 11. Ali Valiyev (1901-1983); 12 Ilyas Afandiyev (1914-1996)




1


2


3


4


5


6


7


8


9


10


11


12

**Qarabağın dünya şöhrətli bəstəkar və müğənnilərindən:**
1. Üzeyir bəy Hacıbəyli (1885-1948); 2. Zülfüqar bəy Hacıbəyli (1884-1950); 3. Fikrət Əmirov (1922-1984) ; 4. Soltan Hacıbəyli (1919-1974); 5. Niyazi (1912-1984); 6. Süleyman Ələsgərov (1924-2000); 7. Bülbül (1897-1961); 8. Rəşid Behbudov (1915-1989); 9. Sadıqcan (1846-1902); 10. Xan Şuşinski (1901-1979); 11. Seyid Şuşinski (1889-1965); 12. Arif Babayev (1938).

**The world-famous composers and singers from Karabakh:**
1. Uzeyir bay Hajibayli (1885-1948); 2. Zulfugar bay Hajibayli (1884-1950); 3. Fikrat Amirov (1922-1984); 4. Soltan Hajibayli (1919-1974); 5. Niyazi (1912-1984); 6. Suleyman Alasgarov (1924-2000); 7. Bulbul (1897-1961); 8. Rashid Behbudov (1915-1989); 9. Sadigjan (1846-1902); 10. Khan Shushinski (1901-1979); 11. Seyid Shushinski (1889-1965); 12. Arif Babayev (1938).

Ermənilərin inzibati-idarə sistemində möhkəmləndirilməsi, köçürülmə yolu ilə saylarının mexaniki surətdə artırılması və onların iqtisadi potensialının möhkəmləndirilməsi paralel surətdə həyata keçirilirdi.[50] Beləliklə, **ermənilər çarizmin hərtərəfli dəstəyi və yaratdığı əlverişli şərait nəticəsində Qarabağın iqtisadi həyatında da möhkəmlənə bildilər.**

Rusiya imperiyasının ayrı-seçkilik siyasəti, çarizmin dəstəyi və məqsədyönlü siyasəti nəticəsində ermənilərin Şimali Azərbaycanda nail olduqları iqtisadi potensial 1872-ci ildə Bakıda neftli torpaqlar üzərində *iltizam* sisteminin ləğvi zamanı daha aydın nəzərə çarpmağa başladı; nəticədə neftli torpaq sahələrinin hərracı prosesində azərbaycanlılar cəmi 5%, ermənilər isə 50% -dən çox torpaq sahəsi almışdılar. Bakıda fəaliyyət göstərən 167 neft şirkətindən 55 iri və orta şirkət ermənilərə məxsus idi və s. Ermənilərin mədəni-təhsil səviyyəsinin yüksəldilməsi üçün də hərtərəfli şərait yaradılmışdı.[51] Bütün bunlara baxmayaraq, Qarabağ, onun mərkəzi olan Şuşa şəhəri Azərbaycan xalqının ictimai-siyasi və mədəni mərkəzlərindən biri olaraq qalırdı. Çar hökumətinə və onun müstəmləkəçilik siyasətinə xidmət edən ermənilərin bütün manea və müqavimətinə baxmayaraq, Qarabağ Azərbaycan – müsəlman diyarı kimi inkişaf edirdi.

Beləliklə, çar Rusiyasının bütövlükdə Şimali Azərbaycanda, o cümlədən Qarabağda inzibati-siyasi, sosial-iqtisadi və mədəni inkişaf üçün geniş imkanlar yaratdığı ermənilər kütləvi surətdə bu torpaqlara köçüb gəldilər və çox keçmədən Azərbaycan torpaqlarında «Böyük Ermənistan» ideyasının reallaşdırılması uğrunda açıq mübarizəyə başladılar. Həmin ideyanın əsas tərkib hissələrindən biri də Qarabağ, İrəvan, Naxçıvan və digər Azərbaycan torpaqlarının yerli – azərbaycanlı əhalisini məhv etmək və onların yaşadıqları torpaqları ələ keçirməkdən ibarət idi. Ermənilərin 1890-cı illərdən başlayaraq Osmanlı dövlətinə qarşı qaldırdıqları xəyanətkar qiyamlar uğursuzluğa düçar olduqdan sonra bu mübarizənin mərkəzi Şimali Azərbaycana keçdi.[52]

Ermənilər 1905-ci ildən başlayaraq Azərbaycan xalqına qarşı kütləvi soyqırımları törətdilər. Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti Qarabağda daha faciəli şəkil aldı.[53] Lakin 1905–1906-cı illərdə törətdikləri qırğınlar da erməniləri sakitləşdirmədi. Onlar Birinci Dünya müharibəsinin doğurduğu tarixi şəraitdən istifadə edərək yenidən mifik «Böyük Ermənistan» dövləti yaratmağa cəhd göstərdilər. 1915-ci ildə Osmanlı dövlətinə qarşı qaldırdıqları yeni qiyamlarda uğursuzluğa düçar olan ermənilər, əsas qüvvələrini Cənubi Qafqazda cəmləşdirərək və çarizmin himayəsinə sığınaraq, azərbaycanlılara qarşı soyqırımlarını davam etdirməyə başladılar. Əvvəlcə çar hökumətinin devrilməsi *(1917, fevral)*, sonra isə Rusiyada bolşeviklərin hakimiyyəti ələ alması ilə *(1917, oktyabr)*

their number by way of resettlement was followed by the strengthening of their economic potential as well as.[50] **As a result of comprehensive supporting and favorable conditions established by czarism Armenians became stronger in the economic life of Garabagh.**

As a result of a supportive and purposeful policy of the Russian empire enhanced economic potential had been achieved by Armenians. In North Azerbaijan, the discriminatory policy of czarism during the abolishment of the commitment system upon oil-bearing lands in 1872, began to draw great attention in Baku. As a result Azerbaijanis received only 5%, but Armenians received more than 50% of land areas. 55 big and middle companies out of 167 operating in Baku belonged to Armenians, etc. A comprehensive program for increasing the cultural-educational level of Armenians was also established at this time.[51] Despite this Garabagh and its center, Shusha city, still remained one of the administrative-political and cultural centers of the Azerbaijani people. Despite all these obstacles and counteraction of czarist ruling and its colonial policy servants, Garabagh, was being developed as an Azerbaijan land.

So, for a short time Armenians massively settled in North Azerbaijan as well as in the Caucasus while obtaining widespread opportunities provided by czarist Russia for administrative- political, socio-administrative and cultural development. Thus they began clearly fighting for the realization of a "Great Armenia" idea in Azerbaijan lands. One of the main parts of this idea was to annihilate the local Azerbaijani population of Garabagh, Iravan, Nakhchivan and other Azerbaijan lands and capture the lands where the Azerbaijanis were living. As Armenians' revolts rose against the Ottoman state starting in 1890 had not been successful the center of this fight became North Azerbaijan.[52]

Beginning in 1905 Armenians committed mass genocide against the Azerbaijani people. The genocide policy of Armenians against Azerbaijanis in Garabagh was more tragic.[53] Even the 1905–1906 annihilation carried out by Armenians didn't satisfy them. They tried their best to use the historic condition caused by the First World War to establish mythic a "Great Armenia" state. Failing in new revolts against the Ottoman state in 1915 Armenians gathered their forces in the South Caucasus and began to continue their genocide against Azerbaijanis. Because of anarchy in the Caucasus with the overthrowing of czarist government (1917, February), then the seizing of power by Bolsheviks in Russia (1917, October) – during this long-term historic period Armenian armed groups serving in the Russian army joined with Bolsheviks and began a new period of more terrible annihilation against Azerbaijanis. New mass genocides, beginning with the March




1


2

**Sənətkarlıq xüsusiyyətləri və gözəlliyi ilə dünyada şöhrət qazanmış Qarabağ xalçaları və xalça məmulatı:**

1. Qarabağ xalçası (fraqment). XVI əsr.
2. Qarabağ xalçası. XVII əsr.

*Garabagh carpets and rugs famous in the world for their artistic features and beauty:*

1. Garabagh carpet (fragment). XVI c.
2. Garabagh carpet. XVII c.



3



4



5



6

3. Qarabağ xalçası. XVII əsr.
4. Qarabağ xalçası (fraqment). XVIII əsr.

3. Garabagh carpet. XVII c.
4. Garabagh carpet (fragment). XVIII c.

5. Qarabağ "Çələbi" xalçası. XIX əsr (1897-ci il).
6. Qarabağ "Qasımuşağı" xalçası. XX əsr (1912-ci il).

5. Garabagh "Chalaby" carpet. XIX c. (1897).
6. Garabagh "Gasimushaghi" carpet. XX c. (1912).



7



8



9

7. Qarabağ "Xanlıq" xalçası (fraqment).
8. Qarabağ "Qarabağ" xalçası (fraqment). XIX əsr.
9. Qarabağ süjetli xalçası (xalq arasında bu xalça "Atlı-itli" adı ilə də tanınır). XIX əsr.

7. Garabagh Piled "Khanate" carpet (fragment).
8. Garabagh "Garabagh" carpet (fragment). XIX c.
9. Garabagh Plot carpet (people call this carpet "Atli-Itli", i.e. Horses and Dogs as well). XIX c.





10



11



12

10. Qarabağ "Bəhmənli" xalçası. XX əsrin əvvəli.
11. Qarabağ "Malıbəyli" xalçası. XIX əsr.
12. Qarabağ "Qubadlı" xalçası (namazlıq) . XX əsrin əvvəli.

10. Garabagh "Bahmanly" carpet. Early XX c.
11. Garabagh "Malibayly" carpet. XIX c.
12. Garabagh "Gubadly" (namaz) carpet. Early XX c.

Zaqafqaziyada yaranan anarxiya şəraitində – uzun tarixi dövr ərzində Rusiya ordusunda xidmət edən erməni silahlı dəstələri daşnak-bolşevik güruhu ilə birləşərək azərbaycanlılara qarşı soyqırımının yeni, daha dəhşətli dövrünü başladılar. 1918-ci ilin martında Bakıda başlanan və bütün Azərbaycanı əhatə edən yeni kütləvi soyqırımları Azərbaycan xalqına çox ağır zərbə vurdu.[54] Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə Azərbaycan tarixində yeni dövr başlandı. Azərbaycan Xalq Cümhuriyyəti Şimali Azərbaycanda silahlı erməni quldur dəstələrinin və daşnak-bolşevik rejiminin Azərbaycan xalqını tamamilə məhv etmək planlarının qarşısını almaq üçün tədbirlər gördü.

## 5. QARABAĞ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ (1918–1920-ci İLLƏR)

1918-ci il mayın 28-də təxminən 120 ilədək davam edən Rusiya əsarətindən sonra Azərbaycan xalqı Şimali Azərbaycanda yeni müstəqil dövlətini yaratdı. Azərbaycan Xalq Cümhuriyyəti İstiqlal bəyannaməsində vaxtı ilə Gülüstan *(1813)* və Türkmənçay *(1828)* müqavilələrinə əsasən Rusiya imperiyasına qatılmış Şimali Azərbaycan torpaqlarının qanuni varisi olduğunu bəyan etdi. İstiqlal bəyannaməsinin birinci maddəsində deyilirdi: «Bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər, Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycan tam hüquqlu müstəqil dövlətdir».[55] Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisinin hüquqi-siyasi cəhətdən əsaslandırılmış xəritəsini nəşr etdirmişdi (***Xəritə 11***). Təbiidir ki, başqa Şimali Azərbaycan torpaqları kimi, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ da Azərbaycan Xalq Cümhuriyyətinin ərazisinə daxil idi. Lakin bu zaman yenicə elan olunmuş Ermənistan (Ararat) Respublikası Qarabağa heç bir əsası olmayan iddia irəli sürdü. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu iddianı rədd etdi. Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri **Ə.M.Topçubaşov** (1862–1934) Osmanlı dövlətinin xarici işlər naziri ilə 1918-ci il noyabrın 18-də İstanbulda apardığı danışıqlar zamanı bildirmişdi: «***Ermənilərin ortaya atdıqları Qarabağ məsələsi 5, ya 10 kənd məsələsi deyil, mübahisə bütöv 4 sancaq – Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur üstündədir. Bu elə bir xanlığın ərazisidir, burada erməni və müsəlmanların sayı bərabər olmasa da, hər halda ermənilərin mütləq çoxluğu barədə danışmağa əsas yoxdur, özü də onlar buranın yerli əhalisi deyildirlər. Rusiya ilə müharibədən sonra Türkiyədən buraya köçənlərdir... Nəhayət, Qarabağın özündə ermənilər yığcam halda yaşamır-***

genocide of 1918 in Baku dealt a heavy blow to the Azerbaijani people.[54] By establishing the Azerbaijan Peoples Republic a new period began in Azerbaijan history. The Azerbaijan Peoples Republic averted complete annihilation of the Azerbaijan people by armed Armenian band of robbers and dashnak-bolshevik regime in North Azerbaijan.

## 5. GARABAGH IN THE PERIOD OF THE AZERBAIJAN PEOPLES REPUBLIC (1918–1920)

On May 28, 1918, after Russian bondage continuing approximately 120 years, Azerbaijan established a new independent state in North Azerbaijan. In its Independence declaration the Azerbaijan Peoples Republic (APR) declared its legal inheritance of North Azerbaijan lands occupied by Russia according to the Gulustan (1813) and Turkmanchay (1828) Treaties. The first article of Independence declaration said: "Since today peoples of Azerbaijan have sovereign rights, Azerbaijan consisting of East and South Transcaucasus is a full-rights independent state".[55] The Azerbaijan Peoples Republic also published a map of its territory and well-founded from a legal-political aspect ***(Map 11)***. It goes without saying Garabagh as an integral part of Azerbaijan together with other North Azerbaijan lands belonged to the territory of Azerbaijan Peoples Republic. But at that time the recently declared Armenian (Ararat) republic was also laying a groundless claim to Garabagh. The Azerbaijan Peoples Republic rejected this claim. Chairman of Parliament of the Azerbaijan Peoples Republic **A.M.Topchubashov** (1862–1934) announced at the negotiations held on November 18, 1918 with the Minister of Foreign Affairs of the Ottoman State: ***"The Garabagh issue is thrown into the middle is not an issue of 5 or 10 villages, the dispute is on the whole 4 sanjags – Shusha, Javanshir, Jabrayil and Zangazur. It is a territory of such khanate where the number of Armenians and Azerbaijanis isn't equal, and there isn't any basis to speak about the absolute majority of Armenians and also they are not local inhabitants of this territory. They are resettled here after war with Russia from Turkey... Finally, Armenians in Garabagh do not live densely but alongside Moslems. Despite this we are supporters of a peaceful solution of this issue".***[56]

Armenians continued annihilations that had taken place before also during the Azerbaijan Peoples Republic period. Taking into consideration the situation in January, 1919 the Azerbaijan government established ***Garabagh general – governorship*** which




1


2


3


4


5

**Qarabağ geyimləri:**
1. Qadın geyimi. XIX əsr; 2. Kişi geyimi. XIX əsr; 3. Çəpkən. XIX əsr; 4-5. Arxalıq. Qadın üst geyimi. XIX əsr.

**Garabagh dresses:**
1. Women's dress. XIX c.; 2. Men's dress. XIX c.; 3. Chapkan. XIX c.; 4-5. Arkhalig. Women's outdoor-clothes. XIX c.



1



2



3



4

1. Baharı (fraqment). XIX əsr; 2. Rübənd. XIX əsr; 3. Corab. XIX əsr; 4. Başmaq. XIX əsr.

1. Bahari (fragment). XIX c.; 2. Veil. XIX c.; 3. Socks. XIX c.; 4. Shoe. XIX c.



***lar, müsəlmanlarla qarışıq məskundurlar. Bununla belə, biz məsələnin sülh yolu ilə həlli tərəfdarıyıq».***[56]

Ermənilər Qarabağı ələ keçirmək üçün əvvəllər başladıqları soyqırımlarını Azərbaycan Xalq Cümhuriyyəti dövründə də davam etdirdilər. Azərbaycan hökuməti yaranmış vəziyyəti nəzərə alaraq, 1919-cu ilin yanvarında **Şuşa, Cavanşir, Cəbrayıl** və **Zəngəzur** qəzalarını əhatə edən ***Qarabağ general-qubernatorluğu*** yaratdı. **X. Sultanov** Qarabağ general-qubernatoru təyin edildi. Ermənistan (Ararat) Respublikasının xarici işlər naziri **S.Tiqranyan** Qarabağ general-qubernatorluğu yaradılmasına etirazını bildirmiş, lakin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin cavabında bu etiraz əsassız hesab olunmuş və ***həmin ərazilərin Azərbaycanın ayrılmaz tərkib hissəsi olması göstərilmişdi.***[57] Qarabağ general-qubernatoru ermənilərin ərazi iddiaları ilə yanaşı, əvvəlcə ingilislər, sonra isə amerikanlarla gərgin münasibətlər şəraitində fəaliyyət göstərməli oldu. Lakin ermənilər Qarabağ general-qubernatorluğu ərazisində sülh yaranmasına imkan vermədilər.

1919-cu ilin sonları–1920-ci ilin yazında ***Zəngəzurda*** erməni-daşnak silahlı quldur dəstələri dinc azərbaycanlı əhaliyə qarşı basqınlar və kütləvi qırğınlar törətdilər.[58]

Ermənilər ***Cavanşir qəzasında*** da sakitləşmirdilər. Onların qəzanın dağətəyi kəndlərinə hücumları adi hal almışdı. Erməni quldur dəstələri 1918-ci ilin yaz-yay aylarında qəzanın düzənlik hissəsinin müsəlman əhalisinə qarşı da çoxsaylı zorakılıq aktları etdilər. «Ermənilər Tərtər çayının qabağını kəsərək başqa istiqamətə yönəldir və qəzanın aran kəndlərinin əkinlərini susuz qoyaraq, onlara böyük zərər vururdular. Hətta iş o yerə çatmışdı ki, aran kəndlərində içməli su belə çatışmırdı».[59]

Qarabağın digər qəzası–***Cəbrayılda*** da erməni silahlıları dinc əhaliyə hücum edirdilər. 1918-ci ilin dekabrında Cəbrayıl qəzasının azərbaycanlı kəndlərinə ermənilərin hücumları genişlənmiş, 1919-cu ilin əvvəllərində daha dağıdıcı xarakter almışdı.

***Şuşa qəzası*** və Qarabağın siyasi mərkəzi olan ***Şuşa şəhərində*** ermənilərin vəhşilikləri daha amansız şəkil almışdı. Vaxtı ilə Zaqafqaziya Ölkə Komitəsinin Dağlıq Qarabağda məsul nümayəndəsi olmuş **S.Şaduns** 20 dekabr 1922-ci ildə bəzi həqiqətləri təhrif etməklə bərabər, bütün Qarabağın Azərbaycan Xalq Cümhuriyyətinə daxil olduğunu etiraf edərək yazırdı: «... Еще до создания в Карабахе мусаватской власти (т.е. **Азербайджанской Демократической Республики** – *Я.М., К.Ш.*) туда был назначен со стороны турецких властей (т.е. Азербайджанской Демократической Республикой – *Я.М., К.Ш.*) генерал-губернатор Карабаха, и вот в это время появляется новый термин – **Нагорный Карабах, созданный дашнаками.** Не довольствуясь безграничными бойнями, вызванными в Турецкой Армении, партия «Дашнакцутюн», после сдачи

contained the **Shusha, Javanshir, Jabrayil** and **Zangazur** uezds. **Kh.Sultanov** was appointed to this post. Minister of Foreign Affairs of Armenia (Ararat Republic) **S.Tigranyan** protested against establishing **Garabagh governor-general** administration but in response the Azerbaijan Peoples Republic government called it groundless and ***these territories were stated as an integral part of Azerbaijan.***[57] Territorial claims of Armenians from one side, worsening the relations first with English, then with Americans on the other side, made the Garabagh governor-general work in a tense situation.

At the end of 1919 – in spring of 1920 Armenian-dashnak armed band of robbers committed an attack and massive massacre against the peaceful Azerbaijani population ***in Zangazur.***[58]

Armenians didn't act peacefully in ***Javanshir uezd (district)*** as well. Their attacks on the foothill villages of the uezd (district) became an ordinary event. Armenian bands of robbers committed violent acts against the Azerbaijani population in the flat part of this district in the spring-summer months of 1918. "Armenians, blocking the Tartar River's way, turned a jet of water in another direction and thus the low-lying lands of the uezd (district) were waterless and they did great damage to them. There was even a shortage of drinkable water in low-lying lands".[59]

Armenian bands of robbers also attacked the peaceful population in other uezds (districts) of Garabagh, ***in Jabrayil.*** In December, 1918 Armenians' attacks on Azerbaijani villages of Jabrayil uezd (district) became wider and at the beginning of 1919 they had a more ruinous character.

Armenians' savageries were more extreme ***in the Shusha uezd (district)*** and in the political center of Garabagh ***in Shusha city.*** On December 20, 1922 S.Shaduns, the former responsible representative of the Transcaucasian Country Committee (CCC) in Daghlig-Garabagh despite forging some truths confessed that the entire Garabagh was included in Azerbaijan Peoples Republic's territory. He wrote: «... Еще до создания в Карабахе Мусаватской власти (т.е. **Азербайджанской Демократической Республики** – *Я.М., К.Ш.*) туда был назначен со стороны турецких властей (т.е. Азербайджанской Демократической Республикой – *Я.М., К.Ш.*) генерал-губернатор Карабаха, и вот в это время появляется новый термин – **Нагорный Карабах, созданный дашнаками.** Недовольствуясь безграничными бойнями, вызванными в Турецкой Армении, партия «Дашнакцутюн», после сдачи гор. Шуши туркам, подымается на горы, населенные исключительно армянами, и постановляет сражаться «до последней капли крови», но не сдаваться туркам. Вот здесь в это время впервые вместе с социал-демократами, име-



1



2



3



4



5

**Qarabağın bəzək və bədii sənətkarlıq məmulatı:**

1. Aynalı kəmər. Gümüş. XIX əsrin sonu; 2. Aynalı kəmər. Gümüş. XX əsrin əvvəli; 3-4. Kəmər. Gümüş. XX əsrin əvvəli; 5. Qolbağ. Gümüş. XX əsrin əvvəli.

**Jewelry and artistic craftsmanship item:**

1. Aynali (Mirror) belt. Silver. Late XIX c.; 2. Aynali belt. Silver. Early XX c.; 3-4. Belt. Silver. Early XX c.; 5. Bracelet. Silver. Early XX c.





1



2



3



4



5

1. Quran qabı. Qızıl. XX əsrin əvvəli; 2. Toqqa. Qızıl. XX əsrin əvvəli; 3. Toqqa. Gümüş. XX əsrin əvvəli; 4-5. Xəncərlər. Gümüş. XX əsrin əvvəli.

1. Koran container. Gold. Early XX c.; 2. Thong. Gold. Early XX c.; 3. Thong. Silver. Early XX c.; 4-5. Swords. Silver. Early XX c.

гор. Шуши туркам, подымается на горы, населенные исключительно армянами, и постановляет сражаться «до последней капли крови», но не сдаваться туркам. Вот здесь в это время впервые вместе с социал-демократами, именующими себя интернационалистами, организуется правительство Нагорного Карабаха.

Если партии «Дашнакцутюн» удалось избежать войны с турками, то вскоре, по настоянию крестьян этого же самого Нагорного Карабаха, пришлось соединить эту часть с низменной частью и весь Карабах подчинить власти мусаватского правительства...*».[60]

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Şuşada ermənilərin ən xəyanətkar silahlı qiyamlarından biri 1920-ci il martın 22-də Azərbaycan xalqının Novruz bayramı günü baş verdi. Bu separatçı qiyam Azərbaycanı işğal etməyə hazırlaşan bolşeviklərin sifarişi ilə qaldırılmışdı. Bu zaman erməni-separatçı qiyamlarının əksər yerlərdə dəf edilməsinə baxmayaraq, onlar Əsgəran qalasını ələ keçirə bildilər. Görülən hərbi-siyasi tədbirlər nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti Qarabağda öz suveren hüquqlarını bərpa etdi. Lakin ərazisində yaşadıqları dövlətə – Azərbaycana xəyanət edən ermənilərin Qarabağda separatçı qiyamları və törətdikləri soyqırımları 1920-ci ilin aprel işğalı ərəfəsində ölkənin şimal sərhədlərinin müdafiəsi işinə ağır zərbə vurdu və müstəqil Azərbaycan dövlətinin – Azərbaycan Xalq Cümhuriyyətinin varlığını təhlükə altında qoydu.

## 6. QARABAĞ 1920–1980-ci İLLƏRDƏ

### 6.1. Sovet hökumətinin Qarabağın ərazisini bölüşdürməsi

Rusiyada Sovet hakimiyyəti möhkəmləndikcə, çar Rusiyası sərhədlərinin bərpa edilməsinə başlandı. Azərbaycan Xalq Cümhuriyyətinin şimal sərhədlərində möhkəmlənən XI Qırmızı Ordu hissələrinə respublikanın işğalı planını reallaşdırmaq üçün müvafiq əmr və sərəncamlar verildi. Azərbaycan Parlamenti daxilində sovet dövlətini müdafiə edən qüvvələr və Qarabağda erməni-daşnak separatçılarının qaldırdıqları mart qiyamı Azərbaycan Xalq Cümhuriyyəti-

нующими себя интернационалистами, организуется правительство Нагорного Карабаха.

Если партии «Дашнакцутюн» удалось избежать войны с турками, то вскоре, по настоянию крестьян этого же самого Нагорного Карабаха, пришлось соединить эту часть с низменной частью и весь Карабах подчинить власти мусаватского правительства...*»[60]

During Azerbaijan Peoples Republic times one of the most traitorous armed revolts of the Armenians happened in Shusha on March 22, 1920 on Novruz Holiday. This separate revolt rose by the order of bolshevicks who were planning to occupy Azerbaijan. At that time despite repulsing a revolt of Armenian separatists in most places armenians were able to seize the Asgaran fortress Military-political measures taken by the Azerbaijan Peoples Republic completely restored Azerbaijan's sovereign rights in Garabagh. Seperatist revolts and atrocities committed by Armenians against Azerbaijanis in Garabagh was high treason against Azerbaijan. It was a stab in the back and weakened the Nothern borders of our country on the eve of the April 1920 occupation of Bolsheviks and put the existence of independent Azerbaijan State – Azerbaijan Peoples Republic under danger.

## 6. GARABAGH IN 1920–1980

### 6.1. The distribution of the Garabagh territory by the Soviet government

The borders of czarist Russia began to be restored as Soviet power strengthened in Russia. Units of the Eleventh Red Army strengthening on the northern borders of the Azerbaijan Peoples Republic were given the appropriate orders and commands to complete the plan of occupying Azerbaijan. The forces within the Azerbaijan Parliament defending the soviet state, as well as the March Rebellion of Armenian-Dashnak separatists in Garabagh sped up the collapse of the Azerbaijan Peoples Republic. The Azerbaijan Peoples Republic

* Tərcüməsi: «...hələ Qarabağda Müsavat hakimiyyəti (Azərbaycan Xalq Cümhuriyyəti olmalıdır–*Y.M., K.Ş.*) qurulanadək oraya türk hakimiyyət orqanları (Azərbaycan Xalq Cümhuriyyəti olmalıdır – *Y.M., K.Ş.*) tərəfindən Qarabağ general-qubernatoru təyin edilmişdi və elə bu zaman **daşnaklar tərəfindən yaradılmış yeni termin–«Dağlıq Qarabağ» termini meydana gəldi**... «Daşnaksutyun» partiyası Türkiyə Ermənistanında törətdiyi saysız-hesabsız qırğınlarla kifayətlənməyərək, Şuşanı türklərə təslim etdikdən sonra yalnız ermənilərin məskunlaşdığı dağlara qalxır və «son damla qanına qədər» vuruşmaq, lakin türklərə təslim olmamaq barədə qərar qəbul edir və bu zaman məhz burada həmin dövrdə özlərini beynəlmiləlçi adlandıran sosial-demokratlarla birlikdə Dağlıq Qarabağ hökuməti təşkil edilir.

«Daşnaksutyun» partiyası türklərlə müharibədən yayına bilsə də, çox keçmədən elə həmin Dağlıq Qarabağ kəndlilərinin təkidi ilə bu hissə (yəni Qarabağın dağlıq hissəsi – *Y.M., K.Ş.*) düzən hissə ilə birləşdirildi və bütün Qarabağ Müsavat hökumətinə (Azərbaycan Xalq Cümhuriyyətinə – *Y.M., K.Ş.*) tabe edildi...».

* Traslation: ... still before establishing Musavat Power (it has to be Azerbaijan Peoples Republic – *Y.M., K.Sh.*) a Garabagh governor-general was appointed by the Turkish government (it has to be Azerbaijan Peoples Republic – *Y.M., K.Sh.*) and at that time **dashnaks created a new term – *Daghlig-Garabagh.*** ..."Dashnaksutyun" party not being satisfied with the terrible slaughters in Turkish Armenia, handed over Shusha to the Turks and went to the mountains where only Armenians were settled. And that very time here socia-democrats who called themselves during that period internationalists organized the Daghlig-Garabagh government.

"Dashnaksutyun" party was able to evade fighting with the Turks then very soon at the insistence of these same villagers of Daghlig Garabagh, this part, (i.e. mountainous part of Garabagh – *Y.M., K.Sh.*) was united with the plain part and ***all Garabagh came under the Musavat government***. (It is italicized by us – *Y.M., K.Sh.*).



nin süqutunu sürətləndirdi. 23 ay yaşamış olan Azərbaycan Xalq Cümhuriyyəti XI Qırmızı Ordunun süngüləri ilə devrildi, Şimali Azərbaycanda sovet hakimiyyəti quruldu. Bununla, Qarabağ ətrafındakı hadisələrin yeni mərhələsi başlandı.

### 6.1.1. Dağlıq Qarabağa muxtariyyət verilməsi: 1920–1923-cü illər

***Dağlıq Qarabağ: coğrafiyası və «Dağlıq Qarabağ» anlayışı.*** Bu problemin şərhi üçün əvvəlcə Dağlıq Qarabağın coğrafiyası və «Dağlıq Qarabağ» anlayışı üzərində dayanaq.

Relyefinə görə Qarabağ aran (düzən) və dağlıq hissələrə bölünür. Bu reallıq elmdə də öz təsdiqini tapmışdır. Məsələn, tanınmış qafqazşünas **M.A.Skibitskinin** oğlu **A.M.Skibitski** «Qafqaz böhranı» adlı məqaləsində yazırdı: «Qarabağ xanlığının bütöv dağlıq hissəsi o vaxt Dağlıq Qarabağ adlanırdı. Şərqdə Qarabağ dağ silsiləsi, Qərbdə isə Zəngəzur dağları arasındakı torpaqlar, habelə Yuxarı Qarabağla, aran yeri olan Aşağı Qarabağı bir-birindən ayıran Qarabağ yaylası həmin əraziyə daxil idi».[61] Aydın olduğu kimi, çar Rusiyası tərkibində olduğu zaman Qarabağın ərazisi, daha doğrusu, keçmiş Qarabağ xanlığının torpaqları müxtəlif inzibati bölgülərə məruz qaldığından, «Qarabağ» anlayışı əvvəlki inzibati-siyasi mənasını itirmişdi. Lakin Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918–1920) «Qarabağ» anlayışı öz əvvəlki mənasını yenidən özünə qaytardı. **S.Şadunsun** yuxarıda göstərilən fikrindən aydın olduğu kimi, elə Dağlıq Qarabağ termini də bu zaman daşnaklar tərəfindən meydana gətirildi.[62]

Bu zamandan «Dağlıq Qarabağ» anlayışı yalnız coğrafi deyil, siyasi maraq da kəsb etməyə başladı. Bolşeviklər Şimali Azərbaycanda hakimiyyəti ələ keçirdikdən sonra bu anlayış inzibati-siyasi məna kəsb etməyə başlayır, Azərbaycan–Ermənistan münasibətlərində və ona müdaxilə edən Rusiyanın siyasi leksikonunda əsas anlayışlardan birinə çevrilir. Elə bu zaman Dağlıq Qarabağın coğrafi baxımdan əhatə dairəsində də dəyişiklik baş verir. Yenə A.M.Skibitskinin yazdığı kimi, «...Qarabağ yaylası 1923-cü ildə muxtariyyət almış və Muxtar Dağlıq Qarabağ Vilayəti və ya Azərbaycanın yeni sərhədləri daxilində qısaca olaraq Dağlıq Qarabağ adlanmışdır».[63]

***Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV): yaradılması tarixi, əsas hadisələrinin sinxronlaşdırılması və buradan irəli gələn nəticələr.*** Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasının prinsipial məsələlərini müəyyən etmək, daha doğrusu, bu prosesi tam aydınlığı ilə təsəvvür etmək üçün əsas hadisələrə mənsubiyyəti üzrə sinxron şəkildə diqqət yetirək **(Sinxron cədvələ baxın: Cədvəl 6.1)**.

that existed for 23 months was overthrown by the bayonets of the Eleventh Red Army, and soviet power was established in North Azerbaijan. Thus, a new stage of the events relating to Garabagh began.

### 6.1.1. Granting autonomy to Daghlig Garabagh: 1920–1923

***Daghlig Garabagh: geography and the notion of "Daghlig Garabagh".*** Before explaining this problem, let us first look at the geography of Daghlig Garabagh and the notion of "Daghlig Garabagh".

According to its relief, Garabagh is divided into two parts: lowlands (plain) and mountainous. This reality is also confirmed in science. For example, **A.M.Skibitski,** son of the famous researcher in Caucasian Studies **M.A.Skibitski** writes in his article titled "Caucasian crisis": "The entire mountainous part of the Garabagh khanate was called Daghlig Garabagh at that time. The range of Garabagh Mountains in the east and the lands between the Zangazur Mountains in the west, as well as the Garabagh plateau separating the Upper Garabagh and the lowland Lower Garabagh, belonged to that territory".[61] As it is known, the notion of "Garabagh" had lost its previous administrative-political meaning since the territory of Garabagh, or rather the lands of the former Garabagh khanate suffered different administrative divisions during the reign of czarist Russia. However, in the period of Azerbaijan Peoples Republic (1918–1920), the notion of "Garabagh" was again restored to its previous meaning. As is seen from the above-mentioned words of **S.Shaduns**, the term Daghlig Garabagh had been created by Dashnaks at that very time.[62]

From then on, the notion of "Daghlig Garabagh" began to have not only geographic, but also political importance. Following the Bolsheviks' coming to power in Azerbaijan, this notion began to have an administrative-political meaning and turned into one of the main notions in relations between Azerbaijan and Armenia, as well as in the political vocabulary of Russia which intervened into these relations. Meanwhile, the geographic range of Daghlig Garabagh changed as well. Again, as A.M.Skibitski wrote "... The Garabagh plateau was granted autonomy in 1923 and was named Autonomous Daghlig Garabagh Oblast (Province) or simply Daghlig Garabagh, within the new borders of Azerbaijan".[63]

***Daghlig Garabagh Autonomous Oblast (DGAO): history of creation, chronology of its main events and conclusions deriving from this.*** In order to define the principal issues regarding the creation of the Daghlig Garabagh Autonomous Oblast, or rather to imagine this process distinctly, let us look through the main events chronologically in accordance with their geographic location **(See chronological table: Table 6.1)**

*Cədvəl 6.1*

## DAĞLIQ QARABAĞA MUXTARİYYƏT VERİLMƏSİNİN ƏSAS HADİSƏLƏRİNƏ DAİR SİNXRON CƏDVƏL
*(1920–1924-cü illər)*

| AZƏRBAYCAN | | ERMƏNİSTAN | Rusiya Kommunist (bolşeviklər) Partiyası | |
|---|---|---|---|---|
| **BAKI** | **QARABAĞ** | | **MƏRKƏZ (Moskva)** | **Qafqaz Bürosu; Zaqafqaziya Ölkə Komitəsi** |
| **1920-ci il 28 aprel**–Sovet hakimiyyətinin qurulması<br>**30 aprel**–Qarabağ və Zəngəzurun erməni ordusundan təmizlənməsi barədə Ermənistana hökumət notası<br>**30 noyabr**–Azərbaycan İnqilab Komitəsinin Ermənistana teleqramı<br>**1 dekabr**– İnqilab Komitəsinin bəyannaməsi | **1920-ci il 28 aprel**– A.N.Karakozovun Dağlıq Qarabağ üzrə komissar təyin edilməsi<br>**Mayın I yarısı**–Şuşa, Cəbrayıl, Cavanşir qəzalarında sovet hakimiyyətinin elan edilməsi<br>**26 may**–ermənilərin qurultayı. Sovet hakimiyyətinin elan edilməsi<br>**5 iyun**–Qarabağda antisovet üsyanı<br>**15 iyun**–Sovet qoşunlarının Şuşanı tutması.<br>–Tevanın daşnak mauzerçilərinin Şuşa qəzasını işğalının boşa çıxması | **1920-ci il 29 noyabr**–Sovet hakimiyyətinin qurulması<br>**28 dekabr**– İnqilab Komitəsinin bəyannaməsi. Naxçıvana iddiadan əl çəkilməsinin bildirilməsi | **1920-ci il 7 iyul**–Mərkəzi Komitə siyasi bürosunun Qafqaz Cəbhəsi İnqilabi Hərbi şurasına təlimatı. Sərhədlərin müəyyənləşdirilməsi prinsipləri | **1920-ci il 3 iyun**– Qafqaz Bürosunun qərarı ilə Dağlıq Qarabağın guya Ermənistana mənsub olmasının təsdiq edilməsi<br>**4 iyul**–Qafqaz Bürosunun plenumunun axşam iclasının Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında qərarı<br>**5 iyul**–Qafqaz Bürosunun plenumunun Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması və ona muxtariyyət verilməsi haqqında qərarı<br>**4 noyabr**–Qafqaz Bürosunun Dağlıq Qarabağa muxtariyyət verilməsini həyata keçirməyə çağırması |
| **1921-ci il 27 iyun**– Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu və Təşkilat Bürosunun iclası. Azərbaycan– Ermənistan sərhədləri haqda Tiflis Komissiyası işinin müzakirəsi<br>**19 iyul**–Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin iclası. Nərimanovun Tiflis səfəri haqqında məlumatı. Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasının təsdiqi<br>**20 iyul**–Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu və Təşkilat Bürosunun iclası Dağlıq Qarabağın Konstitusiyasının hazırlanması üçün komissiya yaradılması | **1921-ci il 1 avqust**–Vərəndə vilayətinin sovetlər qurultayında (Kəntxurd) Qafqaz Bürosunun qərarının bəyənilməsi | **1921-ci il 12 iyun**–Xalq Komissarları Sovetinin Dağlıq Qarabağın Ermənistanın tərkib hissəsi olması haqqında bəyannaməsi<br>**16 iyul** – Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin Qafqaz Bürosunun 1921-ci il 5 iyul tarixli qərarı ilə razı olmaması barədə iclası | | |
| **1922-ci il 15 dekabr**– Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Rəyasət Heyətinin iclası Rusiya Kommunist Partiyası Zaqafqaziya Ölkə Komitəsinin qərarının icra üçün əsas götürülməsi | **1922-ci il noyabr**–Kənd sovetləri sədrləri və katiblərinin müşavirəsi. Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılmasının bəyənilməsi | | | **1922-ci il 20 mart**–Zaqafqaziya Ölkə Komitəsinin yeni çağırışı<br>**30 sentyabr**–çağırışın təkrarı<br>**17 oktyabr**– Zaqafqaziya Ölkə Komitəsinin muxtar vilayətin icraiyyə komitəsi sədrliyinə Karakozovu tövsiyə etməsi. S.Şadunsun Dağlıq Qarabağda məsul iş üçün Azərbaycana göndərilməsi<br>**14 dekabr**–Zaqafqaziya Ölkə Komitəsinin plenumunun Dağlıq Qarabağ muxtariyyətini həyata keçirmək üçün xüsusi qərar qəbul etməsi |
| **1923-cü il 1 iyul** – Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Rəyasət Heyətinin iclası. Mərkəzi İcraiyyə Komitəsinə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmasını dekretləşdirməyin təklif olunması<br>**4 iyul** – Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətinin iclası. Qarabağın dağlıq hissəsinin mərkəzi Xankəndi və başda İcraiyyə Komitəsi olmaqla muxtar vilayət yaradılmasının qərara alınması<br>**7 iyul** – Mərkəzi İcraiyyə Komitəsinin Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması haqqında dekreti – Dağlıq Qarabağ Muxtar Vilayəti və Kürdüstan sərhədlərini müəyyən edən komissiyaların yaradılması. Qarabağın qalan hissəsində Vilayət idarəsinin (mərkəzi Ağdam) yaradılması<br>**16 iyul** – Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Rəyasət Heyətinin iclası. Şuşanın Dağlıq Qarabağ Muxtar Vilayətinə daxil edilməsi<br>**21 iyul** – Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin Rəyasət Heyətinin iclası. Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında əsasnamə hazırlamaq üçün komissiya yaradılması<br>**iyul** – Sərhəd komissiyasının iclası. Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədlərinin müəyyənləşdirilməsi | **1923-cü il avqust** – Dağlıq Qarabağın bölgənin Azərbaycanın tərkibində saxlanması haqqında referendumu<br>**18 sentyabr** – Vilayət Partiya komitəsinin qərarı ilə Xankəndinin adının Stepanakertlə əvəz edilməsi<br>**noyabr** – Dağlıq Qarabağ Muxtar Vilayətinin sovetlərinin I qurultayı. Vilayət İcraiyyə Komitəsi və Rəyasət Heyətinin seçilməsi | | **1923-cü il 23-24 aprel**– Rusiya Kommunist (bolşeviklər) Partiyasının XII qurultayı. Karl Radekin erməni azlığın azərbaycanlıları sıxışdırmasını bildirməsi | **1923-cü il 10 mart** – Zaqafqaziya Ölkə Komitəsinin Dağlıq Qarabağa muxtariyyət verilməsinin həyata keçirilməsini tələb etməsi<br>**27-28 iyun**–Zaqafqaziya Ölkə Komitəsinin Plenumunun iclası Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə bir ay müddətində Dağlıq Qarabağın muxtar vilayət kimi ayrılmasını tapşırması |
| **1924-cü il 26 noyabr** – Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında əsasnamə verilməsi | | | | |



*Table 6.1*

## THE SYNCHRONIC TABLE OF THE MAIN EVENTS IN THE PROCESS OF GRANTING THE STATUS OF AUTONOMY TO DAGHLIG GARABAGH *(1920–1924)*

| AZERBAIJAN | | ARMENIA | Russian Communist (Bolshevik) Party | |
|---|---|---|---|---|
| **BAKU** | **GARABAGH** | | **CENTER (Moscow)** | **Transcaucasian Bureau; Caucasian State Committee** |
| **1920, April 28** – Establishment of Soviet power<br>**April 30** – Governmental note to Armenia on the withdrawal of Armenian troops from Garabagh and Zangazur<br>**November 30** – Telegram of Azerbaijan Revolution Committee to Armenia<br>**December 1** – Statement of the Revolutionary Committee | **1920, April 28** – Appointment of A.N.Karakozov as Commissar to Daghlig Garabagh<br>**1st half of May** – Proclaiming the establishment of the Soviet power in Shusha, Jabrayil and Javanshir Districs<br>**May 26** – Congress of Armenians. Proclaiming of the establishment of the Soviet power<br>**June 5** – Anti-soviet revolt in Garabagh<br>**June 15** – Occupation of Shusha by Soviet troops<br>– Failure of Dashnak Tevan Mauser units, to occupy the Shusha district | **1920, November 29** – Establishment of Soviet power<br>**December 28** – Declaration of Revolution Committee. Expressing protest against Armenians' claim for Nakhchivan | **1920, July 7** – Instruction of the Central Committee Political Bureau to the Caucasian Front Revolutionary Military Council. Principles of delimitation of borders | **1920, June 3** – Confirmation of ostensible belonging of Daghlig Garabagh to Armenia by the decision of the Caucasian Bureau<br>**July 4** – decision of the evening meeting of the Caucasian Bureau plenum on granting Daghlig Garabagh to Armenia<br>**July 5** – decision of the Caucasian Bureau plenum on maintaining Daghlig Garabagh within Azerbaijan and granting autonomy to it<br>**November 4** – Caucasian Bureau Appeal to realize the status of autonomy granted to Daghlig Garabagh |
| **1921, June 27** – Meeting of the Azerbaijan Communist (Bolshevik) Party Central Committee Political Bureau and Organization Bureau. Discussion of the work of Tiflis Committee on the Azerbaijan-Armenian borders<br>**July 19** – Meeting of the Azerbaijan Central Executive Committee Presidium. Narimanov's report regarding his visit to Tiflis. Confirming that Daghlig Garabagh is an integral part of Azerbaijan<br>**July 20** – Meeting of the Azerbaijan Communist (Bolshevik) Party Central Committee Political Bureau and Organization Bureau. Setting-up of committee for preparing Constitution of Daghlig Garabagh | **1921, August 1** – Approval of the Caucasian Bureau Resolution in the Varander district congress of soviets (Kantkhurt) | **1921, June 12** – Statement of Sovnarkom on declaring Daghlig Garabagh as a part of Armenia<br>**July 16** – Meeting of the Armenian Communist Party Central Committee on non-agreement with the Resolution of the Caucasian Bureau dated on July 5, 1921 | | |
| **1922, December 15** – Meeting of Azerbaijan Communist (Bolshevik) Party Presidium assumes the decision of the Russian Communist Party Transcaucasia State Committee as a basis | **1922, November** – Conference of the chairmen of district soviets and secretaries. Approval of maintenance of Daghlig Garabagh within Azerbaijan | | | **1922, March 20** – Caucasian State Committee's new-appeal<br>**September 30** – The Appeal repeated<br>**October 17** – Transcaucasian State Committee's recommendation on appointment of Karakozov to the post of chairman of autonomous district's executive committee. Dispatch of S.Shaduns to Azerbaijan for responsible work in Daghlig Garabagh<br>**December 14** – Adoption of the special Resolution by the Transcaucasian State Committee plenum on the realization of autonomy for Daghlig Garabagh |
| **1923, July 1** – Meeting of the Azerbaijan Communist (Bolshevik) Party Presidium. Suggestion of decreeing the creation of the Daghlig Garabagh Autonomous District to the Central Executive Committee.<br>**July 4** – Meeting of the Central Executive Committee presidium. Decision on the creation of autonomous district in mountainous part of Garabagh with Khankandy as a center headed by the Executive Committee<br>**July 7** – Decree of the Central Executive Committee on the creation of Daghlig Garabagh Autonomous District. Creation of the committees to define the borders between the Daghlig Garabagh Autonomous District and Kurdistan. Creation of District Office (with Aghdam its center) in the remaining part of Garabagh<br>**July 16** – Meeting of the Azerbaijan Communist (Bolshevik) Party Central Committee Presidium. Annexation of Shusha to the Daghlig Garabagh Autonomous District<br>**July 21** – Meeting of the Presidium of the Central Executive Committee and Sovnarkom Creation of committee to prepare regulations on the Daghlig Garabagh Autonomous District<br>**July** – Meeting of the Border Committee. Delimitation of the Daghlig Garabagh Autonomous District | **1923, August** – Referendum of Daghlig Garabagh on maintenance of this district within Azerbaijan<br>**September 18** – Replacement of the name of Khankendi to Stepanakert by decision of the District Party Committee<br>**November** – First Congress of the Daghlig Garabagh Autonomous District's soviets. Election of the District Executive Committee and Presidium | | **1923, April 23–24** – XII Congress of the Russian Communist (Bolshevik) Party. Karl Radek's statement concerning the pressure of the Armenian minority over Azerbaijanis | **1923, March 10** – Demand of the Transcaucasian State Committee regarding the realization of autonomy granted to Daghlig Garabagh<br>**June 27–28** – Meeting of the Transcaucasian State Committee Plenum. Giving a Commission to the Azerbaijan Communist (Bolshevik) Party Central Committee to separate Daghlig Garabagh as an autonomous district within a month |
| **1924, November 26** – Regulations on the Daghlig Garabagh Autonomous District | | | | |

Cədvəl ilə tanışlıq göstərir ki, hadisələrin gedişində iki mərhələ ayrılır: 1) Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Qafqaz Bürosunun* 5 iyul 1921-ci il tarixli qərarınadək və 2) qərardan Dağlıq Qarabağa muxtariyyət verilməsinədək davam edən mərhələ. Dağlıq Qarabağa muxtariyyət **verilməsi ətrafında baş verən hadisələr, əsasən, Azərbaycan (1-ci və 2-ci sütunlar) və Qafqaz Bürosu, sonra isə Zaqafqaziya Ölkə Komitəsi** (5-ci sütun) arasında cərəyan edir, Ermənistan isə, faktiki olaraq, bu hadisələrdən kənarda qalır. Bu faktlar Dağlıq Qarabağ və ona muxtariyyət verilməsi ətrafındakı hadisələri yenidən nəzərdən keçirməyi, Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasının obyektiv tarixini bərpa etməyi tələb edir.**

***«Nərimanov Bəyannaməsi»: 1920, 1 dekabr – 1921, 5 iyul.*** Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Xalq Komissarlar Soveti yaradıldıqda yerlərə fövqəladə komissarlar da təyin olundu. **A.N.Karakozov** da (1890–1938) Dağlıq Qarabağ üzrə fövqəladə komissar təyin olundu.[64] Azərbaycan Sovet hökuməti 1920-ci il 30 apreldə Ermənistan Respublikasına nota verdi və tələb etdi ki, Zəngəzurdan və Qarabağdan öz qoşunlarını çıxarsın.[65] May ayında Qarabağda Sovet hakimiyyətinin qurulması elan olundu.

Bu dövrdə Sovet Rusiyası Qafqazın sovetləşdirilməsi planını həyata keçirməkdə davam edir, yeni sovet dövlətlərinin sərhədlərinin müəyyənləşdirilməsi prinsiplərini irəli sürməklə mövcud və gələcək dövlətlərin fəaliyyətini nəzarət altına almağa cəhd göstərirdi. Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Qafqaz Bürosu Qafqaz Cəbhəsi Hərbi-inqilabi şurasına 7 iyul tarixli təlimatında bu məsələyə toxunmuşdu.[66] Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə (1920, 29 noyabr) xarici sərhədlərlə yanaşı, sərhədlər daxilində də bölgülərin aparılması kəskinləşdi. **Azərbaycan İnqilab Komitəsinin** Ermənistan Sovet Respublikasına 30 noyabr teleqramı və 1 dekabr Bəyannaməsində də Qarabağ və onun dağlıq hissəsindən bəhs olunurdu. Bu sənədlərin erməni tarixşünaslığında təhrif edilməsi əsaslı şəkildə sübut edilmişdir.[67] Bəyannamədə Dağlıq Qarabağın əməkçi kəndlilərinə tam öz müqəddəratını təyinetmə hüququ verildiyi elan edilirdi.

Ermənistan İnqilab Komitəsi isə 28 dekabr Bəyannaməsində Naxçıvana iddiadan əl çəkdiyini bildirirdi.[68] Lakin Ermənistan Qarabağı «əldən vermək» istəmirdi. Azərbaycan və Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsi məsələsində Dağlıq Qarabağ yenidən gündəmə gəldi. Qafqaz Bürosu Azərbaycanın razılığı və iştirakı olmadan, özbaşına 3 iyun 1921-ci ildə Dağlıq Qarabağın Ermənistana məxsus olmasının Ermənistan hökumət bəyannaməsində göstərilməsi barədə qərar qəbul etdi. Ermənistan Xalq Komissarları Soveti isə 12 iyunda bunu dekretləşdirdi.[69] İşlərin belə gedişi Azərbaycanı təmin edə bilməzdi. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu və Təşkilat Bürosunun Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi **Q.Kaminskinin** (1895–1938) sədrliyi ilə keçirilən 27 iyun iclasında Tiflisdə komissiyanın işi ilə əlaqədar Azərbaycanın Ermənistanla sərhədi haqqında məsələ müzakirə edildi. Bu iclasda 5 maddədən ibarət qərar qəbul olundu. İlk dəfə burada Dağlıq Qarabağa bəyan edilən öz müqəddəratını təyin etməyə Azərbaycanın baxışı ifadə olundu: «**3. Məsələnin** (Dağlıq Qarabağ haqqında – *Y.M., K.Ş.*) **yeganə həlli erməni və müsəlman kütləsinin Sovet quruculuğu işinə geniş cəlb edilməsi (yol. Nərimanovun Bəyannaməsindən aydın olduğu kimi) ola bilər**». Problemin həlli haqqında Siyasi Büro və Təşkilat Bürosunun fikrinin Tiflisə çatdırılması Nərimanova həvalə edildi. Nərimanovun Tiflisdə olan Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri **M.H.Hacıyev** və xarici işlər naziri **M.D.Hüseynovla** elə həmin gün birbaşa xətlə danışığı oldu. **Nərimanov**: «Deyin ki, bu, Siyasi və Təşkilat Bürosunun fikridir. Əgər onlar mənim bəyannaməmə istinad edirlərsə, bəyannamədə hərfən belə deyilmişdir: Dağlıq Qarabağa tam azad öz müqəddəratını təyinetmə hüququ verilir».

**Hüseynov**: «Yaxşı. Hər şeyi çatdıraram. Hər halda deyim ki, bizim qərarımız, şübhəsiz, çox soyuq qarşılanacaqdır». Yenə həmin gün Hüseynov bu barədə Qafqaz Bürosuna məlumat verdi. Bu məsələ üzrə Qafqaz Bürosunun fövqəladə plenumunu çağırmaq, Nərimanov və Myasnikovu Tiflisə dəvət etmək qərara alındı.[70]

***Azərbaycanın ayrılmaz hissəsinə necə «muxtariyyət» verildi: Qafqaz Bürosu plenumunun 1921-ci il 4 və 5 iyul tarixli qərarları.*** Belə bir zəmində Tiflisdə Qafqaz Bürosu plenumunun iclası keçirildi. Xüsusi əhəmiyyətini nəzərə alaraq, Qafqaz Bürosunun 4 iyul axşam və 5 iyul iclas protokolundan çıxarışları olduğu kimi (tərcümədə) veririk:[71]

A careful look at the table shows that the course of events was divided into two stages: 1) until the Resolution of the Russian Communist (Bolsheviks) Party Central Committee Caucasian Bureau* dated July 5, 1921; 2) After the Resolution till granting autonomy to Daghlig Garabagh. The events related to granting autonomy to **Daghlig Garabagh took place mainly between Azerbaijan (1st and 2nd columns) and Caucasian Bureau and then the Transcaucasian State Committee** (5th column), while Armenia actually stood aside from these processes. These facts require re-examination of the events concerning Daghlig Garabagh and granting autonomy to it, as well as restoration of the objective history of the creation of the Daghlig Garabagh Autonomous Oblast.**

***"Narimanov Declaration": December 1, 1920 – July 5, 1921.*** Following the establishment of Soviet power in Azerbaijan, Sovnarkom was created, and extraordinary commissars were appointed to the regions. And **A.N.Karakozov** (1890–1938) was appointed the extraordinary commissar of Daghlig Garabagh.[64] The Azerbaijan Soviet government delivered an ultimatum to the Armenian Republic on April 30, 1920 demanding the withdrawal of Armenian forces from Zangazur and Garabagh.[65] In May, the establishment of Soviet power in Garabagh was declared.

At that time, Soviet Russia was continuing a plan of sovietization of the Caucasus region and trying to control the activity of the existing and future states by putting forward the principles of delineation of new soviet states. The instruction of the Political Bureau of the Russian Communist (Bolsheviks) Party Central Committee Caucasian Bureau to the Caucasian Front Military-Revolutionary Council dated July 7 touched upon this issue.[66] Following the establishment of Soviet power in Armenia (November 29, 1920), not only the delimitation of external borders, but also divisions within its borders deteriorated. The telegram of **Azrevkom (Azerbaijan Revolutionary Committee)** dated November 30 to the Armenian Soviet Republic, as well as its Declaration dated on December 1, dealt with Garabagh and its mountainous part. The distortion of these documents in the Armenian historical science is proven by facts.[67] The Declaration in fact declared that laborious villagers of Daghlig Garabagh were granted the right of complete self-determination.

In a Statement dated December 28, 1920 the Armenian Revolutionary Committee stated that Armenia should take its hands off Nakhchivan.[68] But, Armenia did not want to "let Garabagh slip through their fingers". Daghlig Garabagh was again made an agenda issue regarding the delimitation between Azerbaijan and Armenia. The Caucasian Bureau adopted a resolution wilfully and without the concurance of Azerbaijan on the inclusion of the article on belonging Daghlig Garabagh to Armenia in the Armenian Governmental Statement on June 3, 1921. The Armenian Sovnarkom (Council of Peoples Commissars) decreed this on June 12.[69] Such course of events did not satisfy Azerbaijan. The meeting of the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee Political Bureau and Organization Bureau, with the chairmanship of **G.Kaminski** (1895–1938), secretary of the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee, dated June 27 in Tiflis, discussed border issue between Azerbaijan and Armenia as a part of the committee's work. The meeting adopted a decision consisting of 5 articles. Azerbaijan's position on self-determination granted to Daghlig Garabagh was expressed here for the first time: "**3. The only settlement of the issue** (Daghlig Garabagh issue – *Y.M., K.Sh.*) **can be through involvement of the Armenian and Moslem community to the Soviet building work (as stated in comrade Narimanov's Statement)"**. It was entrusted to Narimanov to deliver the opinion of the Political Bureau and Organization Bureau to Tiflis. Narimanov spoke to the chairman of the Azerbaijan Executive Committee **M.H.Hajiyev** and Minister of Foreign Affairs M.D.Husseinov by direct line on that very day. "**Narimanov:** Say that this is the conclusion of the Political and Organization Bureau. If they refer to my statement, the statement says literally the following: "Daghlig Garabagh is given the full right for self-determination."

**Husseinov**: "All right, I will deliver everything. Anyway, I should say that our decision will definitely be received coldly". Again that day, Husseinov informed the Caucasian Bureau of this. It was decided to call the extraordinary plenum of the Caucasian Bureau on this issue and invite Narimanov and Myasnikov to Tiflis.[70]

***How an integral part of Azerbaijan was granted "autonomy": Resolutions of the Caucasian Bureau dated on July 4 and 5, 1921.*** The meeting of the Caucasian Bureau took place in Tiflis regarding this issue. Because of its special importance, we submit the translation of extracts from the minutes of the meeting of the Caucasian Bureau dated on July 4 evening and July 5.[71]

*Qafqaz Bürosu – 1920-ci ilin aprelindən – 1922-ci ilin fevralınadək mövcud olmuşdur.

**Zaqafqaziya Ölkə Komitəsi 1922-ci ilin fevralında təşkil edilmişdir.

* Caucasian Bureau – existed from April 1920 till February 1922.

** Transcaucasian State Committee – established in February 1922.

### «RK(b)P MK QAFQAZ BÜROSU PLENUMUNUN AXŞAM İCLASININ PROTOKOLUNDAN

*4 iyul 1921-ci il*

**İştirak edirlər:*** RKP MK üzvü Stalin, Qafbüronun üzvləri: Orconikidze, Maxaradze, Kirov, Myasnikov, Nazaretyan, Oraxelaşvili və Fiqatner. Komsomolun Qafbürosunun katibi Breytman, Gürcüstan MK üzvləri: Sinsadze, Mdivani və Svanidze

| Dinlənildi: | Qərar verildi: |
|---|---|
| 5. Qarabağ məsələsi. Bu məsələnin müzakirəsində iki fikir aşkar oldu və aşağıdakı məsələlər səsə qoyuldu: | |
| a) Qarabağı Azərbaycanın hüdudlarında saxlamaq; | Lehinə səs verdilər: Nərimanov, Maxaradze, Nazaretyan<br>Əleyhinə: Orconikidze, Myasnikov, Kirov, Fiqatner |
| b) Bütün Qarabağda, bütün erməni və müsəlman əhalisinin iştirakı ilə ümumxalq rəy sorğusu keçirmək; | Lehinə səs verdilər: Nərimanov, Maxaradze |
| v) Qarabağın dağlıq hissəsini Ermənistanın tərkibinə daxil etmək; | Lehinə səs verdilər: Orconikidze, Myasnikov, Fiqatner, Kirov |
| q) Rəy sorğusunu yalnız Dağlıq Qarabağda, başqa sözlə, ermənilər arasında keçirmək. | Lehinə səs verdilər: Orconikidze, Myasnikov, Fiqatner, Kirov, Nazaretyan |
| | **Qərara alındı:**<br>Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibinə daxil edilsin, yalnız Dağlıq Qarabağda rəy sorğusu keçirilsin. |
| 6. Qarabağ məsələsinin Azərbaycan üçün xüsusi əhəmiyyətini nəzərə çarpdıraraq, yol. Nərimanov qəti həll edilməsi üçün məsələnin RKP MK-ya keçirilməsini zəruri hesab etdiyini bildirdi. | Qarabağ məsələsinin ciddi fikir ayrılığına səbəb olmasını nəzərə alaraq, RKP MK Qafbürosu onun qəti olaraq həll edilməsi üçün RKP MK-ya keçirilməsini zəruri hesab edir. |

Qarabağ məsələsi haqda səsvermədə yol. Oraxelaşvili iştirak etmədi.

*RKP MK Qafbürosunun katibi Fiqatner»*

### «RK(b)P MK QAFQAZ BÜROSU PLENUMUNUN İCLAS PROTOKOLUNDAN

*5 iyul 1921-ci il*

**İştirak edirlər:** RKP MK üzvü Stalin, Qafbüronun üzvləri: yol. Orconikidze, Kirov, Nazaretyan, Oraxelaşvili, Fiqatner, Nərimanov, Myasnikov, ASSR Xalq Xarici İşlər komissarı Hüseynov.

| Dinlənildi: | Qərara alındı: |
|---|---|
| 1. yol. Orconikidze və Nazaretyan əvvəlki plenumun Qarabağ haqqında qərarına yenidən baxılması məsələsini qaldırdılar. | a) Müsəlmanlar və ermənilər arasında milli sülhün zəruriliyini və yuxarı və aşağı Qarabağın Azərbaycanla kifayət qədər iqtisadi əlaqələrini nəzərə alaraq, Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində saxlanılsın, ona inzibati mərkəzi muxtar vilayətin tərkibindəki Şuşa ş. olmaqla geniş vilayət muxtariyyəti verilsin. Səs verirlər – 4 lehinə, 3 bitərəf.<br>b) Azərbaycan MK-ya tapşırılsın ki, sonradan RKP MK Qafbürosunun təsdiqinə verməklə, muxtar vilayətin sərhədlərini müəyyən etsin.<br>v) RKP MK Qafbürosunun Rəyasət Heyətinə Dağlıq Qarabağın Fövqəladə Komitəsinə namizəd haqqında Azərbaycan və Ermənistan MK ilə danışıq aparması tapşırılsın.<br>q) Azərbaycan MK tərəfindən Dağlıq Qarabağın muxtariyyət həcmi müəyyən edilsin və təsdiq üçün MK-nın Qafbürosuna təqdim edilsin. |

*RKP MK Qafbürosunun katibi: Fiqatner.»*

**Qaynaq:** Sov. İKP MK yanında MLİ PAAF (indi ARDSPİHA), f. 64, siyahı 2, iş 1, v. 118; 122–122ᵃᵇ; К истории образования Нагорно-Карабахский автономной области Азербайджанской ССР, с. 90–91; 92

* **Stalin (Cuqaşvili) İosif Vissarionoviç** (1879–1953) – həmin dövrdə millətlərin işləri üzrə xalq komissarı (1917–1922) idi; **Orconikidze Qriqori Konstantinoviç (Serqo)** (1886–1937); **Maxaradze Filipp İeseyeviç** (1868–1941) – Gürcüstan İK-nin sədri; **Nərimanov Nəriman Kərbəlayi Nəcəf oğlu** (1870–1925) – Azərbaycan XKS-nin sədri (1920–1922); **Kirov (Kostrikov) Sergey Mironoviç** (1886–1934); **Myasnikov (Myasnikyan) Aleksandr Fyodoroviç** (1886–1925) – Ermənistan İK-nin sədri; **Nazaretyan Amayak Markaroviç** (1889–1937) – 1920–1922-ci illərdə QB-nin katibi, Gürcüstan İK-nin və GK(b)P MK-nın üzvü; **Oraxelişvili İvan (Mamiya) Dmitriyeviç** (1881–1937) – 1921-ci ilin martından Gürcüstan İK-nin üzvü, GK(b)P MK-nın katibi və XKS-nin sədri; **Fiqatner Yuri Petroviç (Yakov İsaakoviç)** (1889–1937) – 1921-ci ilin martından QB-nin katibi. *Bax:* **Гражданская война и военная интервенция в СССР. Энциклопедия, М., 1983**



### "FROM THE PROTOCOL OF THE RUSSIAN COMMUNIST (BOLSHEVIKS) PARTY CENTRAL COMMITTEE CAUCASIAN BUREAU EVENING PLENUM

*July 4, 1921*

**Participants:*** Member of the Russian Communist Party Central Committee Stalin, members of the Caucasian Bureau: Orjanikidzeh, Makharadzeh, Kirov, Myasnikov, Nazaretyan, Orakhelashvili and Figatner. Secretary of the Caucasian Bureau of Komsomol Breytman, members of the Georgian Central Committee: Sinsadzeh, Mdivani and Svanidzeh.

| Heard: | Decided: |
|---|---|
| 5. Garabagh issue. The discussion of the issue discovered two views and the following issues put to a vote: | |
| a) To keep Garabagh within the borders of Azerbaijan | Voted in favour: Narimanov, Makharidzeh, Nazaretyan<br>Against: Orjanikidzeh, Myasnikov, Kirov, Figatner |
| b) To hold a public referendum on the entire Garabagh region with the participation of the entire Armenian and Moslem population | Voted in favour: Narimanov, Makharidzeh |
| c) To annex mountainous part of Garabagh to Armenia | Voted in favour: Orjanikidzeh, Myasnikov, Figatner, Kirov |
| d) To hold a referendum in Daghlig Garabagh, in other words among Armenians | Voted in favour: Orjanikidzeh, Myasnikov, Figatner, Kirov, Nazaretyan |
| | **It was decided:**<br>To annex Daghlig Garabagh to Armenia SSR, to hold a referendum only in Daghlig Garabagh. |
| 6. Expressing the special importance of Garabagh for Azerbaijan, comrade Narimanov suggested that it was a necessity to deliver the issue to the Russian Communist Party Central Committee for making the final decision. | Since the Garabagh issue causes serious contradictions, the Caucasian Bureau of the Russian Communist Party Central Committee regards it necessary to deliver the issue to the Russian Communist Party Central Committee for its final settlement. |

Comrade Orakhelashvili did not take part in voting on the Garabagh issue.

*Secretary of the Caucasian Bureau of the Russian Communist Party Central Committee Figatner"*

### "FROM THE PROTOCOL OF THE PLENUM OF THE CAUCASIAN BUREAU OF RUSSIAN COMMUNIST (BOLSHEVIKS) PARTY CENTRAL COMMITTEE MEETING

*July 5, 1921*

**Participants:** Member of the Russian Communist Party Central Committee Stalin, members of the Caucasian Bureau: Comrade Orjanikidzeh, Kirov, Nazaretyan, Orakhelashvili, Figatner, Narimanov, Myasnikov, Commissar for Peoples Foreign Affairs of ASSR Husseinov.

| Heard: | It was decided: |
|---|---|
| 1. Comrades Orjanikidzeh and Nazaretyan raised the issue of reconsideration of the decision of the previous plenum on Garabagh | a) Taking into account the urgency of national peace between Moslems and Armenians and the rather extensive economic relations of Upper and Lower Garabagh with Azerbaijan, to maintain Daghlig Garabagh within the Azerbaijan Soviet Socialist Republic, and to grant it with extensive district autonomy Shusha city as an administrative center within the autonomous oblast. Voting – in favour 4, abstained 3. b) To charge the Azerbaijan Central Committee with the task of defining the autonomous oblast's borders with the condition of submitting it further to confirmation of the Russian Communist Party's Central Committee Caucasian Bureau. c) To require the presidium of the Russian Communist Party Central Committee Caucasian Bureau to conduct negotiations with the Azerbaijan and Armenian Central Committees regarding the nominee to the Daghlig Garabagh Extraordinary Committee. d) Azerbaijan Central Committee to define the scale of autonomy of Daghlig Garabagh and submit it for confirmation by the Russian Communist Party Central Committee Caucasian Bureau. |

***Secretary of the Caucasian Bureau of the Russian Communist Party Central Committee: Figatner."***

**Source:** Institute of Marxism and Leninism at Communist Party Central Committee of the Soviet Union (now ARDSPIHA), f.64, list 2, file 1, v. 118; 122–122. On history of the creation of Dahglig Garabagh Autonomous District of Azerbaijan SSR, p. 90–91; 92.

* Stalin (Jugashvili) Iosif Vissarionovich (1879–1953) – at that time, he was the peoples commissar for nationalities (1917–1922); Orjanikidzeh Grigori Konstantinovich (Sergo) (1886–1937); Makharadzeh Philip Ieseyevich (1868–1941) – chairman of the Georgian Executive Committee; Narimanov Nariman Karbalayi Najaf oglu (1870–1925) – chairman of Az.Sovnarkom (1920–1922); Kirov (Kostrikov) Sergey Mironovich (1886–1934); Myasnikov (Myasnikyan) Alexander Fyodorovich (1886–1925) – chairman of the Armenian Executive Committee; Nazaretyan Amayak Markarovich (1889–1937) – secretary of the Caucasian Bureau in 1920–1922, member of the Georgian Executive Committee and Communist (Bolsheviks) Party Central Committee; Orakhelashvili Ivan (Mamiya) Dmitriyevich (1881–1937) – member of the Georgian Executive Committee, secretary of the Communist Party Central Committee and chairman of the Peoples Communist Party of Georgia since March 1921; Figatner Yuri Petrovich (Yakov Isaakovich) (1889–1937) – secretary of the Caucasian Bureau since March 1921. See: Civil war and military intervention to USSR. Encyclopedia, M., 1983

Ermənilər Qafqaz Bürosunun 5 iyul tarixli qərarının qəbul edilməsində Stalinin əsas rol oynadığını sübut etməyə çalışırlar. Əslində, Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Qafqaz Bürosunun 4 və 5 iyul iclaslarında Stalinin təzyiqinin nədən ibarət olması faktlarla təsdiq olunmur. Bir sözlə, SSRİ-nin yaradılması *(1922, 30 dekabr)* ərəfəsindəki mübarizədə özünün «muxtariyyətləşdirmə» planı ilə çıxış edən Stalinin guya sosialist dövlətinin federativ quruluşunun Lenin ideyasını həyata keçirməsi ağlabatan görünmür. Ona görə də məsələ daha dərin və ətraflı şəkildə nəzərdən keçirilməlidir:

1) Mərkəz Qafqaz Bürosunun timsalında hələ SSRİ-nin yaradılmasından, Azərbaycan və Ermənistan SSR-in İttifaq dövlətində birləşdirilməsindən əvvəl praktik olaraq sərhəd məsələsinə müdaxilə etməklə səlahiyyətli tərəf kimi çıxış etdi. Dağlıq Qarabağ məsələsi üçtərəfli müzakirə məsələsinə çevrildi;

2) Qafqaz Bürosu bu «hüququndan» istifadə edərək Azərbaycanın Dağlıq Qarabağ barəsində elan etdiyi **öz müqəddəratını təyinetmə müddəasının təbii-tarixi şəkildə yerinə yetirilməsinə imkan vermədi**, onu **«geniş vilayət muxtariyyəti»** kimi ifadə etdi;

3) Qafqaz Bürosu 4 iyul qərarı ilə Azərbaycana (yəni, Dağlıq Qarabağ Ermənistana verilə bilər!), səhəri gün isə bu məsələyə qayıtmaqla Ermənistana təsir göstərmək (yəni, Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması təsdiq edilə bilər!) və Mərkəz üçün əlverişli mövqeyi təmin etmək istəyirdi, buna da (yəni Dağlıq Qarabağa muxtariyyət verilməsinə) nail oldu. Beləliklə, Qafqaz Bürosu plenumunun 5 iyul qərarından sonra Dağlıq Qarabağ ətrafında hadisələr yeni istiqamət aldı: Qafqaz Bürosu Mərkəz üçün əlverişli qərarı təmin edib, onun reallaşdırılması uğrunda təzyiqlərə başladı. Bununla, Azərbaycan SSR özünün ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa məcburi şəkildə muxtariyyət verilməsi nəticəsində yeni şəraitlə qarşılaşdı. Ermənistan isə Dağlıq Qarabağ məsələsi ilə bağlı olaraq, Qafqaz Bürosu ilə Azərbaycan arasında münasibətləri kəskinləşdirməyə, Dağlıq Qarabağa muxtariyyət verilməsi ilə onun işlərinə qarışmaq imkanlarından istifadə edərək, Dağlıq Qarabağa olan iddialarını həyata keçirməyə çalışdı. Bu məsələlər kompleks şəkildə nəzərdən keçirilməlidir.

***S.M. Kirovun mövqeyində dəyişiklik.*** 5 iyul qərarı qəbul edildikdən sonra Azərbaycan rəhbərliyi tərəfindən onun həyata keçirilməsinə başlanmalı idi. Bununla əlaqədar olaraq Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin həmin ilin 19 iyul tarixli iclasında Nərimanovun Tiflis səfərinin yekunları bəyənilmiş, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu və Təşkilat Büro-

But in fact the meetings of the Russian Communist (Bolsheviks) Party Central Committee Caucasian Bureau on July 4 and 5 do not confirm the existence of facts regarding the pressure by Stalin on the decision adopted. As if the realization of Lenin's idea of a socialist state of the federative system by Stalin, who acted with his plan of "autonimization" in the struggle on the eve of the establishment of the USSR (December 30 1922) seems absurd. Therefore, the issue must be considered in a deeper and more global way:

1) The Center in the name of Caucasian Bureau acted as the plenipotentiary side in settlement of border issue even before the creation of the USSR and before Armenia and Azerbaijan became the members of the USSR. The issue of Daghlig Garabagh became an issue that needed to be discussed trilaterally.

2) The Caucasian Bureau used this "right" and **did not give a chance to the natural and historical realization of the article on self-determination** declared by Azerbaijan on Daghlig Garabagh and expressed it as **"extensive district autonomy";**

3) The Caucasian Bureau wanted to put pressure upon Azerbaijan (that is, Daghlig Garabagh can be given to Armenia!); the next day, by coming back to this issue with the aim of pressing Armenia (that is, maintenance of Daghlig Garabagh within Azerbaijan can be confirmed!) and to provide a favorable position for the Center, (that is, granting autonomy to Daghlig Garabagh) and achieved it. Thus, following the resolution of the Caucasian Bureau Plenum dated on July 5, the events related to Daghlig Garabagh turned in a new direction: the Caucasian Bureau provided a favorable decision for the Center and began to apply pressure for its realization. Thus, Azerbaijan SSR confronted a new condition due to the forced granting of autonomy to its integral part (Daghlig Garabagh). Armenia tried to deteriorate the relations between the Caucasian Bureau and Azerbaijan in connection with the Daghlig Garabagh issue and to realize its claims for Daghlig Garabagh through its opportunities to intervene in the affairs of Daghlig Garabagh as a result of granting autonomy to it.

These issues should be considered in a detailed form.

***Change in S.M.Kirov's position.*** Following the adoption of the resolution dated on July 5, Azerbaijan leadership had to start its implementation. In regard to this, the meeting of the Azerbaijan Central Executive Committee Presidium dated on July 19 approved the results of Narimanov's Tiflis visit and the meeting of the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee Political Bureau and Organization Bureau dated on July 20 and a committee was set up to prepare a constitution for the autonomous oblast.[72] ***Here there is***




1


2


3


4


5


6


7


8


9

**Qarabağın görkəmli dövlət, hərbi və ictimai-siyasi xadimlərindən :**
1.General-leytenant Fərəc bəy Ağayev (1811-1891); 2. Azərbaycan Xalq Cümhuriyyətinin müdafiə naziri Səməd bəy Mehmandarov (1856-1931); 3. Azərbaycan milli mübarizəsinin ideoloqlarından biri Əhməd bəy Ağayev (1869-1939); 4. Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov (1879-1941); 5. General-mayor Yaqub Quliyev (1900-1942); 6. Sovet İttifaqı Qəhrəmanı Aslan Vəzirov (1910-1988); 7. Sovet İttifaqı Qəhrəmanı Xəlil Məmmədov (1916-1989); 8. Məşhur neftçi, Sosialist Əməyi Qəhrəmanı Süleyman Vəzirov (1910-1973); 9. General-mayor Murtuz Quliyev (1920-1979);

**State, military and social-political figures from Garabagh:**
1. Lieutenant-general - Faraj bay Aghayev (1811-1891); 2. Defense Minister of the Azerbaijan People's Republic Samad bay Mehmandarov (1856-1931); 3. One of the Azerbaijan national struggle ideologists Ahmad bay Aghayev (1869-1939); 4. Garabagh general-governor Khosrov bay Sultanov (1879-941); 5. Major-general Yagoub Guliyev (1900-1942); 6. Hero of the Soviet Union Aslan Vazirov (1910-1988); 7. Hero of the Soviet Union Khalil Mammadov (1916-1989); 8. Famous oilman, Hero of the Socialist Labor Suleiman Vazirov (1910-1973); 9. Major-general Murtuz Guliyev (1920-1979).

sunun 20 iyul tarixli iclasında isə muxtar vilayətin konstitusiyasının hazırlanması üçün komissiya yaradılmışdı.[72] ***Burada bir məsələnin aydınlaşdırılmasına ehtiyac yaranır. Artıq məlum olduğu kimi, 5 iyul qərarı ilə Dağlıq Qarabağa muxtariyyət verilməsində Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə həlledici rol ayrılmışdı. Görünür, 1921-ci ilin iyulunda Kirovun Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi rəhbərliyinə gətirilməsində elə bu amil də mühüm rol oynamışdı. Məhz Kirov faktik olaraq Azərbaycanda rəhbərliyə keçdikdən sonra Dağlıq Qarabağa muxtariyyət verilməsinə rəsmi münasibət dəyişdi və bu proses iki ilədək ləngidi.*** Ona görə də bu məsələ ətrafında Kirovun mövqeyi və ona təsir edən amillər xüsusi olaraq araşdırılmalıdır. Əgər 4 iyul iclasının protokolundan çıxarışa nəzər salsaq görərik ki, o zaman Kirov Qarabağın dağlıq hissəsinin Azərbaycanın hüdudlarında saxlanmasının əleyhinə çıxmış (5,a), onun Ermənistanın tərkibinə daxil edilməsinin isə lehinə (5,b) səs vermişdir. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 19 iyul, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu və Təşkilat Bürosunun 20 iyul iclaslarında və qeyd olunan qərarların qəbulunda Kirov da iştirak etmişdi. ***Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu və Təşkilat Bürosunun 26 sentyabrda bilavasitə Kirovun sədrliyi ilə keçirilən iclasında onun mövqeyinin əksinə dəyişdiyini görürük.*** İclasda iştirak edən 9 nəfərdən (Kirov, Nərimanov, Axundov, Qarayev, Əfəndiyev, Stukalov, Mirzoyan, Bünyadzadə, Hüseynov) 7-si Qafqaz Bürosundan Dağlıq Qarabağın ayrılması haqqında qərarın yenidən nəzərdən keçirilməsini xahiş etməyi qərara alır, yalnız 2 nəfər – Nərimanov və Bünyadzadə Qafqaz Bürosunun qərarının qısa müddətdə yerinə yetirilməsinə tərəfdar çıxır. Bu məsələ üzrə materiallar toplamaq üçün komissiya yaradılır.[73] Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Təşkilat Bürosu üzvlərinin iştirakı ilə Qarabağın məsul işçilərinin 21 oktyabr konfransına rəhbərlik edən Bünyadzadə də Kirovun mövqeyinə keçir. Belə ki, ***həmin iclasda Dağlıq Qarabağın muxtar vilayət kimi ayrılması xüsusi qeyddə məqsədəuyğun hesab olunmurdu.***[74]

Beləliklə, məhz Kirovun rəhbərliyi ilə Dağlıq Qarabağın muxtariyyəti məsələsinə yeni münasibətin yarandığı ortaya çıxır. Bu təsadüfi deyildi. ***Kirov nəinki öz şəxsi mövqeyinin, hətta Qafqaz Bürosunun Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasını təsdiq etmək əvəzinə, ona məcburi muxtariyyət verilməsi haqqındakı qərarının və onun qısa müddətdə həyata keçirilməsi zərurətinin yanlış olduğunu yəqin etmişdi.***

***a need to clarify one issue. As is already known, the resolution dated July 5 gave a decisive role to the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee in granting autonomy to Daghlig Garabagh. Evidently, this factor played an important role also in that S.M.Kirov was brought to the leadership of the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee in July 1921. Directly after Kirov's coming to power in Azerbaijan, the official attitude towards granting autonomy to Daghlig Garabagh changed and this process was delayed for about two years.*** Therefore, Kirov's position around this issue and the factors affecting it must be analyzed specifically. If we look at the extract from the minutes of the meeting on July 4, we will see that at that time, Kirov was against the maintenance of the mountainous part of Garabagh within Azerbaijan (5,a) and voted for its annexation to Armenia (5,b). Kirov also took part in the meetings of the Azerbaijan Central Executive Committee Presidium on July 19 and the meeting of the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee Political Bureau and Organization Bureau on July 20, as well as in the adoption of the mentioned decisions. ***At the meeting of the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee Political Bureau and Organization Bureau taking place with the direct chairmanship of Kirov, we see that his position had changed completely.*** Seven out of the 9 persons (Kirov, Narimanov, Akhundov, Garayev, Afandiyev, Stukalov, Mirzoyan, Bunyadzadeh and Husseinov) taking part in the meeting decided to ask the Caucasian Bureau to reconsider the decision on the separation of Daghlig Garabagh, only 2 of them – Narimanov and Bunyadzadeh supported the realization of the decision of the Caucasian Bureau in the shortest time. A committee was established to gather materials on this issue.[73] Bunyadzadeh who was heading the conference of responsible workers of Garabagh taking place in October 21 and attended by members of the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee Organization Bureau, also supported Kirov's position. That is, ***separation of Daghlig Garabagh as an autonomous oblast was not considered appropriate as shown in a special note at that meeting.***[74]

Thus, it appears that a new attitude towards the autonomy of Daghlig Garabagh emerged through Kirov's leadership. This was not accidental. ***Kirov had become sure that not only his position, but also the decision of the Caucasian Bureau on granting forced autonomy to Daghlig Garabagh instead of confirming it as an integral part of Azerbaijan, as well as the necessity of the realization of this decision quickly was wrong.***

Even 4 months after the decree granting autonomy to Daghlig Garabagh, the meeting of the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee Presidium which took place in October 8, 1923 with Kirov's chairmanship, admitted that the propaganda of



Dağlıq Qarabağa muxtariyyət verilməsi dekretləşdiriləndən 4 ay keçdikdən sonra belə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Rəyasət Heyətinin 8 oktyabr 1923-cü ildə Kirovun sədrliyi ilə keçirilən iclasında Dağlıq Qarabağa muxtariyyət verilməsi haqqında qərarın əhali, xüsusilə türklər (azərbaycanlılar – *Y.M., K.Ş.*) arasında təbliğ olunmasının başa çatdırılmadığı etiraf olunurdu.[75]

***Dağlıq Qarabağa muxtariyyət verilməsi Azərbaycana necə qəbul etdirildi?*** Hadisələrin belə gedişi Qafqaz Bürosunun narahatlığına səbəb oldu və 5 iyul qərarının Azərbaycana qəbul etdirilməsi üçün təzyiqlərə başlandı. Bu iki yolla həyata keçirilirdi. Bir tərəfdən Azərbaycan rəhbərliyi qarşısında tələb qoyulur, digər tərəfdən Dağlıq Qarabağın idarəçiliyi bura xüsusi olaraq göndərilən erməni kadrları ilə «möhkəmləndirilərək» həmin bölgədə Azərbaycanın təsirinin zəiflədilməsinə cəhd edilirdi.

Dağlıq Qarabağa muxtariyyət verilməsi Zaqafqaziya federasiyası və SSRİ-nin yaradılması prosesləri ilə paralel gedirdi. Buna baxmayaraq, onun həyata keçirilməsindəki problemlərə Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının irəli sürdüyü şəkildə yenidən baxılmadı. Əksinə, 1922-ci ilin fevralında Zaqafqaziya kommunist təşkilatlarının I qurultayında Orconikidzenin sədr seçildiyi Rusiya Kommunist (bolşeviklər) Partiyası Zaqafqaziya Ölkə Komitəsi, 5 iyul qərarının qəbul edilməsində olduğu kimi, onun reallaşdırılmasında da inzibati-amirlik üsullarına əl atdı. Zaqafqaziya Ölkə Komitəsinin 27 oktyabr 1922-ci il tarixli iclasında Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə 5 iyul qərarının həyata keçirilməsi təklif edildi, Karakozovun İcraiyyə Komitəsinin sədri təyin edilməsi, Şadunsun məsul işə göndərilməsi üçün Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə ezam edilməsi qərara alındı.[76] Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin 15 dekabr iclası Zaqafqaziya Ölkə Komitəsinin qərarını icra üçün qəbul etdi, Azərbaycan SSR Xalq Komissarları Soveti yanında Dağlıq Qarabağ işləri üzrə Mərkəzi Komissiya (Kirov, Mirzəbekyan, Karakozov) və 7 nəfərdən ibarət Komitə (1922, 15 dekabr–1923, 24 iyul) təşkil edildi. Bütün bunlara baxmayaraq, Azərbaycana təzyiq yenə davam etdirildi.[77] Dekabrın 22-də Zaqfederasiyanın İttifaq Soveti Dağlıq Qarabağa muxtariyyət verilməsinin sürətləndirilməsi haqqında xüsusi qərar qəbul etdi.[78]

SSRİ-nin yaradılmasından sonra Zaqafqaziya Ölkə Komitəsinin tələbləri daha sərt şəkil aldı. 1923-cü ilin mayında Qarabağ Komitəsinin məruzəsi Zaqafqaziya Ölkə Komitəsi plenumunun gündəliyinə daxil edildi.[79] İyunun 1-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Rəyasət Heyəti muxtariy-

the decision on granting autonomy to Daghlig Garabagh among the population, particularly among Turks (Azerbaijanis – *Y.M., K.Sh.*) was not finished.[75]

***How was Azerbaijan made to accept the decision of granting autonomy to Daghlig Garabagh?*** This course of events caused anxiety within the Caucasian Bureau and there began pressures to make Azerbaijan accept the decision, dated on July 5. This was carried out in two ways. On the one hand, a requirement was put before the Azerbaijan leadership; on the other hand, the leadership of Daghlig Garabagh was "strengthened" with Armenian cadres sent here especially, and efforts were made to weaken Azerbaijan's influence in that region.

The autonomization of Daghlig Garabagh was taking place in parallel with the processes of the creation of the Transcaucasian federation and the USSR. Despite this, the problems concerning its realization were not reconsidered in the way suggested by the Azerbaijan Communist (Bolsheviks) Party. On the contrary, in February 1922, at the 1st congress of the Transcaucasian communist organizations, the Russian Communist (Bolsheviks) Party Transcaucasian State Committee with Orjanikidzeh elected as the chairman, used the administrative-power methods in implementation of the decision dated on July 5, as it had done in its adoption. The meeting of the Transcaucasian State Committee dated on October 27, 1922 suggested to the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee to implement the decision dated on July 5, and it decided to appoint Karakozov as chairman of the Executive Committee and to send Shaduns for an official visit to the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee for the purpose of appointing him to a responsible position.[76] The meeting of the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee on December 15 adopted the decision of the Transcaucasian State Committee for execution and the Central Committee (Kirov, Mirzabekyan and Karakozov) for Daghlig Garabagh affairs, as well as setting up a Committee (December 15, 1922 – July 24, 1923) consisting of 7 persons at the Azerbaijan SSR Sovnarkom. Despite all these actions, the pressure on Azerbaijan went on.[77] On December 22, the Union Soviet of the Transcaucasian Federation adopted a special decision on rapidly granting autonomy to Daghlig Garabagh.[78]

Following the creation of the USSR, the requirements of the Transcaucasian State Committee became even stricter. In May 1923, the report of the Garabagh Committee was included in the agenda of the plenum of the Transcaucasian State Committee.[79] On June 1, the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee Presidium made a decision on decreeing of autonomy to Garabagh and the submission of its draft to the Central Committee within three days.[80] This

yətin dekretləşdirilməsi və onun layihəsinin üç gün ərzində Mərkəzi Komitəyə təqdim olunması barədə qərar qəbul etdi.[80] Bu qərar Zaqafqaziya Ölkə Komitəsini təmin etdi. Zaqafqaziya Ölkə Komitəsinin plenumu iyunun 27-də Şaduns və Karakozovun məruzəsi əsasında Dağlıq Qarabağa bir ay müddətində muxtar vilayət statusu verilməsinin təmin olunmasını Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə həvalə etdi.[81] İyulun 1-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Rəyasət Heyətinin iclası Kirovun sədrliyi ilə Qarabağ haqqında məsələni dinləyərək 6 bənddən (a-e) ibarət qərar qəbul etdi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə Dağlıq Qarabağa muxtariyyət vermək, mərkəz Xankəndi olmaqla **«Muxtar Qarabağ vilayəti»** yaratmaq təklif olundu. Sərhədlərlə bağlı məsələləri müəyyən etmək üçün komissiya (Qarayev–sədr, üzvlər: Karakozov, Sviridov, İldırım və Bünyadzadə) yaradıldı və s .[82] 1923-cü il iyulun 4-də Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsi də eyni məzmunlu qərar qəbul etdi.

Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsi iyulun 7-də **M.B.Qasımov** (1879–1949) və **Ə. M.Xanbudaqovun** (1893–1937) imzası ilə «Dağlıq Qarabağ muxtar vilayəti yaradılması haqqında» dekret verdi.[83] Dekret preambula, dörd bənd və müştərək komissiya yaradılması haqqında yekundan ibarətdir. Göründüyü kimi, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin qərarı ilə dekretin adı arasında fərq vardır, çünki Qarabağın aran və dağlıq hissəsini bir yerdə ayırmaq əvəzinə, yalnız Dağlıq Qarabağı ayırmaq qərara alınmışdı. Dekretin **Muxtar Dağlıq Qarabağ Vilayəti** adlandırılması diqqəti cəlb edir. Lakin sonralar o, Dağlıq Qarabağ Muxtar Vilayəti adlandırılır (işdə dolaşıqlıq yaratmamaq üçün biz də bu ənənəni davam etdirmək məcburiyyətindəyik, amma onu ilk rəsmi sənədlərdə qeydə alınmış mənada qəbul edirik – *Y.M.,K.Ş.*). Dekret ciddi hüquqi sənəd təsiri bağışlamır, primitiv məzmunu ilə fərqlənir. Preambulada tarixi xronologiya pozulur, faktlar təhrif olunur, Dağlıq Qarabağa muxtariyyət verilməsi zərurəti kifayət qədər əsaslandırılmır. Dekretin birinci bəndində **(«1) Образовать из армянской части (?) Нагорного Карабаха автономную область, как составную часть (?) АССР, с центром в местечке Ханкенды»)*** hüqu-

* *Tərcüməsi belədir:* **«Dağlıq Qarabağın erməni hissəsindən (ermənilər yaşayan – *Y.M., K.Ş.*) Azərbaycan SSR-in tərkib hissəsi kimi, Xankəndi adlanan yer mərkəz olmaqla, muxtar vilayət yaradılsın».** *Bu sənədin özündən də* aydın olur ki, ermənilər bütün Dağlıq Qarabağda deyil, Dağlıq Qarabağın da yalnız bir hissəsində yaşayırdılar. Digər tərəfdən,yeni yaradılan muxtar vilayət üçün mərkəz olaraq seçilən yerin *adı da azərbaycanlılara* məxsus Xankəndi idi. Lakin bir qədər sonra Xankəndinin adı dəyişdirilib, 1918-ci ilin mart qırğınlarının təşkilatçısı, Azərbaycan xalqının qəddar düşməni Stepan Şaumyanın adı ilə Stepanakert *adlandırıldı.* Sonralar ədalət bərpa olundu, şəhərin tarixi adı qaytarıldı.

decision satisfied the Caucasian State Committee. On June 27, based on Shadun's and Karakozov's report, the plenum of the Caucasian State Committee advised to the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee to provide the grant of autonomy to Daghlig Garabagh within a month.[81] On July 1, a meeting of the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee Presidium headed by Kirov listened to the issue on Garabagh and adopted a decision consisting of 6 provisions (a-f). It was suggested (by the Presidium) to the Azerbaijan Central Executive Committee to grant autonomy to Daghlig Garabagh and create the **"Autonomous Garabagh Oblast"** with Khankandy as a center. A committee (*Garayev – chairman, members:* Karakozov, Sviridov, Ildirim and Bunyadzadeh) was set *up to determine issues connected with borders.*[82] On July 4, the Azerbaijan Central Executive Committee of the Soviets also adopted a decision of the same content.

The Azerbaijan Central Executive Committee of the Soviets issued a decree "On the creation of the Daghlig Garabagh Autonomous Oblast" with signature of **M.B.Gassimov** (1879–1949) and **A.M.Khanbudagov** (1893–1937) on July 7.[83] The decree consists of a preamble, four provisions and a conclusion on the establishment of a joint committee. As can be seen, there is a difference between the decision of the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee and the name of the decree, because instead of separating the lowland and mountainous parts of Garabagh it was decided to separate only Daghlig Garabag. The fact that the decree was named **Autonomous Daghlig Garabagh Oblast** attracts attention. However, afterwards, it was named Daghlig Garabagh Autuonomous Oblast (we have to follow this tradition as well in order not to cause confusion, but we accept it in the meaning marked in the first official documents – *Y.M., K.Sh.*). *The decree differs rather for its primitive content instead* of a serious legal document. Historical chronology is *broken in the preamble, facts are distorted and the* necessity of granting autonomy to Daghlig Garabagh is *not sufficiently grounded. There is a legal-political error* in the first provision of the decree **("1) To create an autonomous oblast from the Armenian part (?) of Daghlig Garabagh as a constituent part (?) of Azerbaijan Soviet Socialist Republic with Khankandy area as the center").*** Instead of confirming that Daghlig Garabagh

* Translation is as follows: **"To create an autonomous oblast out of the Armenian part (where Armenians live – *Y.M., K.Sh.*) Daghlig Garabagh as an constituent part of Azerbaijan SSR with the place named Khankendy as the center"**. It is evident from the document too that Armenians lived not in the entire Daghlig Garabagh, but only in one part of it. On the other hand, the name of the place chosen as the center of the newly-created autonomous oblast was Khankandy, which belonged to Azerbaijanis. But some time later the name of Khankandy was changed to Stepanakert after the name of Stepan Shaumyan one of the organizers of the 1918 March massacres, bitter enemy of Azerbaijani people. Later justice was restored and the historic name of the city returned to being called.



qi-siyasi təhrifə yol verilir. Azərbaycan torpaqlarından Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması ***(Xəritə 12)*** və onun Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasının təsdiqi əvəzinə, müxtəlif cür təfsir olunan ifadələr işlədilirdi. Üçüncü bənddə isə Sovetlər qurultayı çağırılanadək Müvəqqəti İnqilab Komitəsi yaradılır. Bu da, heç şübhəsiz, vilayətin erməni rəhbərliyinə daha geniş hüquqlar verirdi. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Rəyasət Heyətinin 16 iyul (dekretdən 10 gün sonra!) tarixli iclasının qərarı ilə Şuşa şəhəri Dağlıq Qarabağ Muxtar Vilayəti tərkibinə daxil edildi.[84] Dağlıq Qarabağ Muxtar Vilayəti üçün quberniya icraiyyə komitələri haqqında 1923-cü il Əsasnaməsi qəbul və tətbiq edildi.[85] Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə isə 26 noyabr 1924-cü ildə çap olundu.[86]

Beləliklə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ süni şəkildə **aran** və **dağlıq** hissələrinə parçalanmış və Azərbaycan rəhbərliyi Qarabağın dağlıq hissəsində sonradan məskunlaşmış ermənilərə muxtariyyət statusu verməyə məcbur edilmişdi. **Özü də bu addım həmin hissədə – Dağlıq Qarabağda yaşayan azərbaycanlıların rəyi nəzərə alınmadan, onların hüquqları kobudcasına tapdalanaraq atılmışdı.**

***Ermənistanın Dağlıq Qarabağ «formulu».*** Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması və ona muxtariyyət verilməsi məsələsində Ermənistanın mövqeyi də maraq doğurur. Ermənistan ilk dövrdə məsələnin bu şəkildə həlli ilə razılaşmaq istəməmiş, 1921-ci il iyulun 16-da Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsi Qafqaz Bürosunun 5 iyul tarixli qərarının onu təmin etmədiyini bildirmiş[87] və Dağlıq Qarabağa iddiasını davam etdirməyə başlamışdı. Lakin sonra mövqeyini dəyişərək, Qafqaz Bürosunun ona hədiyyə etdiyi Dağlıq Qarabağa muxtariyyət verilməsini öz məqsədinə uyğunlaşdırmağa başlamış və Dağlıq Qarabağ uğrunda mübarizə belə bir formul almışdı: **Dağlıq Qarabağa muxtariyyət verilməsindən onun Azərbaycanın idarəsi altından çıxarılmasına – Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə doğru!** Bu formulun əsasında Dağlıq Qarabağda və onun ətrafında erməni şovinizminin gücləndirilməsi dururdu. İş o yerə çatmışdı ki, Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi XII qurultayında (1923, 17–25 aprel) **K.Radek** Azərbaycanda **erməni şovinizmindən** (aprelin 23-də) bəhs etmişdi. İ.Stalin isə ona qarşı çıxmışdı.[88] **Adətən Qafqaz Bürosunun 5 iyul qərarından bəhs etdikdə Stalinlə barışa bilməyən erməni müəllifi burada onun sözlərindən gen-bol iqtibas gətirir. Bu həmin partiya qurultayı-**

Autonomous Oblast ***(Map 12)*** was created out of Azerbaijan lands and is an integral part of Azerbaijan, they used expressions that could be interpreted differently. The third provision states the creation of a Temporary Revolutionary Committee before the summoning of the Soviets congress. This, undoubtedly, provided the Armenian leadership of the oblast with wider rights etc. Shusha city was included to the Daghlig Garabagh Autonomous Oblast by the decision of the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee Presidium dated on July 16 (10 days after the decree!).[84] The "Regulations of 1923" on the gubernia executive committees for Daghlig Garabagh Autonomous Oblast was adopted and applied.[85] "The Regulations on Daghlig Garabagh Autonomous Oblast" was published on November 26, 1924.[86]

Thus, an integral part of Azerbaijan, Garabagh was artificially divided into plain and mountainous parts, and the Azerbaijan leadership was forced to provide the status of autonomy to the Armenians that settled later in the mountainous part of Garabagh. **In addition, this step was made without taking into account the opinion of Azerbaijanis living in that territory – (in Daghlig Garabagh) and thus evidently violated their rights.**

***Daghlig Garabagh "formula" of Armenia.*** Armenia's position in the maintenance of Daghlig Garabagh within Azerbaijan and its autonimization also causes interest. First, Armenia did not want to agree to such a settlement of the issue; on July 16, 1921, the Armenian Communist Party Central Committee stated that the decision of the Caucasian Bureau dated on July 5 did not meet its demands[87] and began to continue the claims for Daghlig Garabagh. However, later, it began to coordinate its position with the granting of autonomy to Daghlig Garabagh presented as a gift by the Caucasian Bureau, and the struggle for Daghlig Garabagh was given such a formula: **First towards withdrawing Daghlig Garabagh from under the leadership of Azerbaijan** following the grant of autonomy to it, then **towards annexation of Daghlig Garabagh to Armenia!** The basis of this formula involved strengthening the Armenian chauvinism in Daghlig Garabagh and its surroundings. The process reached such a point that **K.Radek** spoke about **Armenian chauvinism** (on April 23) in Azerbaijan at the XII congress (April 17–25, 1923) of the Russian Communist (Bolsheviks) Party Central Committee. I.Stalin protested against his words.[88] **The Armenian author, who usually fails to reconcile with Stalin while speaking about the decision of the Caucasian Bureau dated on July 5, cites his words here extensively. This is the same party congress where Lenin's "Letter to the Congress"[89] was read and it contained Stalin's objective charac-**

**dır ki, orada Leninin «Qurultaya məktub»u oxunmuş və orada Stalinin obyektiv xarakteristikası* verilmişdi.**[89] XII qurultayda seçilmiş Mərkəzi Komitə üzvlərinin repressiyası da məlum faktdır. Ona görə də K.Radekin çıxışı ilə əlaqədar məsələlər də yenidən tədqiq olunmalıdır.

Stalinin timsalında güclü müdafiəyə malik olan ermənilər çox çəkmədən əsl niyyətlərini açıqladılar. Şaduns 13 iyunda Zaqafqaziya Ölkə Komitəsinə yazdı ki, bu muxtar vilayət (Dağlıq Qarabağ–*Y.M., K.Ş.*) bilavasitə Zaqafqaziya Ölkə Komitəsilə bağlı olmalıdır;[90] **«Zaqfederasiyanın rəhbərləri problemin belə alternativ, daha ağıllı həllinə getmədilər»**[91]. Bununla o, Ermənistanın Dağlıq Qarabağla bağlı sonrakı fəaliyyətinin əsas formulu haqqında yuxarıda söylənənləri çox aydın təsdiq etdi.

* * *

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsi və onun ətrafında yaranan məsələlərə münasibət Kirovun AK(b) P-nin VI qurultayında (1924, 5 may) yekunlaşdırılır. Onun Dağlıq Qarabağa muxtariyyət verilməsinə olan şübhə və inamsızlığı, az qala hər cümlədə hiss olunur. O, həmin qurultayda demişdir: **bu məsələni biz, nəhayət (!), həll etdik və şübhəsiz (!), tamamilə düzgün iş gördük. Bu məsələni, əsasən, yenidən həll etməyə qayıtmayacağımıza heç bir şübhə (?!) yoxdur.**[92] Əslində isə, yuxarıda göstərildiyi kimi, Kirovun bu məsələnin düzgün həll olunduğuna şübhəsi vardı və bu tamamilə əsaslı şübhə idi.

### 6.1.2. Azərbaycanın Zəngəzur bölgəsinin Ermənistan tərəfindən ələ keçirilməsi, Naxçıvanın digər Azərbaycan torpaqlarından ayrı salınması

Yuxarıda göstərilənlərdən aydın olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Azərbaycanın tarixi-coğrafi ərazi bölgüsü ənənələrinə sadiq qalaraq Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını Qarabağ general-qubernatorluğunda birləşdirmişdi və bu regiona vahid inzibati ərazi kimi baxırdı. Azərbaycan SSR hökuməti də, artıq yuxarıda qeyd edildiyi kimi, 1920-ci il 30 aprel tarixli notasında Ermənistandan Zəngəzur və Qarabağı öz qoşunlarından təmizləməsini tələb etmişdi. Lakin sonralar, sovet dövründə, müəyyən məqsədlər əsas götürülərək, Zəngəzurun Qarabağdan ayrı olması təsəvvürünün yaradılmasına başlandı. Bu həmin torpaqların taleyinin həllində

*Lenin yazmışdı: «Сталин слишком груб, и этот недостаток, вполне терпимый в среде и в общениях между нами, коммунистами, становится нетерпимым в должности генсека... Я предлагаю товарищам обдумать способ перемещения Сталина с этого места...» // Ленин В.И. Полн. собр. соч., т. 45, с. 346

teristics.* The repression of the members of the Central Committee elected at the XII Congress is also a known fact. Therefore, the issues linked with K.Radek's speech must be reanalyzed.

Armenians having strong support in the person of Stalin disclosed their real intentions. On June 13, Shaduns wrote to the Caucasian State Committee that this autonomous oblast (Daghlig Garabagh – *Y.M., K.Sh.*) must be related directly to the Transcaucasian State Committee.[90] Saying, **"Heads of the Transcaucasian Federation did not accept such an alternative and a wiser settlement of the problem"**[91], he confirmed very clearly the above-mentioned words about the main formula of Armenia's further activity regarding Daghlig Garabagh.

* * *

The granting of autonomy to the integral part of Azerbaijan, the mountainous part of Garabagh, and the attitude towards the issues arising around it was concluded at the VI congress of Azerbaijan Communist (Bolsheviks) Party by Kirov (May 5, 1924). His doubt and uncertainty about granting autonomy to Daghlig Garabagh is felt in every single sentence. He said at that congress: **We solved this issue finally (!) and certainly (!), we did a very right thing. There is basically no doubt that we will not come back to solve this issue again (?!).**[92] In fact, as mentioned above, Kirov had doubt concerning the correct settlement of the issue and this was a completely grounded doubt.

### 6.1.2. Acquisition of the Zangazur region of Azerbaijan by Armenia, separation of Nakhchivan from other territories in Azerbaijan

As is clear from the above-mentioned, the government of Azerbaijan Peoples Republic adhered to the traditions of a historical-geographic territorial division of Azerbaijan has united Shusha, Javanshir, Jabrayil and Zangazur uezds to the Garabagh governor-general administration and regarded this region as an indivisable administrative territory. The government of Azerbaijan SSR also demanded that Armenia remove its troops from Zangazur and Garabagh with the governmental ultimatum dated April 30, 1920. However, later, in the soviet time, some purposes were taken as the basis and they began to create the idea of a separation of Zangazur from Garabagh. This was aimed at increasing pressure on Azerbaijan in the settlement of those lands'

* Lenin wrote: "Stalin is very rude, and this shortcoming is fully bearable among us, among communists but becomes unbearable for the post of gensek (general secretary)... I propose to comrades to find the way to remove Stalin from this post ..." Lenin V.I. Complete collections of works, volume 45, p. 346



Azərbaycana təzyiqi gücləndirmək məqsədi güdürdü. Hadisələrin sonrakı gedişində, yəni 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulması ilə Zəngəzura münasibətdəki mövqe dəyişdi. Azərbaycan İnqilab Komitəsinin Ermənistan Sovet Respublikasına 30 noyabr tarixli teleqramı və 1 dekabr bəyannaməsində («Nərimanov Bəyannaməsi»), artıq Zəngəzurun guya Ermənistana «verilməsindən» bəhs olunur. Lakin bəzi səbəblər üzündən Zəngəzur qəzasının 3.637 kv. verstlik hissəsi Ermənistana verilmişdi.*

Əslində bunun özü də Azərbaycana vurulan ən ağır zərbə, həyata keçirilən ən böyük düşmənçilik aktı idi. Çünki Zəngəzurun elə bir hissəsi Ermənistana verilmişdi ki, Naxçıvanla Azərbaycanın digər torpaqları arasında əlaqələr kəsilsin, Naxçıvan Azərbaycandan ayrı salınsın. Digər tərəfdən, bu ermənilərin Naxçıvanla bağlı gələcək məkrli niyyətlərinin həyata keçirilməsi üçün bir hazırlıq xarakteri daşıyırdı.

### 6.1.3. Qarabağın digər torpaqlarının inzibati bölgüsündə dəyişikliklər

1920–1923-cü illərdə məqsədyönlü surətdə həyata keçirilən proseslər nəticəsində keçmiş Qarabağ xanlığının tərkibinə daxil olan Azərbaycan torpaqları ənənəvi tarixi-coğrafi vahidliyini və ya bütövlüyünü itirdi. Azərbaycanın 1917 və 1921-ci il kənd təsərrüfat siyahıyaalmalarının materialları əsasında nəşr edilmiş yaşayış məskənləri siyahısında ölkə ərazisi 15 qəzaya ayrılır. Qarabağ ərazisində Cəbrayıl (Qaryagin), Cavanşir, Qubadlı, Şuşa qəzalarının olduğu göstərilir.[96] Göründüyü kimi, bu mərhələdə qəzaların əraziləri hələlik əvvəlki sərhədləri daxilində qalır. Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılarkən Cavanşir, Şuşa və Qubadlı qəzalarının bəzi yaşayış məskənləri ənənəvi inzibati bölgüsündən qoparılaraq onun tərkibinə verildi. Nəticədə yeni inzibati bölgü aparmaq tələbi meydana gəldi. Bu məsələ Dağlıq Qarabağ Muxtar Vilayəti Əsasnaməsini hazırlayan komissiyanın iclasında müzakirə edildi. Aran (düzən) Qarabağın idarə forması və inzibati bölgüsünə dair 3-cü məsələ üzrə belə bir qərar çıxarıldı: **Tərkibinə Cavanşir qəzasının aran hissəsi, Şuşa, Qubadlı və Qaryagin (Cəbrayıl) qəzalarının daxil olduğu Aşağı Qarabağ Vilayət İcraiyyə Komitəsi yaratmaq, ona RSFSR-in quberniya icrakomları haqqında 1923-cü il əsasnaməsini tətbiq etmək, Aran Qarabağ vilayətinin rayonlaşdırılmasını Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yanında xüsusi komissiyaya həvalə etmək.**[97]

* Bu barədə A.M.Skibitski,[93] N.Heydərov[94] və İ.Musayevin[95] əsərlərində məlumat verilir.

destiny. A further course of events show that the position regarding Zangazur changed when soviet power was established in Armenia in November 29, 1920. The telegram of Azerbaijan Revolutionary Committee to the Armenian Soviet Republic dated on November 30 and the Statement dated on December 1 ("Narimanov Statement") dealt as if with the annexation of Zangazur to Armenia. But for some reasons, 3.637 sq verst territory of Zangazur uezd (district) had been given to Armenia.*

In fact this itself was the heaviest blow, act of great hostility to the Republic of Azerbaijan, because that part of land has been annexed to the Republic of Armenia which broke-off communications between Nakhchivan and other territories of Azerbaijan SSR, Nakhchivan separated from Azerbaijan. On the other hand, this foretold much regarding the Armenians' further insidious intentions toward Nakhchivan.

### 6.1.3. Changes in administrative division of other territories of Garabagh

Due to the purposeful processes attained in 1920–1923, Azerbaijan territories included within the former Garabagh khanate lost their traditional historical-geographic unity or integrity. The country's territory was divided into 15 **uezds (districts)** in the list of settlements published (based on the materials of Azerbaijan agricultural censuses in 1917 and 1921). They indicate that Jabrayil (Garyagin), Javanshir, Gubadly and Shusha uezds (districts) were included in the Garabagh territory.[96] As can be noted, the territories of other uezds remained within their former borders for the time being. As a result of the creation of the Daghlig Garabagh Autonomous Oblast, some settlements of Javanshir, Shusha and Gubadly uezds (districts) were separated from their traditional administrative division and annexed to it. This caused the requirement of introducing a new administrative division. This issue was discussed at the meeting of the committee preparing the Regulations of the Daghlig Garabagh Autonomous Oblast. The following decision was made on the 3rd issue concerning the form of governance over Lowland (plain) Garabagh and its administrative division: **To create Lowland Garabagh Oblast Executive Committee consisting of the lowland part of the Javanshir uezd, Shusha, Gubadly and Garyagin (Jabrayil) uezds; to apply the Regulations of Russian Soviet Federative Socialist Republic of 1923 on gubernia executive committees; to charge the Special Committee at the Azerbaijan Central Executive Committee with dividing of the Lowland Garabagh district into regions.**[97] As can be

* See the works of A.M.Skibitski,[93] N.Heydarov[94] and I.Musayev[95].

Buradan aydın olduğu kimi, Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldığı dövrdə Aran Qarabağın da xüsusi bir inzibati-ərazi vahidində birləşdirilməsi fikri olmuşdu. Lakin az bir vaxt keçdikdən sonra bu fikir dəyişmişdi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi sədri **M.B.Qasımov**, Xalq Komissarları Soveti sədrinin müavini **M.Quliyev** və daxili işlər naziri **İ.Sviridovun** imzaladığı Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 6 avqust tarixli əmrinə əsasən, Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqdan sonra Qarabağın qalan hissəsindən Ağdam, Cəbrayıl və Kürdüstan qəzaları yaradılmışdı ***(Xəritə 13)***. Həmin sənədə görə Ağdam, Cəbrayıl və Kürdüstan qəzalarının ərazilərinin tərkibi, mərkəzləri, qəza icrakom sədrləri və b. məsələlər müəyyənləşdirilmişdi, Qubadlı qəzası isə ləğv edilmişdi.[98]

Azərbaycan Mərkəzi Statistika İdarəsi Azərbaycan SSR-də həyata keçirilən bu və digər inzibati-ərazi bölgülərini nəzərə alaraq, 1921-ci il kənd təsərrüfat siyahıyaalmasının materialları əsasında onların ərazisinin sahəsi, əhalisinin milli tərkibi və b. məsələlər üzrə hesablamalar aparmışdı. Həmin hesablamalara görə Qarabağın tarixi torpaqlarından (xanlığın sərhədləri üzrə) Azərbaycan SSR tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (4.160,5 kv.km.*) də daxil olmaqla, cəmi 15.996,9 kv.km.-lik ərazi qalmışdı[99]. Qarabağın tarixi ərazilərinin bir hissəsi isə Azərbaycandan qoparılaraq Ermənistana verilmişdir. Sonrakı inzibati-ərazi bölgüləri prosesində Zəngəzur qəzasının Azərbaycan SSR tərkibində qalan hissəsində Zəngilan (0,7 min kv.km.), Qubadlı (0,8 min kv.km.), Laçın (1,8 min. kv.km.) rayonları yaradıldı. Ağdam və Cəbrayıl qəzalarının ərazisində isə Ağdam (1, 1 min. kv.km.), Bərdə (1,0 min.kv.km.), Ağcabədi (1,8 min. kv.km.), Tərtər (0,4 min.kv.km.), Cəbrayıl (1,0 min. kv.km.) rayonları yaradıldı[100]. Beləliklə, Azərbaycanın dövlətçilik tarixində xüsusi yeri olan Qarabağ xanlığının ərazisi parçalanaraq bir hissəsi Ermənistana verildi, Azərbaycanda qalan hissəsinin dağlıq regionunda isə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.

### 6.2. Dağlıq Qarabağ 1923–1980-ci illərdə

İndiyədək Dağlıq Qarabağa muxtariyyət verilməsi məsələsindən bəhs edilərkən, demək olar ki, onun ərazisinin inzibati bölgüsü tarixinin ən mühüm hadisələrinə lazımi diqqət yetirilməmişdir. **Təhlil göstərir ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi real tarixi əks etdirən elmi-coğrafi prinsiplər əsasında**

* Tədricən qonşu rayonların hesabına Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi 4,4 mln. kv. km.-ə çatdırılmışdır.

seen from here, in the period when the Daghlig Garabagh Autonomous Oblast was created, there was an idea of uniting Lowland Garabagh as well in a special administrative-territorial unit. However, after some time, this idea changed. In accordance with the order of the Azerbaijan Central Executive Committee dated on August 6, 1923 and signed by chairman of the Azerbaijan Central Executive Committee **M.B.Gassimov**, deputy chairman of Sovnarkom **M.Guliyev** and Minister of Internal Affairs **I.Sviridov**, following the creation of the Daghlig Garabagh Autonomous Oblast, the Aghdam, Jabrayil and Kurdistan uezds were created from the remaining part of Garabagh ***(Map 13)***. Pursuant to that document, even the structure, centers, chairmen of uezd executive committees of Aghdam, Jabrayil and Kurdistan uezd and other issues were determined and the Gubadly uezd was annulled.[98]

Taking into account this and other administrative-territorial divisions carried out in the Azerbaijan SSR, the Azerbaijan Central Statistical Office conducted calculations on the area, and national composition of the population etc. of their territories based on the materials of the 1921 agricultural census. In accordance with those calculations, from the historical territory of Garabagh (in accordance with khanate borders) within the Azerbaijan SSR remained totally 15.996,9 sq.km. territory, including the territory[99] of Daghlig Garabagh Autonomous Republic (4.160,5 sq.km.*). Some parts of the historical territories of Garabagh were taken out of Azerbaijan and given to Armenia. In the course of further administrative-territorial divisions, Zangilan (0.7 thousand sq km), Gubadly (0.8 thousand sq km) and Lachin (1.8 thousand sq km) were created in the territory of the Zangazur uezd remaining within Azerbaijan SSR. Aghdam (1.1 thousand sq km), Barda (1.0 thousand sq km), Aghjabady (1.8 thousand sq km), Tartar (0.4 thousand sq km) and Jabrayil (1.0 thousand sq km) regions were created in the territory of Aghdam and Jabrayil uezds[100]. Thus, a part of the territory of the Garabagh khanate, having a specific place in the history of Azerbaijan statehood, was given to Armenia in the soviet period, and the Daghlig Garabagh Autonomous Oblast was created within a mountainous part remaining within Azerbaijan.

### 6.2. Daghlig Garabagh in 1923–1980

So far, due attention has not been paid to the most important events of the history of administrative-territorial division of the Daghlig Garabagh territory while speaking about its autonimization. **Analyses show that the territory of Daghlig Garabagh Autonomous Oblast is formed not on the basis of scientific-geographic principles reflecting real history, but on the basis of a voluntary approach aimed at specific purposes; that is, it was**

* Step by step the territory of Daghlig Garabagh Autonomous Oblast reached 4.4 thousand sq. kms. by annexing the neighboring regions



**deyil, xüsusi məqsəd güdən volyuntarist yanaşma əsasında formalaşdırılıb, yəni o, erməni yaşayış məskənlərinin üstün olduğu lokal əraziləri muxtar qurum adı altında birləşdirmək yolu ilə təşkil olunub** (Yeri gəlmişkən qeyd edək ki, bu «prinsip» əsasında ermənilər kompakt yaşadıqları başqa ölkələrin ərazisində də özlərinə «muxtariyyət» tələb edə bilərlər!). İş o yerə çatmışdı ki, Kəlbəcərə məxsus Ağdaban, Füzuliyə məxsus Yuxarı Veysəlli kəndləri Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədləri daxilində qalmış, inzibati tabeçilik dəyişdirilmişdi. Dağlıq Qarabağ muxtariyyətinin Əsasnaməsini hazırlayan komissiyanın qərarına əsasən onun tərkibinə 170-dən çox yaşayış məskəni verilmişdi.[101] Azərbaycan Mərkəzi Statistika İdarəsinin 1924-cü ilə aid məlumatında isə artıq həmin məskənlərin sayının 200-dən çox olduğu göstərilir.[102] **Q.Koçaryan** familiyalı erməni isə 1925-ci ildə nəşr edilmiş kitabçada bu məskənlərin sayının 215 olduğunu bildirir.[103] **Bu faktlar Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisinin rəsmi sənədlərin əksinə olaraq genişləndirildiyini və yeni yaşayış məskənləri hesabına əhalisinin sayı və etnik tərkibinin ermənilərin xeyrinə dəyişdirildiyini sübut edir.**

Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqdan sonra onun tərkibinə verilmiş yaşayış məskənləri rayon-volost-kənd pillələri əsasında inzibati baxımdan aşağıdakı kimi bölünmüşdü: 1. **Dizaq rayonu.** Bu rayonun tərkibində 5 volost (Hadrut, Tuğ, Xozabyurd, Arakül, Edilli) və 48 kənd var idi; 2. **Vərəndə rayonu.** Bu rayonun tərkibində 4 volost (Tağavert, Sus, Çartaz, Noraşen) və 46 kənd var idi. 3. **Şuşa rayonu.** Şuşa şəhəri və Malıbəyli volostundan (12 kənd) ibarət idi; 4. **Xaçın rayonu.** Bu rayonun tərkibində 4 volost (Daşbulaq, Əsgəran, Krasnoselsk, Qala dərəsi) və 53 kənd var idi. 5. **Ceraberd rayonu.** Bu rayonun tərkibində 4 volost (Marquşevan, Orataq, Dovşanlı, Aterk) və 53 kənd var idi.[104] Yeni inzibati-ərazi bölgüsü həyata keçirilərkən Dağlıq Qarabağ Muxtar Vilayətində dəyişiklik baş verir. 1930-cu ilin avqustunda Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisi yenə də 5 rayona bölünür: **1. Ceraberd, 2. Martuni, 3. Stepanakert, 4. Dizaq, 5. Şuşa.** Göründüyü kimi, **Vərəndə** *Martuni* adlandırılır, **Xaçının** ərazisi isə *Stepanakertə* aid edilir. 1939-cu il avqustun 17-də **Ceraberd** *Mardakert*, **Dizaq** isə *Hadrut* adlandırılır. **Lakin bu da Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsündə edilən son dəyişiklik olmur. 1960-cı illərin əvvəllərində rayonların iriləşdirilməsi siyasəti həyata keçirilərkən əsas zərbə əhalisinin böyük əksəriyyəti azərbaycanlılar olan Şuşaya dəyir. 1963-cü il yanvarın 4-də Şuşa rayonu ləğv edilir, onun ərazisi**

**organized through uniting the local territories, where Armenian settlements were prevailing, under the name of autonomous units.** (It is clear that based on this "principle" Armenians can demand "autonomy" in the territories of other countries where they have large dense population). The events reached such a point that the Aghdaban village of Kalbajar and Yukhari Veysally village of Fuzuli remained within the borders of the Daghlig Garabagh Autonomous Oblast, but the administrative control was changed. In accordance with the decision of the committee preparing the Regulations of Daghlig Garabagh autonomy, more than 170 settlements were included within the oblast.[101] Information of the Azerbaijan Central Statistical Office in 1924 indicates that the number of such settlements were more than two hundred.[102] An Armenian named **G.Kocharyan** states that the number of these settlements was 215 in his booklet published in 1925.[103] **These facts prove that the territory of Daghlig Garabagh Autonomous Oblast was extended contradicting official documents and the number of its population, as well as its ethnic composition, was changed to the benefit of Armenians due to new settlements.**

Following the creation of the Daghlig Garabagh Autonomous Oblast, the settlements included in it were divided administratively based on the region-volost-village steps as follows: 1. **Dizag region.** This region included 5 volosts (Hadrut, Tugh, Khozabyurd, Arakul and Edilli) and 48 villages; 2. **Varander region.** This region consisted of 4 volosts (Taghavert, Sus, Chartaz, Norashen) and 46 villages. 3. **Shusha region.** This region consisted of Shusha city and Malibeyli volost (12 villages); 4. **Khachin region.** This region was comprised of 4 volosts (Dashbulag, Asgaran, Krasnoselsk and Gala Darasi) and 53 villages; **5. Jeraberd Region.** It consisted of 4 volosts (Margushavan, Oratag, Dovshanly and Aterk) and 53 villages.[104] A change took place in Daghlig Garabagh Autonomous Oblast during the implementation of the new administrative-territorial division. In August 1930 the territory of Daghlig Garabagh Autonomous Oblast was divided again into 5 regions: **1. Jeraberd, 2. Martuni, 3. Stepanakert, 4. Dizag and 5. Shusha.** As can be seen, **Varander** is named *Martuni*, the territory of Khachin is included in *Stepanakert*. In August 17, 1939 **Jeraberd** was named *Mardakert* and **Dizag** – *Hadrut*. **But this was not the last change made in the administrative-territorial division of Daghlig Garabagh Autonomous Oblast as well. In the early 1960 s, during the implementation of the policy of expanding regions, the main blow struck Shusha, where overwhelming majority of popilation were Azerbaijanis. On January 4, 1963 the region of Shusha was annulled and**

Stepanakert rayonuna verilir. Lakin N.S.Xruşşovun[105] hakimiyyətdən uzaqlaşdırılmasından sonra inzibati-ərazi bölgüsündə yeni dəyişiklik baş verir. 1965-ci il yanvarın 6-da Şuşa rayonu yenidən təşkil olunur.[106] 1978-ci ildə Heydər Əliyevin qətiyyəti sayəsində Stepanakert rayonu əsasında Əsgəran rayonu təşkil edilir. SSRİ-nin dağılmasınadək Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsü belə idi.

Beləliklə, yuxarıdakı faktlardan Azərbaycanın Qarabağ torpağına köçürülüb gətirilmiş ermənilərin özgə torpaqlarında özlərinə dövlət yaratmaq hiyləsinin anatomiyası çox aydın görünür. Ermənilər vaxtı ilə köçüb gəldikləri Qərbi Azərbaycanda – İrəvan xanlığının ərazisində də belə etmişdilər, indi Qarabağda da bu hiyləni işlətmək niyyətindədirlər.

its territory was given to that of the Stepanakert region. However, following N.S.Khrusshov's[105] removal from power, a new change took place in the administrative division. On January 6, 1965 the Shusha region was reorganized.[106] In 1978, the Asgaran region was organized on the basis of the Stepanakert region by the determination of H.Aliyev. The administrative-territorial division of the Daghlig Garabagh Autonomous Oblast was like this until the collapse of the USSR.

Thus, the above-mentioned facts clearly indicate the trick of anatomy of the scheme: Armenians having been moved and settled in the Garabagh land of Azerbaijan and created a state for themselves in a strange country. Once Armenians had done the same in Western Azerbaijan, in the territory of Iravan khanate where they moved and settled, now they intended to use the same trick in Garabagh.

*1883-cü ildə İrəvan şəhərinin 18.766 nəfər əhalisinin 15.992 nəfəri, 1886-cı ildə isə 27.246 nəfərindən 23.626 nəfəri, yəni 85,2 faizi azərbaycanlı olmuşdur.*

**Zaven Korkodyan,**
*erməni alimi, "Sovet Ermənistanının əhalisi 1831–1931" adlı kitabından. 1932*

*15.992 out of 18.766 population in 1883, 23.626 out of 27.246 population in 1886 in Iravan city were Azerbaijanis, i.e. 85,2%.*

**Zaven Korkodyan,**
*Armenian scholar, Extract from the book "The population of Soviet Armenia in 1831–1931". 1932*

* * *

Dağlıq Qarabağ Muxtar Vilayətinin tarixində ermənilər tərəfindən ən çox saxtalaşdırılan məsələlərdən biri onun əhalisinin say dinamikası və etnik tərkibi ilə bağlı olan məsələdir. Bu barədə erməni müəlliflərinin mövqeyini əyani göstərmək üçün prof. **Y.Barseqovun** təqdim etdiyi bir cədvələ nəzər yetirək ***(Cədvəl 6.2).***

* * *

One of the most falsified issues in the history of Daghlig Garabagh Autonomous Oblast by Armenians regards its population rate dynamics, as well as ethnic composition. Let us have a look at the table presented by prof. Y.Barsegov in order to show vividly the position of Armenian authors ***(Table 6.2).***



*Cədvəl 6.2*

**Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin faktik (əhali siyahıyaalmaları üzrə) sayı və prof. Y.Barseqovun guya əhalinin təbii hərəkəti əsasında müəyyən edilmiş «hesablama» sayının müqayisəsi (əvvəlki dövrə nisbətən artma dair hesablama faizi bizimdir – *Y.M., K.Ş.*)**

| İllər | Ermənilər | | Azərbaycanlılar | |
|---|---|---|---|---|
| | faktik say | hesablama sayı | faktik say | hesablama sayı |
| 1921 | 128 060 | 128 060 | 7 594 | 7 594 |
| 1939 | 132 800 (3,7%)* | 208 317 (62,7%) | 14 100 (77,2%) | 9 875 (24,1%) |
| 1959 | 110 100 (-17,1%) | 375 677 (80,3%) | 18 000 (27,6%) | 15 803 (60%) |
| 1970 | 121 100 (10%) | 517 223 (37,7%) | 27 200 (51,1%) | 22 312 (41,2%) |
| 1979 | 123 100 (1,6%) | 620 238 (19,9%) | 37 200 (36,7%) | 27 176 (21,8%) |
| 1989 | | 731 959 (18%) | | 32 548 (19,7%) |

**Qaynaq:** *Барсегов Ю.Г.* Право на самоопределение-основа демократического решения межнациональных проблем. К проблеме Нагорного Карабаха. Ереван, 1989, с.101

*Əvvəlki dövrə nisbətən artım.

**Y.Barseqov oxucunu çaşdırmaq üçün yalnız mütləq rəqəmləri verir,** şərhin daha aydın olması üçün isə nisbi rəqəmlərə ehtiyac vardır. Cədvələ belə hesablamaları əlavə etdikdə onun nə dərəcədə absurd olduğu aşkara çıxır. **Bu hansı məntiqə uyğundur ki, 1921–1939-cu illər arasında ermənilərin faktik artımı 3,7% olduğu halda, hesablamalarla 62,7%-ə qaldırılsın, azərbaycanlılarda isə faktik artım 77,2% olduğu halda, hesablamalarla 24,1%-ə endirilsin.** Belə yanaşma həqiqətin qəsdən təhrifinə yönəlib və elə kobud şəkildə həyata keçirilib ki, bu oxucunu ələ salmaqdan başqa bir şey deyil! Biz isə problemi elmi məcraya yönəltmək üçün belə bir hesablamaya müraciət edək ***(Cədvəl 6.3).***

*Table 6.2*

**The actual number of population of Daghlig Garabagh Autonomous Oblast (due to population census) and Y.Barsegov's comparison besed on ostensably the natural growth of population "calculations" (the calculations percent on the growth comparatively with the period before done by us – *Y.M., K.Sh.*)**

| Years | Armenians | | Azerbaijanis | |
|---|---|---|---|---|
| | actual number | estimated number | actual number | estimated number |
| 1921 | 128 060 | 128 060 | 7 594 | 7 594 |
| 1939 | 132 800 (3,7%)* | 208 317 (62,7%) | 14 100 (77,2%) | 9 875 (24,1%) |
| 1959 | 110 100 (-17,1%) | 375 677 (80,3%) | 18 000 (27,6%) | 15 803 (60%) |
| 1970 | 121 100 (10%) | 517 223 (37,7%) | 27 200 (51,1%) | 22 312 (41,2%) |
| 1979 | 123 100 (1,6%) | 620 238 (19,9%) | 37 200 (36,7%) | 27 176 (21,8%) |
| 1989 | | 731 959 (18%) | | 32 548 (19,7%) |

**Source:** Y.G.Barsegov. The right to self-determination is the basis of democratic settlement of national problems. On the Daghlig Garabagh problem. Yerevan, 1989, p.101.

*Growth comparatively with the period before.

**Y.Barsegov submits absolute figures only in order to confuse the reader,** while there is need for relative figures to make interpretation clearer. The addition of such calculations to the table reveals its absolute absurdness. **What logic does it contain that while the actual growth of Armenians is 3.7% between 1921–1939, it is raised up to 62.7% with estimations, and actual growth of Azerbaijanis – 77.2% is lowered down to 24.1%?** Such an approach is directed to a purposeful distortion of the truth and was realized so rudely that it is nothing but an insult to the reader! We turn to the following estimation in order to direct the problem into a scientific solution ***(Table 6.3).***

*Cədvəl 6.3*

**Ermənilərin Ermənistanda və Dağlıq Qarabağ Muxtar Vilayətində Y.Barseqovun hesablamasına görə müəyyən edilmiş sayı üzrə orta sıxlığı və onların müqayisəsi (hər kv.km.-ə)**

| İllər | Ermənilərin orta sıxlığı | | |
|---|---|---|---|
| | Ermənistanda (faktiki) | Dağlıq Qarabağ Muxtar Vilayətində (Y.Barseqovun hesablamasına görə) | |
| | | cəmi | Ermənistanla müqayisədə fərq |
| 1921 | – | 29,1 | – |
| 1926 | 25 | – | – |
| 1937 | 33,8 | – | – |
| 1939 | 35,6 | 47,3 | +11,7 |
| 1959 | 52,1 | 85,4 | +33,3 |
| 1970 | 74,1 | 117,5 | +43,4 |
| 1979 | 91,4 | 141 | +49,6 |
| 1989 | 103,4 | 166,4 | +63 |

**Qaynaq:** Всесоюзная перепись населения 1926г. Закавказская СФСР.т.XIV. М., 1929, с.11–13; Вестник статистики, 1990, №7, с.77; «Правда» от 2 июня 1939 г; Итоги Всесоюзной переписи населения 1959 г. Армянская ССР. М., 1963, с.11, 102–103; Численность и состав населения СССР. По данным Всесоюзной переписи населения 1979 г. М., 1984; Ходжабекян В.Е. Армянская Советская Социалистическая Республика. **Население союзных республик**. М., 1977, с.278

Y.Barseqovun hesablamalarının qeyri-elmiliyi elə *bir dərəcəyə çatır ki, o, adından da məlum olduğu* kimi, **4,4 min kv. km-lik dağlıq ərazidə**, yəni Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində ermənilərin orta sıxlığı üçün astronomik rəqəmlər irəli sürür! **Beləliklə, erməni müəllifləri (daha doğrusu, millətçiləri!) tarixi o dərəcədə təhrif edirlər ki, həqiqəti aşkar etmək müşkül bir işə çevrilir.** Həqiqətdə isə Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin say dinamikasının real vəziyyəti aşağıdakı kimi olmuşdur ***(Cədvəl 6.4)***.

*Table 6.3*

**Average density of Armenians in Armenia and in Daghlig Garabagh Autonomous Oblast (according to Y.Barsegov's calculations determined rate) average density and their comparision (for every square kms.)**

| Years | Average density of Armenians | | |
|---|---|---|---|
| | In Armenia (actual) | In Daghlig Garabagh Autonomious District (according to Y.Barsegov's calculation) | |
| | | Total | Difference compared to Armenia |
| 1921 | – | 29,1 | – |
| 1926 | 25 | – | – |
| 1937 | 33,8 | – | – |
| 1939 | 35,6 | 47,3 | +11,7 |
| 1959 | 52,1 | 85,4 | +33,3 |
| 1970 | 74,1 | 117,5 | +43,4 |
| 1979 | 91,4 | 141 | +49,6 |
| 1989 | 103,4 | 166,4 | +63 |

**Source:** All-Union population census in 1926. Caucasian Union of Federative Soviet Socialist Republics v. XIV. M., 1929, p. 11–13; Statistical news, 1900, № 7, p. 77; "Pravda" dated on June 2, 1939; Results of the All-Union population census in 1959. Armenian SSR M., 1963, p. 11, 102–103; USSR population rate and composition. In accordance with the data of All-Union population census in 1979, M., 1984; V.E.Khojabekyan Armenian Soviet Socialist Republic. Population of union republics. M., 1977, p. 278.

The insincerity of Y.Barsegov's calculations reaches such a point that astronomic figures are put forward for the average density of Armenians in a territory of **4.4 thousand sq km** mountainous territory! **Thus, Armenian authors (more exactly, nationalists!) distort history to such an extent that finding out the truth becomes a complicated task.** In fact, the real state of Daghlig Garabagh Autonomous Oblast population's rate dynamics is as follows ***(Table 6.4)***.



*Cədvəl 6.4*

**1926–1988-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin say dinamikası**

| İllər | Əhalinin sayı, min nəf. | Əvvəlki dövrə görə artım | | Dövr ərzində orta illik artım, faizlə |
|---|---|---|---|---|
| | | min nəf. | faizlə | |
| 1926 | 125,3 | – | – | – |
| 1939 | 150,8 | 25,5 | 20,4 | 1,45 |
| 1959 | 130,4 | -20,4 | -13,5 | -0,7 |
| 1970 | 150,3 | 19,9 | 15,3 | 1,3 |
| 1979 | 162,2 | 11,9 | 8,1 | 0,85 |
| 1988 | 182,4 | 20,2 | 12,5 | 1,3 |

**Qaynaq:** Самедзаде З. Нагорный Карабах: неизвестная правда (О некоторых аспектах социально-экономического и демографического развития региона). Баку, 1995, с. 31

Rəsmi sovet əhali siyahıyaalmalarının (1989-cu il istisna olmaqla) nəticələrinə əsaslanan yuxarıdakı cədvəl real vəziyyəti daha doğru əks etdirir və erməni müəlliflərinin xüsusi məqsədlə şişirtdikləri (daha doğrusu, uydurduqları!) qondarma rəqəmlər onları təkzib edə bilməz.

İndi də Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin etnik tərkibinə keçək ***(Cədvəl 6.5)***.

*Cədvəl 6.5*

**Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin etnik tərkibi (əhali siyahıyaalmaları üzrə; min nəfərlə)**

| Etnik tərkib | 1939 | | 1959 | | 1970 | | 1979 | |
|---|---|---|---|---|---|---|---|---|
| | mütləq | % | mütləq | % | mütləq | % | mütləq | % |
| Bütün əhali | 150,8 | 100 | 130,4 | 100 | 150,3 | 100 | 162,2 | 100 |
| ermənilər | 132,8 | 88,1 | 110,1 | 84,4 | 121,1 | 80,5 | 123,1 | 75,9 |
| azərbaycanlılar | 14,1 | 9,4 | 18,0 | 13,8 | 27,2 | 18,1 | 37,3 | 23,0 |
| ruslar | 3,2 | 2,1 | 1,8 | 1,4 | 1,3 | 0,9 | 1,3 | 0,8 |

**Qaynaq:** Достижения Карабаха в девятой пятилетке. Стат. сб. Степанакерт, 1976, с. 8, Самедзаде З. Указ. соч., с.31

*Table 6.4*

**Daghlig Garabagh Autonomous District population's rate dynamics in 1926–1988**

| Years | Population number, thousand persons | Growth comparatively with the period before | | Average annual growth during the period, in percentage |
|---|---|---|---|---|
| | | thousand persons | in percentage | |
| 1926 | 125,3 | – | – | – |
| 1939 | 150,8 | 25,5 | 20,4 | 1,45 |
| 1959 | 130,4 | -20,4 | -13,5 | -0,7 |
| 1970 | 150,3 | 19,9 | 15,3 | 1,3 |
| 1979 | 162,2 | 11,9 | 8,1 | 0,85 |
| 1988 | 182,4 | 20,2 | 12,5 | 1,3 |

**Source:** Z.Samedzadeh. Daghlig Garabagh: unknown truth (On some aspects of the region's socioeconomic and demographic development). Baku, 1995, p.31

The above table is based on the results of the official soviet population censuses (with exception of 1989) and reflects the real situation much more truly, and the fictitious figures exaggerated (rather invented) by Armenian authors for special purposes cannot deny them.

Now, about the ethnic composition of the Daghlig Garabagh Autonomous Oblast population ***(Table 6.5)***.

*Table 6.5*

**The ethnic composition of Daghlig Garabagh Autonomous Oblast (due to population census; thousand persons)**

| Ethnic composition | 1939 | | 1959 | | 1970 | | 1979 | |
|---|---|---|---|---|---|---|---|---|
| | absolute | % | absolute | % | absolute | % | absolute | % |
| Entire population | 150,8 | 100 | 130,4 | 100 | 150,3 | 100 | 162,2 | 100 |
| Armenians | 132,8 | 88,1 | 110,1 | 84,4 | 121,1 | 80,5 | 123,1 | 75,9 |
| Azerbaijanis | 14,1 | 9,4 | 18,0 | 13,8 | 27,2 | 18,1 | 37,3 | 23,0 |
| Russians | 3,2 | 2,1 | 1,8 | 1,4 | 1,3 | 0,9 | 1,3 | 0,8 |

**Source:** Achievements of Daghlig Garabagh in the ninth five-year plan. Article about Stepanakert, 1976, p.8, Z.Samedzadeh. Above-mentioned book, p. 31

SSRİ-nin dağılması ərəfəsində keçirilən 1989-cu il əhali siyahıyaalması dövrün təsirinə məruz qalsa[107] da, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi həmin siyahıyaalmanın materialları əsasında Dağlıq Qarabağ Muxtar Vilayətinin etnik xəritəsini çap etdirmişdir. (*Xəritə 14*). Həmin xəritədən aydın olduğu kimi, 1989-cu il sovet əhali siyahıyaalmasının yekunlarına görə, Dağlıq Qarabağ Muxtar Vilayətinin 187,8 min nəfərlik əhalisinin 145,4 mini (77%) erməni, 40,3 mini (21,5%) azərbaycanlı olmuşdur.

Göründüyü kimi, 1939–1979-cu il əhali siyahıyaalmalarına görə, Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisi içərisində azərbaycanlıların sayı müəyyən dərəcədə artmışdır. Bu, erməni separatçılarının təqiblərinə baxmayaraq, azərbaycanlıların öz doğma torpaqlarına bağlılığı və onların içərisində təbii artımın üstün olması ilə əlaqədar olmuşdur[108]. *Ermənilərin isə, əksinə, miqrasiyaya meyilli olmaqları ilə bərabər, təbii artımları da aşağı olmuşdur.* 1989-cu il əhali siyahıyaalması ərəfəsində Mərkəzdən bütün vasitələrlə himayə olunan erməni separatçılarının vilayətin etnik tərkibində azərbaycanlıların sayını *süni şəkildə azaltmaq cəhdləri* isə azərbaycanlıların nisbi sayının 23%-dən 21,5%-ə endirilməsinə səbəb olmuşdur.

* * *

**Dağlıq Qarabağın bir tərəfdən, Azərbaycanın tarixi torpaqları kimi onun tərkibində saxlanması və bununla da digər Azərbaycan torpaqları ilə tarixi bağlılıq ənənələrini davam etdirməsi, digər tərəfdən, Dağlıq Qarabağ Muxtar Vilayətinə Azərbaycanın göstərdiyi xüsusi qayğı bu diyarın sovet hakimiyyəti illərində sosial-siyasi və iqtisadi inkişafı üçün müstəsna şərait yaratdı.** Lakin 1980-ci illərin sonlarında Dağlıq Qarabağı Azərbaycandan ayırmağı qarşılarına məqsəd qoymuş erməni «ideoloqları» və onların himayəçiləri bunu açıq-aşkar inkar etməyə başladılar. Lakin faktlar faktlığında qalır. Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibində nə qədər yüksək inkişafa nail olması Vilayət Statistika İdarəsinin Stepanakertdə nəşr etdirdiyi statistik məcmuələrdə əksini tapmışdır[109] ***(Sənəd 5.1–5.3)***. Sonralar məhz həmin Stepanakert bu nəşrlərə göz yummağa çalışmışdır. *Halbuki onlara göz yummaq deyil, daha diqqətlə yanaşmağa böyük ehtiyac vardır.* Statistik məcmuələrdən biri muxtar vilayətin yaranmasından keçən 40 il ərzində (1923–1963) mədəniyyət, iqtisadiyyat, səhiyyə və s. sahələrdəki vəziyyət barədə yazmışdır: **İnqilaba qədər (yəni 1917-ci il Oktyabr çevrilişinədək—*Y.M., K.Ş.*) Dağlıq Qarabağda orta ixtisas təhsilli müəssisələr, kütləvi kitabxanalar, teatrlar *yox idi. Şuşa* şəhərində yalnız üç xüsusi mədəni-maarif müəssisəsi və bir xüsusi kinoteatr var idi. Hazırda Dağlıq**

Though the population census conducted in 1989, on the eve of the collapse of USSR, suffered time's influence,[107] the Azerbaijan Republic Foreign Ministry published an ethnic map of the Daghlig Garabagh Autonomous Oblast based on the materials of that census ***(Map 14)***. As seen in the map, according to the soviet population census of 1989, 145.4 thousand (77%) out of the 187.8 thousand population of the Daghlig Garabagh Autonomous Oblast were Armenians and *40.3 thousand (21.5%)* – Azerbaijanis.

It should be noted that, the number of Azerbaijanis in the population of Daghlig Garabagh Autonomous Oblast increased to a certain degree in accordance with the 1939–1979 population censuses. This was *linked to the devotion of Azerbaijanis to their native* lands and the prevelance of natural growth among them despite the pursuits of Armenian separatists.[108] Armenians, on the contrary, inclined to migration and their natural growth was low. On the eve of the *1989* population census, due to the efforts of Armenian separatists, supported by Moscow, to reduce it artificially, the oblast's ethnic composition led to lowering of the relative rate of Azerbaijanis from 23% to 21.5%.

* * *

**The maintenance of Daghlig Garabagh within Azerbaijan as its historical land and thus the continuance *of its traditional attachment links with other Azerbaijan* territories on the one hand, and the special care shown by Azerbaijan to the Daghlig Garabagh Autonomous Oblast on the other hand, created an exceptional condition for sociopolitical as well as economic development of this *region in the years of soviet power.*** However, in late 1980s, Armenian "ideologists" and their supporters aiming at separating Daghlig Garabagh from Azerbaijan began to deny this. Nevertheless, facts are facts. The achievements of the Daghlig Garabagh Autonomous Oblast within Azerbaijan *were reflected in the statistical* journals published by the Oblast Statistical Office in Stepanakert[109] ***(Document 5.1–5.3)***. Further, the very Stepanakert tried to close its eyes to these editions, while there is a great need for not closing one's eyes to them, but approaching *them more attentively*. One of the statistical journals wrote about the situation in the cultural, economic, public health and other fields during the 40 years after the creation of the autonomous oblast (1923–1963): **Before the Revolution (i.e. the October Revolution of 1917 –*Y.M., K.Sh.*), *there were no secondary industrial educational institutions, public libraries and* theatres in Daghlig Garabagh. There were only three special cultural and educational institutions and one special cinema in the city of Shusha. Presently, there are five special secondary *educational institutions* in the Daghlig**



**Qarabağ Muxtar Vilayətində min nəfər şagirdin təhsil aldığı beş xüsusi orta təhsil müəssisəsi vardır. 930 min nüsxədən çox kitab fondu olan 164 kitabxana fəaliyyət göstərir. Kütləvi kitabxanalardan 150-si *kənd yerlərindədir, onların kitab fondu 630 min* nüsxəyə çatır. Stepanakert şəhərində M.Qorki adına Erməni Dövlət dram teatrı, Dövlət mahnı və rəqs ansamblı vardır. Vilayətdə 176 klub müəssisəsi vardır... Dağlıq Qarabağ elmi müəssisələrə də malikdir... Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranmasının ilk günündən ana dilində (erməni dilində – *Y.M.,K.Ş.*) «Sovetakan Karabax» qəzeti çap olunur.[110] Kənd təsərrüfatından bəhs olunarkən Dağlıq Qarabağın xış diyarından traktor və kombayn diyarına çevrildiyi təsdiq olunur. 1963-cü ilin əvvəllərində Dağlıq Qarabağın kənd təsərrüfatında 1,4 min ədəd traktor, 224 kombayn, 670 yük avtomobili və minlərlə digər müasir kənd təsərrüfat maşını olduğu göstərilir.[111] 40 il ərzində Dağlıq Qarabağ Muxtar Vilayətinin sənaye potensialının reallaşdırılmasında da xeyli iş görülmüşdü. 1940-cı ilə *nisbətən 1962-ci ildə bütün sənayenin ümumi* məhsulu 341%, elektrik enerjisi 945 % və sairə artmışdı.[112] 1960-cı illərin ortalarından sonra da vilayətin sosial-iqtisadi həyatı dinamik inkişaf etmişdi.**

1965–1987-ci illərdə bütövlükdə Azərbaycan SSR, o cümlədən onun Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə iqtisadi və sosial inkişafa dair göstəricilərinin müqayisəsi həmin dövrdə muxtar vilayətin nə qədər yüksək templə tərəqqi etdiyini çox aydın göstərir.[113] Buradan aydın olur ki, **1987-ci ildə hər 10 min nəfərdən** sənayedə çalışanların sayı *respublika üzrə* **686**, *Naxçıvan MSSR üzrə* **387** olduğu halda, *Dağlıq Qarabağ Muxtar Vilayətində* **657** olmuşdu. Adambaşına düşən ümumi kənd təsərrüfatı məhsulları müvafiq olaraq **588, 501** və **692** (!) idi və i.a. Sosial inkişafa dair göstəricilərə gəldikdə isə bu rəqəmlər nəinki Azərbaycan SSR, hətta Ermənistan SSR və bütövlükdə SSRİ üzrə rəqəmlərdən də xeyli yüksək idi. Hər 10 min nəfərə xəstəxana çarpayısı ilə təminat *Ermənistan SSR-də* **86,2**, *Azərbaycan SSR-də* **97,7** olduğu halda, *Dağlıq Qarabağ Muxtar Vilayətində* **101,7** idi və s.[114] Hətta erməni separatçılarının Mərkəzdəki himayəçilərinin xüsusi cidd-cəhdləri nəticəsində Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafına dair qəbul etdiyi 1988-ci il 24 mart tarixli qərarının preambulasında da vilayətdə sosial və iqtisadi inkişaf sahəsində əldə edilmiş nailiyyətlər xüsusi qeyd edilirdi.[115]

Separatçıların uydurduqları saxta məlumatların baş alıb getdiyi dövrdə də **Azərbaycan onun tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-**

**Garabagh Autonomous Oblast with one thousand pupils. One hundred sixty four libraries, having the book stock of more than 930,000 copies, operate here. 150 of the public libraries are in villages; their book fund reaches 630,000 copies. There is the Armenian State Dramatic Theatre named after M.Gorki, State Song and Dance Ensemble in the Stepanakert city. There are 176 club establishments in the oblast... Daghlig Garabagh also has research institutions... The newspaper "Sovetakan Garabagh" has been published *in native* language (Armenian - *Y.M., K.Sh.*) since the first day of the establishment of the Daghlig Garabagh Autonomous Oblast.[110] While speaking about agriculture, the fact that Daghlig Garabagh has changed from the land of wooden ploughs into that of tractor and *combine is confirmed. It is pointed out that at the beginning* of 1963, there were 1.4 thousand tractors, 224 combines, 670 lorries and thousands of other modern agricultural machines in the Daghlig Garabagh agriculture.[111] Much was done for the realization of the industrial potential of *the Daghlig Garabagh Autonomous Oblast during the* 40 years. Gross product of the entire industry in 1962 grew by 341%, electric power by 945% and so on compared to 1940.[112] The oblast's socioeconomic life developed dynamically as well after the mid 1960s.**

Comparison of the economic and social development rates generally of the Azerbaijan SSR, including Nakhchivan Soviet Socialist Republic and Daghlig Garabagh Autonomous Oblast of it in 1965–1987 shows very clearly the autonomous oblast's high progress rate at that time.[113] **In 1987**, the number of industrial workers **in every 10,000 persons** was **686** in the republic and **387** – in the *Nakhchivan Soviet Socialist Republic*, while this figure equaled **657** in the *Daghlig Garabagh Autonomous Oblast*. Gross agricultural products per capita equalled accordingly **588, 501** and **692** (!) etc. As to the social progress rates, these figures were much higher than the figures not only in Azerbaijan SSR, but even the Armenian SSR and in general, in the USSR. While the hospital bed supply of every 10,000 persons was **86.2** in the *Armenian SSR*, **97.7** in the *Azerbaijan SSR*, this figure was **101.7** in the *Daghlig Garabagh Autonomous Oblast* etc.[114] Even the preamble of the resolution of the Soviet Union Communist Party Central Committee and USSR Council of Ministers dated on March 24, 1988 on socioeconomic development of the Daghlig Garabagh Autonomous Oblast, which was adopted due to the special efforts of Armenian separatists' Moscow supporters pointed out particularly the achievements gained in the oblast's social and economic development fields.[115]

Even in the period when false information invented by the separatists knew no limitations, **Azerbaijan did not fear to put the facts of the socioeconomic state of the Daghlig Garabagh Autonomous Oblast, which is an integral part of it, to extensive public discussion; on the con-**

**iqtisadi vəziyyətinə dair faktları olduğu kimi geniş ictimaiyyətin müzakirəsinə çıxarmaqdan çəkinməmiş, əksinə, mövcud vəziyyətin daha da aydınlaşdırılmasında maraqlı olmuşdu.** Buna görə də 1988-ci ilin gərgin mart günlərində Azərbaycan SSR Nazirlər Soveti yanında Xalq Təsərrüfatını İdarəetmə İnstitutunda **Dağlıq Qarabağ Muxtar Vilayətinin iqtisadiyyatı: problemlər və perspektivlər** mövzusunda «dəyirmi stol» təşkil edilmiş, onun materialları çap olunub geniş ictimaiyyətə çatdırılmışdı.[116] Buna görə də həmin faktları burada sadalamağa ehtiyac görmürük. Yalnız həmin «dəyirmi stol»da SSRİ Elmlər Akademiyasının akademiki, «Əsas fondlar, kapital qoyuluşu və yeni texnikanın iqtisadi səmərəliliyi» problemi üzrə elmi şuranın milliyyətcə erməni olan sədri **T.S.Xaçaturovun** müzakirələrin sonundakı çıxışına diqqəti yönəltmək istəyirik. O, real vəziyyəti təsdiq edərək demişdir: **Dağlıq Qarabağın məhsuldar qüvvələrinin daha da inkişafına dair məsələlər üzrə həmkarlarımla fikir mübadiləsi etmək mənim üçün çox xoş oldu. *Etiraf edim ki, mən bu məsələ üzrə kifayət qədər tam informasiyaya malik deyildim və bizim söhbətimiz bu boşluğu müəyyən qədər doldurmağa imkan verdi*** (kursiv bizimdir–*Y.M.,K.Ş.*).[117] Göründüyü kimi, iqtisadçı(!) akademik T.S.Xaçaturov belə mühüm məsələdə kifayət qədər informasiyası **«olmadığını»** etiraf edir. Belə olduğu halda, digərlərindən bəhs etməyə dəyərmi?! Əslində isə Dağlıq Qarabağın Azərbaycandan qoparılması uğrunda mübarizədə **erməni separatçılarına real vəziyyəti əks etdirən informasiya deyil**, əksinə, **informasiyasızlıq** lazım idi.

* * *

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa muxtariyyət verildikdən sonra da istər Dağlıq Qarabağ, istər Ermənistan, istərsə də bu hüdudlardan kənardakı ermənilər separatçılıq fəaliyyətini dayandırmadılar. Erməni «siyasətçilərinin» susduqları dövrdə yazıçılar, şairlər və başqa zümrədən olanlar separatçılığın daşıyıcılarına çevrildilər, daha doğrusu, «siyasətçilər» onları qabağa verdilər (bu erməni separatçılığının «tarixi» ənənəsidir!). Tanınmış erməni yazıçısı **M.Şaginyan** (1888–1982) Dağlıq Qarabağa muxtariyyət verilməsindən az sonra «Dağlıq Qarabağ» adlı kitabça (1927) çap etdirdi.[118] Bu «kitabçada» tarixi həqiqəti açıq-aşkar təhrif etdi; Ümumittifaq oxucusuna saxta və tendensiyalı məlumat verdi: «Нагорный Карабах страна армянская...» (c.3); «Нагорный Карабах-феодальная область, дворянский кусочек(?) Армении» (s.5) və i.a.

1920–30-cu illərdə istədiklərinə nail ola bilməyən ermənilər 1941–1945-ci illər müharibəsindən sonra yenidən fəallaşdılar. 1945-ci ilin noyabrında Ermənistan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi **Qr.Arutinov** İ.Stalinə müraciət edərək Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin **Qarabağ vilayəti** adı altında Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında məsələ qaldırdı.[119] Həmin müraciətin mətnini Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi **G.M.Malenkov** 1945-ci il 28 noyabrda Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin birinci katibi **M.C.Bağırova** göndərdi. Malenkov Ermənistan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin qaldırdığı məsələyə öz rəyini bildirməsini ona təklif etdi.[120] Bağırov bununla əlaqədar 1945-ci il dekabrın 10-da cavabını Moskvaya bildirdi. Bağırov cavabında yazırdı: ***«Tam məxfidir. Malenkov yoldaşa.***

***Ermənistan Kommunist (bolşeviklər) Partiyası MK-nın katibi Arutinov yoldaşın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında təklifi ilə əlaqədar Sizin teleqramınıza cavab olaraq məlumat verirəm:***

***Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi qədim zamanlardan, mərkəzi 1747-ci ildə qarabağlı Pənah xan tərəfindən qala kimi tikdirilmiş Pənahabad şəhəri olan Qarabağ xanlığının tərkibində olmuşdur.***

***1826-cı ildə Qarabağ çar Rusiyasına birləşdirilmişdir. Sonralar indiki Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Qaryagin və Qubadlı qəzalarının tərkibində olmuşdur.***

***1918–1920-ci illərdə müsavatçıların Azərbaycanda və daşnakların Ermənistanda ağalığı dövründə müsavat hökuməti tərəfindən mərkəzi Şuşa (keçmiş Pənahabad) şəhəri olan general-qubernatorluq təşkil edilmişdir.***

***Müsavatçılar və daşnaklar tərəfindən təşkil olunmuş millətlərarası qırğının nəticəsində Azərbaycanın və Ermənistanın bir çox şəhərləri kimi, Şuşa da dağıdılmış və xarabalığa çevrilmişdir.***

***1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ilk dövrlərdə bütün Qarabağın təsərrüfat-siyasi həyatına rəhbərlik vahid Vilayət İnqilab Komitəsi tərəfindən həyata keçirilirdi.***

***1923-cü ildə Qarabağın əsasən ermənilərin məskunlaşdığı dağlıq hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi qaldırıldı. Lakin bu ərazinin Ermənistan SSR ilə ümumi sərhədlərinin olmaması və Ermənistandan yalnız azərbaycanlıların yaşadığı Qubadlı, Laçın, Kəlbəcər və Dəstəfur rayonları ilə ayrılması səbəbindən, partiya orqanlarının göstərişi əsasında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul 1923-cü il tarixli dekreti ilə mərkəzi Xankəndi, indi Stepanakert adlanan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.***

***Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazi cəhətdən heç vaxt Ermənistan SSR-ə bitişik olmamışdır və hazırda da bitişik deyildir.***

**trary, it was interested in even more elucidation of the current situation.** Therefore, in the strained March days of 1988, a "round table" on the theme of **"Daghlig Garabagh Autonomous Oblast economy: problems and visions"** was organized at the Institute of Economic Management at the Azerbaijan SSR Council of Ministers and its materials were published and delivered to the public.[116] Therefore, we do not think there is a need to cite those facts here. We just want to draw attention to the speech of the chairman of the academic council on the problem of "Main assets, capital investment and economic efficiency of new technique", academician of the USSR Academy of Sciences, Armenian by nationality **T.Sh.Khachaturov** at the end of the discussions during that "round table". He confirmed the real situation and said: **It was very pleasant for me to conduct an exchange of opinions with my colleagues on the issues concerning even more development of the productive forces of Daghlig Garabagh.** ***I should confess that I did not have sufficiently full information on this issue and our conversation gave me a chance to fill this gap to some extent*** (It is italicized by us – Y.M., K.Sh.).[117] As it is seen, this economist, (!) academician T.Sh.Khachaturov confesses that he **"does not have"** enough information about such an important issue. In this case, is there a need to speak about the others?! In fact, **Armenian separatists needed not the information reflecting the real situation;** on the contrary, **a lack of information** was needed in the fight for breaking Daghlig Garabagh off from Azerbaijan.

* * *

Following the granting of autonomy to the integral part of Azerbaijan, Daghlig Garabagh, Armenians in Daghlig Garabagh, Armenia and abroad did not stop their separatist activity. In the period of silence of Armenian "politicians", Armenian writers, poets, as well as men representing other classes became carriers of the strategic goal, or rather, the "politicians" pushed them ahead (this is the "historical" tradition of Armenian separatists!). Famous Armenian writer **M.Shaginyan** (1888–1982) published a booklet titled "Daghlig Garabagh" (1927) shortly after the granting of autonomy to Daghlig Garabagh.[118] This "booklet" distorted the historical truth openly; it gave false information to the All-Union reader ("Daghlig Garabagh is an Armenian country..." (p.3); "Daghlig Garabagh is a feudal district, noble piece (?) of Armenia" (p.5) etc.).

Failing to achieve what they wanted in the 1920-30s Armenians reactivated again following the war of 1941-1945. In November 1945, the secretary of the Armenian Communist (Bolsheviks) Party Central Committee **Gr.Arutinov** turned to I.Stalin and raised the issue about annexing the Daghlig Garabagh Autonomous Oblast of Azerbaijan SSR to the Armenian SSR under the name of **Garabagh oblast**.[119] The secretary of the All-Union Communist (Bolsheviks) Party Central Committee **G.M.Malenkov** sent the text of that appeal to the first secretary of Azerbaijan Communist (Bolsheviks) Party Central Committee **M.J.Baghirov** on November 28, 1945. Malenkov suggested that M.Baghirov express his opinion concerning the issue raised by the Armenian Communist (Bolsheviks) Party Central Committee.[120] In regard to this, Baghirov sent his reply to Moscow on December 10, 1945. Baghirov was writing in reply:

***"Top secret. To comrade Malenkov. In reply to Your telegram concerning the suggestion of annexing the Daghlig Garabagh Autonomous Oblast to Armenian SSR made by the secretary of the Armenian Communist (Bolsheviks) Party Central Committee comrade Arutinov, I inform:***

***Territory of the Daghlig Garabagh Autonomous Oblast had been within the Garabagh khanate since ancient times, the center of which was the Panahabad city built in 1747 by the khan of Garabagh Panah khan.***

***In 1826, Garabagh was annexed to the czarist Russia. Later, the territory of the current Daghlig Garabagh Autonomous Oblast was within Shusha, Javanshir, Garyagin and Gubadly uezds of Yelizavetpol gubernia.***

***In 1918–1920, in the period when musavatists were reigning in Azerbaijan and dashnaks in Armenia, the musavat government set up a governor-general administration with Shusha (former Panahabad) its center.***

***Due to the national bloodshed organized by the musavatists and dashnaks, Shusha was also destroyed and razed to the ground as were many other cities of Azerbaijan and Armenia.***

***In 1920, in the initial period after the Soviet power was established in Azerbaijan, the common Oblast Revolutionary Committee was heading the agricultural-political life of entire Garabagh.***

***In 1923, the issue of annexing the mountainous part of Garabagh settled mainly by Armenians to the Armenian SSR, was raised. However, since this territory did not share borders with the Armenian SSR and was separated from Armenia with Gubadly, Lachin, Kalbajar and Dastafur regions populated by Azerbaijanis only, the Daghlig Garabagh Autonomous Oblast was created with Khankandy, currently Stepanakert as its center by the decree of the Azerbaijan Central Executive Committee dated on July 7, 1923 based on instruction of the party authorities. Thus, the Daghlig Garabagh Autonomous Oblast has never been connected with Armenian SSR territorially and is not as well presently.***

***Much has been done in the fields of agricultural-political and cultural development of Daghlig Garabagh during the years of Soviet power in Azerbaijan. One of the bright-***

*Azərbaycanda Sovet hakimiyyəti illərində Dağlıq Qarabağda vilayətin təsərrüfat-siyasi və mədəni inkişafı sahəsində böyük işlər görülmüşdür. Bu inkişafın ən parlaq nümunələrindən biri – DQMV-nin hazırki mərkəzi Stepanakert şəhərinin başlı-başına buraxılmış və dağıdılmış bir kənddən Azərbaycanın ən gözəl, abad və mədəni şəhərlərindən birinə çevrilməsidir.*

*Azərbaycan SSR-in bütün ali təhsil məktəbləri və texnikumları tələbələrinin 20,5%-ni, əksəriyyəti Dağlıq Qarabağ Muxtar Vilayətindən olan ermənilər təşkil edir.*

*Respublikanın partiya, sovet, təsərrüfat rəhbərləri -Azərbaycan K(b)P MK-nın katibləri, müavinləri, xalq komissarları, xalq komissarları müavinləri və s. arasında Dağlıq Qarabağdan olan yoldaşlar da az deyildir.*

*Bununla belə, biz Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə qatılmasına etiraz etmirik, lakin Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olmasına baxmayaraq, hazırda da əsasən azərbaycanlıların yaşadığı Şuşa rayonunun Ermənistan SSR-ə verilməsinə razı deyilik.*

*Şuşa şəhəri bina edildiyi gündən Qarabağın inzibati-siyasi və mədəni mərkəzi olmaqla yanaşı, həm də Azərbaycan xalqının öz müstəqilliyi uğrunda İran işğalçıları ilə apardığı mübarizədə müstəsna rol oynamışdır.*

*Ən qaniçən fatehlərdən biri, Zaqafqaziya xalqlarının cəlladı Ağa Məhəmməd şah Qacar məhz Şuşada öldürülmüşdür.*

*Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti bu şəhərdə formalaşmışdır. İbrahim xan, Vaqif, Natəvan və digər bu kimi görkəmli siyasət və mədəniyyət xadimlərinin adları onunla bağlıdır.*

*Eyni zamanda, ÜİK(b)P MK-nın nəzərinə çatdırmağı zəruri hesab edirik ki, DQMV-nin Ermənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılarkən, Ermənistan SSR-in Azərbaycan Respublikasına bitişik olan və əsasən azərbaycanlıların yaşadığı Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.*

*Bu rayonların mədəni və iqtisadi cəhətdən son dərəcədə geridə qalmasını nəzərə almaqla, bunların Azərbaycana verilməsi əhalinin maddi-məişət şəraitini və ona mədəni-siyasi xidmət işini yaxşılaşdırmağa imkan yaradardı.*

*ÜİK(b)P MK-dan yuxarıda göstərilənlərdən əlavə aşağıdakı məsələlərə baxılmasını xahiş edirik:*

*Gürcüstanlı yoldaşlar Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-in tərkibinə daxil edilməsi məsələsini qoyurlar.*

*Göstərilən rayonlarda əhalinin ümumi sayı 79.000 nəfər olduğu halda, cəmi 9.000 gürcü-inqiloyun yaşamasına baxmayaraq, biz bu məsələyə baxılmasına etiraz etmirik, lakin bu məsələ ilə bir zamanda, Gürcüstan SSR-in, demək olar, yalnız azərbay-*

*est samples of this development is that the current center of Daghlig Garabagh Autonomous Oblast, Stepanakert city has been transformed from a desolate and destroyed village into one of the most beautiful, prosperous and cultural cities of Azerbaijan.*

*Armenians, mainly from Daghlig Garabagh Autonomous Oblast make up 20.5% of the students of all higher education institutions and technical schools of Azerbaijan SSR.*

*There are many comrades from Daghlig Garabagh among the republic's party, soviet and agricultural leaders - secretaries of Azerbaijan Communist (Bolsheviks) Party Central Committee, their deputies, peoples commissars, deputy peoples commissars etc.*

*Nevertheless, we do not object to the annexation of the Daghlig Garabagh Autonomous Oblast to the Armenian SSR, but we do not agree that Shusha region populated mainly by Azerbaijanis as well presently, though it is a part of the Daghlig Garabagh Autonomous Oblast, be given to the Armenian SSR.*

*Since the day Shusha city was built, it has not only been the administrative-political and cultural center of Garabagh, but also played an exceptional role in the struggle of Azerbaijani people against Iranian invaders for its independence.*

*One of the most bloodthirsty conquerors, butcher of the Caucasian peoples Agha Mahammad shah Gajar was killed in Shusha.*

*The rich music culture of the Azerbaijani people has been formed in this city. The names of Ibrahim khan, Vagif, Natavan and other distinguished political and cultural figures are linked with this city.*

*At the same time, we regard it urgent to take into the consideration of All-Union Communist (Bolsheviks) Party Central Committee that during the consideration of the issue of annexing the Daghlig Garabagh Autonomous Oblast to the Armenian SSR, the issue of annexing Azizbayov, Vedi and Garabaghlar regions of Armenian SSR adjoining the Azerbaijan republic and populated mainly by Azerbaijanis into the Azerbaijan SSR.*

*Taking into account the very big cultural and economic lack of development of these regions, their annexation to Azerbaijan would create an opportunity to improve the financial welfare standards of the population and cultural-political service to it.*

*We ask the All-Union Communist (Bolsheviks) Party Central Committee to consider as well the following issues in addition to the above-mentioned:*

*Georgian comrades raise the issue of giving Balakan, Zagatala and Gakh regions of Azerbaijan SSR to Georgian SSR.*

*Despite the fact that the total number of population in the mentioned regions is 79,000 while Georgian-Ingiloys make up only 9,000 of it, we do not protest against consid-*





Azərbaycanın dünyada məşhur olan Qarabağ atları.

World-famous Azerbaijan Garabagh horses.

*canlıların yaşadığı və bilavasitə Azərbaycan SSR-ə bitişik olan Borçalı rayonunun Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.*

*Və nəhayət, biz, Dağıstan SSR-in keçmişdə Azərbaycanın bir hissəsi kimi Bakı quberniyası tərkibinə daxil olan və hazırda Azərbaycan SSR-ə bitişik olan Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərbaycan SSR tərkibinə qatılması məsələsini nəzərdən keçirmənizi xahiş edirik. Bu rayonların əhalisi əsasən azərbaycanlılardan ibarətdir, özü də maldarlıqla məşğul olan bu əhalinin yarıdan çoxu ilin 9 ayını Azərbaycan ərazisində keçirir.*

*Qaldırılmış bütün məsələlər üzrə təkliflərin hazırlanması üçün tərkibinə marağı olan hər bir respublikadan nümayəndələr daxil edilməklə ÜİK(b)P MK komissiyasının yaradılmasını məqsədəuyğun hesab edirik.*

*Azərbaycan K(b)P MK katibi M.C.Bağırov*

*10 dekabr 1945-ci il*
*№ 330, Bakı şəhəri ».*[121]

Bu cavab bir sıra tədqiqatçıların diqqətini cəlb etmiş və onun barəsində müəyyən mülahizələr söylənmişdir.[122] Lakin buna yenidən qayıtmağa ehtiyac vardır. Bu sənəddə diqqəti çəkən məsələlər hansılardır?! Hər şeydən əvvəl: 1) O zamankı partiya bürokratiyası şəraitində Malenkovun təklifi kimi mürəkkəb məsələyə qısa müddətdə cavab verilməsi diqqəti cəlb edir. Bu göstərir ki, belə bir təklif Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi üçün gözlənilməz olmamışdır. 2) Mətnin siyasi, elmi-tarixi və tekstoloji təhlili də zəruridir. Bunların üzərində ləngimədən bir vacib məqama diqqət yetirək. Buradan aydın olur ki, bəzən iddia olunduğunun əksinə olaraq, Azərbaycan rəhbərliyi belə bir problemdən heç zaman qaçmamış, əksinə, ən yüksək səviyyədə onun müzakirəsinə və konkret təkliflərlə çıxış etməyə hazır olmuşdur və s. **Məhz belə bir əsaslandırılmış mövqe o zaman Moskvanı Azərbaycana təzyiqdən çəkindirmişdi.** Bununla belə, Ermənistan rəhbərliyi məqsədindən əl çəkməmiş, 1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dən – öz ata-baba torpaqlarından kütləvi surətdə deportasiyasına nail ola bilmişdi.[123]

Lakin ermənilər bununla da Dağlıq Qarabağ ilə bağlı separatçılıq fəaliyyətindən əl çəkmədilər. 1960-cı illərdə SSRİ-də antitürkiyə kampaniyasının gücləndiyi şəraitdə yenidən bu problemi ortaya atdılar. 1965-ci ildə Dağlıq Qarabağın Ermənistana ilhaq edilməsi barədə 45 min nəfərin «imzaladığı» petisiya Moskvaya təqdim edilmiş, bunun əsasında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi katibliyi Ermənistan və Azərbaycana bu barədə məsələ hazırlamağı tapşırmışdı. Erməni separatçıları belə hesab edirlər ki, buna

*eration of this issue, but the issue of annexation of Borchali region of Georgian SSR adjoining directly to Azerbaijan SSR and populated exclusively by Azerbaijanis only to the Azerbaijan SSR must be considered simultaneously with this issue.*

*Finally, we ask you to consider the issue of annexing Darband and Gasimkand regions of Daghistan SSR, which were a part of the Baku gubernia within Azerbaijan in the past and presently adjoin to the Azerbaijan SSR. These regions are populated mainly by Azerbaijanis, in addition, more than half of the population engaged in cattle-breeding spend 9 months of the year in the territory of Azerbaijan.*

*We regard it expedient to establish a committee of the All-Union Communist (Bolsheviks) Party Central Committee to include interested representatives from all the republics.*

*Secretary of the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee M.J.Baghirov*

*December 10, 1945*
*№ 330, Baku city"*[121]

This reply drew the attention of many researchers and certain views were expressed concerning it.[122] However, there is a need to come back to it once again. What are the issues drawing attention in this document?! First of all: 1) Such prompt answer to a very complex issue as Malenkov's suggestion in the condition of the then party bureaucracy attracts attention. It shows that such a suggestion was not unexpected for the Azerbaijan Communist (Bolsheviks) Party Central Committee. 2) Political, scientific-historical, as well as contextual analyses of the text are also a necessity. Let us not stay too much on these and pay attention to one important moment. It appears from here that despite being sometimes claimed, Azerbaijan leadership never evaded such a problem; on the contrary, it was ready to discuss it and put forward definite suggestions at the highest level. **Such a substantiated position made Moscow avoid pressing Azerbaijan.** Nevertheless, Armenian leadership did not step back from its intention and managed massive deportation of Azerbaijanis from the Armenian SSR – their ancestral lands from 1948 to 1953.[123]

Further, Armenians did not stop their separatist activity linked with Daghlig Garabagh even after that. They raised this problem again in the condition of an aggravated anti-Turkey campaign in the USSR in the 1960s. In 1965, the petition on the annexation of Daghlig Garabagh to Armenia signed by 45,000 persons was submitted to Moscow and based on this, the secretariat of the Soviet Union Communist Party Central Committee charged Armenia and Azerbaijan with preparing an issue regarding this. Armenian separatists






1




2




3

**Ermənilər Azərbaycan xalqının tarix və mədəniyyətinə dair fakt və həqiqətləri saxtalaşdırmaqla bərabər, abidələrin görünüş və yazılarını da "erməniləşdirmişlər":**
1. Əxi Təvəkkül zaviyəsi. XII-XIII əsrlər. Ermənilər bu abidəyə süni şəkildə xaç əlavə etmişlər; 2. Daş heykəl. Ağdamın Boyəhmədli kəndi. Heykəlin "erməniləşdirilmiş" variantı;
3. Daş heykəl. Bərdə. Ermənilər bu heykəli də saxtalaşdırmışlar.

**Falsifying the facts and the truths concerning the history and culture of Azerbaijani people, Armenians have "armenianized" the appearance and scripts of the monuments as well :**
1. Akhy Tavakkul zaviya. XII-XIII c. Armenians have falsely engraved the cross to this monument; 2. Stone monument. Boyahmadly village, Aghdam. The "armenianized" option of the monument; 3. *Stone monument*. Barda. Armenians have falsefied this monument as well.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi katibi **M.Suslov** mane olmuşdur.[124] **1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi ilə onun cəsarətli və qətiyyətli mövqeyi sayəsində ermənilərin separatçılıq təşəbbüsləri və bu niyyətlə Mərkəzdə göstərdikləri «fəaliyyət» uzun müddət heç bir nəticə vermədi.** SSRİ-nin 1977-ci il Konstitusiyasının qəbulu zamanı da ermənilər eyni inadla bu problemi ortaya atmağa çalışdılar.[125] Lakin bu dəfə də heç nəyə nail ola bilmədilər. **H.Əliyevin qətiyyəti sayəsində onun Azərbaycana rəhbərliyi (1969–1982) və SSRİ rəhbərlərindən biri olduğu dövrdə (1982–1987) erməni separatçılarının niyyətlərinin canlanmasına yol verilmədi.**

1984-cü ildə İrəvanda Z.Balayanın «Oçaq» kitabının çap edilməsi, onun Qarabağın tarixinə və müasir dövrünə dair məqsədyönlü təhrifləri, millətçi-separatçı çağırışları ehtirasları yenidən qızışdırdı.[126] Bu əhvali-ruhiyyə erməni millətçiləri tərəfindən əhatə olunmuş **M.S.Qorbaçovun** elan etdiyi «aşkarlıq və yenidənqurma» şəraitində sovet rəhbərliyində (M.S.Qorbaçovun timsalında!) böyük dəstək qazandı və yeni mərhələyə qədəm qoydu. Moskvadan hərtərəfli dəstək alan erməni separatçıları və terrorçuları tərəfindən idarə olunan Dağlıq Qarabağ, 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə olduğu kimi, yenə də Azərbaycan xalqına qarşı xəyanət yolunu tutdu.

### 6.3. Dağlıq Qarabağ Muxtar Vilayəti və Qarabağın aran (düzən) hissəsinin inkişafına ümumi bir baxış

Qarabağ (onun həm aran, həm də dağlıq hissələri) özünün bütün əvvəlki tarixi dövrlərində Azərbaycanın vahid təbii-coğrafi regionu kimi iqtisadi və siyasi inkişafına, oxşar adət-ənənələrinə, həyat tərzinə və məişətinə görə bir-birini tamamlayan tarixi vilayət olmuşdur. Lakin Qarabağın dağlıq hissəsinə – Dağlıq Qarabağa muxtariyyət verilməsi ilə vəziyyətdə köklü dəyişiklik əmələ gəldi.

Dağlıq Qarabağ Muxtar Vilayəti onun üçün yaradılmış müstəsna şərait nəticəsində inkişaf etmiş aqrar-sənaye bölgəsinə, Qarabağın azərbaycanlılar yaşayan aran rayonları və digər rayonlar isə onun xammal bazasına çevrilməyə başladı. Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı azərbaycanlılar yaşayan rayonlar, əsasən pambıq istehsalı ilə məşğul olmağa istiqamətləndirildi, emaledici sənaye sahələrinin inkişafı geri qalmağa başladı. Bütün bunlar Dağlıq Qarabağ Muxtar Vilayətində həyat səviyyəsinin Qarabağın digər rayonlarına nisbətən sürətlə yüksəlməsinə səbəb oldu. Kurort–istirahət mərkəzlərinin Dağlıq Qarabağ Muxtar Vilayətində yerləşməsi də aran rayonların əhalisinin yay dövründə

think that **M.Suslov**, secretary of the Soviet Union Communist Party Central Committee prevented this.[124] **With Heydar Aliyev's coming to Azerbaijan leadership in 1969, and due to his courageous and determined position separatist initiatives of Armenians and the "activity" they ran in Moscow with this purpose did not yield any result for a long time.** During the adoption of the USSR Constitution in 1977, Armenians again tried to raise this problem with the same persistency.[125] However, this time they also failed to achieve anything. **During the period H.Aliyev headed Azerbaijan (1969–1982) and was one of the USSR leaders (1982–1987), his determination and strong will did not allow Armenian separatists to achieve their intentions.**

The publishing of Z.Balayan's "Ojag" book in Iravan in 1984, with his purposeful distortions concerning history and modern time of Garabagh, nationalist-separatist appeals incited passions again.[126] This mood gained great support in the soviet leadership (in the person of M.S.Gorbachov) by way of "glasnost and perestroika" as declared by **M.S.Gorbachov**, surrounded by Armenian nationalists, and it entered a new stage. Daghlig Garabagh governed by the Armenian separatists and terrorists supported by Moscow took the path of betrayal against Azerbaijan, as done before during Azerbaijan Peoples Republic in 1920.

### 6.3. General review of development of Daghlig Garabagh Autonomous Oblast and lowland (plain) part of Garabagh

In all the previous historical periods, Garabagh (its plain and mountainous parts) was an indivisable natural-geographic region of Azerbaijan, and it supplemented Azerbaijan as a historical district with its economic and political development, similar traditions, life style and social conditions. However, autonimization of Daghlig Garabagh caused radical changes in the situation.

The Daghlig Garabagh Autonomous Oblast began to turn into an agrarian-industrial region in the exceptional conditions created for it, with the plain, as well as other regions of Garabagh populated by Azerbaijanis, becoming its raw material base. The regions around the Daghlig Garabagh Autonomous Oblast were mainly directed to engage in cotton growing, and a processing industry began to decline. All of these led to a quick improvement in the living conditions in the Daghlig Garabagh Autonomous Oblast compared with other regions of Garabagh. The location of health resort centers in the Daghlig Garabagh Autonomous Oblast also caused a flow of lowland population here in the summer, which developed the




1


2

. Xankəndinin Şuşa şəhərindən görünüşü.
: Xankəndi Şəhər İcra Hakimiyyətinin binası.

1. View of Khankandy from Shusha city.
2. Khankandy City Executive Power building.



1992-ci il fevralın sonunda bütün Azərbaycanda olduğu kimi, Qarabağda da milli Novruz bayramına hazırlıq görülürdü. Erməni xəyanətkarları isə Xocalıda soyqırımına hazırlaşırdılar.





In late February 1992 while, Garabagh as well as entire Azerbaijan was preparing for the national holiday Novruz, the Armenian betrayers were planning the Khojaly genocide.

buraya yönəlməsinə səbəb oldu və Dağlıq Qarabağın iqtisadiyyatını daha da inkişaf etdirdi. Bu da külli miqdarda vəsaitin Dağlıq Qarabağ Muxtar Vilayəti büdcəsinə daxil olmasına gətirib çıxarırdı. Bütün regionda yeganə ali məktəb – Pedaqoji institut da Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Xankəndində (Stepanakertdə) idi.

**Tarixi Qarabağın başqa rayonlarından fərqli olaraq, Dağlıq Qarabağ Muxtar Vilayətinin əldə etdiyi iqtisadi üstünlük muxtar vilayət statusunun siyasi üstünlüyünün artması ilə də müşayiət olunurdu.** Azərbaycanlı – müsəlman əhalinin yaşadığı aran rayonları, əsasən xristian-ermənilərin yaşadığı Dağlıq Qarabağ Muxtar Vilayətinə nisbətən sovet rejiminin təzyiqlərinə, ayrı-seçkiliyə daha çox məruz qalırdı.

Bütün bunlar Moskvadan və Ermənistan SSR-dən kömək alan Dağlıq Qarabağ ermənilərinin etnik eqoizmini artırır, azərbaycanlılara qarşı açıq həqarət mühiti yaradırdı. Beləliklə, 1905–1906 və 1918–1920-ci illərdə olduğu kimi, xüsusi mərkəzlərdən idarə edilən ermənilər daha yaxşı təşkil olunurdu. Əlaltdan ermənilərin sürətlə silahlandırılması da həyata keçirilirdi. Bu amillər başqa şərtlərlə birlikdə, sonralar Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı digər rayonların Ermənistanın hərbi qüvvələri və Dağlıq Qarabağın erməni separatçı-terrorçuları tərəfindən işğalında həlledici faktorlardan oldu.

## 7. ERMƏNİSTANIN VƏ DAĞLIQ QARABAĞ ERMƏNİ SEPARATÇILARININ DAĞLIQ QARABAĞI AZƏRBAYCANDAN QOPARMAQ ÜÇÜN İŞĞALÇILIQ MÜHARİBƏSİ

### 7.1. Başlanğıc: 1985–1991-ci illər

Ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qarşı iddiaları onların «Böyük Ermənistan» yaratmağa yönəlmiş strateji planlarının tərkib hissəsidir. Ona görə də ermənilər, «ənənələrinə» sadiq qalaraq, həmişə əlverişli şərait yaranan kimi bu planın reallaşdırılması uğrunda mübarizəyə başlamışlar. SSRİ-də 1985-ci ildə ermənipərəst M.S.Qorbaçovun hakimiyyətə gəlməsi ilə[127] erməni separatçıları növbəti dəfə yenidən fəallaşdılar.

Bu dəfə sovet rəhbərliyinin silahlı erməni separatçılarını-terrorçularını himayə və müdafiə etdikləri daha tez aşkara çıxdı. **Dağlıq Qarabağ Muxtar Vilayəti ilə bağlı məxfi planı həyata keçirmək üçün M.S.Qorbaçov, ilk addım olaraq, onun qarşısında ən qüdrətli maneə olan Heydər Əliyevi Siyasi Bürodan uzaqlaşdırdı.** Bundan az sonra, 1987-ci ilin noyabrında Qorbaçovun komandasına daxil olan erməni

economy of Daghlig Garabagh even more. This led to the entry of huge amounts of income to the Daghlig Garabagh Autonomous Oblast budget. The only higher educational institution of the entire region, Teacher Training Institute, was also situated in Khankandy (Stepanakert), the center of the Daghlig Garabagh Autonomous Oblast.

**The economic advantage gained by the Daghlig Garabagh Autonomous Oblast unlike the other historical Garabagh regions was accompanied as well by an increase of political advantage of the autonomous oblast status.** Lowland regions inhabited by Moslem-Azerbaijanis suffered the pressure of the soviet regime and discrimination more than the Daghlig Garabagh Autonomous Oblast inhabited mainly by Christian-Armenians.

All of these increased the ethnic selfishness of Daghlig Garabagh Armenians supported by Moscow and Armenian SSR and created an openly humiliating atmosphere against Azerbaijanis. Thus, like in 1905–1906 and 1918–1920, Armenians governed from special centers were organized in a much better way. Armenians were secretly and quickly armed. These factors, as well as other conditions, later became the decisive factors in the occupation of other regions around the Daghlig Garabagh Autonomous Oblast by the Armenian military forces, and Daghlig Garabagh by the Armenian separatist-terrorists.

## 7. THE INVASIVE WAR BY ARMENIAN SEPARATISTS FROM ARMENIA AND DAGHLIG GARABAGH TO BREAK OFF DAGHLIG GARABAGH FROM AZERBAIJAN.

### 7.1. Beginning: 1985–1991

The claims of Armenians for Azerbaijan lands, as well as Daghlig Garabagh, are an integral part of their strategic plan aimed at the creation of the "Greater Armenia". Therefore, adhering to their "traditions", Armenians began to struggle for the realization of this plan as soon as favorable conditions emerge. In 1985, the pro-Armenian M.S.Gorbachov, came to power in the USSR[127] and this caused the reactivation of Armenian separatists.

This time, the support and protection of the armed Armenian separatists-terrorists by the soviet leadership quickly became evident. **In order to implement the secret plan linked with the Daghlig Garabagh Autonomous Oblast, M.S.Gorbachov first removed Heydar Aliyev, the mightiest obstacle in his way, from the Political Bureau.** Shortly after that, in November 1987, an Armenian academician included in Gorbachov's team **A.Aganbekyan** stated in Paris that he had submitted a suggestion to the soviet leadership concerning Daghlig



akademik **A.Aqanbekyan** Parisdə Dağlıq Qarabağ barədə sovet rəhbərliyinə təklif verdiyini, yenidənqurma və demokratiya şəraitində bu problemin həllini tapacağına ümid etdiyini bildirdi.[128] Əvvəllər gizli fəaliyyət göstərən erməni «Qarabağ Komitəsi», onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı «Krunk» («Durna») açıq işə keçdi, «Miatsum» («Birləşmə») hərəkatı formalaşdırıldı. Bu hərəkat Ermənistan, Dağlıq Qarabağ Muxtar Vilayəti, Moskva rəhbərliyi, SSRİ və dünya ermənilərinin potensialına arxalanırdı. Hadisələr 1988-ci ilin fevralından daha aqressiv məcraya yönəldi. Fevral günlərində İrəvanda və Xankəndində (Stepanakert) separatçılar və erməni millətçilərinin mitinqlər dalğası başladı. Fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin sessiyası vilayətin statusuna baxılması haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət etdi.[129] **Bu fakt ermənilərin 1945-ci ilin noyabrı ilə müqayisədə taktikanı dəyişdirdiklərini göstərirdi. Onlar II Dünya müharibəsindən ötən dövr ərzində apardıqları intensiv təbliğat sayəsində və xarici ölkələrdəki güclü erməni diasporunun köməyi ilə dünya ictimaiyyətində Dağlıq Qarabağ barədə yanlış rəy yarada bilmişdilər. Ona görə bu dəfə iddialarını bağlı qapılar arxasından meydanlara çıxarmaq yolunu tutdular.** Azərbaycanın o zamankı rəhbərliyi və geniş ictimaiyyəti isə erməni separatçılarının və onların müdafiəçilərinin yeni taktikası qarşısında hazırlıqsız idi. Fevralın 24-də Əsgəran rayonunda erməni separatçı-terrorçuları tərəfindən iki azərbaycanlı gəncin qətlə yetirilməsi, 19 nəfərin yaralanması da ermənilərin planlarına qarşı düşünülmüş siyasi xətt hazırlanması ilə nəticələnmədi. Fevralın sonlarında artıq Azərbaycanın böyük sənaye şəhəri olan Sumqayıtda erməni xüsusi xidmət orqanları və SSRİ Dövlət Təhlükəsizlik orqanlarının iştirakı

*«Qarabağın tarixi kökləri antik dövrə gedib çıxır. Bu, Azərbaycanın tarixi əyalətlərindən biridir. Bu region [Azərbaycanın] vacib siyasi, mədəni və mənəvi mərkəzidir... Bədnam «Qarabağ problemi» ermənilər tərəfindən saxta iddialar əsasında yaradılmışdır».*

**Samuel A.Uims**

*«Ermənistan: terrorçu «xristian» ölkənin gizlinləri», ermənilərin böyük fırıldaq seriyaları, I cild, Bakı 2004, s.362*

Garabagh and hoped for a settlement of this problem through perestroika and democracy.[128] The Armenian "Garabagh Committee" which operated secretly before through its separatist-terrorist organization "Kroun k" ("Crane") in the Daghlig Garabagh Autonomous Oblast but now began to operate openly, and the "Miatsum" (Unification) movement was formed. This movement relied on Armenia, the Daghlig Garabagh Autonomous Oblast, Moscow leadership, USSR and some Armenians all around the world. The events acquired an even more aggressive character beginning in February 1988. In February, a wave of meetings of the separatists and Armenian nationalists began to agitate in Iravan and Khankandy (Stepanakert). On February 20, a session of the Daghlig Garabagh Autonomous Oblast Soviet addressed the Azerbaijan SSR Supreme Soviet to consider the oblast's status.[129] **This fact showed that Armenians had changed their tactics compared to November 1945. They managed to create a false idea in the world community about Daghlig Garabagh in the period after the Second World War due to the intensive propaganda they ran and with the help of the strong Armenian Diaspora in foreign countries. Therefore, this time they followed the tactics of taking their claims from behind closed doors to public squares.** The then political leadership of Azerbaijan and its vast community were unprepared for the new tactics of the Armenian separatists and their protectors. The murder of two Azerbaijani youths in the Asgaran region by Armenian separatists-terrorists on February 24 and the wounding of 19 men did not lead to the preparation of a deliberate political response to the plans of the Armenians either. In late February, murders planned with the participation of special Armenian service bodies and USSR National Security (KGB) authorities were committed in Sumgayit, a big indus-

*«The history of Garabagh is rooted in antiquity. It is one of the historic provinces of Azerbaijan. This region is an important political, cultural, and spiritual center [of Azerbaijan]... So called «Garabagh problem» is creation of the false claims made by Armenians».*

**Samuel A.Weems**

*Armenia*

*«Secrets of a «Christian» terrorist state», The Armenian great deception series – volume I.*

***Fransız jurnalisti Jan İv Yunet:***

**"Biz Xocalı faciəsinin şahidiyik. Biz Xocalı müdafiəçilərinin, yüzlərlə dinc sakininin - qadınların, uşaqların, qocaların eybəcər hala salınmış cəsədlərini gözlərimizlə gördük... Ermənilər bizim vertolyotu da atəşə tutduqlarına görə, çəkilişi başa çatdıra bilmədik. Amma elə yüksəklikdən gördüklərimiz də törədilən vəhşilikləri təsəvvürə gətirmək üçün kifayət edirdi. Bu, tükürpərdici mənzərə idi. 5-6 yaşlı uşaqları, qundaqdakı körpələri, hamilə qadınları vəhşiliklə öldürən ermənilər cəlladlıqda heç kəslə müqayisəyə gəlməzlər".**

***Eyewitness of Khojaly tragedy, French journalist Jean Eves Unette.***

**We are the eyewitnesses of Khojaly tragedy. We saw the mutilated corpses of defenders, hundreds civilians women, children, old men of Khojaly... We could not finish filming because of bombardment of our helicopter by Armenians. But even that picture seen from this height was enough to imagine the committed brutalities. It was horrifying show. The Armenians, brutally killing 5-6-year-old children, babies in cradles, pregnant women, are incomparable in cruelty".**







**Erməni separatçı - terrorçularının dinc Xocalı əhalisinə qarşı törətdikləri soyqırımını *əks etdirən fotosənədlər.* 1992-ci il 26 fevral.**

**Photo documents reflecting the genocide committed by the Armenian separatist-terrorists against the peaceful Khojaly population. 26 February 1992.**



**Xocalı soyqırımının canlı şahidi olan, yüzlərlə körpə uşağın, qocanın, qadının qəddarlıqla qətlə yetirilməsini gözləri ilə görən bu qızcığaz *dünyanın demokratik cəmiyyətlərində* yaşayan bütün insanlardan erməni separatçı-terrorçularının vəhşiliklərinə son qoyulması üçün cavab gözləyir.**

**The girl who is the eye-witness of Khojaly genocide and who has seen *the brutal killing of hundreds of babies, old men, women with her own* eyes is waiting for an answer from the entire people of all democratic societies of the world to put an end to the vandalism of Armenian separatist-terrorists.**




**XX əsrin ən böyük faciələrindən biri, erməni separatçı-terrorçularının törətdikləri Xocalı soyqırımına dair daha geniş fotomateriallara bax: səh. 269–280.**

**For more photo documents on one of the most terrible tragedies of the XX century Khojaly genocide committed by Armenian separatist - terrorists, see p. 269–280.**



ilə əvvəlcədən hazırlanmış qəsdlər törədildi.[130] Çox keçmədən Sumqayıt hadisələrinin nə üçün törədildiyi aydın oldu. Əvvəlcədən planlaşdırıldığı kimi, bu hadisədən dərhal Ermənistanda yaşayan azərbaycanlılara qarşı və Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR tərkibindən qoparılıb çıxarılması üçün istifadə edildi. **«Martın 10-da İrəvandan cənubda azərbaycanlılara məxsus Mehmandar kəndinin 4 sakini qətlə yetirildi. Martın 25-də Ararat rayonunun azərbaycanlı kəndlərində 100-dən çox ev talan edilib yandırıldı, əhalisi qovuldu. Mayın ortalarında İrəvan yaxınlığındakı Azərbaycan kəndlərinə yenidən basqın edildi....».**[131] Tarixdə azərbaycanlılara qarşı dəfələrlə təkrar olunmuş erməni vəhşilikləri və soyqırımları yenidən tüğyan etməyə başladı.

Separatçı-terrorçu erməni vəhşiliklərinin baş alıb getdiyi bu dövrdə **Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və Sovet hökumətinin vəziyyətin real qiymətləndirilməsində maraqlı olmaması da aydın şəkildə üzə çıxdı.** «1988–1995-ci illərdə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında» 1988-ci il 24 mart tarixli qərar bilərəkdən məsələnin separatçılıq aktı olmasını ört-basdır etməyə yönəlmişdi. Belə bir dəstək erməni separatçılarını daha da ruhlandırdı və onların təcavüzkarlığını daha da artırdı. Moskva qarşısında mütilik nümayiş etdirən Ə.Vəzirov başda olmaqla Azərbaycan rəhbərliyi öz xalqına xəyanət, təcavüzkara isə güzəşt mövqeyi tutur-du. Nəhayət, Moskva Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycan SSR-in tərkibindən çıxartmaq istiqamətində daha bir addım atdı: SSRİ Ali Soveti Rəyasət Heyəti 1989-cu il yanvarın 12-də **«Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında»** qərar qəbul etdi.[132] Məqsəd aydın idi: Dağlıq Qarabağ Muxtar Vilayətində yaradılmış Xüsusi İdarə Komitəsi muxtar vilayətin Azərbaycandan alınıb Ermənistana verilməsini təmin etməli idi. Lakin bunu başa düşən Azərbaycan xalqının demokratik mübarizəsi nəticəsində noyabrın 28-də Xüsusi İdarə Komitəsi ləğv edildi. *Ancaq bunun əvəzində* yeni bir qurum – Təşkilat Komitəsi yaradıldı. Ermənistan SSR bu vəziyyətdən istifadə edərək dekabrın 1-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında antikonstitusion qərar qəbul etdi. Bu **Ermənistan tərəfindən Azərbaycan SSR-in ərazi bütövlüyünə qarşı açıq hüquqi müdaxilə aktı idi. Moskva, gözlənildiyi kimi, bu kobud müdaxilə faktına da göz yumdu.** Bununla vəziyyət daha da kəskinləşdi. Bu dəfə Qorbaçov başda olmaqla SSRİ rəhbərliyi Azərbaycana qarşı daha dəhşətli bir cinayətə əl atdı. Əsas hədəf kimi Bakı seçildi. **Sovet dövləti öz vətəndaşları qarşısındakı konstitusiya öhdəliyini**

trial city in Azerbaijan.[130] Soon thereafter, the purpose of the Sumgayit events became clear. As was planned beforehand, this event was instantly used against Azerbaijanis living in Armenia and for breaking the Daghlig Garabagh Autonomous Oblast off from Azerbaijan SSR. **"On March 10, 4 residents of the Mehmandar village of Azerbaijanis located to the south of Iravan were murdered. On March 25, more than 100 houses in the Azerbaijani villages of the Ararat region were plundered and burnt, and the population was driven out. In mid May, a new attack was made on Azerbaijan villages near Iravan..."**[131] The Armenian atrocities and genocide committed repeatedly against Azerbaijanis during history started more fiercely again.

*In this period when atrocities committed by the* separatist-terrorist Armenians knew no restrictions, **the fact that the Soviet Union Communist Party Central Committee and Soviet government were not interested in real assessment of the situation became evident.** The resolution "On measures for an acceleration of socioeconomic development of the Daghlig Garabagh Autonomous Oblast of Azerbaijan SSR in 1988–1995" dated on March 24, 1988 was intentionally directed to covering-up the fact that the issue was in essence an act of separatism. Such support encouraged Armenians even more and increased their aggressiveness. The Azerbaijan leadership headed by A.Vazirov demonstrated submission to Moscow and took the position of concession to the aggressor. Finally, Moscow took one more step in the direction of removing the Daghlig Garabagh Autonomous Oblast from within Azerbaijan SSR: The USSR Supreme Soviet Presidium adopted a decision **"On application of special administration form in the Daghlig Garabagh Autonomous Oblast of Azerbaijan SSR"** on January 12, 1989.[132] Everything was clear: the Special Administration Committee created in the Daghlig Garabagh Autonomous Oblast was to provide separation of the autonomous oblast from Azerbaijan and its annexation to Armenia. However, due to the democratic struggle of Azerbaijan people understanding *this, the Special Administration Committee,* was annulled on November 28. Nevertheless, a new "Organization Committee" was established in its place. The Armenian SSR made use of this situation and adopted an unconstitutional act on the annexation of Daghlig Garabagh to Armenia on December 1. **This was an open legal intervention of Armenia to the territorial integrity of the Azerbaijan SSR. Moscow, as was expected, closed its eyes to this intervention as well.** Thus, the situation deteriorated even more. This time the USSR leadership headed by Gorbachov committed an even *more terrible crime against Azerbaijan.* Baku was chosen as the main target. **The Soviet state broke its constitu-**



**pozaraq ən müasir texnika və silahlarla silahlanmış iri qoşun kontingenti yeritməklə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda qanlı qırğın törətdi.**[133] Bakı qırğınında erməni əsgər və zabitlərindən də geniş istifadə olundu. Lakin **20 yanvar qırğını** Azərbaycan xalqının iradəsini qıra bilmədi, əksinə, respublikanın istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizəni daha da gücləndirdi. **20 Yanvar qırğınının səhəri günü Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlib sovet rəhbərliyinin cinayət əməllərini qətiyyətlə ifşa edən Heydər Əliyev Azərbaycan xalqının bu ədalətli mübarizəsinin – Qurtuluş savaşının önünə keçdi.** 1991-ci il avqustun 30-da Azərbaycan SSR Ali Soveti dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat qəbul etdi, oktyabrın 18-də isə «Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul olundu.[134] Dağlıq Qarabağın erməni separatçıları da yaranmış vəziyyətdən istifadə edərək siyasi təşkilatlanmanı davam etdirirdilər. Onlar 1991-ci ilin sentyabrında «Dağlıq Qarabağ respublikası» adlanan oyuncaq qurumun yaradıldığını elan etmişdilər. Azərbaycan Respublikası həmin qurumu tanımaqdan imtina etmiş, noyabr ayının 26-da isə Dağlıq Qarabağ Muxtar Vilayətinin statusu ləğv olunmuşdu.

1991-ci ilin sonlarında SSRİ-nin dağılması ilə keçmiş sovet məkanında yeni geosiyasi şərait yarandı. Ermənistan, faktiki olaraq, Azərbaycana qarşı açıq və ədalətsiz müharibəyə başladı. Ermənistanın hərbi birləşmələri Azərbaycanın sərhədlərini pozub, Qarabağa daxil oldular və Dağlıq Qarabağın erməni separatçı-terrorçuları ilə birləşərək Azərbaycan torpaqlarının işğalına başladılar.

### 7.2. Azərbaycanın dövlət müstəqilliyi əleyhinə qəsd: Ermənistanın Azərbaycan Respublikasına qarşı elan edilməmiş müharibəsi. Qarabağın işğalı

1988-ci il fevral hadisələrindən sonra Dağlıq Qarabağ Muxtar Vilayətinin separatçı-terrorçu qruplaşmaları və Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağın ələ keçirilməsi uğrunda hərbi əməliyyatlara başladılar. **SSRİ Silahlı Qüvvələrinin Ermənistan və Dağlıq Qarabağ Muxtar Vilayətində yerləşən hissələri də onlara qoşuldular.** Aydındır ki, Moskvanın razılığı olmadan Rusiya hərbi qüvvələri bu addımı ata bilməzdilər! Bununla, 1917-ci ilin fevralında çar hökumətinin yıxılması nəticəsində meydana gələn tarixi şəraitə bənzər vəziyyət SSRİ-nin dağılmasından sonra, yenidən təkrar olundu. Sovet ordusu sıralarında qulluq edən erməni zabitləri və keçmiş sovet hərbi hissələri azərbaycanlılara qarşı birləşdilər və *vahid cəbhədə* hərbi əməliyyata başladılar (Azərbaycan xalqına qarşı

**tional responsibility to its citizens and brought a large troop contingent armed with the most modern techniques and weapons into Baku, and committed a bloody slaughter here on the night of January 19–20, 1990.**[133] Armenian soldiers and officers were widely used in the Baku bloodshed. However, **the bloodshed of January** 20 failed to break the will of the Azerbaijani people; on the contrary, it agitated the struggle for the independence and territorial integrity of the republic. **The next day after the tragedy of January 20, Heydar Aliyev came to the Azerbaijan Representation in Moscow, resolutely denounced the criminal actions of the soviet leadership, and ascended to the front of this just struggle by the Azerbaijani people.** On August 30, 1991 Azerbaijan SSR Supreme Soviet adopted a statement on the restoration of its state independence, and on October 18, the Constitutional Act on state independence was adopted.[134] Armenian separatists of Daghlig Garabagh also used the emerging situation and continued to become politically organized. In September 1991, they announced the establishment of a fictitious state named "Daghlig Garabagh Republic". The Azerbaijan Republic refused to recognize that unit, and on November 26, the status of the Daghlig Garabagh Autonomous Oblast was annulled.

In late 1991, the collapse of the USSR created a new *geopolitical condition in the post-soviet territories.* Armenia actually started an open and unjust war against Azerbaijan. Armenian military units violated Azerbaijan borders and penetrated into Garabagh joining armenian separatist-terrorists, began the occupation of Azerbaijan territories.

### 7.2. Act of betrayal upon the sovereignty of Azerbaijan: Non-declared war of Armenia against Azerbaijan Republic. Occupation of Garabagh

Following the February events of 1988, the separatist-terrorist groups of the Daghlig Garabagh Autonomous Oblast and Armenian armed forces began military operations for the capture of Daghlig Garabagh. **The units of the USSR Armed Forces in Armenia and Daghlig Garabagh Autonomous Oblast also joined them.** Clearly, Russian military forces could not take this step without the agreement of Moscow! Thus, a condition emerged similar to the one due to the collapse of the czar government in February 1917, and repeated once again. Armenian officers serving in the soviet army and former soviet military units united against Azerbaijanis and began military operations on a common front (As it was in the March genocide of 1918 against Azerbaijan people!). First began the occupation of Daghlig


ҺЕЈДӘР – ХАЛГ!
ХАЛГ – ҺЕЈДӘР!

1918-ci ilin Mart soyqırımında olduğu kimi!). Əvvəlcə Dağlıq Qarabağın azərbaycanlı yaşayış məskənlərinin işğalına başlandı.[135] 1992-ci il yanvarın 15-də Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular kəndləri işğal olundu, dinc və silahsız əhaliyə divan tutuldu, Xocalı və Şuşanın mühasirə məngənəsi daraldı. Tələm-tələsik formalaşdırılmış Azərbaycan könüllülərinin Daşaltı əməliyyatı uğursuz oldu. Erməni və sovet hərbi birləşmələri fevralın ortalarında Qaradağlı kəndini ələ keçirdilər.[136] **1992-ci il fevralın 25-dən 26-na keçən gecə *müasir tarixin ən faciəli hadisəsi baş verdi.* Erməni hərbi birləşmələri Xocalıda Rusiyanın 366-cı motoatıcı polkunun əsgərləri ilə birlikdə azərbaycanlılara qarşı dəhşətli soyqırımı törətdi.**[137] Bu, İkinci Dünya müharibəsində faşizmin törətdiyi dəhşətli qırğınlardan sonra müasir dövrdə erməni separatçı-terrorçuları ilə birlikdə Ermənistan hərbi qüvvələrinin insanlığa qarşı törətdiyi ən kütləvi və ən dəhşətli soyqırımıdır. Azərbaycanın ərazi bütövlüyünə və onun xalqına qarşı çevrilmiş bu müharibədə Azərbaycan rəhbərliyinin öz xalqının deyil, Moskvanın mövqeyini müdafiə etməsi onu nüfuzdan saldı. Xalq hərəkatının daha da güclәndiyi şəraitdə 1992-ci ilin martında respublikaya rəhbərlik edən A.Mütəllibov istefa verdi. Yaranmış hakimiyyət boşluğu Azərbaycan Respublikasının müdafiə qabiliyyətini daha da zəiflətdi. Bunun nəticəsində 1992-ci ilin mayında erməni və sovet hərbi birləşmələri Şuşanı da ələ keçirdilər. Bununla da faktiki olaraq, ermənilər bütün Dağlıq Qarabağın ərazisini işğal etdilər. Növbəti addım Laçın rayonunun işğalı oldu. Ermənilər Dağlıq Qarabağ Muxtar Vilayətinin bütün ərazisini, üstəlik Laçın rayonunu işğal etdikdən sonra da hərbi əməliyyatları dayandırmadılar. Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti (1992 may – 1993 iyun) dövründə davam edən yeni hakimiyyət çəkişmələri respublikanın müdafiəsinə ağır zərbə vurdu. 1993-cü ilin aprelində Kəlbəcər işğal olundu. İyun ayında Azərbaycanda dərin siyasi böhran baş verdi. Xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəldi. Ermənistan Azərbaycana qarşı müharibəni davam etdirərək 1993-cü ilin iyul– oktyabr ayları arasında Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal etdi *(Cədvəl 7.1; Xəritə 16)*. Ermənilər işğal etdikləri torpaqları «viran qoymaq» taktikasına əl atmışdılar. Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər əlil olmuşdu. Qaçqın və köçkünlərin sayı milyonu keçmişdi. Rəsmi məlumata görə, erməni işğalçıları tərəfindən 4.861 nəfər azərbaycanlı, o cümlədən 314 qadın, 58 uşaq və 255 qoca əsir və girov götürülmüşdü. Erməni faşistləri əsir və girovların həqiqi sayını beynəlxalq humanitar təşkilatlardan gizlədir, onlarla qeyri-insani, amansız rəftar edir, qul kimi işlədir, təhqir edir, alçaldırdılar.[138]

Garabagh's Azerbaijani settlements.[135] Karkijahan was invaded on January 15; Malibayly and Gushchular villages on February 10, 1992; the peaceful and unarmed people were ruthlessly tortured, and the siege press of Khojaly and Shusha narrowed. The Dashalti operation organized hurriedly out of Azerbaijani volunteers failed. Armenian and soviet military units captured Garabaghly village in mid February.[136] **The most tragic event of modern history took place on the night of February 25–26, 1992. Armenian military units committed a terrible genocide against Azerbaijanis in Khojaly, together with the soldiers of the 366th mounted infantry regiment.**[137] Other than the terrible bloodshed committed by fascism in the Second World War, this is the most massive and terrible genocide committed by the Armenian separatists-terrorists and Armenian military forces against humanity in modern time. The fact that the Azerbaijan leadership backed the position of Moscow, instead of its own nation in this war targeted against the territorial integrity of Azerbaijan and its people, discredited it. Due to the condition of an aggravated people's movement, on March 1992, A.Mutallibov heading the republic, resigned. The power gap that emerged weakened the protective ability of the Azerbaijan Republic even more. Consequently, on May 1992, Armenian and soviet military units captured Shusha as well. Thus, the Armenians actually invaded the entire territory of Daghlig Garabagh. The next step was the occupation of the Lachin region. Armenians did not stop military operations after the occupation of the entire territory of Daghlig Garabagh Autonomous Oblast and Lachin region. Making use of the aggravation of fights for power in Baku, the Armenians invaded Lachin as well. The new squables within the power during the rule of Azerbaijan Popular Front (May 1992 – June 1993) struck a heavy blow on the republic's defense. In April 1993, Kalbajar was invaded. In June, a deep political crisis occurred in Azerbaijan. Heydar Aliyev came to power by the demand of the people. Armenia continued the war against Azerbaijan and invaded Aghdam, Fuzuli, Jabrayil, Gubadly and Zangilan regions within July-October 1993 *(Table 7.1; Map 16)*. Armenians razed the land to the ground in the invaded territories. Twenty thousand Azerbaijanis became martyrs in the war; 100,000 were wounded, 50,000 men became invalid. The number of refugees and internally displaced persons exceeded one million. In accordance with official information, Armenian invaders took 4,861 Azerbaijanis, including 314 women, 58 children and 255 old men, as captives and hostages. Armenian fascists hide the true number of captives and hostages from international organizations, treat them in inhuman and ruthless ways, make them work as slaves, humiliate and offend them.[138]



*Cədvəl 7.1*

***Qarabağ müharibəsində ermənilərin işğal etdiyi Azərbaycan torpaqları, onun Azərbaycan və Ermənistan ərazisinə nisbəti***

| İşğal olunan ərazi | İşğal tarixi | İşğal olunan ərazilərin sahəsi | | |
|---|---|---|---|---|
| | | mütləq kv. km. | Azərbaycana nisbətən, %-lə | Ermənistana nisbətən,%-lə |
| Dağlıq Qarabağ | 1988–1992 | 4 400 | 5,08 | 14,77 |
| O cümlədən | | | | |
| Şuşa | 1992,8 may | 289 | 0,33 | 0,97 |
| Laçın | 1992, 18 may | 1835 | 2,12 | 6,16 |
| Kəlbəcər | 1993, 2 aprel | 1936 | 2,24 | 6,50 |
| Ağdam | 1993, 23 iyul | 1094 | 1,26 | 3,67 |
| Füzuli | 1993, 23 avqust | 1386 | 1,60 | 4,65 |
| Cəbrayıl | 1993, 23 avqust | 1050 | 1,21 | 3,52 |
| Qubadlı | 1993, 31 avqust | 802 | 0,93 | 2,69 |
| Zəngilan | 1993, 29 oktyabr | 707 | 0,81 | 2,37 |

*Table 7.1*

***Azerbaijan territories occupied by Armenians in the Garabagh war, their ratio of Azerbaijan and Armenian territories***

| Occupied territory | Date of occupation | Area of the occupied territories | | |
|---|---|---|---|---|
| | | absolute sq km | compared to Azerbaijan, in % | compared to Armenia, in % |
| Daghlig Garabagh | 1988–1992 | 4 400 | 5,08 | 14,77 |
| As well as | | | | |
| Shusha | May 8, 1992 | 289 | 0,33 | 0,97 |
| Lachin | May 18, 1992 | 1835 | 2,12 | 6,16 |
| Kalbajar | April 2, 1993 | 1936 | 2,24 | 6,50 |
| Aghdam | July 23, 1993 | 1094 | 1,26 | 3,67 |
| Fuzuli | August 23, 1993 | 1386 | 1,60 | 4,65 |
| Jabrayil | August 23, 1993 | 1050 | 1,21 | 3,52 |
| Gubadly | August 31, 1993 | 802 | 0,93 | 2,69 |
| Zangilan | October 29, 1993 | 707 | 0,81 | 2,37 |

Azərbaycana qarşı ədalətsiz müharibə aparıldığını, onun ərazi bütövlüyünün pozulduğunu və torpaqlarının ermənilər tərəfindən işğal olunduğunu Birləşmiş Millətlər Təşkilatı (BMT) təsdiq etdi. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərini tərk etməsi haqqında 4 qətnamə (822, 853, 874, 884 saylı)[139] qəbul etdi. Lakin erməni işğalçıları bu qətnamələri yerinə yetirmədilər ***(Sənəd 6)***.

Ermənistan işğalçılarına qarşı mübarizədə Azərbaycanın hərbi-iqtisadi və insan qüvvələrinin səfərbər edilməsinə böyük ehtiyac var idi. **Bu məqsədlə Heydər Əliyev noyabrın 2-də televiziya və radio ilə xalqa müraciət etdi, ciddi hərbi-təşkilati tədbirlər həyata keçirildi.** Bunun nəticəsində Azərbaycan xalqının işğalçılara qarşı ədalətli mübarizəsində dönüş yaratmaq mümkün oldu. Noyabrın ortalarında Ermənistan silahlı qüvvələrinin Beyləqan istiqamətində hücumu dayandırıldı. Azərbaycan ordusunun müvəffəqiyyətli əməliyyatları nəticəsində 1994-cü il yanvarın 5-də Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsi və 22 kənd düşməndən təmizləndi. Bunun ardınca Cəbrayıl rayonu ərazisinin bir hissəsi, Kəlbəcər rayonunda Bozlu, Təkəqaya, Babaşlar, Qanlıkənd, Çəpli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı yaşayış məntəqələri də düşməndən azad edildi. Düşmən Çiçəkli dağdan və b. strateji yüksəkliklərdən qovuldu, Kəlbəcər–Laçın yolunun tunelə qədərki hissəsi nəzarət altına alındı.[140] Azərbaycanın müharibədə dönüş yaratmaq, işğal olunmuş vətən torpaqlarını azad etmək sahəsində əldə etdiyi uğurlar,

The United Nations Organization (UN) confirmed that an unfair war is run against Azerbaijan, its territorial integrity has been violated, and its territories have been invaded by Armenians. United Nations Security Council adopted four resolutions (№ 822, 853, 874 and 884)[139] on the withdrawal of Armenian armed forces from the territories of the Republic of Azerbaijan. However, the Armenian invaders did not implement these resolutions ***(Document 6)***.

There was a great need for the mobilization of military-economic, as well as human forces of Azerbaijan in the struggle against the Armenian invaders. **With this purpose, Heydar Aliyev addressed the people by television and radio on November 2, serious military-organizational measures were taken.** Due to this, it was possible to create a turning point in the just struggle of the Azerbaijani people against the invaders. In mid November, the attack of Armenian armed forces against Beylagan was stopped. On January 5, 1994 the Horadiz town (of strategic importance) and 22 villages of the Fuzuli region were cleared away from the enemy. After that, a part of the Jabrayil region, Bozlu, Takagaya, Babashlar, Ganlikand, Chapli, Susuzlug, Gasimbinasi, Yanshagbiner, Yanshag, Baghirsag, Gamishly and Baghirly settlements of Kalbajar region were liberated as well. The enemy was driven out from Chichakly Mountain and other strategic hills, the part of Kalbajar–Lachin road up to the tunnel was taken under control.[140] The successes achieved by Azerbaijan in the field, by creating a turning point in the war and releasing the occupied native lands, seriously alarmed not only Armenia, but also

nəinki Ermənistanı, həmçinin onu müdafiə edən qüvvələri də ciddi təşvişə saldı. Ermənistanın himayəçilərinin, onun hərbi cəhətdən daha da möhkəmləndirilməsi, müasir silahlarla təmin olunması, bölgədə irticaçı qüvvəyə çevrilməsi siyasəti daha da gücləndirildi. Azərbaycan Respublikası belə bir şəraitdə 1994-cü il mayın 8-də Bişkek protokolunu imzaladı. Azərbaycanın düşmən üzərində hərbi uğurları sayəsində mayın 12-də cəbhədə atəşkəsə nail olundu.

Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsi dövründə Ermənistan Azərbaycan sərhədlərinin **360** km-lik sahəsində irəli soxularaq **20%**-dək Azərbaycan torpaqlarını işğal etmiş, Füzuli rayonundakı Horadiz qəsəbəsindən Zəngilanadək **198 km**-lik Azərbaycan–İran sərhədlərini nəzarət altına almışdı. Erməni işğalları nəticəsində Dağlıq Qarabağ ərazisində **50 minədək** azərbaycanlının yaşadığı **2** şəhər, **1** qəsəbə, **53** kənd tutuldu. Dağlıq Qarabağdan kənarda aparılan işğallarla birlikdə **890** şəhər, kənd və qəsəbə ermənilərin əlinə keçdi. Dağıdılmış obyektlər, zəbt olunmuş əkin və meşə sahələri aşağıdakı kimi olmuşdu: **yaşayış evləri–102000, ictimai binalar–7000; ümumtəhsil məktəbləri–693; səhiyyə obyektləri–695; avtomobil yolları–800 km., körpülər–160; su kəməri– 2300 km., elektrik xətti–15000 km., meşə sahəsi – 250000 ha., *əkin sahəsi–200000 ha., tarixi abidə və muzeylər– 464.*** İlkin hesablamalara görə, Azərbaycan Respublikasına ***60* mlrd. ABŞ dolları** həcmində zərər dəymişdir.[141] Bundan başqa, Azərbaycanın **civə, obsidian** və **perlit** ehtiyatlarının hamısı, ***tikinti*** və **üzlük** materiallarının **35–60 faizi, meşə fondunun 23,8 faizi, su ehtiyatlarının 7,8 faizi** və s. işğal olunmuş torpaqların payına düşür. Burada **2 qoruq** və **3 yasaqlıq, 3 iri su anbarı** da yerləşir.[142]

### 7.3. Qarabağda erməni separatçı-terrorçu işğal rejimi

Ermənilər Qarabağın işğal olunmasına Dağlıq Qarabağ Muxtar Vilayətində siyasi hakimiyyəti ələ keçirməklə başladılar. Bu məqsədlə onlar qanuni orqanların səlahiyyətlərini mənimsəmək üçün tədbirlər gördülər. Bununla onlar öz fəaliyyətlərinə üzdəniraq hüquqi don geyindirməyə çalışırdılar. Bu məqsədlə Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisi nümayəndələrinin qurultayı adlandırılan toplantı keçirdilər. Bu «qurultay» qeyri-qanuni idi. Onun qərarı da obyektiv ola bilməzdi. Çünki vilayətin azərbaycanlı əhalisinin nümayəndələri həmin «qurultaya» dəvət olunmamışdılar və orada iştirak etməmişdilər. 1989-cu il avqustun 16-da Milli Şura yaradılmışdı.[143] Bu şura Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycandan qoparılması işinə bilavasitə

the forces supporting it. The Armenian supporters' policy of strengthening the Republic of Armenia militarily, supplying it with modern weapons, and making it a reactionary force in the region was aggravated even more. In such a condition, the Azerbaijan Republic signed the Bishkek protocol on May 8, 1994. Successful military operations of Azerbaijani army over Armenian military forces caused a cease-fire in the front in May 12.

In the period of this invasion and war against the Republic of Azerbaijan, Armenia pushed into over ***360* km** areas from Azerbaijan borders, invaded **20%** of its territories, and took control of the **198-km** Azerbaijan-Iranian borders from Horadiz town in Fuzuli up to Zangilan. Armenians invaded ***2* cities, *1* town** and ***53* villages** populated by approximately **50,000** Azerbaijanis in the territory of Daghlig Garabagh. Together with the invasions inside Daghlig Garabagh Autonomous Oblast, Armenians captured ***890* cities, villages** and **towns**. The destroyed facilities, occupied planting and forest areas were as follows: **houses – 102,000, public buildings – 7000; secondary schools – 693; public health facilities – 695; motor roads – 800 km; bridges – 160; water pipeline – 2300 km; electric power lines – 15000 km; forests – 250000 ha; arable lands – 200000 ha; historical monuments and museums – 464.** In accordance with initial calculations, the Azerbaijan Republic suffered a loss approximating **60 billion US dollars.**[141] In addition, all of the **mercury**, **obsidian** and **volcanic glass** reserves of the Republic of Azerbaijan; **35-60 percent** of **construction** and **upholstery** materials; **23.8 percent** of **forests** and **7.8 percent** of **water** reserves etc. are in the invaded territories. **Two preserves** and **3 sanctuaries**, as well as **3 large water storage facilities** are also located in these regions.[142]

### 7.3. Armenian separatist-terrorist invasive regime in Garabagh

Armenians began the invasion of Garabagh by taking possession of political power in the Daghlig Garabagh Autonomous Oblast. With this purpose, they took measures aimed at the appropriation of the legal bodies' powers. Thus, they tried to put a so-called legal cover on their activities. For this purpose, they held a gathering called the "Congress of Daghlig Garabagh Autonomous Oblast population representatives." This "congress" was illegal. Its decision also could not be objective. Because, representatives of the oblast's Azerbaijani population were not invited to that "congress" and did not take part in it. A National Council was created on August 16, 1989.[143] This Council was directly heading the mission of breaking Daghlig Garabagh Autonomous Oblast off from the Republic of Azerbaijan and impeded the legal



rəhbərlik etdi, Təşkilat Komitəsinin fəaliyyətinə maneçilik törətdi. 1991-ci ilin sentyabrında isə oyuncaq **«Dağlıq Qarabağ respublikası»** yaradılması elan edildi. **Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin statusunu ləğv edərək burada ümumrespublika idarə üsuluna keçməsi həmin qurumun qeyri-qanuniliyini bir daha sübut edir.**

Bütün bu proseslər zamanı Ermənistanın mövqeyindəki **hiyləgərlik** də aydın nəzərə çarpır. O, bir tərəfdən Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edir, digər tərəfdən isə «Dağlıq Qarabağ respublikası» adlanan oyuncaq qurumun beynəlxalq aləmdə tanınmasına çalışır; «Dağlıq Qarabağ respublikası»nda hakimiyyət orqanlarına legitim xarakter vermək üçün «seçkilər» keçirilir və s.

**«Dağlıq Qarabağ respublikası» mahiyyət etibarı ilə separatçı-terrorçu işğal rejimidir.** Bu rejim, ona bənzər digər rejimlərdə olduğu kimi, Ermənistan və separatçı-terrorçu qüvvələri dəstəkləyən digər dövlətlərin köməyi ilə yaradılan və silahlandırılan hərbi qüvvələrə arxalanır. Bu rejim özünü «Dağlıq Qarabağ respublikası» adlandırdığı halda, faktiki olaraq tarixi Qarabağ torpaqlarının böyük bir hissəsini, yəni Dağlıq Qarabağa daxil olmayan Azərbaycan ərazilərini də işğal altında saxlayır. Təkcə bu fakt Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindən kənarda olan torpaqların hazırkı vəziyyətini kifayət qədər aydın şəkildə ifadə edir.

«Dağlıq Qarabağ respublikası» adlanan oyuncaq rejim yaradılarkən Azərbaycan torpaqları işğal olunmuş, işğal prosesində azərbaycanlılara qanlı divan tutulmuş, soyqırımları törədilmiş, yerli əhali zorla qaçqın və köçkünə çevrilmiş, beləliklə, bu torpaqlarda etnik təmizləmə aparılmışdır. **Bunun nəticəsində Azərbaycanın işğal olunmuş torpaqlarında ermənilərin monoetnik hakimiyyəti bərqərar edilmişdir.** Yeri gəlmişkən, vaxtı ilə ermənilər indiki Ermənistan ərazisində – keçmiş Qərbi Azərbaycan torpaqlarında da eyni siyasəti həyata keçirmişdilər.

Diyarın iqtisadi vəziyyəti də qanlı işğal rejiminin acınacaqlı nəticələrini əks etdirir. Dağlıq Qarabağın iqtisadi potensialına zərbə vurulmuş, hələ sovet hakimiyyəti dövründə meydana gəlmiş erməni mafioz qüvvələri arasında bölüşdürülmüş, Ermənistanın xammal bazasına çevrilmişdir. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədlərindən kənarda işğal olunmuş digər Azərbaycan rayonlarının iqtisadiyyatı daha ağır vəziyyətə düşmüşdür. Mövcud iqtisadi potensial, o cümlədən doğma yurd-yuvasını tərk etməyə məcbur olmuş əhalinin bütün əmlakı qarət edilmiş və tamamilə dağıdılmışdır. Kənd təsərrüfatına yararlı torpaqların becərilməməsi öz təsirini göstərmişdir. «Əkilib-becərilməyən torpaqlarda yabanı bitkilər zəngin olduğundan, vəhşi heyvanlar, ...ziyanverici həşəratlar həddən artıq

activity of the Organization Committee. In September 1991, the creation of the fictitious **"Daghlig Garabagh Republic"** was announced. **The annulment of the status of the Daghlig Garabagh Autonomous Oblast of Azerbaijan and the introduction of an all-republic governance style proves once again the illegality of that organization.**

During all of these processes, the slyness of Armenia's position is striking as well. On the one hand, it was adopting a decision on the annexation of the Daghlig Garabagh Autonomous Oblast to Armenia, on the other hand trying to make the international community admit the fictitious union named "Daghlig Garabagh Republic"; hold "elections" in order to give a legitimate character to the governmental bodies in the "Daghlig Garabagh Republic", etc.

**"Daghlig Garabagh Republic" is in essence a separatist-terrorist invasive regime.** This regime, like the other regimes similar to it, relies on military forces created with the help of Armenia, as well as other states supporting and supplying with arms separatist-terrorist forces. While this regime calls itself "Daghlig Garabagh Republic", it actually keeps a big part of historical Garabagh lands, that is, the territories not included in Daghlig Garabagh. This fact alone expresses quite clearly the current state of the lands aside the territory of Daghlig Garabagh Autonomous Oblast.

When the fictitious regime called "Daghlig Garabagh Republic" was created, Azerbaijan territories were invaded, Azerbaijanis suffered bloody slaughters and genocide. The local population was forcibly driven out of their native lands and became refugees and internally displaced persons; thus, ethnic cleansing, including deportation and killing was conducted in these lands. **As a result of this, the mono-ethnic power of the Armenians was established in the occupied territories of Azerbaijan.** Prior to this, Armenians had implemented the same policy in the current Armenian territory, that is the former Western Azerbaijan lands.

The region's economic state also reflects the miserable results of the bloody invasion regime. The economic potential of Daghlig Garabagh has suffered a heavy blow; it was distributed among the Armenian mafia forces going as far back as during the soviet power, and became a raw material base of Armenia. The economy of other occupied Azerbaijani adjacent regions of the Daghlig Garabagh Autonomous Oblast has fallen into a worse condition. The current economic potential and all forcibly displaced Azerbaijani people's property have been plundered and essentially destroyed. Non-cultivation of arable lands has shown its effect. "Wild animals, ... pests increase greatly, for there are a plenty of wild plants in the unplanted and uncultivated lands. They cause great damage to agriculture, spreading into the surrounding territories, as well as neighboring regions".[144]



Prezident İ.H.Əliyev Azərbaycanın istiqlaliyyəti uğrunda və Qarabağ müharibəsində həlak olmuş qəhrəmanların dəfn olunduğu Şəhidlər xiyabanını ziyarət edərkən.

President I.H.Aliyev visits Alley of Martyr where were burried the heroes killed for the independence of Azerbaijan and in Garabagh war.

çoxalır. Onlar ətraf ərazilərə, o cümlədən qonşu rayonlara yayılaraq təsərrüfatlara böyük ziyan vurur».[144]

İşğal altındakı torpaqlarda olan azərbaycanlılara məxsus tarixi abidələr *(Xəritə 15)* vəhşicəsinə talan edilmiş və dağıdılmışdır. Azərbaycan Albaniya dövlətinə aid xristian abidələri saxtalaşdırılaraq erməni-qriqorian abidələrinə çevrilir. Müasir erməni vandalizmi dünyanın gözü qarşısında öz işini görməkdədir...

Bir tərəfdən Qarabağda aparılan hərbi əməliyyatlar, digər tərəfdən mövcud işğal rejimi ekologiyaya da ağır zərbə vurmuşdur. «Ermənilər hazırda Şuşa mağarası, Şuşanın qala divarları, Şuşada görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsi, Füzulidə Şah Abbas karvansarası, Ağdam, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl və s. yaşayış məskənlərində olan mədəni-tarixi abidələri tamamilə dağıtmış, Qarabağ ərazisindəki qədim Alban kilsələrini silah anbarlarına çevirərək yararsız hala salmışlar. İşğal olunmuş ərazilərdə 43-ə qədər hidrometeoroloji müşahidə məntəqələri məhv edilmişdir ki, bütün bunlar YUNESKO və Ümumdünya Meteoroloji Təşkilatının prinsiplərinə ziddir».[145]

«Dağlıq Qarabağ respublikası»nın işğal olunmuş ərazilərdən narkotiklərin becərilməsi, istehsalı və tranziti kimi istifadə etməsi haqqında Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin məruzə və çıxışlarında ətraflı məlumat verilmişdir. Bu ərazilərdə beynəlxalq və erməni terror təşkilatlarının bazaları olması haqqında da faktlar mövcuddur.[146] Ermənilərə məxsus beynəlxalq şirkətlərin Dağlıq Qarabağın separatçı-terrorçu rejimini maliyyələşdirməsi faktı da aşkar olunmuşdur.

Qarabağın işğalından sonra Ermənistan hər cür şirnikləndirici vasitələrlə həmin torpaqları ermənilərlə məskunlaşdırmaqla yanaşı, daha hiyləgər yollara əl atmağa başladı. Kürd Fəhlə Partiyası (PKK) ilə aparılan danışıqlar nəticəsində İraqdan kürdlərin işğal olunmuş ərazilərə köçürülməsi üçün tədbirlər görülməyə başlandı.[147] 2003-cü ilin aprelində ABŞ və müttəfiq qüvvələrin İraqa qarşı müharibəsi ərəfəsi və dövründə orada yaşayan ermənilərin də Qarabağda yerləşdirilməsi ideyası ortaya atıldı. ABŞ Dövlət Departamenti buna ciddi etirazını bildirdi. Kürdlərin İraqdakı mövqeyindəki dəyişikliklər onların Qarabağa köçürülməsi barədə erməni – Kürd Fəhlə Partiyası sövdələşməsini pozdu. Bu, əslində, həmin torpaqların qanuni sahibi olan azərbaycanlıların tarixi hüquqlarının bir daha təsdiqi idi.

**Qarabağda separatçı-terrorçu erməni işğal rejimi getdikcə bütün dünyada da etiraz doğurmaqdadır.** Təsadüfi deyil ki, beynəlxalq aləmdə böyük qüvvə və təsir vasitələrinə malik olan ermənilər, bütün cəhdlərinə baxmayaraq, bu oyuncaq qurumun tanınması sahəsində heç bir irəliləyişə nail ola bilməmişlər. Əksinə, bir sıra nüfuzlu beynəlxalq təşkilatlar öz

Historical monuments *(Map 15)* belonging to Azerbaijanis in the occupied territories have been savagely plundered and destroyed. Christian monuments belonging to the Azerbaijan-Alban state are falsified and named Armenian-Grigorian monuments. Modern Armenian vandalism is doing its work in front of the world community's eyes.

The military operations conducted in Garabagh on the one hand, and the current invasion regime on the other, have struck a heavy blow against the ecology. Within these areas and beyond "presently Armenians have fully destroyed the Shusha Cave, Shusha Castle Walls, tomb of the famous Azerbaijan poet Mullah Panah Vagif, Shah Abbas caravansarai in Fuzuli, cultural-historical monuments in Kalbajar, Lachin, Gubadly, Zangilan and other settlements, turned the ancient Alban churches in Garabagh into weapon storages and destroyed them. About 43 hydro-meteorological observation points have been destroyed, which contradicts the principles of UNESCO and the Worldwide Meteorological Organization".[145]

The report of the Azerbaijan delegation to the European Council Parliamentary Assembly provided detailed information about the fact that the "Daghlig Garabagh Republic" uses the occupied territories for drug planting, production and transit. There are facts proving as well that international and Armenian terrorist organizations' bases are located in these territories.[146] The fact of financing the Daghlig Garabagh separatist-terrorist regime by international Armenian companies has been revealed as well.

After the invasion of Garabagh, Armenia was giving an incentive to settle the armenians in those lands and began to use methods that were even more cunning. Due to the negotiations conducted with the Kurdish Workers' Party, they began to take measures for moving Kurds from Irag to the invaded territories.[147] In April 2003, on the eve and during the US led war against Iraq the idea emerged of placing in Garabagh the Armenians living in Iraq. The United States State Department expressed a serious protest against this. The changes in the Kurds' position in Iraq broke the Armenian – Kurdish Workers' Party's agreement regarding the movement of Kurds to Garabagh. This in fact was one more confirmation of the historical rights of Azerbaijanis, the legal owners of those lands.

**The separatist-terrorist Armenian regime causes protests in the entire world as time goes on.** Not accidentally, the Armenians, having great force and ways of influence in the international world, have not achieved any progress in the field of the recognition of this fictitious state, despite all efforts. On the contrary, several authoritative international organizations have confirmed



sənədlərində Azərbaycan ərazisinin işğalı faktını və Ermənistanın işğalçı-təcavüzkar dövlət, oyuncaq «Dağlıq Qarabağ respublikası»nın isə separatçı-terrorçu rejim olmasını təsdiq etmişdir.

## 8. ERMƏNİSTAN – AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİNƏ DAİR: AZƏRBAYCAN RESPUBLİKASININ MÖVQEYİ

Rusiya imperiyasının Şimali Azərbaycan ərazisində erməni dövləti yaratmaq siyasətinin reallaşmasına XIX əsrin əvvəllərində başlanmışdır. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarının tarixi də həmin dövrdən başlanır. Bu siyasət Birinci Dünya müharibəsinin gedişində reallaşdırıldı. 1918-ci ildə Qərbi Azərbaycan torpaqlarında, Cənubi Qafqazda ilk dəfə olaraq, erməni dövləti yaradıldı. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Azərbaycanın mədəniyyət mərkəzlərindən olan İrəvan şəhərini 29 may 1918-ci il tarixli xüsusi qərarına əsasən **ermənilərin bir siyasi mərkəzi olması xatirinə** onlara güzəştə getdi ***(Sənəd 7)***. Bu, Cənubi Qafqazda sülh və əmin-amanlıq yaradılması məqsədi ilə atılmış xoşməramlı addım idi. Lakin buna baxmayaraq, ermənilər Azərbaycana qarşı ərazi iddialarını Azərbaycan Xalq Cümhuriyyəti dövründə və Sovet hakimiyyəti illərində bütün kəskinliyi ilə davam etdirdilər. Moskvadan hərtərəfli dəstək alan ermənilər bütün bu dövr ərzində yenicə yaradılmış Ermənistan dövlətinin ərazisini daim Azərbaycan torpaqları hesabına genişləndirdilər. Qərbi Azərbaycanın yerli və mütləq çoxluq təşkil edən əhalisi olan azərbaycanlıların soyqırımları və zorakı deportasiyalar yolu ilə öz ata-baba yurdlarından «təmizlənməsinə», bununla da, Ermənistanın monoetnik ölkəyə çevrilməsinə nail oldular. Sovet dövrünün (1920–1991-ci illər) son mərhələsində (1988–1991-ci illər) bu iddialar hərbi-siyasi və açıq təcavüzkarlıq xarakteri aldı. Bu dəfə ermənilər Cənubi Qafqazda (yenə də Azərbaycan ərazisində!) ikinci erməni dövləti yaratmaq yolunu tutdular. Sovet dövləti Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına və Dağlıq Qarabağ Muxtar Vilayəti ermənilərinin separatçı-terrorçuluq fəaliyyətinə birmənalı qiymət vermədi, erməni separatçıları və terrorçularının cinayət əməllərinin qarşısını almaq yolu tutmadı. Əksinə, bu məsələ üzrə ikili standarta əsaslanan, problemin mahiyyətinə və onun ədalətli həllinə zidd olan, onu həll etmək məqsədi güdməyən qərarlar qəbul edildi. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin 1988-ci il 24 mart, SSRİ Ali Soveti Rəyasət Heyətinin 20 iyul tarixli

in their documents the fact of the invasion of Azerbaijan territory, and called Armenia an invasive-aggressive state, and fictitious "Daghlig Garabagh Republic" separatist-terrorist regime.

## 8. ON SETTLEMENT OF THE ARMENIA-AZERBAIJAN, DAGHLIG GARABAGH CONFLICT: POSITION OF AZERBAIJAN REPUBLIC

The realization of the Russian Empire's policy of creating an Armenian state in the territory of Azerbaijan began in the beginning of the XIX century. The history of ungrounded territorial claims of Armenia against Azerbaijan begins as well from that time. This policy was implemented during the First World War. In 1918, the first Armenian state was created in Western Azerbaijan lands, in the South Caucasus. The Azerbaijan Peoples Republic conceded Iravan city, one of the cultural centers of Azerbaijan, to **the Armenians**, with the special order dated on May 29, 1918 for them **to have a political center *(Document 7)***. This was a friendly step taken for the creation of peace and welfare in the South Caucasus. However, despite this, the Armenians continued impudently their territorial claims against Azerbaijan during the rule of the Azerbaijan Peoples Republic and the years of Soviet power. Armenians, receiving all kind of support from Moscow during this period, were constantly expanding the territory of the Armenian state by annexing Azerbaijan lands. They achieved the "clearance" of Western Azerbaijan from Azerbaijanis, local and absolute majority of the population from their ancestral lands through genocide and forced deportations, and thus made Armenia a mono-ethnic country. In the last period (1988–1991) of the Soviet power (1920–1991), these claims acquired a military-political and an openly aggressive character. This time the Armenians took the path of creating a second Armenian state in the South Caucasus (again in Azerbaijan territory!). The soviet state did not provide a fair assessment of Armenia's territorial claims against Azerbaijan and the separatist-terrorist activity of Armenians of Daghlig Garabagh Autonomous Oblast, and they did not reveal the criminal actions of Armenia separatists and terrorists. On the contrary, the decisions that were based on double standards, contradicting the problem's essence and not providing a fair settlement, were adopted regarding this issue. The decisions of the Soviet Union Communist Party Central Committee and USSR Council of Ministers dated on March 24, 1988, of the USSR Supreme Soviet Presidium dated on July 20 etc were just such decisions.[148] Precisely because of this the



1



2



3

1. Cabbar Qaryağdı oğlunun başçılıq etdiyi muğam üçlüyü. 1905-ci il.
2. Şuşa musiqiçiləri Varşavada. 1912-ci il.
3. Muğam üçlüyü: Arif Babayev, Həbib Bayramov, Habil Əliyev.

1. Mugham trio headed by Jabbar Garyaghdy oghlu. 1905.
2. Shusha musicians in Warsaw. 1912.
3. Mugham trio: Arif Babayev, Habib Bayramov, Habil Aliyev



*YUNESKO-nun xoşməramlı səfiri xanım **Mehriban Əliyevanın** "Muğam-İrs" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" albomunun təqdimat mərasimində (2005-ci il 8 aprel) çıxışından:*

Beynəlxalq maliyyə təsisatları ilə çox sıx əlaqələrimiz və əməkdaşlığımız var. Xüsusilə də, Beynəlxalq Valyuta Fondu ilə. Bu təşkilatla biz əsas iqtisadi xəttimizi razılaşdırırıq. Bütün bu amillər ölkəyə milyardlarla dollar vəsait cəlb etməyə imkan verdi.



Son illər ərzində Azərbaycana qoyulmuş sərmayələrin miqdarı 17 milyard dollara bərabərdir. Bunun da 12 milyard dolları birbaşa xarici sərmayədir. Sərmayəçilər Azərbaycandakı ictimai-siyasi sabitliyə əmin olmasaydılar, hadisələrin gedişini əvvəlcədən proqnozlaşdıra bilməsəydilər, əlbəttə ki, onlar risk edib öz vəsaitlərini qoymazdılar. Biz bu siyasətimizi davam etdirməkdə tam qərarlıyıq. Növbəti üç il ərzində Azərbaycanın təkcə neft və qaz sənayesinə, təxminən, daha 10 milyard dollar sərmayə qoyulacaqdır.

Bu gün reallaşdırılan iri boru kəmərləri layihələri təkcə bizim ölkə, ərazilərindən kəmərlərin keçəcəyi digər ölkələr üçün yox, həm də bütün region üçün vacibdir. Bu layihələr regional təhlükəsizlik və sabitlik üçündür, regional əməkdaşlıq üçündür. Azərbaycan regional əməkdaşlıq sahəsində çox fəal ölkədir və bügünkü gündə bu əməkdaşlıq qənaətbəxşdir. Biz gələcəkdə də bu yöndə fəal rol oynamağa hazırıq.

Azərbaycanın Xəzər dənizindəki neft və qaz ehtiyatları ölkəmizə imkan verəcək ki, bunlardan düzgün istifadə edərək, iqtisadiyyatını hərtərəfli inkişaf etdirsin. Neft və qazın hasilatı və nəqli qarşımızdakı son məqsəd deyildir. Bu, yalnız iqtisadiyyatımızı hərtərəfli inkişaf etdirmək, müasir, sivilizasiyalı, iqtisadi cəhətdən güclü cəmiyyət qurmaq, siyasi islahatları gələcəkdə də həyata keçirmək və cəmiyyətin demokratikləşməsi yolunu davam etdirmək vasitəsidir. Əldə etdiyimiz nailiyyətlər və yaxın gələcəkdə həyata keçiriləcək layihələr, əlbəttə ki, ölkəmizin iqtisadiyyatını gücləndirməyə imkan verəcəkdir.

Azərbaycan lap yaxın gələcəkdə iqtisadi baxımdan çox güclü ölkə olacaqdır. 2005–2006-cı ildə artıq əsas neft və qaz kəmərləri işlək vəziyyətdə olacaq və layihədə iştirak edən bütün ölkələrə öz əhalisinin həyat səviyyəsini yaxşılaşdırmağa imkan verəcəkdir.

Amma əlbəttə ki, bütün bunlar ölkəmizin bugünkü həyatının yalnız bir hissəsidir. Ölkə inkişafdadır, həm iqtisadi, həm də sosial baxımdan inkişaf edir. Çoxsaylı sosial proqramlar həyata keçiririk. Bizim iqtisadi siyasətimiz bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır. Amma büdcəmizin strukturuna nəzər salsanız, görərsiniz ki, büdcənin çox böyük hissəsi sosial məsələlərə yönəldilmişdir. Məncə, bazar iqtisadiyyatı ilə sosial müdafiənin bu cür kombinasiyası da uğurun əsaslarını təşkil edən amillərdəndir.

Ölkəmiz siyasi islahatlar sahəsində də mühüm nailiyyətlər əldə etmişdir. Avropa Şurasının üzvü olduğumuz üç il müddət Azərbaycanın demokratiya yolu ilə irəliləməsində həlledici rol oynamışdır. Avropa Şurasının tövsiyələri ilə yeni-yeni qanunlar qəbul edilmişdir. Təşkilata üzv qəbul olunarkən ölkənin üzərinə götürdüyü öhdəliklər və onların yerinə yetirilməsi də bu sahədə yardımçı olmuşdur. Ona görə də mən istərdim ki, Avropa Şurasındakı bütün həmkarlara öz səmimi minnətdarlığımı bildirim. Konstruktiv əməkdaşlıq, məsləhətlər, tövsiyələr, bölüşdüyünüz təcrübə – bunların hamısı Azərbaycan cəmiyyətinin gələcək demokratikləşməsinə, Azərbaycanın Avropa ailəsinə tam üzv olmasına xidmət etmişdir.

Yerinə yetiriləcək vəzifələr çoxdur. Həyatımızın bir çox sahələri beynəlxalq standartlara cavab vermir. Bunun obyektiv və bəzi hallarda subyektiv səbəbləri var. Müharibədən, işğaldan əziyyət çəkmiş, vətəndaş müharibəsi və digər faciəvi hallarla üzləşmiş ölkə birdən-birə tam demokratik və tam azad ola bilməz. Amma bu yol bizim seçimimizdir, strateji seçimimizdir. Prezident seçkilərindən sonra gedən proseslər, hökumətimizin qəbul etdiyi qərarlar bizim yüksək qiymətləndirdiyimiz dəyərlərə sadiq olduğumuzu göstərir. Bizim azad, demokratik, plüralist cəmiyyət qurmaq əzmimizi göstərir.

İqtisadi artım və cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementləridir və biri digərsiz mümkün ola bilməz. İqtisadi cəhətdən güclü ola bilərsən, amma demokratiya yoxdursa, şəffaflıq yoxdursa, insan haqları qorunmursa, uğur qazana bilməzsən. Biz neft hasil edən bəzi ölkələrin təcrübəsini öyrənmişik və təəssüflə şahidi olmuşuq ki, onların heç də hamısında neft amili uğurla nəticələnmir. Bəzən neft amili firavanlıq gətirmək əvəzinə, mənfi hallarla müşayiət olunur. Ona görə də bütün bu mənfi təcrübəni görərkən biz qərarlıyıq ki, səhvə yol verməyək.

Eyni zamanda, ölkəmizin problemləri də çoxdur. Bizdə yoxsulluq var. Yoxsulluğa qarşı mübarizə aparırıq. Hazırda yoxsulluğun azaldılmasına dair Dünya Bankı ilə birlikdə proqram həyata keçiririk. Bizdə işsizlik var və iqtisadi və sosial-iqtisadi inkişaf proqramının əsas elementlərindən biri yüz minlərlə yeni iş yerləri açmaqdan ibarətdir və mən bunu rəsmi bəyan etmişəm.

Regionlara xüsusi diqqət yetiririk ki, yalnız paytaxt yox, əsas şəhərlər yox, bütün ölkə, Azərbaycanın bütün bölgələri hərtərəfli, dinamik inkişaf etsin. Ən ucqar kəndlər də iqtisadi inkişafı öz həyat tərzlərində hiss etməlidir. Yalnız bütün əhalimiz özünün daha yaxşı yaşadığını hiss etdiyi bir vaxtda, hökumətimiz vəzifəsini yerinə yetirmiş hesab edə bilər. Budur bizim məqsədimiz – vətəndaşlara eyni şərait yaratmaq. Qoy iqtisadi artımdan, neft sənayesinin inkişafından hamı bəhrələnsin. Hər bir Azərbaycan vətəndaşı eyni hüquqlardan istifadə etsin. Bu yöndə bizim çox gözəl nailiyyətlərimiz var. Ölkəmizin ən böyük nailiyyətlərindən biri də etnik və dini dözümlülükdür. Yalnız müstəqillik dövründə deyil, Sovet İttifaqı dönəmində də tolerantlıq Azərbaycana xas idi və bu siyasət indi də davam etdirilir. Azərbaycan çoxmillətli ölkədir. Bütün millətlər və bütün dinlərin nümayəndələri Azərbaycanı öz evi hesab edirlər.

Uzun müddət ölkəmizin üzləşdiyi əsas problem Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğal olunmasıdır. Bu işğal Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar separatçı irtica ilə başlamışdır. Bu siyasət Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin və onun inzibati sərhədlərindən kənarda yerləşən daha 7 rayonumuzun işğalı ilə nəticələndi. Azərbaycanın bu 7 rayonunda heç zaman ermənilər yaşamamışdır. Onlar tamamilə azərbaycanlılar məskunlaşan ərazilərdir. Ermənistanın bu işğalı yüz minlərlə adamın qaçqın və köçkün vəziyyətinə düşməsi ilə nəticələndi. Bu faktlar Assambleyaya yaxşı məlumdur. Nümayəndə heyətimizin üzvləri bu haqda dəfələrlə çıxışlar ediblər və bu faktlar Avropa Şurası Parlament Assambleyasının sənədlərində də öz əksini tapmışdır. Bugünkü

Ermənistanın ərazisindən 250 min azərbaycanlı qaçqın düşmüşdür. Azərbaycan ərazisində işğal olunmuş 7 rayonun 700 min sakini məcburi köçkün oldu. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan 50 min azərbaycanlı da məcburi köçkündür. Üstəlik, digər münaqişə zonalarından, başqa ölkə ərazilərindən də qaçqınlar Azərbaycanda sığınacaq tapmışlar. Azərbaycanın 8 milyonluq əhalisinin 1 milyonu qaçqın-köçkündür. Bu, dünyada əhalinin sayına nisbətdə qaçqın-köçkünlərin ən yüksək faizidir.

Bu vəziyyət 10 ildən artıqdır ki, davam edir. Bu ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşkəsin onuncu ili olacaqdır və 10 ilə qədərdir ki, aparılan danışıqlar nəticə vermir. Əlbəttə ki, biz bu vəziyyətlə barışa bilmərik. Azərbaycan heç zaman ərazisinin itirilməsi ilə razılaşmayacaqdır. Məsələnin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Azərbaycan dünyadakı bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və özünə də eyni münasibətlə yanaşmağı tələb edir. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən geri çəkilməlidir. Qaçqınlara-köçkünlərə doğma yurdlarına qayıtmaq imkanı verilməlidir. XXI əsrdə Avropa Şurasının üzvü olan bir ölkənin – Ermənistanın Avropa Şurasının üzvü olan digər ölkənin – Azərbaycanın ərazilərini işğal etməsinə yol verməməliyik.

Beynəlxalq ictimaiyyət bu vəziyyətlə razılaşmamalıdır. Əlbəttə, biz ümid edirik ki, beynəlxalq birliyin birgə səyi imkan verəcək ki, bu problem həll olunsun. Biz Avropa Şurasına minnətdarıq ki, bu mövzu ətrafında fikir mübadilələri başlayıbdır. Bildiyiniz kimi, hazırda Siyasi məsələlər komitəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məruzə üzərində işləyir. Ümid edirik ki, məruzə vəziyyəti olduğu kimi əks etdirəcək və ən vacibi isə, məsələyə siyasi qiymət verəcəkdir.

Ermənilərin münaqişə ilə bağlı öz iddiaları var. Sadəcə, onlara şərh verim ki, sizdə tam təsəvvür yaransın, yalnız bir tərəfin dediklərini eşitməyəsiniz. Onların iddiası belədir ki, Dağlıq Qarabağda yaşayan ermənilərin öz müqəddəratını təyin etmək hüquqları var. Öz müqəddəratını təyin etmək insanlara verilmiş çox mühüm hüquqdur. Biz hamımız buna hörmətlə yanaşırıq. Amma sizin diqqətinizi bir mühüm məsələyə yönəldim. Ermənilər artıq öz müqəddəratını təyin etmişlər, onların Ermənistan dövləti var. Bu o deməkdir ki, bir millət kimi ermənilər artıq bu hüquqdan istifadə etmişlər. Təsəvvür edin ki, onların yaşadığı hər bir yerdə öz müqəddəratını həll edəcəyi halda nə baş verər?! Bu nə deməkdir? Bu o deməkdirmi ki, milli azlıqların yaşadığı hər bir yerdə separatizm olmalıdır? Məgər bu o deməkdir ki, milli azlıq yaşadığı hər bir ərazidə öz müstəqil dövlətini qura bilər? Əlbəttə ki, yox!

Avropa ölkələri də daxil olmaqla, bir çox ölkələrdə milli azlıqlar yaşayırlar. Azərbaycanlılar da yaşadıqları bir sıra ölkələrdə milli azlıqdır. Gürcüstanda təxminən yarım milyon azərbaycanlı yaşayır. Rusiyada da, digər ölkələrdə də yaşayan çoxsaylı azərbaycanlılar var. Ermənilər də həmçinin. Gürcüstanda 200 min erməni yaşayır – Dağlıq Qarabağda yaşayan ermənilərin sayından 4 dəfə artıq. Bu o deməkdir ki, onlar hər yerdə öz müqəddəratını təyin etməlidirlər? Bu konkret halda öz müqəddəratını təyin etmək prinsipi işləmir. Ona görə də bu halda ərazi bütövlüyü ilə öz müqəddəratını təyin etmək prinsipləri arasında əkslik yoxdur. Başqa sözlə, biz gözləyirik ki, beynəlxalq ictimaiyyət bu münaqişənin həll olunmasında çox fəal rol oynayacaq, bu həll beynəlxalq hüquq normalarına əsaslanacaqdır.

Hörmətli xanımlar və cənablar! Qeyd etdiyim kimi, burada olmaq mənim üçün həm xoşdur, həm də şərəfdir. Məmnuniyyətlə çıxış edirəm. Dediyim kimi, Azərbaycan müstəqilliyini qazandıqdan sonra böyük nailiyyətlər əldə edibdir. Bu gün bizim strateji seçimimiz Avropaya, Avropa ailəsinə, strukturlarına inteqrasiyadır. Bu yolun davamı var. Biz bu siyasətimizə möhkəm sadiqik. Əlimizdən gələni edəcəyik ki, Azərbaycan Avropaya xas olan bütün standartlara, bütün ölçülərə cavab versin. Bütün Avropa strukturlarına xas olan standartlara uyğun gəlsin. Budur bizim siyasətimiz və uzun müddətdir onu həyata keçiririk. Bu gün Azərbaycanda baş verənlər bu siyasətin davamının nəticəsidir. Biz Avropa Şurasındakı fəal üzvlüyümüzü davam etdiririk.

Biz Avropa dəyərlərinə tam sadiqik, bu dəyərləri bölüşürük. Bizim nümayəndə heyəti Avropa Şurasında həmişə fəal olmuşdur. Bizim problemləri başa düşdüklərinə görə mən Avropa Şurası Parlament Assambleyasının üzvlərinə minnətdaram. Biz burada çoxlu dostlar qazanmışıq, şəxsən mən özüm bir çoxları ilə dost olmuşam. Mən onların hamısını salamlayıram. Avropa demokratik qrupunda işlədiyimiz həmkarları salamlayıram və Assambleyanın bütün üzvlərinə minnətdarlığımı bildirirəm. Sizə deyim ki, mən, həqiqətən Avropa Şurası Parlament Assambleyasının üzvü olduğum, sizinlə birgə işlədiyim vaxtlar üçün darıxıram. Bu gün mən başqa vəzifədəyəm, başqa öhdəliklərim var. Amma sizi əmin edirəm ki, son illər Azərbaycanda aparılan siyasət davam etdirilir və bu, ölkəmizə, regionumuza sülh və firavanlıq gətirəcəkdir. Diqqətinizə görə çox sağ olun.

**PİTER ŞİDER:** Cənab Prezident, olduqca gözəl çıxışınıza görə çox sağ olun. Assambleyaya və Avropa Şurasına ünvanladığınız nəzakətli sözlərinizə görə sağ olun. Dediyimiz kimi, bundan sonra suallar veriləcəkdir. Assambleyanın üzvləri Sizə sualla müraciət etmək istəyirlər və onlara xatırladıram ki, verilən suallar 30 saniyə çərçivəsini aşmamalıdır. Həmkarlardan xahiş edirəm ki, sual versinlər, sualları çıxışa çevirməsinlər. Əlavə suallar isə yalnız sonda və yalnız vaxtın imkan verəcəyi halda mümkündür. Buyurun.

**SUAL (İtaliya):** Əvvəlcə, Azərbaycan Prezidentinə minnətdarlığımı bildirir və ölkədə əldə olunan nailiyyətlərə görə təbrik edirəm. Sualım ölkənin iqtisadiyyatına, həqiqi mənada başgicəlləndirici nailiyyətlər əldə olunan sahəyə aiddir.

Cənab Prezident, Avropa Birliyinin ölkənizdə neft sənayesinin inkişafında və xarici ticarət əlaqələrində payı nə qədərdir?

**CAVAB:** Avropa Birliyi ilə ticarət əlaqələri, iqtisadi əlaqələr hər il artır. 2003-cü ilin göstəriciləri ilə 2002-ci ilin göstəricilərini müqayisə etsək, görərik ki, əlaqələrin həcmi 40 faiz artmışdır. Bu göstərir ki, Avropa bazarının



Azərbaycan üçün əhəmiyyəti böyükdür. Yeri gəlmişkən, deyim ki, bizim ən böyük ticarət tərəfdaşımız İtaliyadır. Bunun özü də bizim Avropaya doğru götürdüyümüz istiqamətin göstəricisidir. Bilirsinizmi, ölkəmizdəki infrastrukturun böyük bir hissəsi Azərbaycan SSRİ-nin tərkibində olarkən yaradılmışdır. Ona görə də istehsal olunmuş məhsullar üçün satış bazarı da qonşu ölkələrdir. Yeni istehsal qurğuları, yeni istehsal məhsulları beynəlxalq standartlara cavab verir. Amma belə məhsulların sayı çox deyil, istehsal olunan məhsulların çoxu keçmişdən qalma texnologiyalarla buraxılır. Ona görə də məhsullarımızın əsas istehlakçıları da keçmiş SSRİ respublikalarıdır. Amma indi başlanmış meyl müsbətdir və biz Avropa bazarına daxil olmağa səy göstəririk. Əminəm ki, ticarətin həcmi bu il də artacaqdır.

**SUAL (Fransa):** Cənab Prezident! Sizin çıxışınızdan həzz aldıq və Sizi görmək böyük şərəfdir. Siz ölkənizi demokratiya yolu ilə aparmaq əzmində olduğunuzu dediniz. Sualım belədir: Ötən prezident seçkilərində bəzi pozuntu halları qeydə alınmışdır. Bununla bağlı tədbir görmək fikriniz varmı? İyun ayında Azərbaycanın üzərinə götürdüyü öhdəliklərlə bağlı dinləmələr olacaqdır. Öhdəlikləri necə yerinə yetirirsiniz?

**CAVAB:** Prezident seçkilərindən sonrakı hadisələr cəmiyyətdə hələ də qarşıdurmanın baş verə biləcəyini göstərdi. Biz – hökumət və hakimiyyətdə olan partiya həmişə siyasi dialoq tərəfdarı, cəmiyyətdəki bütün siyasi qüvvələr arasında normal siyasi dialoq tərəfdarı olmuşuq. Biz problemlərimizin masa ətrafında həll edilməsinin tərəfdarıyıq. Təəssüf ki, müxalifətin bəzi üzvləri hələ seçkilərin rəsmi nəticələri elan olunmamışdan əvvəl, öz baxışlarını daş-kəsək və kəsici metal parçaları ilə ifadə etməyə üstünlük verdilər. Onlar polisə amansız hücum etdilər. Bu hadisə televiziya vasitəsilə yayımlanıb, bütün televiziya kanalları göstərdi. Bir epizod, xüsusilə ürəkağrıdandır: böyük yük maşını nümayişçilər tərəfindən polisin üstünə sürüldü. Əlbəttə ki, bütün digər ölkələrdəki kimi, Azərbaycan dövlətinin də özünü müdafiə etmək hüququ var və polisə qarşı belə rəhmsiz hücum heç bir ölkədə hörmətlə qarşılanmır. Ona görə də mən düşünürəm ki, Azərbaycandakı bütün siyasi qüvvələr qanun çərçivəsində hərəkət etməlidirlər. Demokratiya və qanun birlikdə olmalıdır. Mən bir çox hallarda – həm seçkidən əvvəl, həm də seçkidən sonra rəsmi çıxışlarımda Azərbaycandakı siyasi qüvvələri konstruktiv dialoqa çağırmışam. Təəssüf ki, hələ də cavab almamışam. Bununla belə, çalışacağıq Azərbaycanda elə şərait yaradaq ki, bütün siyasi mübahisələr masa ətrafında həll olunsun.

**SUAL (Rusiya):** Cənab Prezident, biz yoxsulluqla mübarizə proqramı barədə çox eşitmişik. Sizin seçkiqabağı proqramınızda da, çıxışınızda da bu barədə danışılmışdır. Mən bilən, bu proqramın gerçəkləşdirilməsi Azərbaycanda humanitar vəziyyətin yaxşılaşması ilə sıx bağlıdır. Hamıya məlumdur ki, Dağlıq Qarabağ üstündə münaqişə nəticəsində bir milyonadək adam qaçqın və məcburi köçkün olmuşdur. Mümkünsə, bu proqramın yaxın vaxtlarda həyata keçirilməsi barədə bir neçə kəlmə deyəsiniz.

**CAVAB:** Azərbaycanda yoxsulluqla mübarizə çox uğurla aparılır. Biz bu proqramın həyata keçirilməsində Dünya Bankı ilə fəal işləyirik. Ümidvarıq ki, proqram qarşıya qoyulmuş məqsədə, yəni yoxsulluq anlayışını tamamilə aradan qaldırmaq məqsədinə çatmağa imkan verəcəkdir. Zənnimcə, bunun üçün çox yaxşı perspektivlər var.

Siz cəmiyyətimizin ən yaralı yerinə - qaçqın-köçkünlər mövzusuna toxundunuz. Əlbəttə, onlara qayğı bizim üçün öncül əhəmiyyətli məsələdir. Hökumətimizin maliyyə ehtiyatları məhdud olsa da, o, qaçqın-köçkünlərin vaxtilə işğaldan azad edilmiş ərazilərdə yerləşdirilməsi proqramını həyata keçirir. Onlar üçün yeni, müasir evlər, xəstəxanalar, məktəblər tikilmiş, bütöv şəhərciklər salınmışdır. Mənim Sərəncamıma əsasən, hazırda ikinci proqram gerçəkləşdirilir. O, birinci mərhələdə təxminən 30 min adamı əhatə edəcəkdir. Onlar üçün də bütün lazımi şərait, infrastruktur yaradılacaqdır. Beləliklə, hökumətimiz Ermənistanın işğalı nəticəsində öz torpaqlarını, öz evlərini itirmiş adamların həyatını yüngülləşdirəcəkdir.

Əlbəttə, bu, məsələnin qəti həlli deyildir. Onun qəti həlli Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazisindən tamamilə çıxarılması və bu humanitar fəlakətə son qoyulması olacaqdır. Təsəvvür edin, bu insanların çoxu çadır düşərgələrində yaşayır, orada uşaqlar doğulur, onlar çadırlarda məktəblərə gedirlər, insanlar orada ailə qurur, dünyasını dəyişirlər. Bu, əsl humanitar fəlakətdir və artıq 10 ildən çoxdur davam edir. Bütün bunlar ancaq ona görə davam edir ki, Ermənistanın işğalçı qoşunları onlara məxsus olmayan ərazilərdə qalmaqdadır.

Mən bu suala bir qədər ətraflı cavab verəcəyəm. Ermənistanda artıq bunu anlamağa başladıqlarını müsbət fakt hesab edirəm. Bu yaxınlarda Bratislavada Ermənistanın xarici işlər naziri öz bəyanatında dedi ki, – bu, sonra Azərbaycan televiziyası ilə bir neçə dəfə səsləndirildi, – Ermənistanın ona məxsus olmayan əraziləri işğal etməsi faktı onun təcavüzkar olduğuna sübut deyildir. Zənnimcə, bu, mühüm etirafdır. Lakin, prinsipcə, normal cəmiyyətdə belədir ki, sənə məxsus olmayanı qaytarmalısan. Bu, nə qədər tez olsa, bir o qədər yaxşıdır.

**SUAL (İsveçrə):** Cənab Prezident! Dəfələrlə çıxışınızda demisiniz ki, problemləri danışıqlar masası ətrafında həll etməyin tərəfdarısınız. Sizcə, ölkənizlə Ermənistan arasında sülh planı işləyib hazırlamaq mümkün olacaqmı? Bu razılıq nə zaman əldə edilə bilər və onun istiqamətləri necə olacaq?

**CAVAB:** Biz məsələni sülh yolu ilə həll etmək əzmindəyik. Azərbaycan bunu bir neçə dəfə bəyan edib, amma belə məsələdə hər şey bir tərəfdən asılı olmur. Hər iki tərəf razılığa gəlməlidir. *Hesab edirik ki*, məsələni həll etmək üçün yaradılmış qurum, – bu, ATƏT-in Minsk qrupudur, onun da həmsədrləri ABŞ, Fransa və Rusiyadır, – münaqişənin aradan qaldırılmasında daha fəal rol oynayacaqdır. İki tərəf razılığa gələ bilməyəndə, vasitəçi təyin olunmuş üçüncü tərəf öz sözünü deməlidir. Bu da danışıqlarda vasitəçilik mandatı olan Minsk qrupudur. Təəssüf ki, bəzi hallarda olduğu kimi, müşahidəçilik yox, vasitəçilik etməlidir. Biz danışıqlar prosesinin davam etdirilməsinə sadiqik. Amma danışıqlar yalnız razılaşdırılmış mövzu ətrafında aparıla bilər. Danışıqların mövzusu yoxdursa, biz danışıqlar aparmaq görüntüsü yaratmaq fikrində deyilik. Azərbaycan görsə ki, danışıqlar prosesi lazımsızdır, onda yəqin ki, bu siyasətimizə yenidən baxmalı olacağıq.

**SUAL (İsveçrə):** Cənab Prezident! Buradakı açıq və cəsarətli çıxışınız münasibətilə Sizi təbrik edirəm. Konkret mövzular barədə danışdığınıza görə Sizə açıq sual verəcəyəm. İqtisadi artım, demokratik inkişaf və sosial ədalət arasında prioritet seçməyin vaxtı gələndə nə edəcəksiniz? Bu üç məqamı necə birləşdirəcəksiniz?

**CAVAB:** Çox sağ olun. Mən elə bilirəm ki, adını çəkdiyiniz üç elementin tətbiqi yalnız kompleks şəkildə baş verə bilər. Biri o biri olmadan mümkün deyildir. Əlbəttə, demokratiyasız güclü iqtisadiyyatlı ölkə olmaq mümkündür. Belə hallar məlumdur. Amma əksinə ola bilməz. Güclü iqtisadiyyatsız demokratik, sosial problemləri həll olunmuş ölkə mövcud deyildir. Adətən, kasıb ölkələrdə insanlar demokratik cəmiyyət qurmaq haqqında deyil, yoxsulluğa üstün gəlmək haqqında düşünürlər. Ona görə də bu məsələdə prioritetlər mümkün deyildir. Adını çəkdiyiniz bütün amillər bizim üçün vacibdir. Amma iqtisadi bünövrəsiz demokratik cəmiyyət qurmaq mümkün deyildir. Azərbaycan bundan – iqtisadi əsas qurmaqdan, sərmayələri cəlb etməkdən, iqtisadiyyatı hərtərəfli inkişaf etdirməkdən başlayıb və bu gün gətirdiyim rəqəmlər ölkənin necə inkişaf etməsindən xəbər verir. Həm də nəzərə alın ki, ölkədə hər səkkiz nəfərdən biri qaçqın-köçkündür və hökumət ona vəsait ayırır. Amma, eyni zamanda, sosial ədalət, demokratik inkişaf və iqtisadi inkişaf – bunlar bizim prioritetlərimizdir. Zənnimcə, həyata keçirdiyimiz siyasət bunu göstərir.

**SUAL (Bolqarıstan):** Cənab Prezident, Assambleyanın sabiq üzvü kimi Sizə xatırlatmaq artıqdır ki, buradakı üzvlərin hamısı Cənubi Qafqazda həll olunmamış çoxsaylı münaqişələrdən narahatdır. Beynəlxalq ictimaiyyət münaqişə tərəfləri arasında etimad mühiti yaratmaq üçün bir neçə dəfə cəhd etmişdir. Tərəflər arasında etimad olmalıdır. Sizin münasibətiniz necədir, Siz bu cəhdləri qəbul edirsinizmi?

**CAVAB:** Zənnimcə, qarşılıqlı etimad olmasa, ümumi razılığa gəlmək çətin olacaqdır. Biz sülh razılığının hər bir bəndi ilə indi razı olmaya bilərik. Razılığa gəlmək üçün müəyyən mərhələ keçməlidir. Ona görə də etimad qurmaq tədbirləri geniş anlayışdır. Etimad qurmaq dedikdə, biz münaqişənin addım-addım həll edilməsini nəzərdə tuturuq. Məsələyə bu cür yanaşmanın məntiqi var. Bu yanaşma hər iki tərəfə tədricən razılığa gəlmək imkanı verir. Məncə, etimadqurmanın ilk addımı kimi, Ermənistanın işğalçı qüvvələri Azərbaycanın işğal olunmuş, Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda yerləşən 7 rayonundan çıxarılarsa, bu, ümumi həllin bir hissəsi olar. Bu fikir müzakirə edilmişdir. Bu ideya Avropa Şurası parlamentində, digər müxtəlif dairələrdə müzakirədən keçib və etimadqurmanın yaxşı nümunəsi kimi ümumi həllə kömək edə bilər.

**SUAL (Türkiyə):** Cənab Prezident, hər şeydən əvvəl ana dilimizdə – türkcə Sizə "Xoş gəldiniz!" deyirəm. Tərcüməçi bunun nə demək olduğunu iştirakçılara deyər. Siz neft və qaz layihəsi haqqında danışdınız və həm də layihələrin regiondakı əhaliyə firavanlıq gətirəcəyini dediniz. Layihələrin uğurla həyata keçirilməsi ilə müasir şəraitdə qaldırılmış "daha geniş Avropa" təşəbbüsü arasında əlaqəni necə görürsünüz?

**CAVAB:** Əlbəttə, layihələrin həyata keçirilməsi bizim Avropa Birliyi ilə müxtəlif sahələrdə əlaqələrimizə təsir göstərəcəkdir. Əvvəla, bu, Azərbaycanda çox güclü iqtisadiyyat yaradılmasına hər halda kömək edəcəkdir. Yalnız neft amilinin bizə firavan yaşamaq imkanı verəcəyini düşünmək sadəlövhlük olardı. Yox, biz gərək yorulmadan işləyək, təbiətin verdiyi nadir imkandan istifadə edib güclü iqtisadiyyat yaradaq ki, gələcəkdə neftdən və neftin qiymətlərindən asılı olmayaq. Budur, bizim strateji məqsədimiz. Lakin güclü iqtisadiyyatın qurulması həm də ölkəmizin Avropa standartlarına yaxınlaşması deməkdir. Zənnimcə, bu, münasibətlərimizdə mühüm rol oynayacaqdır. İkincisi, bizim proqramımızla Azərbaycan 2006-cı ildən başlayaraq, Türkiyəyə təbii qaz nəql edəcəkdir. Bilirsiniz ki, Türkiyə Yunanıstanla qazpaylayıcı sistemlərini birləşdirmək barədə razılığa gəlibdir. Beləliklə, təbii qazımız Türkiyədən Yunanıstana, daha sonra Avropanın digər ölkələrinə daşınmalıdır. Bu, baş verərsə, – yeri gəlmişkən, bunun özü də bizim strategiyamızın gündəliyindədir, – onda Azərbaycan Avropa istehlakçılarının qaz təchizatçısı olacaqdır. Özü də bütün nəqliyyat xərclərinin və digər xərclərin nəzərə alınması şərti ilə etibarlı və səmərəli bir təchizatçı. Bu, yalnız ilk baxışdan görünən və bizim nəzərdə tutduğumuz amillərdir. Bundan sonra da digər cəhətlər yaranacaqdır. Bu, Azərbaycanda nəzərdə tutulan neft və qaz layihələrinin yalnız bir hissəsidir. Yeri gəlmişkən, sizə bu günün reallıqlarını əks etdirən bir rəqəm deyim. Azərbaycanda həyata keçirilən 4 neft və qaz layihəsi üzrə gündə 10 milyon dollar vəsait yatırılır. Hər gün 10 milyon! Bu onu göstərir ki, həmin kreditləri verən beynəlxalq maliyyə qurumları bizə inanırlar. Bu, bizə olan inamı artırır, gələcəkdə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə, digər banklarla, müxtəlif sektorlarla iş imkanlarımızı artırır. Əlbəttə, bu, baş verərsə, – əminəm ki, baş verəcək, – Avropa Birliyi ilə münasibətlərimiz başqa cür ölçüləcəkdir. Həm neft layihələri, həm nəqliyyat layihələri, qeyri-neft sahəsi, inteqrasiya ilə bağlı layihələr. Əsas enerji layihələrindən sonra digər layihələr də gələcəkdir.

**SUAL (Finlandiya):** Cənab Prezident! Azərbaycanda keçirilmiş prezident seçkiləri ilə bağlı məruzədə deyilib ki, bəzi seçki məntəqələrində çatışmazlıqlara yol verilmişdir. Bununla bağlı nə kimi qərarlar qəbul olunmuşdur?

**CAVAB:** Azərbaycanda ötənilki seçkilər ölkədəki real durumu əks etdirir. Əlbəttə, bəzi çatışmazlıqlar olmuşdu, bu da onunla bağlıdır ki, bizdəki qanunlar kamil deyildir. Açıq desək, bügünkü gündə biz Avropa Birliyi standartları səviyyəsində seçki keçirə bilmərik. Amma seçkilərin real şəraiti əks etdirməsi, seçicilərin etdiyi seçimi düzgün göstərməsi faktı şübhəsizdir. Azərbaycanda seçkilərdən əvvəl bir neçə sorğu aparılmışdı, eləcə də beynəlxalq təşkilatların keçirdiyi sorğular olmuşdu. Onlardan biri Amerika Birləşmiş Ştatlarının Respublikaçılar İnstitutunun hələ seçki kampaniyası başlamazdan əvvəl keçirdiyi sorğudur. Bu sorğu göstərdi ki, seçicilərin 65 faizdən çoxu mənə səs verəcək. Bizim keçirdiyimiz seçki kampaniyası mənim proqramımı və görəcəyim işləri daha qabarıq bəyan etmək imkanı verdi. Daha bir vacib amil də ondan ibarətdir ki, müxalifət öz arasında vahid namizəd seçə bilmədi və seçki kampaniyasında hakim partiyanın namizədi ilə deyil, öz aralarında mübarizə aparırdılar, bu da mənə əlavə səslər gətirdi. Başqa sözlə, Azərbaycan cəmiyyətində və Azərbaycandan kənarda şübhə yoxdur ki, seçkinin nəticələri real şəraiti əks etdirir. Eyni zamanda, çatışmazlıqlar qeydə alınan seçki məntəqələri ilə əlaqədar müvafiq tədbirlər görülmüşdür. Səhv etmirəmsə, 600 seçki məntəqəsinin nəticəsi ləğv olunmuşdur. Bu o deməkdir ki, bütün lazımi addımlar atılmışdır və əminəm ki, proses davam etdiriləcək, gələn seçkilər daha yaxşı keçiriləcəkdir. İndiki seçkilər də əvvəlki seçkilərlə müqayisədə daha yaxşı keçirilmişdir. Reallıqda belə olur.



Azərbaycan yeni müstəqil ölkədir. Hələ ki, bütün standartlara uyğun deyildir. Bu seçkilərdə Azərbaycanda minlərlə müşahidəçi var idi və proses davam edəcəkdir. Əminəm ki, gələcəkdə bu sahədə problemlərin sayı azalacaqdır.

**SUAL (Böyük Britaniya):** Cənab Prezident! Azərbaycanda siyasi məhbuslarla bağlı məruzəçi kimi Sizə minnətdarlığımı bildirirəm ki, dekabrda məni qəbul etdiniz və dünənki konstruktiv dialoqa görə sağ olun. Məhbusların azadlığa buraxılması ilə bağlı etdiyiniz qərara hörmətlə yanaşıram. Necə düşünürsünüz, sentyabra qədər Avropa Şurası ilə ölkəniz arasında bu məsələ ilə bağlı mövzunu qapadıb Sizin plüralist demokratiya qurmaq məqsədinizə çata biləcəyikmi?

**SUAL (Ermənistan):** Biz beynəlxalq əməkdaşlıq üzrə bir sıra sənədlərə qoşularkən Azərbaycan dəfələrlə Ermənistanın bütün regional və beynəlxalq layihələrdə iştirakının əleyhinə çıxmışdır. Azərbaycanda yeni seçilmiş Prezident kimi Sizə belə sualla müraciət etmək istərdim. Siz bu siyasəti davam etdirmək əzmindəsinizmi? Əgər belədirsə, hesab etmirsinizmi ki, regionda hansısa bir ölkənin layihələrdə iştirakının olmaması gərginliyin azaldılmasına xidmət etməyəcək və əməkdaşlıq imkanını qaçıracağıq?

**CAVAB:** İlk əvvəl cənab Brouzun sualına cavab vermək istəyirəm. Azərbaycan Avropa Şurasına üzvlüyə qəbul olunduğu zaman və daha sonrakı iştirakı dövründə üzərinə götürdüyü öhdəliklərə sadiqdir. Mən özüm bu səhifəni bağlamaq əzmindəyəm. Çünki bizim görəcəyimiz digər işlər var. Ölkəmizi inkişaf etdirməliyik. Gərək müasir, demokratik, azad cəmiyyət quraq və əlbəttə, keçmişin, tarixin qalıqları tarix kimi qalmalıdır. Biz bu mövqeyimizi dəfələrlə bildirmişik və əminəm ki, Azərbaycanın bütün siyasi spektri birləşib dağıdıcılıqla yox, yaradıcılıqla məşğul olarsa, biz məqsədlərimizə daha tez çatarıq. Keçmişin problemləri ondan ibarətdir ki, Azərbaycandakı bəzi qüvvələr hökumətə qarşı çıxmaqla, əslində, dövlətçiliyə qarşı çıxırdılar, müstəqilliyimizə qarşı fəaliyyət göstərirdilər. Elə cinayətlər törətmişlər ki, həmin cinayətlər bizim suverenliyimizə qarşı yönəlmişdi. Ağır cinayətlər törədilmişdi. Biz buna yol verməməliyik. Biz çoxlu problemləri olan ölkəyik. Torpaqlarımız işğal altındadır, qaçqınlarımız var. Bizim cəmiyyət birləşməlidir. Bütün azərbaycanlılar Azərbaycanın müstəqilliyinin daha da gücləndirilməsi ideyası ətrafında birləşməlidirlər. Hamımız Ermənistanla münaqişəyə son qoymaq, torpaqlarımızı azad etmək ideyası ətrafında birləşməliyik. Mən Prezident seçildikdən sonra, andiçmə mərasimindən sonrakı ilk çıxışımda dedim ki, bütün azərbaycanlıların prezidenti olacağam və mən bunu etməkdəyəm. Ona görə də keçmişin faciəvi tarixinə son qoymaq işimizi davam etdirəcəyik. Amma bunu tək etmək çətindir. Bütün siyasi qüvvələr bu prosesin fəal iştirakçıları olmalıdırlar. Elə bilirəm ki, məhbusları əfv etməklə bağlı atdığım addımlar mənim bu sahədə niyyətimi göstərir və bu yol davam edəcəkdir.

İkinci sualla bağlı həm cavab vermək, həm də aydınlaşdırmaq istəyirəm. Bu, çox vacib mövzudur. Yeri gəlmişkən, Assambleyanın üzvü olarkən bu haqda bir neçə dəfə danışmışam. Bir az da aydınlaşdırım. Bəzən yalançı görüntü yaratmağa çalışırlar ki, Ermənistan Azərbaycanla əməkdaşlıq etmək istəyir, Azərbaycan isə yox. Bu, doğrudur. Amma bunun səbəbləri var. Azərbaycanın ərazisi işğal olunub. Əlbəttə ki, biz torpaqlarımızı işğal etmiş ölkə ilə əməkdaşlıq edə bilmərik. Təsəvvür edin ki, ölkəniz işğal olunub və işğalçılar sizə təklif edirlər ki, gəlin əməkdaşlığa başlayaq. Bu, ciddi söhbət deyil, ona görə də Dağlıq Qarabağ münaqişəsi həll olunmayanadək Azərbaycan heç vaxt Ermənistanla əməkdaşlıq etməyəcəkdir. Ermənistan regionda əməkdaşlıq etmək istəyirsə, qoy eləsin. Bizim öz siyasətimiz var. Amma bugünkü günün faktı, reallığı ondan ibarətdir ki, Azərbaycansız heç bir regional əməkdaşlıq mümkün deyildir.

Həm də gəlin görək, Ermənistan bu işğaldan nə əldə edibdir, nə qazanıbdır? Gəlin bu sualı verək: Ermənilər daha yaxşı yaşamağa başlayıblar? Ermənistan iqtisadi və siyasi cəhətdən daha çox güclənib? Onların dünyadakı imici yaxşılaşıb? Qoy bu sualları onlar özlərinə versinlər və cavab tapsınlar. Digərlərinə məxsus olan əraziləri işğal altında saxlamaq ölkəyə müsbət imic gətirmir. Ona görə Ermənistanla regional əməkdaşlıq mümkün deyildir. Bir daha vurğulamaq istəyirəm ki, bu, bizim ölkəmizin rəsmi mövqeyidir. O vaxta qədər ki, işğalçılar Azərbaycan ərazisindən geri çəkilməyəcəklər.

**PİTER ŞİDER:** Cənab Prezident Əliyev, mən Assambleya adından Sizə minnətdarlığımı bildirmək istəyirəm. Avropa Şurası Parlament Assambleyasına gəldiyinizə görə, buradakı çıxışınıza görə, sualları cavablandırdığınıza görə çox sağ olun. Sizə ən xoş arzularımızı, ölkənizə ən xoş diləklərimizi bildiririk.

**İLHAM ƏLİYEV:** Siz də sağ olun.

Elə həmin gün Strasburqda Avropa Şurası Parlament Assambleyasının sədri Piter Şider tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verildi.

Cənab Piter Şider, eləcə də Avropa Şurasının digər rəhbərləri, deputatlar Azərbaycan Prezidentini səmimi, məzmunlu və cəsarətli çıxışına görə təbrik etdilər. Fikir mübadilələri zamanı Azərbaycanın Avropa ailəsinə daha sıx inteqrasiyası istiqamətində aparılan işlər bir daha təqdirəlayiq hesab olundu.

***BAKI. 29.04.2004. AzərTAc.***

## № 9.2

### PRESIDENT ILHAM ALIYEV SPOKE IN THE SITTING OF SPRING SESSION OF PACE

***On 29 April President of the Republic of Azerbaijan Ilham Aliyev made a speech in Strasbourg in spring session of the Parliamentary Assembly of the Council of Europe.***

PACE administration and deputies met President Ilham Aliyev with applauses in the session room.

Opening the session PACE chairman PETER SHIDER said:

- I am greeting President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev in our Assembly. We are also greeting minister of foreign affairs, officials accompanying President. It is very pleasant for us that you are participating in our Assembly. I would like to greet President of the Republic of Azerbaijan as a former member, former vice-chairman of our Assembly. However, Mr. President isn't just former but an active participant in our discussions and events. Mr. President, we are very glad to receive you here. On behalf of the Assembly I am stating my gratitude to you that you have arrived. I informed the deputies that President would be ready to answer to the questions upon completion of the session.

Mr. Aliyev, Mr. President panel is yours.

SPEECH OF AZERI PRESIDENT ILHAM ALIYEV

- Dear Mr. Chairman!

Ladies and Gentlemen, dear guests!

It is a big honor for me to be invited here and speak at the Council of Europe. It is a great even for me personally indeed. As Mr. Chairman mentioned I was a member of the Parliamentary Assembly of the Council of Europe within three years. This period of my life, perhaps, is the most interesting, important periods and played an important role in my future activity and of course in my current work.

Azerbaijan joined Council of Europe only three years ago. Up to then the country was experiencing many problems. Since we got independence in 1991 the situation in Azerbaijan had been very difficult. There was chaos - economical, political, military. Economical recession achieved huge sizes. Factually the country was on the way of total crisis: civil war, efforts of military state d'etats and of course aggression of Armenia towards Azerbaijan. These are the factors, which didn't allow the country to develop in normal standards, to develop economics in healthy environment.

Only when heavy heritage was overcome, after provision of the social-political stability and achievement of the fire-cease between Armenia and Azerbaijan, the country got its opportunity to develop in various fields. The growth in our economics has started. Nowadays from the standpoint of economic growth Azerbaijan is an intensively developing country. The growth of gross domestic product in the last seven years totaled to 90 %, level of inflation in the last 7 years didn't exceed 2-3 %. Azerbaijan takes leading position among the countries of the former USSR and Central Europe by the volume of the direct foreign investments per capita.

All these factors plus large-scale economic reforms, land reform, privatization oi the land and as a whole, privatization of the enterprises allowed the country to develop its economics on the basis of the principles of market economics. Nowadays, the share of the private sector in the gross domestic product totaled to 75 %. If we take into account that the oil sector is still a government monopoly, this is higher figure. It means that 75 % of the gross domestic product means that factually the whole trade and industry are privatized.

We see very good results of that. We see our country developing, growing economics, which allows realization of the giant international projects. Nowadays the largest energy project in the world is being realized in Azerbaijan. Azerbaijan has already developing oil and gas resources for 10 years along with the leading companies of the world.

This is very successful experience. In the meantime, there are a few key elements of this success. First of all, this is existence of good investment climate. Our investors feel themselves and their investments safe and confident that all funds invested are defended in the best way. All large investment projects in Azerbaijan have been ratified by our parliament and took a status of the law. Thus, nobody can change anything. Second is transparency. It is also one of the key elements of



success in the oil and gas field and as a whole, all producing fields of the industry. Azerbaijan has achieved considerable results in this meaning. We joined initiative of transparency n the producing industry since the beginning and intend to continue leadership in the region in this field.

We have very close ties and cooperation with international finance institutions. In particular, with International Monetary Fund. We are coordinating our main economic course with this organization. All these factors allowed us to attract billion of dollars as investments into the country.

The total sum of the investments in Azerbaijan in the last few years totaled to 17 billion dollars. 12 billion out of them are the direct foreign investments. If the investors weren't confident in the public-political stability in Azerbaijan, couldn't forecast the developments, of course, they wouldn't risk their capital. We intend to continue carrying out this policy. Nearly 10 billion dollars will be invested in Azerbaijani oil and gas industry in the coming 3 years.

The large pipeline projects realized nowadays are of great importance not only for our country but also other countries, the territories of which these pipelines will go through as well as the whole region. These projects are required for the region security and stability, for regional cooperation. Azerbaijan is actively performing country in the field of the regional cooperation and nowadays the level of the regional cooperation is satisfactory. We are ready to play active role in this direction in future.

Oil and gas resources of Azerbaijan in the Caspian region allow our country to use them effectively, achieve all-sided development of the economics. Production and transportation of the oil and gas isn't a final goal for us. This is only the mean for the all-sided development of our economics, construction of the civilized, economically strong society, realization of the political reforms in future and continuation of moving on the way of democracy of the society. The successes we achieved, the projects that will be realized in near future, of course, allow strengthening of economics of our country.

In near future Azerbaijan has turned into economically strong state. In 2005-2006 the main oil and gas pipelines will be functioning, which will allow all countries participating in the project to improve level of life of the whole population.

However, this all is a part of current life of our country. It is developing both from the economical and social standpoint. We are realizing numerous social programs. Our economic policy is based on the principles of market economics. However, if you pay more attention to the structure of our budget, you will see that the major part of the budget is aimed to the social issues. I think that such combination of the market economics and social defense is also one of the factors in the basis of the success.

Our country has achieved important successes in the field of political reforms as well. Three-year period of our membership in the Council of Europe played decisive role in movement of Azerbaijan on the way of democracy. By recommendation of the Council of Europe new laws were adopted. The obligations undertaken by the country when joining the organization and their implementation also played an important role. That is why I would like to thank sincerely the whole staff of the Council of Europe. Constructive cooperation, suggestions, recommendations, your experience - all this lead to the further democratization of Azeri community, joining of Azerbaijan into European family.

We should do a lot. A lot of spheres of our life do not meet international standards. There are objective and sometimes, subjective reasons. The country that suffered a lot from the war, occupation, which passed through the civil war and other tragedies can't become fully democratic and free. However, this way is our selection, our strategic selection. The processes taking place after presidential elections approved by our government confirm on our devotion to the extremely important values for us. Democratic, pluralistic society confirm our decisiveness.

Economic growth and democratization of the society are the key elements of our politics that can't be apart from each other. It might be economically strong but unless there is democracy, transparency, human rights are defended, the success won't be achieved. We have studied experience of number of the oil producing countries and unfortunately it might be said that oil factor in many countries do not lead to the success. In some cases oil factor doesn't bring welfare but even accompanies with negative factors. That is why, seeing the whole situation, we are trying not to make any mistakes.

At the same time we have a lot of problems. For example, poverty. We are fighting against the poverty. At present, we are realizing the program on reduction of the poverty along with the World Bank. We have unemployment. That is why one of the key elements of the program of economical and social-economical development is in the opening of thousands of new vacations that I was stating officially.

We draw special attention to the regions that the all-sided, dynamical development took place not only in the capital, main cities but the whole country, all regions of Azerbaijan. Economical development should be felt even by the farthest villages. Only when the whole population feels that it lives better, our government might consider the task as implemented. Our goal is in establishment of the equal terms for the citizens. Let everybody feel the benefit of the economical growth, development of the oil industry. Let all citizens of Azerbaijan use the equal rights. We have achieved wonderful results in

this direction. One of the biggest achievements of our country is ethnical and religious patience. Tolerantly was very likely to Azerbaijan in the Soviet period, not only in the period of independence and this policy is continued nowadays. Azerbaijan is a multi-national country. All nations and representatives of religions consider Azerbaijan as their home.

The key problem our country has been experiencing for many years is connected with occupation of 20% of Azeri territory by Armenia. This occupation had started with the campaign of false that Armenian aggressive separatism was using with regard to Azerbaijan. Such a policy lead to occupation of the former Nagorno-Karabakh Autonomous Oblast of Azerbaijan and 7 administrative regions bounding it. The Armenian have never lived in those 7 regions. Only Azeri population was living there. Armenian occupation lead that hundred thousands of people had become refugees and IDPs. These facts are well known in the Assembly. Members of our delegation were speaking about it many times, these facts were represented in the documents of the Parliamentary Assembly of the Council of Europe. 250 thousand Azeris were deprived of the territory that belongs to Armenia at present. 700 thousand citizens of 7 occupied regions in the territory of Azerbaijan had become IDPs living in the former Nagorno-Karabakh Autonomous Oblast. 1 million out of 8 million population in Azerbaijan is refugee and IDPs. This is the highest level of the refugees and IDPs in comparison with the rate of the population.

Such a situation has continued for over 10 years. This will be ten years since the day of fire-cease between Armenia and Azerbaijan in May and negotiations conducted for over 10 years hadn't brought any result. Of course, we can't stand such a situation. Azerbaijan will never agree with the loss of its territory. The norms of international law should be used in the solution of the issue. Azerbaijan has respectful approach to the territorial integrity of all countries and requires the same from others. Our territorial integrity must be restored. Armenian occupation forces must be withdrawn from the occupied territories. Refugees and IDPs need to return to their native lands. We shouldn't let in XXI century any member of the Council of Europe - Armenia occupy the territories of another member of the Council of Europe - Azerbaijan.

International community shouldn't agree with the situation. Of course, we are hopeful that joint efforts of the international community will further to the solution of this problem. We are thankful to the Council of Europe for starting of the exchange of the views around this topic. As you are aware, at present Committee on the political issues works over the report connected with the Armenian-Azeri, Nagorno-Karabakh conflict. We are hopeful that the report will reflect the situation how it is and the main thing is that will give political estimation to the issue.

The Armenian have their claims connected with the conflict. I would like to comment them in order to have the whole picture not only from one party. Their claim is that the Armenian living in Nagorno-Karabakh have right to self-definition. Self-definition right is very important right for all people. We all respect it. However, I would like to draw your attention on another important issue. The Armenian have already determined themselves, they have their own state. It means that the Armenian as a nation have already used this right. Just imagine what can happen if they will be self-determining everywhere where they live?! What does it mean? Does it mean that everywhere the national minorities live in should be a basis for the separatism? Does it mean that the national minorities might create their independent states on their territories where they live? Of course, not!

